Məlum olduğu kimi, elmi-fəlsəfi idrakda baş verən yeniliklərin elmi-texnoloji və həyatın digər praktik sahələri ilə yanaşı, mədəniyyətə də transformasiyası bu sahələrdə yeni paradiqmaların yaranmasına səbəb olub, düşüncə sistemləri üçün epistemoloji müstəvini genişləndirir. Elmi idrakın məhsulu olan, postqeyri-klassik idrak mərhələsində xüsusi rola malik qeyri-səlis çoxluqlar (QSÇ) nəzəriyyəsi, həmçinin bu nəzəriyyə əsasında yaranan qeyri-səlis məntiq (QSM) nəzəriyyəsi qeyri-müəyyənlik şəraitində qərarvermədə insan təfəkkürünə daha yaxın, daha adekvat elmi aparat olmaqla, elmi-nəzəri, texnoloji və ümumiyyətlə, həyatın müxtəlif sahələrində geniş tətbiq imkanlarına malikdir. Hadisə və predmetlərə tədqiqat obyekti olaraq çoxqiymətli məntiqi yanaşma, onların qeyri-səlis təfəkkür modeli vasitəsilə təhlili, ümumiyyətlə, qeyri-səlis münasibətlərin epistemoloji xarakteristikası elmi-nəzəri və texnoloji sahələrlə yanaşı, mədəniyyət sahəsinə transformasiyası da əhəmiyyətli koqnitiv nəticələr əldə etməyə imkan verir. Bu tədqiqat işində postqeyri-klassik idrak konsepsiyasının yaranması və inkişafında mühüm rola malik qeyri-səlis məntiq nəzəriyyəsi və postmodern epistemologiya arasında korrelyasiyanın əsaslandırılması, həmçinin postmodern düşüncənin çoxqiymətli məntiq konteksində qnoseoloji təhlili aparılaraq bəzi epistemoloji nəticələrin əldə olunması hədəf götürülmüşdür.

***Postmodernizm***

İlkin təşəkkül dövrü XX əsrin ortalarına təsadüf edən postmodernizm – fəlsəfədə və mədəniyyətin müxtəlif sahələrində bir istiqamət olaraq modernizmdən sonra anlamını verdiyi üçün bir çox elmi ədəbiyyatda onu modernizmə tamamilə zidd bir dünyagörüş olaraq deyil, məhz onun davamı – onu əvəz edən bir istiqamət olaraq dəyərləndirirlər. Bu konteksdə modernizmin özünə qısaca nəzər salmaq postmodernizmə keçid üçün bir vasitə ola bilər deyə, bu anlayışdan başlayaq. Bu yanaşma həm də modernizm və postmodernizm arasında mühüm fərqləri görməyə də imkan yaradacaq. Məlumdur ki, *modernizm* incəsənətin müxtəlif sahələrində, ədəbiyyatda, fəlsəfədə müasir cərəyan olaraq ənənəvi ideyaların, formaların, janrların, ümumiyyətlə, bu sahələrdəki çagdaş dövrə xas mövcud təsəvvürlərin əsasən inkarı və reallığın yeni təsvirlərini verməyin tərəfdarı olan - *Yeni dövrün* yaranması kimi xarakterizə olunan bir dünyagörüşdür (1). Təbii ki, bu mərhələdə əvvəlkilərin tamamilə inkarı deyil, həm də modern düşüncəyə bazis rolu oynayan köhnə üzərində yeni olanın formalaşması da başa düşülməlidir. Hegelin təbirincə, yeni olan düşüncə tərzi köhnəni tamamilə inkar etmir, onu yeni tərəfindən qaldırmağa xidmət edir. Yəni elmi inkar köhnəni büsbütün məhv etmir, yeni ilə varislik əlaqəsini qoruyub saxlayır (9). Təxminən XVII əsrin ortalarından dünya dərkində elm və idrakın önə çıxarılması konsepsiyasından ibarət - Bekonun, Dekartın, Spinozanın əsasını qoyduğu *rasionalizmdən* başlayan modernizmin əsas xüsusiyyətləri əsasən bunlar idi: idrak və elmə inam, varlığın qanunlarla tənzimlənməsi və dərkedilən olması, elmi biliyin sosial problemlərin həlli və insan həyatının yaxşılaşdırılması üçün əsas vasitə olması, elm və fəlsəfənin irrasionalizmdən azad olunması, idrakda  və sosial həyatın müxtəlif sahələrində proqressiv inkişafın təsdiqi, azadlıq, bərabərlik, ədalət və humanizmin təntənəsinə səbəb ola biləcək universal əxlaq və hüquq normalarının elan edilməsi. Beləliklə, əsasən formalaşması *qeyri-klassik idrak mərhələsinin* məhsulu olan modernizm rasionalizmə, insanlığın proqressiv hərəkətinə - xətti inkişaf tarixinə inamı özündə etiva edən bir cərəyan olaraq təşəkkül tapır (1;7) .

Lakin proqressiv hərəkətə inamın sarsılması Birinci Dünya müharibəsindən başlayaraq, İkinci Dünya müharibəsindən – az qala bəşəriyyətin məhvinə səbəb ola biləcək faşizm ideologiyasından sonra daha geniş vüsət almağa başladı. Tədqiqatçıların qənaətinə görə, postmodernizm məhz bu kimi hadisələrə reaksiya olaraq yaranmağa başladı. İnsan şüurundan kənar *obyektiv reallıq, həqiqət, gözəllik, idrakın dominantlığı, proqressiv inkişaf, universal normalar* və s. kimi klassik anlayışlar ya tamamilə, ya da onların mütləqliyi fiksiyaya uğradı (7;14). Postmodernist filosof sayılan Liotar

postmodernizmi *“böyük proyektlərin krizisi”* adlandırır. Böyük proyektlər epoxası cəmiyyəti, sosial qrupları hər hansı bir ideologiya ilə yükləyib, bu ideologiyaların dominantlığı sayəsində insanlardan ümumi, ideal bir cəmiyyət düzəltmək, insanlığı düzəldiyi bu ümumi obraz şəklində “yaxşılaşdırmaq” cəhdləri ilə xarakterizə olunur. Bütün bunların da əsasında rasionalizmin, maarifçilik ənənələrinin və digər humanist meyillərin dayandığını iddia edən postmodernist düşüncə rasionalizmi, maarifçilik ideallarını inkar edir və məhz bu kimi ənənələrin yaratdığı konsepsiyaların diktaturaya, totalitarizmə, faşizmə səbəb olduğunu vurğulayırdı (1;2;7).

Postmodernizm dünyanın olduğu kimi qəbul edilməsini, bir növ, onun daxili struktura malik bütöv kimi deyil, müxtəlif fraqmentlərdən ibarət çoxluq – *xaos* olaraq sinkretik şəkildə təsvirinin tərəfdarı olaraq çıxış edir. Delöz bu xaosu *xaosmos* adlandırmaqla, onu nizamsızlığın başlanğıc – hələ hazır vəziyyətə gətirilməmiş imkanlar vəziyyəti kimi xarakterizə edir. Xaosmosda bütün hadisə və proseslər eynihüquqlu olub, bərabər imkanlara malikdir (3;7).

Postmodernizmdə maddi dünyanın əsasını təşkil edən varlıq kateqoriyası olan dil xüsusilə dilin qrafik işarələrini təşkil edən mətnlə əvəz olunur. Bu fəlsəfi istiqamətin əsas konsepsiyalarından biri budur: *Dünya mətndir – insan dünyanı yalnız nəql şəklində anlaya bilər.* Bu dünyagörüşə görə, predmetlər dünyası xəyali, qeyri-həqiqi dünyadır, əsl dünya işarə-mətn olaraq mövcuddur (1;7). Dünyaya, dünyada olan hər şeyə, həmçinin insana semiotik sistem olaraq baxılır. Bu düşüncə hesab edir ki, hər bir işarə, hər bir mətn sonsuz sayda mənalar kəsb etdiyindən onu konkret bir məna verilmiş predmetlə - *denotatla* bağlamaq olmaz. İşarələr müəyyən semantik mənalarla xarakterizə olunduğundan idrak subyekti ilə əlaqəlidir. Buradan belə bir qənaət əldə olunur ki, hər bir subyektin mətn barəsində fikirləri müxtəlif interpretasiyalara, mənalara səbəb ola bilər. Bu kontekstdə *mənalar qeyri-dəqiq, natamam, ziddiyyətli, qeyri-səlis və s. kimi qeyri-müəyyənlik xüsusiyyətlərini özündə etiva etmiş olur.* Bu mənalanma zamanı, bir növ, *“müəllifin ölümü”* (R.Bart) baş verir. Deridaya görə, tekstdən kənarda heç nə mövcud deyil, tarix, mədəniyyət, insan və ümumiyyətlə, bütün mövcudluq tekstual təbiətə malikdir (4). Filosofun *dekonstruktiv* konsepsiyasına əsasən istənilən mətni bir mənadan təmizləyib, ona yeni məna (*dekostruksiya*) vermək olar. Konteksə uyğunluğunu nəzərə alıb, alman ekzistensializminin banilərindən hesab olunan Haydeggerin fəlsəfi refleksiyaları da maraq doğurur. Filosofa görə, mühüm olan - varlığın varlığıdır və o, insan üçün hələ də sirli olaraq qalır. O, hesab edir ki, “varlığın evi” dildir və insan özünü nitq vasitəsilə ifadə edir. Varlığın bütün sirri isə dildə gizlənib və bir çox suallara incəsənət, xüsusilə də poeziya vasitətilə cavab vermək olar (1;2). Dilin özünü öncə poeziya vasitəsilə ifadə etdiyini iddia edən filosof (o həm də şair idi) “şairlər poetik düşünən filosoflardır” söyləyir. *“Dünyanın mətn olaraq nəql şəklində anlaşılan olması” postmodern konsepsiya ilə Haydeggerin varlığa münasibətdə dil və nitqə verdiyi üstünlük, hesab edirik, eyni məzmun kəsb edən refleksiyalardır.*

Bu qənaətə gəlmək olur ki, posmodern düşüncəyə görə, mətn - yeganə reallıq olaraq mövcuddursa, idrak subyekti və obyekti arasında heç bir problem qalmır, yəni bu kateqoriyalara qnoseoloji yanaşmalar aradan qalxır. Postmodern yanaşmaya görə, şüurda təsvir olunan heç bir şey obyektiv reallıq ola bilməz, çünki əsl dünya, dünyada olan hər bir predmet və hadisə mətn olaraq mövcuddur. Hər bir mətn isə *çoxmənalılıq* xüsusiyyətinə malik olub, digər mətnlərlə əlaqəli (hətta bu əlaqə sonsuz davam edə bilər) – *intertekstual* olub, o mətnlərlə müxtəlif səviyyəli *korrelyasiyaya* malikdir.

Bodriyar postmodernizm dövrünü *“hiperreallıq epoxası”* adlandırır. *Hiperreallıq* isə əsl reallığın dəyişdirilib, onu təsvir edilən şəklinin reallığı kimi xarakterizə edən konsepsiyadır. Bu konsepsiyada *simulyasiya* (reallığı bilərəkdən başqa cür təqdim etmək cəhdi) və *simulyakr* (orijinalsız, çox zaman gerçək olmayan bir şeyin təsviri) əsas anlayışlardır. Bu anlayışlar vasitəsilə filosof *həqiqətin, reallığın şərtiliyinə, nisbiliyinə cavab axtarır: həqiqidən daha həqiqi, realdan daha real olan varmı?* Qarşıya qoyduğu bu sualı isə həmin anlayışlar vasitəsilə cavablandırmağa çalışır; reallıq yaradır, hipereallığı simulyasiya edir (1;6). Filosof mövcud vəziyyətdə yalnız simuyasiyaya uğramış reallıqla, təhrif olunmuş həqiqət ideyası ilə yaşamağın mümkün olduğunu vurğulayır. O, hesab edir ki, *simulyasiya və həqiqət arasında dəqiq sərhəddi* müəyyən etmək mümkün deyil.

Şübhəsiz, elm bilik əldəetmənin kəsilməz sistemi olaraq daim dəyişmələrlə xarakterizə olunur. Q.Başlyar (*“Təqribi biliyin tədqiqi”* əsəri – 1927-ci il) qeyd edir ki, elmi bilik yaxınlaşmadır –

dövrlərlə düzəlişlərə və yenidən baxışlara məruz qalır. Doğurdan da, elmi-fəlsəfi idrakda baş verən dəyişikliklər – idrakda baş verən yeni mərhələlərin yaranması mədəniyyətin, o cümlədən bədii yaradıcılığın, incəsənətin və digər sənət növlərinin generasiyasına səbəb olub, yeni məzmun kəsb etməsi ilə nəticələnir. Tədqiqat istiqamətimizə uyğun olaraq qeyd edə bilərik ki, postmodernizmin də bu sahələrə transformasiyası yeni paradiqmaların yaranmasına səbəb olur. Fəlsəfi istiqamət olaraq yaranması keçən əsrin 70-ci illərinə təsadüf edən postmodernizm mədəniyyətin müxtəlif sahələrində – ədəbiyyatda, arxitekturada, kinematoqrafiyada, teatrda, təsviri sənətdə və incəsənətin digər sahələrində də özünəxas anlayış və konsepsiyaları ilə xarakterizə olunur [15]. Məsələn, postmodern ədəbiyyat bu cərəyanın *dekonstruksiya, intertekst, hiperreallıq (simulyasiya və simulyakr), ironiya, absurd, qara yumor, rizoma (sərbəst davranış)* kimi anlayış və konsepsiyalarından özünə xas alətlər kimi istifadə etməklə, yeni məzmun və formalarda bədii mətnlərin yaranması ilə nəticələnir.

Ümumiyyətlə, bəzi elmi yanaşmalar mədəniyyətin müxtəlif sahələrinə nüfuz edən postmodernizmə dəqiq təyin verməyin mümkünsüzlüyündən (müxtəlif yanaşmalar konteksində) söz açır, onu reallığa fəlsəfi idrakın postqeyri-klassik tipinin münasibəti kimi xarakterizə edir. Doğurdan da, bu cərəyanın yaranması və formalaşması məhz elmin qeyri-klassik mərhələsindən postqeyri-klassik mərhələsinə (təxminən ötən əsrin 70-ci illərindən başlayır) keçid dövrünü əhatə edir. Hətta hesab olunur ki, postqeyri-klassik mərhələ klassik ideya və təsəvvürlərin əksəriyyətini (yuxarıda bunlar barədə fikir yürüdülüb) inkar edərək fəlsəfənin postmodernizm adlanan müasir inkişaf səviyyəsinə əsaslanır (10, səh.143). Bu elə dövrdür ki, artıq QSÇ nəzəriyyəsi (QSM nəzəriyyəsi) kimi yeni elmi aparatlar və sinkretik elmi istiqamətlər yaranır, süni intellektin elmi-texnoloji inkişafı ilə xarakterizə olunur. Bütün bunlar da eyni zamanda elmi-fəlsəfi idrak üçün yeni müstəvilərin yaranmasına səbəb olur.

**Qeyri-səlis məntiq nəzəriyyəsi**

***Xatırlatma: qeyri-səlis çoxluq***

*X – universal çoxluq, x isə onun elementidir. Aşağıdakı kimi təyin olunmuş A çoxluğu qeyri-səlis çoxluq adlanır*:

$A = \{(x, f_A(x))/ x \in X, \ f_A: X \to [0,1]\}$,

*burada, $f_A(x)$ – A çoxluğunun mənsubiyyət (xarakteristik) funksiyası olub, X çoxluğundan olan hər bir x elementinin A-ya daxil olma dərəcəsini ifadə edir və [0,1] kəsilməz (kontinium) çoxluğundan qiymətlər alan ədədi funksiyadır; (x, $f_A(x)$) – X çoxluğunun elementləri ilə (x) onlara uyğun mənsubiyyət funksiyalarının ($f_A(x)$) nizamlı cütlüyüdür.*

Qeyri-səlis çoxluğun verilmiş təyini (12) nəyi ifadə edir: çoxluğun hər bir elementi çoxluğa müəyyən dərəcə ilə daxildir (bu, mənsubiyyət funksiyası vasitəsilə ifadə olunur). Yəni bu çoxluq formal məntiqə əsaslanmır. Aristotelin 3-cü məntiq qanununa (*Üçüncünün istisna qanunu*) görə, irəli sürülən mülahizə doğru deyilsə, demək, onun tərsi doğrudur. Klassik çoxluqlar nəzəriyyəsi də bu məntiqə əsaslanır: element çoxluğu ya daxildir, ya da daxil deyil (11). Lakin QSÇ nəzəriyyəsi elementin çoxluğa dərəcə ilə daxil olması konsepsiyasını irəli sürməklə, *mənsubiyyət* anlayışını *mənsubiyyətin dərəcəsi* ilə əvəz etmiş oldu və kəsilməz çoxqiymətli – qeyri-səlis məntiqin əsasını qoydu (13). Klassik - ikili məntiqə görə, hər hansı bir mülahizənin doğruluq (teziz və antitezisi) səviyyəsini iki məntiqi qiymət müəyyən edir: doğru (tezis) – 1; yanlış (antitezis) – 0. Bu məntiq “ya-ya” seçiminə əsaslanır. İrəli sürülən mülahizə ya doğrudur, ya da yanlışdır. Lakin çoxqiymətli məntiq isə tezis və antitezis arasında məntiqi qiyməti kəzilməz (fasiləsiz) sonsuz intervala çevirdi: [0;1]. Çoxqiymətli məntiqdə mənsubiyyət funksiyası mülahizənin *doğruluq qiyməti* olaraq interpretasiya olunur və artıq qeyd olunduğu kimi, bu məntiq [0;1] intervalından kəsilməz sonsuz (kontinium) *doğruluq qiymətlərinə malik olur*. Bu məntiq “əgər-onda” seçiminə əsaslanmaqla irəli sürülən mülahizə ilə onun tərsi arasında çoxlu aralıq vəziyyətləri qiymətləndirməyə imkan verir. Çoxqiymətli məntiq, bir növ, qeyri-müəyyənlik şəraitində *həqiqət* anlayışını *qismət-həqiqət* anlayışı ilə əvəz etməklə, məntiqi qiymətləndirmə konseptini genişləndirmiş oldu. İkili məntiqdən fərqli olaraq gənc olmayan insanı yaşlı, ucuz olmayan məhsulu baha, soyuq olmayan temperaturu isti kimi qiymətləndirmir, onlar arasında qeyri-səlis (kəsilməz - aramsız) keçidin yaratdığı sonsuz vəziyyətləri xarakterizə edən hər bir keyfiyyət göstəricisinin dərəcəsi ilə mümkünlüyünü nəzərə alır: gənc deyilsə,

nə dərəcədə gənc deyil və nə dərəcədə yaşlıdır – ortayaşlıdır, yaşlıdır, çox yaşlıdır, lap çox yaşlıdır və s. Yəni bir mülahizənin doğruluq səviyyəsi sonsuz kəzilməz məntiqi qiymətlər ala bilər və aldığı məntiqi qimətlərdən asılı olaraq müxtəlif doğruluq dərəcəsinə malikdir (8). Bir mülahizənin doğruluq dərəcəsi azaldıqca qeyri-səlis olaraq onun tərsinə keçid baş verir və tərsinin doğruluq dərəcəsi artır. Bu isə hər mülahizənin (tezisin) onun əksi olan mülahizəni (antitezisi) müəyyən dərəcə ilə özündə (saxlamasıdır) ifadə etməsidir; yaşlılığın dərəcəsi azaldıqca, onun əksinin – gəncolmanın dərəcəsi artır və yaxud əksinə. Deməli, hər bir varlıq öz əksini müəyyən dərəcəsi ilə özündə saxlayır və onun üçün əsas rolunu oynayır. Kontekstimizə uyğun olaraq Əl-Fərabinin bu fikrini xatırlatmaq yerinə düşər: “Ağın olması qaranın yoxluğu demək deyil. Hər əkslikdə digər tərəfin əsası qoyulur və varlıq bir əkslikdən tədricən başqasına keçir”.

Onu qeyd etməyi zəruri sayıram ki, QSM nəzəriyyəsinə qədər elmi-fəlsəfi idrakın tələbi olaraq meydana gələn iki mülahizə - tezis və antitezis arasında çoxlu aralıq vəziyyətləri qiymətləndirməyə imkan verən çoxqimətli məntiq konsesiyasında məntiqi qiymətlərin *n-qiymətli* sonlu diskret qiymətləri ilə yanaşı, onun sonsuz diskret qiymətlər alması (hesabi sonsuz çoxluq) konsepsiyası və bu konsepsiyanın metodologiyası da təqdim olunmuşdur. Lakin QSM nəzəriyyəsi ikili məntiqlə yanaşı, digət çoxqiymətli məntiq konsepsiyalarını da ümumiləşdirən elmi aparat olub, bir çox elmi-praktik sahələrdə (qeyri-səlis modellərin qurulmasında) və eyni zamanda elmi-fəlsəfi dərketmədə, problemə epistemoloji aspektdə yanaşmalarda irəli sürülən mülahizələri daha adekvat məntiqi qiymətləndirməyə (çoxqiymətli məntiqə) imkan verir. Yəni bu nəzəriyyə tezis və antitezis arasında aralıq vəziyyətlərin, digər diskret çoxqiymətli məntiq konsepsiyalarından fərqli olaraq, kəsilməz – fasiləsiz məntiqi qiymətləndirməsini həyata keçirən elmi aparatdır. Məsələn, bu çoxqiymətli məntiq nəzəriyyəsi məntiqi qiymətləndirmədə soyuq temperaturdan istiyə, cavan yaşdan qocaya, ucuz qiymətdən bahaya və s. bir-birinə zidd göstəricilər arasında keçidin, yuxarıda qeyd olunduğu kimi, bütün kəsilməz sonsuz (kontinuum) vəziyyətini nəzərə alaraq, qurulan uyğun modellərin daha çox adekvatlığını təmin edir.

***Postmodernizm qeyri-səlis məntiq nəzəriyyəsi kontekstində***

Elmi-fəlsəfi mənbələrə istinadən artıq qeyd etdik ki, postmodernizm reallığa fəlsəfi münasibətin idrakın postqeyri-klassik tipi kimi xarakterizə olunur. Məlum olduğu kimi, idrakın bu mərhələsinə keçiddə qeyri-səlis çoxluqlar nəzəriyyəsi əsasında formalaşan çoxqiymətli məntiqin (qeyri-səlis məntiq nəzəriyyəsi) xüsusi rolu vardır. Bu kontekstdə elmin çoxqiymətli məntiq konsepsiyası ilə postmodern düşüncə arasında müəyyən əlaqə və korrelyasiyanın mövcudluğu zəruridir. Tədqiqat obyektinə, ümumiyyətlə, qeyri-müəyyənlik şəraitində bütün hadisə və predmetlərə çoxqiymətli məntiqi münasibət idrak subyektinə daha adekvat düşüncə modelidir. Bu mənada da postmodernizmin QSM nəzəriyyəsi konteksində epistemoloji araşdırılmasının əhəmiyyətli olacağını düşünürük.

İlk olaraq qeyd edək ki, postmodernizmə dəqiq və konkret təyin verilmir, ona müxtəlif fəlsəfi refleksiyalar əsasında çoxmənalı koqnitiv fikirlərlə nəticələnən yanaşmalar mövcuddur. Bu anlayışa gerçəkliyə yeni münasibət, yeni fəlsəfi üslub, hətta əhval-ruhiyyə kimi mənalar da verilir. Dünyaya, predmetlər aləminə, reallığa müxtəlif qeyri-dəqiq yanaşmalar bu təlimə qarşı qeyri-müəyyən münasibətlər doğurur. Yəni bu təlimdə subyektin hadisə və predmetlərə epistemoloji yanaşması idrakın çoxmənalılığı ilə xarakterizə olunur.

Əvvəlcə kontekstə uyğun olaraq postmodernizmin doğurduğu bəzi tezisləri ümumiləşdirərək nəzərdən keçirək: *İnsan şüurundan kənar obyektiv reallıq, həqiqət, ədalət, bərabərlik, gözəllik, “insanları ümumiləşdirən” ideyalar və s. kimi klassik anlayışların ya tamamilə, ya da onların mütləqliyinin inkarı(nisbiliyi); reallığa (etika, mədəniyyət, əxlaq və s. univesal normalara) müxtəlif – çoxmənalı yanaşma; tekst olaraq qəbul edilən dünya və dünyada mövcud olan hər bir şeyin mənalandırılması zamanı mənaların qeyri-dəqiq, natamam, ziddiyətli, qeyri-səlis və s. qeyri-müəyyənlik xüsusiyyətlərinə malik olması; simulyasiya və həqiqət arasında dəqiq sərhəddi müəyyən etməyin mümkünsüzlüyü və s.*

Postmodernizmə xas bu tezislərdən görünür ki, idrak subyektinin hadisə və predmetlərə yanaşması qeyri-müəyyənlik, bir-birinə zidd keyfiyyət göstəriciləri arasında qeyri-səlislik kimi epistemoloji xüsusiyyətlər doğurmaqla, çoxqiymətli məntiqi yanaşmalarla xarakterizə olunur.

“Həqiqidən daha həqiqi olanın” (Bodriyar) axtarışı postmodern düşüncədə şərtiliyini, nisbiliyini, qeyri-dəqiqliyini əsaslandırmağa çalışdığı digər anlayışlara da şamil etmək olar; doğru olandan daha doğrusu, gözəl olandan daha gözəli, etik-mədəni olandan daha etik-mədəni olanı və yaxud tərsinin olması mümkünlüyündən doğan bir-birinə zidd anlayışlar arasında sərhədsizliyin (sərhədi müəyyən etməyin mümkünsüzlüyü) mövcud olması. Postmodernizm müəyyən situasiyalarda hər hansı bir ideologiyanın, hər hansı bir düşüncə sisteminin formalaşdırmağa çalışdığı mütləq olanı qəbul etmir, mütləq olanla (tezis) əksi (antitezis) arasında mövcud vəziyyətləri daha çox mümkün sayır. Bu kimi yanaşmalar idrakın qeyri-müəyyənlik oblastını genişləndirməklə, reallığa qeyri-səlis münasibətlər sistemini formalaşdırır. Reallığa “ya-ya” seçminə əsaslanan ikili məntiqlə deyil, “əgər-onda” seçiminə əsaslanan çoxqiymətli (çoxmənalı) məntiqlə yanaşır. Bu təlim ideal – mütləq olmayan vəziyyətlər çoxluğunu gerçəkliyin əsl siması olaraq qəbul etməklə, obyektə münasibətdə idrak çoxmənalılığını xarakterizə etmiş olur. Məsələn, bədii yaradıcılıqda az qala ideallaşdırılan “müsbət obraz” və onun tərsi - “mənfi obraz” kimi keyfiyyət göstəricilərini ikili məntiqə əsaslanan təfəkkürlə bir-birindən diskret olaraq ayırmır, bu bir-birinə zidd göstəricilər arasında çoxlu mövcud vəziyyətlərin – xüsusiyyətlərin insan xarakterinə daha uyğun olduğu və beləliklə də, ideal insan obrazının (postmoden ədəbiyyatda bu kimi obrazlara çox zaman ironiya ilə yanaşılır, qara yumor hədəfinə çevrilir) mümkünsüzlüyü qənaətindədir.

İsti-soyuq, baha-ucuz, gözəl-çirkin, dost-düşmən və s. bir-birinə zidd keyfiyyət göstəricilərinin bir-biri ilə kəsilməz keçid və əlaqəsi çoxqiymətli məntiq (QSM) təfəkkür modelinə əsaslandığı kimi, postmodern düşüncənin də hadisə və predmetlərə eyni təfəkkür modeli ilə yanaşdığını müşahidə edirik. Çünki qeyri-səlis təfəkkür modeli, bir daha qeyd edirəm, insan düşüncəsinə daha adekvat düşüncə modelidir; insan bütün situasiyalarda gözəl olmayanı çirkin, dost olmayanı düşmən, xoşbəxt olmayanı bədbəxt hesab etmir və istər empirik, istər rasional yanaşmalarda aralıq vəziyyətlərin nəzərə alındığı situasiyalar çoxluq təşkil edir.

Beləliklə, postmodernizm və QSM arasında korrelyasının mövcudluğu ilə bağlı qeydlərimizi lokanik olaraq bu şəkildə ümumiləşdirə bilərik: həm QSM, həm posmodern düşüncə postqeyri-klassik idrak konsepsiyasına xas subyektivlik epistemologiyasını önə çıxarır. Postmodern düşüncə reallığa münasibətdə fərdi – subyektiv, hadisə və predmetlərə çoxmənalı yanaşmalara üstünlük verir. QSM real fiziki aləmdə çox hallarda obyektə münasibətdə qeyri-müəyyənliyin olduğunu və bunun nəticəsi olaraq riyazi modellərin qurulmasında obyektə qeyri-səlis (çoxmənalı) münasibətlərin zəruriliyi ideyasından çıxış edir. Postmodernizm mütləq həqiqət (həmçinin bu kontekstdə yuxarıda göstərilən digər anlayışlara) anlayışına skeptik yanaşır, həqiqətin şəraitdən asılı olaraq nisbiliyini vurğulayır. QSM qeyri-müəyyənlik şəraitində *həqiqət* anlayışnı *qismən həqiqət* anayışı ilə əvəz edərək, *doğruluq qiyməti* konseptini irəli sürür. Postmodern düşüncə həqiqət və simulyasiya arasında sərhədi müəyyənləşdirməyin mümkünsüzlüyünü iddia edir, QSM tezis və antitezis arasında keçidin kəsilməzliyi (sərhədin mümkünsüzlüyü), onlar arasında müxtəlif sonsuz vəziyyətlərin və hər bir vəziyyətə uyğun doğruluq qiymətinin olduğunu elmi şəkildə əsaslandırır.

Sonda bir məsələni də qeyd etməyi vacib sayıram. Bu tədqiqat işində postmodernzmin qeyri-səlis məntiq konteksində təhlilində postmodern düşüncə tərzinə tamamilə haqq qazandmaq niyyətimiz yoxdur. Xüsusilə, bu sistemin rasionalizmin, elmin obyektiv reallıqla əlaqəsinin inkarı üzərində qurulmuş tezisləri ilə. Rorti hesab edir ki, biliyin obyektə münasibətdə həqiqiliyinin heç bir elmi metodla əsaslandırılması mümkün deyil (5) . O, Platon-Dekart-Kant ənənəsini inkar edir və bu ənənənin “həqiqətə inam” adlı mifə inam üzərində qurulduğunu iddia edir. Belə olan halda – elmin obyektiv reallıqla əlaqəsi olmadığı və heç bir praktik əhəmiyyət kəsb etmədiyi halda, həyatın, demək olar, bütün praktik sahələrinə nüfuz edən elmi-texnoloji yenilikləri nə ilə izah etmək olar? Belə olduğu halda biz bu gün postmodern düşüncənin idrakın postqeyri-klassik mərhələsində xüsusi rola malik, idrakın qeyri-müəyyənlik şəraitində obyektə münasibətdə adekvat təfəkkür modeli olan QSM elmi aparatı konteksində epistemoloji xarakteristikasını da verməyə cəhd edə bilməzdik.

**Nəticə**

Elmi-fəlsəfi idrakda baş verən yeniliklərin müxtəlif sahələrə, o cümlədən mədəniyyətə transformasiyası bu sahələrdə yeni paradiqmaların yaranmasına və generasiyasına – yeni forma və məzmunda üzə çıxmasına səbəb olur. Fəlsəfi istiqamətlərdən biri olan postmodernizmdə reallığa

münasibət idrakın postqeyri-klassik tipi kimi xarakterizə olunur. Məlum olduğu kimi, idrakın bu mərhələsinə keçiddə qeyri-səlis çoxluqlar nəzəriyyəsi əsasında formalaşan çoxqiymətli məntiqin xüsusi rolu vardır. Bu kontekstdə elmin çoxqiymətli məntiq konsepsiyası ilə postmodern düşüncə arasında müəyyən əlaqə və korrelyasiyanın mövcudluğu ehtimalı yüksəkdir. Ümumiyyətlə, tədqiqat obyektinə qeyri-müəyyənlik şəraitində çoxqiymətli məntiqi refleksiyalar koqnitiv baxımdan idrak subyektinə daha adekvat təfəkkür modelidir. Bu mənada postmodernizmin QSM nəzəriyyəsi konteksində qnoseoloji təhlilinin və alınan epistemoloji nəticələrin elmi yenilik baxımından əhəmiyyətli olduğu qənayətindəyik. Postmodern düşüncə sisteminin idrakın obyektə münasibətdə qeyri-səlis təfəkkür modelinə uyğunluğunun epistemoloji olaraq əsaslandırılması mədəniyyətin bir çox sahələrində, həmçinin fəlsəfi fikir tarixində obyektə (varlığa) qeyri-səlis münasibətlərin epistemoloji araşdırılması üçün metodoloji baza rolunu oynaya bilər.

**İstifadə olunmuş ədəbiyyat**


1. Философия. Москва: Эксмо 2019.
2. Скирбекк Г., Гилье Н. История философии. М: Владос. 2003.
3. Делез, Ж. Различие и повторение. – СПб., 1998. – с. 358
4. Деррида, Ж. Позиции. – Киев, 1996.
5. Рорти, Р. Философия и Зеркало природы. – Новосибирск, 1997. – С. 5.
6. Бодрийяр Ж. Соблазн. Перевод с французского Алексея Гараджи. М.: Ad Marginem, 2000.
7. Н. И. Губанов. Нищета философии постмодернизма. Философия и общество 1/2007
8. Заде Л.А. Понятие лингвистической переменной и его применения к принятию приблизительных решений. М.Мир 1976.
9. Y.Rüstəmov. Fəlsəfənin əsasları. Bakı, “NURLAR” NPM, 2007.
10. İ.Məmmədzadə, Ə.F.Abbasov, Ə.S.Abasov, F.M.Qurbanov, A.Buniyatov. Müasir fəlsəfə, süni intellekt və qeyri-səlis məntiq. Elm və təhsil. Bakı 2022
11. Şükürov Ə. Qeyri-səlis çoxluqlar nəzəriyyəsinin elmi-nəzəri və fəlsəfi-metodoloji əsasları. “Metafizika” jurnalı, 7(3), [2024], səh.214-228.
12. Zadeh.L.A., Fazzy sets. İnformation and control, 1965.
13. Zadeh L.A. Fuzzy logic and approximate reasoning. Synthese, 1975
14. Best, Steven & Kellner, Douglas. Postmodern Theory: Kritical Interrogations. — New York, 1991.
15. Connor, Steven. Postmodern Culture. An Introduction to the Theories of the Contemporary. — Cambridge, 1990.


**Rəyçi: f.e.d. Füzuli Qurbanov**

**UDC 1.16.165**
**https://doi.org/10.30546/ifs.2025.1(44).53**

## INTERSCIENTIFIC AND INTERDISCIPLINARY INTERACTIONS: A PHILOSOPHICAL ANALYSIS IN A HISTORICAL PERSPECTIVE

**Vusal Zulfugarov**
PhD in Philosophy, Institute of Philosophy and Sociology of ANAS, **Azerbaijan**
vzulfugarov@gmail.com
https://orcid.org/0009-0004-7491-3520

**Abstract.** The article examines the similarities and differences between the terms “interscientific” and “interdisciplinary” from a historical perspective. It is shown that these concepts have a unique content and meaning at each historical stage. They essentially complement each other. In a philosophical context, the concept of "interdisciplinary" is in each case a form of existence of the socio-cultural existence of the expression "interscientific". In this sense, it is also about self-affirmation.

There have been references to this topic in the history of the philosophy of science. Their comparative analysis from a philosophical aspect allows us to explore the dynamics of the relationship between the terms "interscience" and "interdisciplinary".

Thanks to this approach, the article makes it clear that the philosophical study of interscientific relations is essential for understanding the essence, content, and purpose of scientific knowledge. In particular, the article concludes that the theoretical content of science, the organization of scientific activity, and the practical application of the results obtained form a unity.

The thesis that interscientific relations are understood through the disciplinary structuring of sciences at each historical stage occupies a special place in the article. It is emphasized that in interdisciplinary relations, certain directions or directions may come to the fore, depending on the specifics of the historical stage.

In this context, the article justifies that the relevance of interdisciplinarity in the current historical period is linked to the belief in the leading role of the trend of knowledge integration.

The article uses an interdisciplinary approach. At this time, the methodological principles of intersubjectivity and synergistic formation are preferred.

Systematic comparative analysis is used as the method.

Based on the analyses conducted, two important philosophical conclusions are drawn. First, regardless of the functional form of the relationship between disciplines, it essentially expresses interdisciplinary relationships. Secondly, the progress of modern science can be viewed through this prism.

**Keywords:** scientific cognition, comparative analysis, systematicity, interdisciplinary, multidisciplinary, transdisciplinarity, intersubjective, synergistic formation, scientific progress.

## ELMLƏRARASI VƏ FƏNLƏRARASI QARŞILIQLI ƏLAQƏLƏR: TARİXİ RAKURSDA FƏLSƏFİ TƏHLİL

**Vüsal Zülfüqarov**

**Xülasə.** Məqalədə “elmlərarası” və “fənlərarası” terminlərinin tarixi rakursda oxşar və fərqli cəhətlərinə nəzər salınır. Göstərilir ki, bu anlayışlar hər bir tarixi mərhələdə özünəməxsus məzmuna və məna yükünə malikdir. Onlar mahiyyətcə bir-birini tamamlayırlar. Fəlsəfi kontekstdə isə hər bir halda “fənlərarası” anlayışı “elmlərarası” ifadəsinin sosial-mədəni mövcudluğunun varlıq formasıdır. Həmin anlamda da özünütəsdiqidir.

Elmin fəlsəfəsi tarixində bu mövzuya müraciətlər olmuşdur. Onların fəlsəfi aspektdə müqayisəli təhlili “elmlərarası” və fənlərarası” terminlərinin münasibətləri dinamikasını tədqiq etməyə imkan verir.

Bu cür yanaşma sayəsində məqalədə aydınlaşdırılmışdır ki, elmlərarası münasibətlərin fəlsəfi tədqiqi elmi idrakın mahiyyət, məzmun və məqsədinin dərk edilməsi üçün vacibdir. O cümlədən, məqalədə belə qənaətə gəlinmişdir ki, elmin nəzəri məzmunlaşması ilə elmi fəaliyyətin təşkili və alınan nəticələrin praktiki tətbiqi vəhdət təşkil edir.

Məqalədə elmlərarası əlaqələrin hər bir tarixi mərhələdə elmlərin dissiplinar strukturlaşması vasitəsilə dərk edildiyi haqqında tezis xüsusi yer tutur. Vurğulanır ki, fənlərarası münasibətlərdə müəyyən istiqamət və ya istiqamətlər tarixi mərhələnin spesifikasından asılı olaraq önə çıxa bilər.

Bu kontekstdə məqalədə əsaslandırılır ki, indiki tarixi dönəmdə fənlərarası münasibətlərdə interdissiplinarlığın aktuallaşması biliklərdə inteqrasiya tendensiyasının aparıcılıq təşkil etməsinə olan inamla bağlıdır.

Məqalədə interdissiplinar yanaşmadan istifadə edilir. Bu zaman intersubyektivlik və sinergetik təşəkkül metodoloji prinsiplərinə üstünlük verilir.

Metod kimi, sistemli-müqayisəli təhlildən yararlanılır.

Aparılan təhlillər əsasında iki mühüm fəlsəfi qənaət əldə edilir: birincisi, fənlər arasında əlaqələrin funksional formasından asılı olmayaraq, mahiyyətcə, o, elmlərarası münasibətləri ifadə edir; ikincisi, müasir elmin tərəqqisinə məhz bu prizmadan baxmaq olar.

**Açar sözlər**: elmi idrak, müqayisəli təhlil, sistemlilik, interdissiplinarlıq, multidissiplinarlıq, transdissiplinarlıq, intersubyektivlik, sinergetik təşəkkül, elmi tərəqqi

## МЕЖНАУЧНЫЕ И МЕЖДИСЦИПЛИНАРНЫЕ ВЗАИМОСВЯЗИ: ФИЛОСОФСКИЙ АНАЛИЗ В ИСТОРИЧЕСКОМ РАКУРСЕ

**Вусал Зульфугаров**

**Резюме.** В статье рассматриваются сходства и различия терминов «межнаучный» и «междисциплинарный» в историческом ракурсе. Показывается содержание и значение этих понятий, по сути, дополняющих друг друга. В философском контексте понятие «междисциплинарный» в каждом случае является формой социокультурного существования понятия «межнаучный». Сравнительный анализ позволяет нам исследовать динамику взаимоотношений между терминами «межнаучный» и «междисциплинарный», благодаря которому становится ясно, что философское изучение «межнаучных» отношений очень важно для понимания содержания и назначения научного познания. В статье делается вывод о том, что теоретическое содержание науки, организация научной деятельности и практическое применение полученных результатов образуют единое целое. Особое место в статье занимает тезис о том, что межнаучные отношения понимаются через дисциплинарную структуризацию наук на каждом историческом этапе. В этом контексте в статье утверждается, что на современном историческом этапе актуализация междисциплинарности в междисциплинарных отношениях обусловлена убеждением в том, что основной тенденцией является интеграция в знаниях. Предпочтение отдается методологическим принципам интерсубъективности и синергетического формирования. На основании вышеприведенного анализа делаются два важных вывода: во-первых, независимо от функциональной формы взаимосвязи дисциплин, интеграция выражает межнаучные отношения; во-вторых, через эту призму можно рассматривать прогресс современной науки.

**Ключевые слова:** научное познание, сравнительный анализ, системность, междисциплинарность, мультидисциплинарность, трансдисциплинарность, интерсубъективность, синергетическое становление, научный прогресс

**Introduction**

The comparative understanding of the concepts of "science" and "discipline" remains relevant for the philosophy of science. Modern philosophical and scientific understanding has a high degree of renewal dynamics. This process constantly changes the content, methodology, and functional characteristics of sciences, and also drives structural change. That process has deepened considerably, and now philosophers analyze the issue of "scientific progress" in close connection with its structural features. Interestingly, a number of philosophers even try to justify the essence of scientific progress directly through the modern structural features of science (1, p. 24-32; 2, p. 36-40).

What are the cognitive and sociocultural reasons for the emergence of such a close relationship between the structural nature of science and the "philosophical measurement" of its progress? The search for an answer to this question is not a trivial matter and requires special research. In this article, we will only look at a limited part of that scientific problem. To do this, let's look at the modern definitions of the terms "science" and "discipline".

In English-language philosophical and scientific literature, science is defined as a "systematic discipline" that "creates and organizes knowledge". This form consists of hypotheses and predictions about the Universe (including forecasts) (3; 4, p. viii–ıx; 5, p. 15-39). This kind of accepted science is currently divided into 3 branches: 1) natural sciences (physics, chemistry, and biology) – they study the physical world; 2)Social sciences (for example, economics, psychology, sociology, and humanities are also included) – they study humans and society; 3) Applied sciences (engineering and medicine) – they use scientific knowledge for practical purposes (6, p.2-20; 7). Mathematics, logic, and theoretical computer science are generally classified as "formal science" because they study formal systems based on "deductive reasoning" (8, p.158-186).

Of course, we have shown an example, and it is not an absolute truth. There are other classifications as well, but there are common theoretical points in the views about the main essence of the concept of "science". In other words, science as a field of activity is a special creative attitude of man towards the world and the Universe. This is the unity of spiritual activity and practical activity. Science has its own unique form of existence. This is a scientific or disciplinary form. Thus, a discipline is the confirmation of science in the social-cultural environment, its method of existence.

Philosophers draw the following conclusion from this: a scientific discipline is a certain systematized form of scientific knowledge. It implies the institutionalization of knowledge, the general ideals and norms of science, and the formation of the scientific community. In addition, it involves factors such as the specific type of scientific literature, the existence of certain forms of communication among scholars, and the creation of functionally autonomous organizations (in the status of entities responsible for the education and training of personnel) (9, p. 43-45; 10, p. 44).

Science exists in the form of disciplines in the socio-cultural environment. Within the framework of this approach, it is possible to reflect philosophically on the similarities and differences between the terms "interdisciplinary connections" and "intersciences connections".

An interdisciplinary approach is used to achieve the scientific goal highlighted in this article. For this, preference is given to the methodological principles of intersubjectivity and synergetic formation. Systematic comparative analysis is used as the method.

**The scientific-theoretical and methodological basis of the article**

The scientific-theoretical basis of the article is formed by the classification of sciences by J.L.Heilbron (4), E.Cohen (5), R.A.Nisbet (7) and D.C.Colander (6), as well as the ideas related to modern scientific disciplinarity by A.P.Ogurtsov (9), I.T.Kasavin (2) and D.T.Sokolov (1).

There is a similarity between the positions of J.L. Heilbron, E. Cohen, R.A. Nisbet, and D.C. Colander. Each of them views science as a systematic activity that generates knowledge through specific cognitive activity and in interaction with the social-cultural environment, functionalizes it, and ensures its existence in a particular form. In this capacity, science is a sphere of human activity that visualizes, confirms, and reactualizes knowledge (and information) obtained through purely cognitive characteristics in the socio-cultural environment in unique ways. This process takes place in the form of a "discipline" ("science") at each historical stage.

Therefore, science is realized in the discipline, through which it becomes visible, transforming from an intellectual artifact into a socio-cultural entity. In this process, the content and functional institutional form of the discipline plays a distinct role in the self-affirmation of science.

In this regard, A.P.Ogurtsov's definition of a discipline as "a special form of systematization of scientific knowledge" seems useful. Against this general definition, D.T.Sokolovas view of disciplinarity in the context of scientific progress has epistemological and methodological benefits. I.T.Kasavin addresses the same problem from a slightly different perspective. The difference between their approaches lies in the fact that D.T.Sokolov views the disciplinary organization of science purely as a "separation" event and puts forward the thesis that this makes the term "interdisciplinary knowledge" paradoxical (1). At this time, D.T.Sokolova relies on the concept of "disciplinary separation" of the Western philosopher F.Russo (11; 1, p. 25).

I.T.Kasavin, by changing the approach, emphasizes the possibility of avoiding the paradoxical conclusions of D.T.Sokolov. I.T.Kasavin writes that in interdisciplinary interaction, the integration of knowledge occurs in the form of disciplinary institutionalization (2, p. 36).

The essence of the highlighted provisions is conditioned by the fact that the methodological basis of the article primarily relies on the methodological systems applied in contemporary synthetic scientific approaches. At the same time, this article addresses the principles of intersubjectivity and synergistic formation. Intersubjectivity allows for philosophical examination both within the context of the science-discipline and in terms of the interactions between individual fields, as the process of mutual influence among scientific subjects from various disciplines. Synergistic formation allows us to justify the dynamic nature of this process.

**Discussions**

The study of the relationships between sciences in the context of the philosophical understanding of science reveals an interesting history. The issue is approached from several aspects. First, the relationships between sciences are generally viewed through the prism of the essence of human spiritual and practical activity. As an example, the ideas of E.Schrödinger and G.Gunn can be cited. The great physicist E.Schrödinger wrote that man, by his very nature, seeks to generalize knowledge because nature seems to him complete, whole, one-off, that is, "holistic" (12, p. 10-20).

G.Gunn is in the same position. He emphasizes that humans are naturally inclined towards solidarity. This characteristic manifests itself in scientific activity, as in other spheres of activity. G. Gunn notes that the quality of Human Solidarity brings different scientific perspectives (on a large scale, different fields of science) into a unified logical plane, which is clearly manifested in the collaboration of various scientific fields on specific topics and problems, or more broadly, in the epistemological, conceptual, and substantive connections between them.

G.Gunn emphasizes that in ancient Rome, various fields of science – mathematicians, material scientists, geodesists, physicists, logisticians, and others worked together in the construction of roads (13, p. 83-91). There is no doubt that the existence of none of the scientific fields emphasized as disciplines at that time was new to modern disciplines. However, in practical activity, particularly in road construction, which required a complex approach, representatives from numerous scientific spheres worked together. How can we call this event? "Interdisciplinary relations or interfield relations"? After presenting other aspects of the discussions, we will attempt to answer this question in the conclusions section.

J.T.Klein, S.Hoffmann, L.Deutsch, and M.O'Rourke prefer to approach the issue through the prism of scientific rationality. They emphasize that a tendency toward interdisciplinary integration has historically existed at the core of scientific rationality. Therefore, rationality, which is the "core cognitive space" of scientific activity, in itself encourages connections between sciences. The authors are confident that in this process, the integration of sciences plays a leading role (14, p. 3-9). So, against the backdrop of such an approach, how can inter-scientific relations and interdisciplinary relations be compared in terms of philosophical content?

Against the backdrop of this question, another approach seems interesting. In 1972, the famous French scientist J.Piaget wrote an article entitled "The Epistemology of Interdisciplinary Relations". Here, he analyzes the concepts of "interdisciplinarity," "multidisciplinarity" (or "multidisciplinarity"), and "transdisciplinarity" both separately and in the context of their mutual

relationships (15, p. 128-139). This approach later took a leading place in the approach to the problem in the West as a whole, and from here a contradiction that existed in J. Piaget's approach to the issue took on a traditional character. We mean that the relationships between "interscience" and "interdisciplinary" were not clearly defined by Piaget. Here we will analyze I.T.Kasavin's attitude to that contradiction, because we consider his explanation to be correct.

I.T.Kasavin writes that J.Piaget defined interdisciplinary (or cross-disciplinary relations) as the interactions between disciplines. This gives the concept a dual meaning from the start. First, in this sense, interdisciplinary relations can be abstracted and made synonymous with interscientific relations in general, and second, interdisciplinary relations can be understood as a synonym for interscientific relations, as well as a type of relations between specific disciplines and mainly as a type that creates integrative knowledge. It is through the prism of these two mutually exclusive approaches that J.Piaget projects interscientific relations into interdisciplinary relations and then applies that concept to one of the relations between specific disciplines. Precisely for these kinds of reasons, I.T.Kasavin considers the meanings of multidisciplinarity and transdisciplinarity in Piaget's sense on one hand, as one of the types of interdisciplinarity, and on the other hand, as a system of specific relationships between disciplines – to be "hazy". "Interdisciplinary" as a concept becomes dual – it refers both to relations between sciences in general and to relationships between specific disciplines (2, p. 36-37).

Continuing his thoughts, I.T.Kasavin notes that this terminological confusion also creates contradictions in the philosophical understanding of scientific progress at the modern stage. As an example, it shows the paradox that D.T.Sokolova sees in that concept. In fact, this paradoxical nature is characteristic of the philosophical thinking of modern science as a whole. This can be seen in the approach to the problem by F.Russo and others (e.g., D.M.Levy, J.P.Sandra and others) (11; 1, p. 25).

F.Russo generally emphasizes that cognitive, epistemological, and conceptual transitions between closely related disciplines, or even within different branches of a single discipline, are very difficult, and from this, he absolutizes "disciplinary separation" as essential for modern science [11]. D.M.Levy and J.P.Sandra, based on various scientific examples, demonstrate that the differences in expert positions regarding economic policy are caused by both public interest and the expert's own interest. Therefore, it would be more appropriate to approach the issue in a broad aspect, within the context of the interaction of various scientific approaches, against the backdrop of the discussion within the expert community (16, p. 3-5).

Thus, the philosophical understanding of interscientific and interdisciplinary relationships is relevant, and different positions remain in this regard. The main point here is related to determining the philosophical meanings and contents of the terms "interscience" and "interdisciplinary". We will try to express our position on the conclusions we have reached in the light of the above discussions.

**Conclusions**

First, let's clarify the terminological issue. The expression "interdisciplinary relations" and the expression "interscience" differ not in essence, but in semantics. Both of these terms refer to the relationships between sciences at a general level. In addition, the term "interdisciplinary" refers to the relationships between various aspects of human intellectual activity, where the essence is science.

In this sense, the concept of "interscience" has the same essence in ancient Rome, the Middle Ages, the Renaissance, the Modern Era, the 20th century, and the first decades of the 21st century. However, each highlighted historical period has its own content, structural, and functional characteristics.

Thus, in ancient Rome, the Renaissance, or the Modern Era (until the beginning of the 20th century), the relations between sciences had different shades of content. This has found its expression in theoretical, conceptual, cognitive, and also socio-cultural aspects. More precisely, the aspects we have highlighted in the context of the relationships between different fields of science have been influential.

In addition, the content of relations between sciences during those historical stages was seriously influenced by the methods and forms of structuring the sciences. Specifically, the formation of scientific disciplines according to their ideal and norms, the organization and systematization

characteristics of theoretical knowledge, the criteria for understanding and verifying acquired knowledge, their practical nature, and other such characteristics have had a significant impact. In brief, the content of interdisciplinary relations is primarily influenced by the "culture" of the structuralization of its disciplines. From this perspective, the "culture" of disciplinarity (here the terms "disciplinary" and "scientific" are used synonymously) is always the manifestation of inter-scientific relations in the socio-cultural environment. In essence, this process is realized in the form of relationships between disciplines. At the moment, there is no other form of relationships between sciences. It is precisely for this reason that philosophers analyze the progress of science as a fundamentally philosophical problem in the context of the disciplinary structure of sciences. There is an interesting philosophical transformation here.

Different fields of science manifest in a specific disciplinary form and are realized in that quality. For example, in ancient Rome, physics had a "culture of discipline" that was in line with the requirements of that time. This culture underwent disciplinary changes in the Middle Ages, the Renaissance, the Modern Era, and the post-non-classical stage of science.

As a result, the content of the relations between sciences in the ancient Roman or Modern Period stages has taken on significantly different shades in the most modern stage. This point is also proven by the fact that philosophers bring scientific rationality, the formation of scientific knowledge and the emergence of theories, changes in scientific norms and ideals, the transformation of the structural-functional characteristics of scientific activity, the impact of the latest scientific trends on the disciplinary culture of science, the formation of new scientific knowledge and theories, the verification of scientific knowledge, the contentization of the concept of "scientific truth", etc. to the forefront when studying problems such as.

In light of the comparisons we have highlighted, how can interdisciplinarity, multidisciplinary, and transdisciplinarity be philosophically characterized as a form of socio-cultural existence of interscientific relations? As their names suggest, each of them pertains to different aspects of the disciplinary existence of science. Interdisciplinarity is characterized by the formation of a common epistemological and methodological domain in the relationships between disciplines.

Multidisciplinary refers to the mutual relationships of disciplines representing each scientific field involved in the relationship, while maintaining the epistemological and methodological characteristics.

**Новизна:** в отличие от 1990-х годов, большинство последних отчетов указывают на то, что женщины нового поколения проявляют более значительную активность в различных сферах, включая образование и занятость.

**Ключевые слова**: Азербайджан, гендерное равенство, гендерные показатели, индекс гендерного разрыва, индекс гендерного неравенства, гендерное равенство в науке, женщины в STEM

### Giriş

“Elmi inkişafda gender bərabərliyinin təmin olunması yalnız ədalət məsələsi deyil, həm də daha məhsuldar və inklüziv tədqiqat mühiti yaratmaq üçün vacib şərtdir.”

**Qısa giriş:**

- Gender bərabərliyi BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərindən biridir.
- Dünyada və Azərbaycanda qadınlar elmi fəaliyyətin yarısını təşkil etsə də, yüksək elmi mövqelərdə az təmsil olunurlar.
- Araşdırmanın məqsədi: Azərbaycanda elmdə qadınların iştirak səviyyəsini, qarşılaşdıqları çətinlikləri və mövcud təşəbbüsləri təhlil etmək.

### Əsas hissə

**Statistika və real göstəricilər**

- Dövlət Statistika Komitəsinə əsasən: elmi işçilərin ~52%-i qadındır.
- Lakin bu göstəricilər daha çox aşağı və orta səviyyəli vəzifələri əhatə edir.
- Elmi rəhbərlikdə, akademik titullarda gender fərqliliyi mövcuddur.

**Qarşıya çıxan əsas problemlər**

- Stereotiplər: "Elm kişi sahəsidir" yanaşması hələ də aktualdır;
- Ailə və karyera balansını qorumaq çətinliyi;
- Qadın alimlərin layihə və qrantlarda az təmsil olunması;
- Elmi nəşrlərdə qadın müəlliflərin sayı kişilərlə müqayisədə azdır.

**Qanunvericilik və dəstək proqramları**

- "Gender bərabərliyi haqqında" Azərbaycan Qanunu – gender bərabərliyini təmin etmək üçün əsas hüquqi baza hesab olunur.
- Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşəbbüsləri (misalçün, dövlət və özəl müəssisələrdə Genderə Məsul Şəxslər Şəbəkəsinin yaradılması) cəmiyyətdə gender balansı formalaşdırmağa yönəlib.
- Amma bütün bu sadalanan Qanunvericilik və Dəstək Proqramlarını tətbiqetmədə çətinliklər var və görülən işlərin monitorinqi zəifdir.

**Müsbət nümunələr**

- AMEA-da çalışan qadın alimlər: Tək-tük də olsa, nüfuzlu qadın alimlərimiz var.
- Qadınların STEM sahələrində təşəbbüslərə cəlb olunması (startaplar, *hackathonlar*, universitet təşəbbüsləri).

Təxmini hesablamalar göstərir ki, Azərbaycanda elmi fəaliyyət sahəsində çalışanların 52%-ni qadınlar təşkil edir (mənbə: Dövlət Statistika Komitəsinin saytı) Bu, konkret elmi fəaliyyətlə məşğul olan qadın və qızlara aid rəqəmdir. Elmlə bağlı yardımçı sahələrdə çalışan qadınları da bu siyahıya əlavə etsək, kişilərlə müqayisədə bu göstərici daha da çox olacaq. Dünya miqyasında isə qadınlar elmi tədqiqatçıların üçdə birini, elmin yuxarı səviyyələrində- Milli akademiya üzvlərinin sırasında 12%-i təşkil edirlər. Qadın alimlərin sayı regionlara görə dəyişir - Cənubi Asiyada-23%, Cənub-Şərqi Asiyada-27%, Saharadan cənuba Afrikada-32%, Avropa Birliyində-34%, Ərəb ölkələrində-41%, Latın Amerikası və Karib hövzəsində-44%, Mərkəzi Asiyada-47%, Cənub-Şərqi Avropada-52% təşkil edir. Elmin statusunun yuxarı olduğu Almaniya, Yaponiya, İngiltərə kimi ölkələrdə bu göstərici 16-25% arasında dəyişir. Sahələrə görə gender fərqinə gəlincə, qadınların fizika, mühəndislik, kompüter elmlərində təmsilçilik payı azdır. Həyat və sağlamlıq elmləri (*life sciences and health*) sahəsində daha balanslı və ya qadın-tədqiqatçıların çoxluğu müşahidə edilir.

***Azərbaycanda orta məktəb və ali məktəbdə gender pariteti***

Dövlət İmtahan Mərkəzi hər il oğlan və qızların nəticələrini ayırd etməklə, əhatəli hesabat yayımlayır. DİM-in 2023-cü il hesabatına görə, buraxılış imtahanında iştirak edənlərin 53,1%-i oğlan, 46,9%-i qızlar olmuş ki, onlardan 30,5%-i imtahanda uğursuz olmuşlar.

Azərbaycanda bakalavr təhsili üçün 5 qrup var. 1-ci qrup STEM (Elm, Texnologiya, Mühəndislik və Riyaziyyat) və Kənd Təsərrüfatı sahəsini, 2-ci qrup Biznes, Marketinq və Turizm sahəsini əhatə edir. 3-cü qrup Hüquq, Filologiya, Tərcümə, Beynəlxalq Münasibətlər və Sosiologiya kimi sahələri, 4-cü qrup bütün tibb elmlərini təmsil edir. 5-ci qrupa İncəsənət, Musiqi, Kino, Heykəltəraşlıq kimi sahələr aiddir. 1-4-cü qruplar üzrə qəbul olanların 60,89%-i qızlar, 39,11%-i oğlanlardır. Qabiliyyət imtahanı tələb edən 5-ci qrup abituriyentlərdən qəbul olunmuşların 34,3%-i oğlan, 65,7%-i qızlardır.

DİM-in 2023-cü il hesabatında oğlan və qızların ali məktəblərə daxil olması dinamikası öz əksini tapıb (mənbə: dim.gov.az)




DİM-in 2023-cü il hesabatından aydın olur ki, qızlar dövlət ödənişli təhsil imkanından daha çox yararlana bilmişlər (qızlar- 51,66%, oğlanlar- 48,34%). Ancaq 2022-ci il üçün qızlar üçün bu göstərici- 48,8% olub. 500-700 bal şkalasında da qızlar oğlanlardan daha yaxşı nəticə göstərmişlər- 4039 qız və 3039 oğlan.

DİM-in magistraturaya qəbul üzrə hesabatına görə, qəbul olanların 50,1%-i qızlar, 49,3%-i oğlanlardır.

***Ali məktəblərə qəbul***

Bu göstəricilər xeyli yaxşılaşıb. 2019-cu il Asiya Bankının hesabatına görə, Azərbaycanda kollec və ali məktəblərə qəbulda hər iki cins üçün nəticələr aşağı olmuşdur- təxminən 20%. Amma DİM-in hesabatına görə, 2022-ci ildə bu göstərici 44,74%-ə yüksəlmişdir. Dünya Bankının Azərbaycanla bağlı hesabatında da bu rəqəm 40% kimi yer alır.

Dövlət Statistika Komitəsinin hesabatına görə, 2021/2022 tədris ilində qızlar təhsil, humanitar və sosial elmlər, mədəniyyət və incəsənət, sağlamlıq və xidmət sahəsini seçməyə meyillidirlər. Bu nəticə cinslərin peşə seçimindən xəbər verir.

PhD - doktorantura səviyyəsində təhlillər göstərir ki, qadınlar riyaziyyat, fizika, kimya, biologiya, tibb, antropologiya, coğrafiya, tarix, filologiya, pedaqogika, psixologiya, incəsənət, sosiologiya, arxitektura və fəlsəfə sahəsində bütün doktorantların 54,9%-ni təşkil edir. 2022-ci il göstəricilərinə görə (mənbə- DSK), qadınlar ilk dəfə fəlsəfə doktorlarının sayına görə kişiləri üstələmişlər.

Şəkil




**Figure 2.** Distribution of PhD by sex during various years.
Source: State Statistical Committee of the Republic of Azerbaijan, 2022.

***Gender pariteti elm və tədqiqat sahəsində (mənbə Dövlət Statistika Komitəsi):***

**Doktorantura**

| İllər | Ümumi say | Qadınlar | Kişilər |
|---|---|---|---|
| 2016 | 541 | 242 | 299 |
| | 100% | 44,7% | 55,3% |
| 2022 | 762 | 402 | 360 |
| | 100% | 52,8% | 47,2% |

**Fəlsəfə doktoru üzrə təhsil alanlar (aspirantura)**

| İllər | Ümumi say | Qadınlar | Kişilər |
|---|---|---|---|
| 2016 | 2182 | 1204 | 978 |
| | 100% | 55,2% | 44,8% |
| 2022 | 2559 | 1405 | 1154 |
| | 100% | 54,9% | 45,1% |

**Elmlər doktorları**

| İllər | Ümumi say | Qadınlar | Kişilər |
|---|---|---|---|
| 2016 | 1476 | 288 | 1188 |
| | 100% | 19,5% | 80,5% |
| 2022 | 2289 | 507 | 1782 |
| | 100% | 22,1% | 77,9% |
| 2022 | 100% | 52,4% | 47,6% |

**Elmlər doktorlarının cins üzrə bölgüsü**
(İlin əvvəlinə, nəfər)



**Fəlsəfə doktorlarının cins üzrə bölgüsü**
(İlin əvvəlinə, nəfər)




Mənbə: *Dövlət Statistika Komitəsi “Azərbaycanda qadınlar və kişilər: statistik məcmuə 2022”*

Mövcud məlumatlara əsasən, 2020-ci ildə fəlsəfə doktoru proqramı üzrə qəbul olanların sayı 552 nəfər, elmlər doktoru proqramı üzrə isə 154 nəfər təşkil edib. Elmlər doktoru proqramı üzrə təhkim olunmuş dissertantların sayı 246 nəfər olub ki, onların 144-ü qadındır. Dissertantların əksəriyyəti tibb, iqtisad, filologiya, tarix, texnika, biologiya və riyaziyyat sahələrində təmsil olunub. unec.edu.az+2azedu.az+2Azərbaycan Texnologiya Universiteti+2

Təəssüf ki, açıq mənbələrdə 2019-2024-cü illər ərzində Azərbaycanda müxtəlif elm sahələri üzrə elmlər doktoru və fəlsəfə doktorlarının (keçmiş elmlər namizədi) dəqiq sayını təqdim edən statistik məlumatlar məhduddur. Lakin ümumi məlumatlar əsasında bəzi tendensiyaları qeyd etmək mümkündür:

- **Doktorantura təhsili**: Son illərdə doktorantura səviyyəsində təhsil alanların sayında artım müşahidə olunur. Bu, elmi kadr hazırlığının inkişafına yönəlmiş dövlət proqramları və təşəbbüsləri ilə əlaqələndirilir. azedu.az+3Azərbaycan Texnologiya Universiteti+3Statistical Committee of Azerbaijan+3
- **Qadınların elmdə iştirakı**: Azərbaycanda elmi işçilərin təxminən 60%-ni qadınlar təşkil edir. Bu göstərici qadınların elmi fəaliyyətlərdə fəal iştirak etdiyini göstərir.
- **Elmi nəşrlərin artımı**: 2024-cü ildə Azərbaycan alimlərinin beynəlxalq elmi jurnallarda dərc olunan məqalələrinin sayında əhəmiyyətli artım müşahidə edilib. Məsələn, "Scopus" bazasında 4000, "Web of Science" bazasında isə 2882 məqalə dərc olunub ki, bu da əvvəlki illərlə müqayisədə müvafiq olaraq 40% və 52.9% artım deməkdir. azedu.az

### *Qadınlar STEM Təhsil sahəsində*

Sürətlə dəyişən dünyada Elm, Texnologiya, Mühəndislik və Riyaziyyatın (STEM- Science, Technology, Engineering and Mathematics) önəmi günbəgün artır. Araşdırmalar göstərir ki, elm, texnologiya, mühəndislik və riyaziyyat sahəsində yatırım insan kapitalını gücləndirmək sahəsində ən səmərəli addımdır. STEM təhsili innovasiyaların tətbiqini sürətləndirir, texnoloji inkişafla ayaqlaşmağa kömək olur. Eləcə də iqtisadi artım və inkişafın göstəricisi hesab olunur. STEM təhsili rəqabətədavamlılığı gücləndirməklə dayanıqlı iqtisadi artım üçün katalizator rolu oynayır, dicital dövrdə işçi qüvvəsi formalaşdırır. STEM üzrə təhsil alanların sayının 1% artımı illik ÜDM-də təxminən 2% artıma uyğundur (Croak 2018).

Dünya miqyasında qadınlar ali təhsil alan tələbələrin təxminən yarısını təşkil etsə də, STEM sahəsində oxuyanların sayı təxminən 35%-dir. Bu göstərici son 10 ildə (mənbə: 2018-2023-cü illəri əhatə edən UİS data) dəyişməz qalıb.

UNESCO-nun Statistika İnstitutunun məlumatına görə, 122 ölkədən 12-də hər 4 məzundan biri qadındır. Onlardan 5-i Səhradan cənuba Afrikadan, amma həm də Çili və İsveçrə kimi yüksək gəlirli ölkələri təmsil edirlər. Avropa və digər yüksək gəlirli ölkələrdə qadınların STEM sahəsində yayılması orta məktəbdən sonra kəskin şəkildə aşağı düşür. OECD (İqtisadi Əməkdaşıq və İnkişaf Təşkilatı) ölkələrində təhsil, sağlamlıq və rifah sahəsində təmsil olunan 75 % qadından ancaq 31%-i STEM

proqramlarında çalışır. Yunanıstan, İslandiya və Polşada STEM məzunlarının 40%-dən çoxunu qadınlar təşkil edir. Maraqlı məqam odur ki, digər 9 ölkənin arasında Suriya və Tunis kimi ərəb ölkələri də var. Amma bu ölkələrdə riyaziyyata münasibət daha loyaldır.




*Source*: UIS database.

50 ölkədən toplanan məlumat əsasında demək olar ki, 2010-2011 və 2020-2021-ci illərin nəticələri göstərir ki, qadın STEM məzunlarının paylanması arasında dəyişmə müşahidə olunmur. Əksinə, diqqəti cəlb edən nümunə kimi, 20% sabit göstərici ilə Çilini qeyd etmək olar. 10 il ərzində ən böyük geriləmə Macarıstanda (5% geriləmə), irəliləyiş isə Şimali Makedoniya (40%-dən 50%-ə yüksəliş), Niderland (21%-dən 31%-ə yüksəliş) və Mərakeşdə (39%-dən 49%-ə yüksəliş) qeydə alınıb.

Bütün STEM fənlərini bir araya gətirsək, fərqli durumlar üzə çıxır. 2016-2018-ci illərdə mühəndislik, istehsal və tikinti sahələri üzrə ali məktəb məzunu qadınlar 28%, İKT üzrə 30%, təbiət elmləri, riyaziyyat və statistika üzrə 57%-ə (bu rəqəm Banqladeş, Burkino Faso və Burundidə 20%-dən aşağı, Bəhreyn, Maldiv, BƏƏ-də 80%-dən çox) təşkil edib. Səudiyyə Ərəbistanında 2019-cu ildə təbiət elmləri, riyaziyyat və statistikada dərəcə alan qadınlar 70%, mühəndislik, tikinti və istehsal üzrə isə 4% təşkil ediblər. Latın Amerikası ölkələri və Kariblərdə 40% STEM məzunu qadının 31%-i mühəndislik, tikinti və istehsal, 18%-i isə İKT sahəsini təmsil edir.

**Gender Fərqliliyi İndeksi və Gender Bərabərsizliyi İndeksi**

Dünyada müxtəlif sahələrdə gender fərqlərini ölçmək üçün fərqli gender metodikalarından istifadə olunur. Ən çox istinad olunan mənbələrdən Dünya İqtisadi Forumunun (World Economic Forum) GFİ- "Gender Fərqliliyi İndeksi" (Gender Gap İndex) və BMT-nin "Gender Bərabərsizliyi İndeksi" -nə müraciət edək.

**1. Qlobal Gender Fərqliliyi İndeksi (GGGI)**

Dünya İqtisadi Forumu tərəfindən hazırlanan bu indeks ölkələrdə gender bərabərliyini **dörd əsas sahə** üzrə qiymətləndirir:

- **İqtisadi iştirak və imkanlar**
- **Təhsil nailiyyətləri**
- **Sağlamlıq və həyat müddəti**
- **Siyasi səlahiyyətləndirmə**

İndeks 0 ilə 1 arasında dəyərləndirilir; 1 tam gender bərabərliyini ifadə edir.

**Azərbaycanın GGGI üzrə göstəriciləri:**

- **2020**: Azərbaycan 0.687 bal ilə 94-cü yerdə qərarlaşmışdır.
- **2021**: Eyni bal (0.687) ilə 100-cü yerdədir.
- **2022**: 0.687 bal ilə 101-ci yerdədir.
- **2023**: 0.688 bal ilə 100-cü yerdədir.

**1. Qlobal Gender Fərqliliyi İndeksi sahələr üzrə (GGGI)**

**2023-cü il**:

- **Ümumi bal**: 0.687 (68.7%) Human Development Reports+3World Economic Forum+3World Economic Forum+3
- **Qlobal sıralama**: 94-cü yer
- **Sahələr üzrə göstəricilər**:
  - **İqtisadi iştirak və imkanlar**: 0.748UN Women Data Hub+1Prosperity Data360+1
  - **Təhsil nailiyyətləri**: 0.996
  - **Sağlamlıq və həyat müddəti**: 0.941UNECE+1World Economic Forum+1
  - **Siyasi səlahiyyətləndirmə**: 0.063World Economic Forum

**2024-cü il**:

- **Ümumi bal**: 0.688 (68.8%) World Economic Forum+1Wikipedia – Die freie Enzyklopädie+1
- **Qlobal sıralama**: 100-cü yer Prosperity Data360
- **Sahələr üzrə göstəricilər**:
  - **İqtisadi iştirak və imkanlar**: 0.752 UNDP+22UN Women Data Hub+22World Economic Forum+22
  - **Təhsil nailiyyətləri**: 0.992
  - **Sağlamlıq və həyat müddəti**: 0.969 Wikipedia – Die freie Enzyklopädie
  - **Siyasi səlahiyyətləndirmə**: 0.031 Wikipedia – Die freie Enzyklopädie

Bu məlumatlar göstərir ki, Azərbaycanın ümumi gender bərabərliyi balı cüzi artıb (0.001), lakin qlobal sıralamada 6 pillə geriləyib. Xüsusilə, siyasi səlahiyyətləndirmə sahəsində ciddi geriləmə müşahidə olunur.

**2. Gender Bərabərsizliyi İndeksi (GII)**

BMT-nin İnkişaf Proqramı (UNDP) tərəfindən hazırlanan bu indeks gender bərabərsizliyini **üç əsas ölçü** üzrə qiymətləndirir:

- **Reproduktiv sağlamlıq** (ana ölümü nisbəti və yeniyetmə doğuş nisbəti)
- **Səlahiyyətləndirmə** (parlamentdəki yerlərin cinsə görə bölgüsü və orta təhsil səviyyəsi)
- **Əmək bazarında iştirak** (iştirak nisbətləri)

İndeks 0 ilə 1 arasında dəyərləndirilir; 0-tam bərabərliyi, 1 isə tam bərabərsizliyi ifadə edir.

**Azərbaycanın GII üzrə göstəriciləri:**

- **2019**: 0.323
- **2020**: 0.310
- **2021**: 0.294
- **2022**: 0.291

Bu göstəricilər Azərbaycanda gender bərabərsizliyinin azalma tendensiyasını göstərir, yəni vəziyyət tədricən yaxşılaşır.

**Ümumi təhlil**

Son 5 ildə Azərbaycanın GGGI və GII göstəricilərində müəyyən irəliləyişlər müşahidə olunur. Xüsusilə GII-də bərabərsizliyin azalması pozitiv tendensiyadır. Lakin GGGI-dəki sıralama və bal dəyişiklikləri minimaldır, bu da gender bərabərliyinin təmin olunmasında daha çox işlərin görülməsinin vacibliyini göstərir.World Population ReviewOur World in Data+2Human Development Reports+2Wikipedia+2

Bu addımlar Azərbaycanın gender bərabərliyi sahəsində daha yüksək nəticələr əldə etməsinə kömək edə bilər.

**Tövsiyələr**

- **Siyasi iştirakın artırılması**: Qadınların siyasətdə daha fəal iştirakını təşviq etmək üçün proqramlar hazırlanmalıdır.
- **İqtisadi imkanların genişləndirilməsi**: Qadın sahibkarlığını dəstəkləyən layihələr və maliyyə imkanları artırılmalıdır.
- **Təhsildə bərabərliyin təmin edilməsi**: Qızların STEM sahələrinə yönləndirilməsi və bu sahələrdə təhsilin təşviqi vacibdir.

**Nəticə**

Azərbaycanda maarifçilik dövründən başlayaraq (XIX əsrin sonu XX əsrin başlanğıcı) sovet dövrü də daxil olmaqla, qadınla bağlı ənənəvi stereotiplər kişilərlə müqayisədə daha çox dəyişmişdir. Bu, özünü aşkar formada təhsil və elm sahəsində bəlli edir. Qızlar və oğlanlar həm ümumi, həm də peşə təhsilində bərabər şəkildə təmsil oluna bilirlər. DİM hesabatlarından görünür ki, qızlar ilbəil nəticələrini yaxşılaşdıraraq öz oğlan həmyaşıdlarını üstələyə bilmişlər.

TIMSS-2019 kimi beynəlxalq qiymətləndirmələr göstərir ki, Azərbaycan xüsusilə ibtidai və ali məktəbdə Türkiyə, İran, Çin kimi ölkələri geridə buraxıb. Xaricdə təhsil üzrə Dövlət Proqramından istifadə edən qızların sayı da çoxalıb.

STEM sahəsinə cəlb olunan qızların sayı hökumətin tədbirləri, eləcə də beynəlxalq təşkilatlarla birgə həyata keçirilən müxtəlif tədbirlər (hakaton, startup layihələri, beynəlxalq yarışlar, mentorluq proqramları) sayəsində ilbəil artır. Amma bütövlükdə bu sahələrin səmərəli fəaliyyəti üçün uyğun infrastruktur (uyğun qanunvericilikdən tutmuş, biznes mühiti, eləcə də elmin inkişafına adekvat investisiya yatırımı) yaradılmasına ehtiyac var.

**İstifadə olunmuş ədəbiyyat**

1. Asian Development Bank 2019. Azerbaijan Country Gender Assessment. National Laws, Policies, Institutions, and International Commitments on Gender Quality, 1-10. https://www.adb.org/documents/azerbaijan-country-gender-assessment-2019
2. Bowen, G. A. 2009. Document Analyses as a Qualitative Research Method. Qualitative Research journal 9 (2): 27-40 https://www.emerald.com/insight/content/doi/10.3316/QRJ0902027/-full/html
3. Global Gender Gap report 2024.The World Economic Forum.
https://www.emerald.com/insight/content/doi/10.3316/QRJ0902027/full/html
4. Gender Inequality Index, 2022 https://ourworldindata.org/grapher/gender-inequality-index-from-the-human-development-report
5. Gender Göstəriciləri. Azərbaycanda qadınlar və kişilər. https://www.stat.gov.az-/source/gender/
6. Qəbul və buraxılış imtahanlarının nəticələrinin gender aspektləri. 2023-cü il https://dim.gov.az/storage/postFile/gender-2023-graypdf_19-07-2024_14-48-53.pdf
7. Gender (kişi və qadınların) bərabərliyinin təminatı haqqında məlumat https://family.gov.-az/store/media/gender_cap.pdf
8. Programme for International Student Assessment https://www.google.com/search?-q=pisa+assessment&rlz=1cdgoyı_enaz885az886&oq=pisa+as&gs_lcrp=egzjahjvbwuqbwgdeaayga qybggaeeuyotıhcaeqabiabdıhcaıqabiabdıhcamqabiabdıhcaqqabiabdıcauqabgwgb4ycaggeaayfhgem ggıbxaagbyyhjıcagqabgwgb4ycagjeaayfhge0geınjq2ogowajsoagkwaghiawqyasbf&hl=en-us&sourceid=chrome-mobile&ie=utf-8
9. Mullis, I.V. S, M.von Davier and all 2019. TIMSS 2019 International Results in Mathematics and Science. Chestnut Hill
10. Seyidzade, L.and Ismanovski S. 2020. Azerbaijan leads for women in STEM. New York: UN Development Programme. https://undp.medium.com/azerbaijan-leads-for-women-in-stem-6f53efa4f79d

11. UNDP Azerbaijan. 2007. Gender Attitudes in Azerbaijan: Trends and Challenges. Azerbaijan Human Development Report

12. UNDP 2022. Human Development Report 2021/2022. Uncertain times, Unsettled lives

**Rəyçi: f.e.d., prof. Rəna Mirzəzadə**

**UOT 316**
**https://doi.org/10.30546/ifs.2025.1(44).81**

# BU GÜNÜN QADIN ALİMLƏRİNİN ELMDƏ SƏSİ: MƏQSƏDLƏR VƏ HƏDƏFLƏR

**Təzəgül Qasımova**
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, **Azərbaycan**
tezegulgasimova@gmail.com
https://orcid.org 0000-0002-7629-9817

**Xülasə.** Məqalə elmdə qadınların və qızların beynəlxalq gününün qeyd edilməsinin əhəmiyyətinin qiymətləndirilməsi, onların elm sahəsindəki nailiyyətlərinin, məqsəd və hədəflərinin sistemli tədqiqinə həsr olunmuşdur. Bu günün qeyd edilməsi elmdəki qadınların gələcəyi və onların tədqiqatlarının rifahımıza verə biləcəyi töhfələr haqqında "gələcək nəsil" düşüncə dünyasına yeni bir pəncərə təqdim etməsi mövzunun təhlili zamanı diqqətə çatdırılır. İşdə nəzəri fikrə istinadən qeyd edilir ki, elmdə gender uçurumunun aradan qaldırılması üçün stereotipləri qırmaq, müxtəlifliyi və bərabərliyi təşviq edən siyasət və fəaliyyətlər vasitəsilə inklüziv bir mühit təmin etmək lazımdır. Bunun üçün də məqsəd və hədəf zamanında və düzgün müəyyən olunmalıdır.

**Məqsəd:** Elmdə bərabərsizliyin davamlı olması elm ictimaiyyəti üçün zərərlidir, bu da bizim kollektiv irəliləyiş və bilik axtarışımıza məhdudiyyətlər və maneələr qoyur. Elmin hamı üçün inklüziv olmasının vacibliyi haqqında düşüncələrimizi dəyişdirmək və bu problemin həllinə diqqəti çəkmək.

**Metodologiya:** Məqalə tarixi, müqayisəli təhlil və sistem metodları ilə tədqiq olunur.

**Elmi yenilik:** Qadınların və qızların zamanın tələbi olan elmə inteqrasiyası prosesinə və dayanıqlı inkişaf gündəliyinin bütün məqsəd və hədəflərinə tarixi-sistemlilik prinsipindən yanaşma.

**Açar sözlər:** elm, məqsəd və hədəflər, inklüziv mühit, gender bərabərliyi, elm və texnologiya, STEM, BMT və UNESCO

# ГОЛОС ЖЕНЩИН-УЧЕНЫХ В НАУКЕ СЕГОДНЯ: ЦЕЛИ И ЗАДАЧИ

**Тазагюль Гасымова**

**Резюме.** Статья посвящена оценке значимости празднования Международного дня женщин и девочек в науке, а также системному изучению их достижений, целей и задач в области науки. При анализе темы особое внимание уделяется тому факту, что празднование этого дня открывает новое окно в мир «следующего поколения», размышляющего о будущем женщин в науке. В работе, ссылаясь на теоретические идеи, отмечается, что для устранения гендерного разрыва в науке необходимо разрушить стереотипы и обеспечить инклюзивную среду посредством политики и мероприятий, поощряющих разнообразие и равенство. По этой причине цели и задачи должны быть определены своевременно и правильно.

**Цель:** сохранение неравенства в науке наносит ущерб научному сообществу, накладывая ограничения и препятствия на наш коллективный прогресс и стремление к знаниям. Изменить наше представление о важности инклюзивной науки для всех и привлечь внимание к решению этой проблемы.

**Методология:** статья исследована с использованием исторического, сравнительного анализа и системного методов.

**Научная новизна:** историко-систематический подход к процессу интеграции женщин и девочек в науку, что является требованием времени, а также ко всем целям и задачам повестки дня в области устойчивого развития.

**Ключевые слова:** наука, цели и задачи, инклюзивная среда, гендерное равенство, наука и технологии, STEM, ООН и ЮНЕСКО

## THE VOICE OF WOMEN SCIENTISTS IN SCIENCE TODAY: GOALS AND OBJECTIVES

**Tazagul Gasimova**

**Abstract.** The article has been devoted to assess the significance of celebrating the International Day of Women and Girls in Science, as well as a systematic study of their achievements, goals and objectives in the field of science. The fact that celebrating this day provides a new window into the world of thinking of the “next generation” about the future of women in science and the contributions that their research can make to our well-being has been brought to the attention during the analysis of the topic. The work, referring to theoretical ideas, notes that in order to eliminate the gender gap in science, it is necessary to break down stereotypes and ensure an inclusive environment through policies and events that encourage diversity and equality. For this reason, goals and objectives must be defined in a timely and correct manner.

**Purpose:** The persistence of inequality in science is harmful to the scientific community, which places restrictions and obstacles in our collective progress and search for knowledge. To change our thinking about the importance of inclusive science for all and to draw attention to the solution of this problem

**Methodology:** The article has been studied using historical, comparative analysis and systems methods.

**Scientific novelty:** A historical and systems approach to the process of integrating women and girls into science, which is a requirement of our time, and to all goals and targets of the Sustainable Development Agenda.

**Keywords:** science, goals and targets, inclusive environment, gender equality, science and technology, STEM, UN and UNESCO.

Gender bərabərliyi 2030-cu ilə qədər gender bərabərliyinə nail olunmasını və bütün qadınların və qızların səlahiyyətlərinin, rollarının artırılmasını nəzərdə tutan dayanıqlı inkişaf məqsədlərində sübut olunduğu kimi minillik qayğıdır. Bu gün təəssüf hissi ilə qeyd etmək lazımdır ki, bütün sosial təbəqələrdə və iqtisadi sektorlarda mövcud olan gender bərabərliyi elmi mühitdə də baş verir. Və tədqiqatlar da göstərir ki, bu sahədə qadınların fəaliyyəti və təmsil olunması kifayət qədər yüksək səviyyədə deyil. Bu gün qadınların elmi ictimaiyyətə inteqrasiya etməsi üçün göstərdikləri səylərə baxmayaraq, hələ də qeyri-kafi vəziyyətlə rastlaşmaq mümkündür. Burada iki yanaşma, iki mövzu önə çıxır. Birinci, geniş yayılmış mədəni xurafatdır, hansı ki, kişiləri davamlı olaraq ideal elm adamları, mühəndislər və texnoloji iştirakçılar kimi təsvir edir. İkincisi isə cəmiyyətdə qızların və qadınların ailədən qaynaqlanan elmi tədqiqatlarda iştirakına olan maneələrdir. Problemin təhlili zamanı tarixilik, sistemlilik prinsipindən davam etsək, məqsədimizə çatmış olarıq. İlk öncə onu qeyd edim ki, qadın və elm uzun müddət əl-ələ vermədilər. Yəni, bu iki anlayış uzun müddət bir yerdə anılmadı, bir yerdə təhlilə cəlb olunmadı, yəni uzlaşmadı. Əvvəlcə tarixi sual yaranır. Qadınların elmdə iştirakı qədimdir, yoxsa yalnız iyirminci əsrdə əhəmiyyət kəsb edir? Yəni, qadınlar uzun müddətdir elm adamlarıdır, yoxsa qadınların elmdə iştirakı XX əsr fenomenidir. Verilən bu suallar daha çox analitik xarakter daşıyır və ona görə də analitik təfəkkürün təhlilinə ehtiyac duyur. Yuxarıda qeyd etdiyimiz kimi, mövzuya tarixi yanaşma daha uyğun variant ola bilər. Dəyərləndirmək lazım olan ilk məqam odur ki, elmdə qadınların iştirakı yeni və ya müasir dünyanın nailiyyəti deyil, əslində,

qədimdir. Qədimdir deyəndə, yunan fiolosofu, riyaziyyatçısı və astronomu Hipatia yada düşür. Riyaziyyatçı, filosof olan Hipatia dövrün (IV əsr) məşhur riyaziyyatçısı Teanın qızı idi. O, 400-cü ildə məmləkətinə qayıdaraq İsgəndəriyyə Kitabxanasındakı Platon məktəbində dərs demişdir. O, bu məktəbdə müxtəlif inanclara malik tələbələrə Platon və Aristotelin təlimlərini öyrədirmiş. O, neoplatonizmin tərəfdarı olmuş, təbiəti məntiqlə, riyaziyyatla, təcrübə ilə izah etməyə çalışmışdır. (1). Hipatiyanı yada salmaqla qeyd etmək istərdim ki, hələ IV əsrdə elmdə qadınların rolu və səsi vardı. Əsrlər boyu qadınların elm sahəsinə verdikləri töhfələr, ixtiralar diqqətdən kənarda qalırdı və ya yaddan çıxarılırdı. Amma bu o demək deyil ki, qadın elmdən kənarda qalıb. 11-ci əsrdə ilk universitetlər yaradıldı, amma qadınlar əksər hallarda bu təhsildən kənarda qaldılar. Tibb sahələrində qadınların təhsilinə münasibət İtaliyada başqa ölkələrə nisbətən daha liberal görünürdü. Elmi tədqiqatlar sahəsində ilk tanınmış qadın XVIII əsr italyan alimi Laura Bass idi. XVIII əsrdə gender rollarında irəliləyişlər nəzərə çarpırdı. Mari Küri elm adamlarına yol açdı. Radiaktiv parçalanma ilə bağlı qabaqcıl tədqiqatlar apardı və fizika üzrə Nobel mükafatı alan ilk qadın oldu və kimya üzrə ikinci Nobel mükafatı alan ilk şəxs oldu. 1901-1922-ci illər arasında 60 qadın Nobel mükafatına layiq görülüb (3). Mari Küri elmdə qadınlar üçün ilhamverici bir fiqura çevrildi. Məhz elmdə beynəlxalq qadınlar və qızlar günü fevralın 11-nə Mari Kürinin doğum gününə təsadüf edir.

BMT yarandığı gündən qadın hüquqları, gender bərabərliyi problemi onun qarşısında duran vacib məsələlərdən biri olmuşdur. Dünyada qadına qarşı ayrı-seçkiliyin aradan qaldırılması, onların ictimai-siyasi həyatda, iqtisadi, sosial və mədəni inkişafın bütün sahələrində bərabər hüquqlarının gerçəkləşdirilməsi üçün eyni imkanların təmin olunmasına dövlətlərin diqqətinin cəlb edilməsi sahəsində bu qurum ən böyük təcrübəyə malik bir təşkilatdır desək, yanılmarıq. Bu nöqteyi- nəzərdən qadınların elmdə yeri və rolu, hüquqlarının müdafiəsi sahəsində BMT-nin fəaliyyətinə nəzər yetirmək məqsədəuyğun olardı. BMT-nin təşəbbüsü ilə keçirilmiş bir sıra tədbirlər qadın hüquqlarının müdafiəsi üzrə kampaniyalardan fərqli olaraq onlara daha intensiv və geniş dəstək verilməsini təmin etdi. 1945-ci ildə San Fransiskoda imzalanmış Xartiya cinslərin bərabərliyini fundamental insan hüquqlarının əsası kimi bəyan edən ilk beynəlxalq saziş olmuşdur. O vaxtdan bu günədək BMT tərəfindən dünyada qadınların statusunun yüksəlməsinə yönəlmiş bir sıra beynəlxalq strategiyalar və proqramlar hazırlanmışdır. Bu müddət ərzində BMT qadınların cəmiyyətdə rolunun gücləndirilməsi üzrə 4 əsas istiqamətdə fəaliyyət göstərmişdir:

- Qanunvericiliyin təkmilləşdirilməsi;
- Beynəlxalq və ictimai fəaliyyətin səfərbər edilməsi;
- Təhsil və tədqiqatlar;
- Qadın təşkilatlarının dəstəklənməsi (2).

Digər bir məqamı da qeyd etmək lazımdır ki, 1975-ci ildən keçirilən bütün beynəlxalq konfranslarda bu və ya digər dərəcədə qadın məsələlərinə toxunulmuşdur. Məhz o vaxtdan bəri BMT çərçivəsində ümumdünya qadın hərəkatının fəallığı da artmışdır. Üçüncü Ümumdünya konfransı (Nayrobi, Keniya, 1985-ci il) Qadın onilliyinin nəticələrini yekunlaşdırdı və konvensiya əsasında 2000-ci ilə qədər perspektiv strategiyalar tərtib etdi. Nayrobi strategiyaları o prinsiplərdən aşağıdakıları prioritet kimi müəyyən etmişdir: qeyri-bərabərliyi müəyyənləşdirən, şərtləndirən qanunvericiliyi təkmilləşdirmək; ədalətsiz sosial-iqtisadi strukturun dəyişdirilməsinə səylər göstərmək; səhiyyə, təhsil sahələrində işə götürülmə, ailədə birgə əməyə həvəsləndirmə, əməkdaşlıq, qarşılıqlı kömək, dövlətin və cəmiyyətin idarəolunmasına qadınların fəal şəkildə cəlb edilməsi və s. Gender tədqiqatları, ümumiyyətlə, bütün insan hüquqlarının qorunmasını elmi-nəzəri, həm də praktik olaraq gerçəkləşdirməyə çalışan praktik bir sahədir. Bu tədqiqatlar milli, irqi, kulturoloji və konfessional səviyyədə geniş bir ümumiləşdirməyə gəlib çatmışdır. Müasir dövr tədqiqatçıları, məsələn, sosioloqlar hakimiyyət və siyasətdə qadın, elmdə qadın, keçid dövrünün qadını, qadın-lider, qadın-alim, qadın- rəhbər, qadın-ana-lider-rəhbər, qadın davranışının psixologiyası və s. kimi mövzularda tədqiqatlar aparırlar. Eyni zamanda ənənəvi cəmiyyət modeli, bu cəmiyyətdə dəyərlərin yeri və rolu, sosial rolların düzgün bölüşdürülməsi kimi məsələlər də həmişə gender tədqiqatlarının nüvəsini təşkil edirdi.

Qadınlar və qızlar dünya əhalisinin yarısını təşkil edir və deməli, potensialın da yarısını təşkil edir. Gender bərabərliyi fundamental insan hüququ olmaqla yanaşı, tam insan potensialına və

davamlı inkişafa malik dinc cəmiyyətlərə nail olmaq üçün də vacibdir. Gender bərabərliyi həmişə BMT üçün əsas məsələ olub. Və bu təşkilatın həyata keçirdiyi tədbirlərin əməli nəticəsi ondan ibarət olub ki, gender bərabərliyi, qadınların və qızların səlahiyyətlərinin artırılması təkcə dünyanın sosial iqtisadi inkişafına deyil, həm də 2030-cu il Dayanıqlı İnkişaf Gündəliyinin bütün məqsəd və hədəfləri üzrə irəliləyişlərə mühüm töhfə verəcək. İrəli sürdüyü ideyaları həyata keçirmək üçün növbəti addım isə BMT Baş Assambleyasının 2015-ci il dekabrın 22-də qəbul etdiyi qətnaməyə əsasən Qadınların və qızların elm və texnologiyada oynadığı mühüm rolu tanımaq üçün hər il qeyd edilən Beynəlxalq günün təsis olunması qərarına gəlmək idi. Fevralın 11-də qeyd olunan bu beynəlxalq gün qadınlar və qızlar üçün elmə tam və bərabər çıxışı və iştirakı təşviq üçün bir fürsətdir. Eyni zamanda qeyd etmək lazımdır ki, gender bərabərliyi YUNESCO üçün qlobal prioritetdir və gənc qızların dəstəyi, onların təhsili və ideyalarını eşitdirmək üçün bir vasitədir. Bu beynəlxalq günün 10-cu ildönümünün qeydi, yəni bu ilki tədbirlər seriyası 11 fevralda hibrid formada STEM karyerasının açılması, elmdə onun səsi mövzusuna yönəlmişdir. Bu fəaliyyət çərçivəsində diqqət çəkən bir məsələ də odur ki, YUNESCO-nun “Elmdə gender uçurumunun bağlanması” adlı Fəaliyyət Çağırışlarına da bu ilki tədbirlərdə yer verilmişdir. Elmdə gender bərabərliyi daha yaxşı gələcək qurmaq üçün çox vacibdir. Lakin qadınlar və qızlar elmi karyera qurmaqda sistemli maneələr, qərəzlərlə üzləşməkdə davam edirlər. Elmdə bu uçurumun aradan qaldırılması üçün stereotiplərin qırılması, qızları ruhlandırmaq üçün rol modellərində təşviq edilməsi, məqsədyönlü proqramlar vasitəsilə qadınların irəliləyişinin dəstəklənməsi üçün inklüziv mühitin formalaşması tələb olunur. Qadınlar elm sahəsində irəlilədikcə gender fərqi genişlənməkdə davam edir. Aparılan tədqiqatlar göstərir ki, idarəetmə strukturlarında yüksək vəzifələrdə qadınların nisbəti qeyri-mütənasib olaraq qalır. Məsələn, süni intellekt kimi qabaqcıl sahələrdə hər beş mütəxəssisdən yalnız biri (22%) qadındır. Dördüncü Sənaye İnqilabına aparan əksər texnoloji sahələrdə bacarıq çatışmazlığına baxmayaraq, qadınlar hələ də məzunların yalnız 28%-ni və kompüter elmləri və informatika üzrə məzunların 40%-ni təşkil edir (2). Sadalanan statistik göstəricilərə baxmayaraq, bir çox elm sahələrində qadın alimlər artıq öz sözlərini deyirlər. Müasir öncüllər bir çox görkəmli qadın alimlər elm, təbiəti mühafizə və fəallıq sahələrindəki töhfələri ilə dünyaya təsir göstərmişlər. Avstriyalı Keti Foli fizika sahəsində, avstriyalı Nobel mükafatı laureatı, bioloq Elizabet Blakurn yaşlanma və xərçəng tədqiqatlarında açar olan telemerozanı kəşf etdi. Lyun Konvey- amerikalı komputer alimi, Emma Conston - dəniz bioloqu, Anma Mur – astronom, professor, Veena Sahavalla - təkrar emal və emal sahələrində yeniliklər edən qadın alimlərdəndir. Bu gün qlobal dünyanın diqqətini çəkən problemlərdən olan İqlim fəaliyyətinin ön cəbhəsində olan qadın alimlər də diqqətdən kənarda qalmır. Katrin Boven, Aditi Mukerji, Rakşan Begum, Sherli Harper və s. göstərmək olar. Mövzunun təhlilində əvvəldə qeyd etdiyim kimi, gözlənilən nəticəyə çatmaq üçün sistemliliyi unutmaq olmaz. Yəni, qoyulan problemin koqnitiv dərki zamanı məntiqi ardıcıllığı gözləmək daha məqsədəuyğun olardı. Problemə sistemli yanaşmada növbəti istiqamət bu beynəlxalq günün əsas “səsini” müəyyən və təhlil etməkdir. Bu “səs” nədir? STEM karyeraları açmaq – elmdə onun səsidir. Əminliklə qeyd edə bilərik ki, 2025-ci il STEM-də qadınlar üçün yeni bir dövrdür. Elmdə qadınların və qızların beynəlxalq gününü qeyd edərkən biz həm də əldə edilmiş tərəqqi, həm də hələ görülməli olan işləri tanımalıyıq. Bu beynəlxalq günlə bağlı silsilə tədbirlər keçirməklə, STEM-də qadınların səsini ruhlandıra və onların töhfələrinin tanınmasını və qiymətləndirilməsini təmin edə bilərik. Elmin gələcəyi müxtəliflik və inklüzivlikdən çox asılıdır. STEM-də qadınları dəstəkləməklə elmi ictimaiyyətin yaradıcılıq qabiliyyəti, innovasiya və problemləri həll etmək imkanları daha da güclənir və genişlənir. Elmdə müxtəlifliyə üstünlük verən Beynəlxalq Elm Şurası “işləyən alim” layihəsini də irəli sürüb. Bu da beynəlxalq günün səsinin “açar” layihələrindəndir. Bu seriya müxtəlifliyin elmdə niyə vacib olduğunu, niyə onun yaxşı elm yaratdığını, fərqli perspektivləri necə birləşdirdiyini sübut və göstərməyə çalışır. Bu günün alimləri bu günün elmi, bu günün qlobal tələblərini təmin etmək istəyirsə, dünyada mövcud olan bütün potensial biliklərdən istifadə etməlidir. Tədqiq olunan problemin dərk olunması kontekstində müxtəliflik və inklüzivlik vacib şərtlərdəndir. Mövzunun təhlili prosesində cavab verilməli olan əsas istiqamətlərdən biri də bu beynəlxalq günün məqsəd və hədəflərinin müəyyənləşdirilməsidir.

Gender bərabərliyinin təşviqi – STEM fənlərində gender bərabərliyinə nail olunmasının vacibliyini vurğulamaq, eyni zamanda elm, təhsil və karyerada qadınlar və qızlar üçün bərabər imkanlar əldə edilməsini təşviq etmək;

Nailiyyətləri vurğulamaq – yəni qadın alimlərin nailiyyətlərini və yeniliklərini qeyd etmək, eyni zamanda tədqiqat, texnologiya və elmi nailiyyətlərə töhfələrini nümayiş etdirmək;

Gələcək nəsilləri ruhlandırmaq – qərəzlərə, stereotiplərə qarşı mübarizə, qərəzlərə meydan oxumaq, karyera üçün həvəsləndirmək;

İnklüzivliyi təbliğ etmək – qərar qəbuletmədə və liderlikdə qadınların iştirakına təşviq.

Növbəti diqqət yetiriləsi məqam hədəfə çatmağın yollarını müəyyənləşdirməkdir. İlk öncə konfrans və seminarlar keçirilməsidir ki, bu da müzakirə və bilik mübadiləsi üçün platforma yaradır.

Rol modelinin tanınması – yəni uğur qazanmış qadınlar və qızlar ictimaiyyətə tanıdılır, nailiyyətləri qeyd olunur və təbliğ olunur.

STEM tədqiqat proqramları - praktik təcrübə və təbliğat proqramları vasitəsilə təşviq.

Sosial Media kampaniyaları – qeyd olunan gün sosial media vasitəsilə təbliğ olunur, qadınların hekayələri, profilləri və nailiyyətləri paylaşılır. (4)

**Nəticə**

Beynəlxalq günün qeyd edilməsi elmi ictimaiyyətdə müxtəlifliyin və inklüzivliyin vacibliyini bir daha yada salır. Eyni zamanda bu gün qeyd olunmaqla, bir daha qadınların və qızların tarix boyu STEM sahələrinə əhəmiyyətli töhfələr verdiyini və bərabər imkanlara və tanınmağa layiq olduğunu qeyd edir. Bu tədbir gender bərabərliyinə sadiqliyimizi bir daha təsdiqləməyə və gənc zehinləri STEM-in sonsuz imkanlarını araşdırmağa təşviq etmək üçün fürsətdir. Nəticəni sadə bir tənliklə tamamlaya bilərik. Elmdə daha çox qadın və qız daha yaxşı elmə bərabərdir. Qadınlar və qızlar tədqiqatlara müxtəliflik gətirir, elm mütəxəssislər fondunu genişləndirir, elm və texnologiyaya yeni perspektivlər təqdim edərək hamıya fayda gətirir. BMT-nin elmdə qadınlar və qızlar beynəlxalq gününün qeyd edilməsi elmi ictimaiyyətdə bərabərlik, müxtəliflik və inklüzivliyin vacibliyini vurğulayır. Bu, təkcə mənəvi öhdəlik deyil, elmi cəhdlərin tam potensialını açmaq üçün mühüm addımdır. Müxtəlif komandaların sinerjisi elmi ciddiliyi artırır, unikal perspektivlər gətirir və qərəzləri azaldır. İnklüzivlik gələcək nəsillər üçün ilham mənbəyinə çevrilir və etik imperativlərlə problemsiz uyğunlaşır. Bərabərlik, müxtəliflik və inklüzivliyin prioritetləşdirilməsi ədalətli, innovativ və təsirli elmi ictimaiyyətin yaradılmasını təmin edir. Bu da öz növbəsində həm tədqiqatçılara, həm də cəmiyyətə fayda gətirir, çünki mürəkkəb problemləri həll edir və biliyin sərhədləri ilə irəliləyir.

**İstifadə olunmuş ədəbiyyat**

1. https://mathshistory.st-andrews.ac.uk/Biographies/Hypatia/
2. https://www.un.org/en/observances/women-and-girls-in-science-day/
3. https://www.worldwomenconference.org
4. Women in Science; Girls in STEM // https://www.womeninstem.co.uk/

**Rəyçi: f.e.d.. prof. Rəna Mirzəzadə**

**UOT 316**
**https://doi.org/10.30546/ifs.2025.1(44).86**

# AZƏRBAYCANIN SUVERENLİYİNİN DE-FAKTO VƏ DE-YURE TƏMİN OLUNMASI PROBLEMİ

**Xanımağa İsmayılova**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, **Azərbaycan**
xanimagaismayilova772@gmail.com
orcid ID-0000-0002-8657-1220

**Xülasə.** Bu məqalə 2024-cü il dekabrın 28-də Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı Sərəncamla bağlı dövlət suverenliyinə, onun Azərbaycanda de-yure təmin olunmasının təhlilinə həsr olunmuşdur. Ermənistan tərəfindən torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması Azərbaycanın suverenliyini de-fakto etmiş, torpaqlarımızın işğaldan azad edilməsi ilə ölkəmizin ərazi bütövlüyü, suverenliyi de-yure bərpa edilmişdir. 2024-cü il sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilmişdir. Məqalədə suverenliyin konstitusiya əsasları haqqında daha ətraflı məlumat verilir və göstərilir ki, suverenlik dövlətin çox mühüm təməlidir.

**Açar sözlər:** dövlət, Prezident, konstitusiya, suverenlik, de-fakto, de-yure

# ПРОБЛЕМА ОБЕСПЕЧЕНИЯ ДЕ-ФАКТО И ДЕ-ЮРЕ СУВЕРЕНИТЕТА АЗЕРБАЙДЖАНА

**Ханымага Исмайлова**

**Резюме.** Данная статья посвящена анализу государственного суверенитета Азербайджана и его де-юре, в связи с подписанным Президентом Азербайджанской Республики Ильхамом Алиевым Указом от 28 декабря 2024 года об объявлении 2025 года «Годом Конституции и суверенитета» в Азербайджанской Республике. Тот факт, что почти 30-летняя оккупация 20 процентов наших земель, в результате агрессии Армении против Азербайджана, не позволяла применять суверенные права Азербайджанской Республики на этих территориях - де-факто, а с освобождением наших земель от оккупации, территориальная целостность и суверенитет нашей страны были восстановлены - де-юре. 20 сентября 2024 года объявлен Днем Государственного Суверенитета Азербайджанской Республики. В статье более подробно представлена информация о конституционных основах суверенитета и показано, что суверенитет является важнейшей основой государства.

**Ключевые слова:** государство, президент, конституция, суверенитет, де-факто, де-юре

# THE PROBLEM OF ENSURING THE DE FACTO AND DE JURE SOVEREIGNTY OF AZERBAIJAN

**Khanimagha Ismailova**

**Abstract.** This article is dedicated to the analysis of state sovereignty and its de jure implementation in Azerbaijan in connection with the decree signed by the President of the Republic of Azerbaijan, Ilham Aliyev on December 28, 2024, declaring 2025 as the “Year of the Constitution and Sovereignty.”

The occupation of 20 percent of Azerbaijan’s territory by Armenia for largely 30 years rendered Azerbaijan’s sovereignty de facto.

However, with the liberation of these lands, the territorial integrity and sovereignty of the country were restored de jure. On September 20, 2024, Azerbaijan declared the State Sovereignty Day. The article provides more detailed information on the constitutional foundations of sovereignty

**Keywords:** State, President, constitution, sovereignty, de facto, de jure

Suverenlik və ərazi bütövlüyü hər bir dövlətin həyatı və fəaliyyəti üçün əsas əhəmiyyət kəsb edir, çünki onun bünövrəsini təşkil edir, onsuz dövlət mövcud ola bilməz. Onların de-yure reallaşması Azərbaycanın milli təhlükəsizliyinin təmin edilməsi sahəsində əsas vəzifələrdən biridir. De-yure – qanuni olaraq beynəlxalq hüquqda dövlətin və ya hökumətin tam rəsmi tanınmasıdır. De-fakto – əslində, beynəlxalq hüquqda dövlətin və ya hökumətin rəsmi, lakin natamam tanınması mənasını verən tanınma formalarından biridir. Adətən, de-fakto tanınma müvəqqəti xarakter daşıyır, de-yure tanınmadan əvvəl bir növ keçid mərhələsidir.

“Suverenliyi dövlətin, ictimai siyasi hakimiyyətin keyfiyyəti kimi, dövlətin bir növ “ödəmə qabiliyyəti” ilə, onun təsisatlarının öz iradəsi əleyhinə, de-fakto və ya de-yure milli dövlətçilikdən kənar fəaliyyət göstərən hər hansı digər subyektlərin özbaşınalığı olmadan bütün siyasət miqyasını həyata keçirmək qabiliyyəti ilə əlaqələndirmək olar. Burada suverenlik milli hakimiyyət orqanlarının həlledici kənar müdaxilə olmadan daxili və xarici siyasəti həyata keçirmək qabiliyyəti ilə təmsil olunur” (4).

Suverenlik dövlətin elə bir fundamental keyfiyyətidir ki, dövlət-hüquqi inkişafın müasir demokratik paradiqmasında ümumi müzakirə olunan bütün digərlərinin meydana çıxmasını əvvəlcədən müəyyən edir. Belə nəticəyə gəlmək ağlabatandır ki, suverenlik özünü hansı formada təzahür etdirməsindən asılı olmayaraq – özəl və ya ictimai hüquqda təhlükəsizliyin və ədalətin, iqtisadi rifahın və s. təzahürüdür.

“Dövlət suverenliyi (alm. Souveränität, fransızcadan: souverainete - ali hakimiyyət) dövlətin daxili və xarici siyasət fəaliyyətində müvafiq formalarda təzahür edən dövlət hakimiyyətinin aliliyi və müstəqilliyidir. “Suverenlik” termini dövlət və hüquqi mənada ilk dəfə 16-cı əsrdə fransız alimi J. Boden tərəfindən tətbiq edilmişdir. Suverenlik ideyası burjuaziya tərəfindən mütləqiyyətə və feodalizmə qarşı mübarizədə kütlələri öz tərəfinə çəkmək üçün istifadə olunurdu. Müxtəlif sosial-iqtisadi formasiyalarda suverenlik müxtəlif məzmun kəsb edir. Çünki həlledici amil dövlət hakimiyyətinin sosial mahiyyəti və verilmiş cəmiyyətin iqtisadi strukturudur” (5).

Suverenlik ilk növbədə dövlətin öz funksiyalarını həyata keçirməsi qaydasında həyata keçirilir. Lakin o, daha çox dövlət hüquqları, o cümlədən suveren hüquqlar sistemində özünü göstərir. Məhz dövlət hakimiyyətinin faktiki həyata keçirilməsini təmin edən dövlətin səlahiyyətləridir. Cəmiyyətdə qanunun və qaydanın bərqərar olması, vəzifəli şəxslərə, ictimai təşkilatlara və vətəndaşlara hüquqlar verilməsi və vəzifələr qoyulması – bütün bunlar dövlət hakimiyyətinin aliliyini, onun hər hansı digər hakimiyyət münasibətlərinə (məsələn, ailə, kollegial) münasibətdə müəyyənedici mövqeyini xarakterizə edir. Yalnız dövlət hakimiyyəti cəmiyyət həyatının bütün sahələrinə mötəbər təsir göstərmək, lazım gəldikdə isə məcbur etmək qabiliyyətinə malikdir ki, bu da ona hərtərəfli, suveren xarakter verir. Dövlət hakimiyyətinin dövlət daxilindəki gücü onun xaricdəki müstəqilliyi ilə sıx bağlıdır. Dövlət statusu onu beynəlxalq hüququn müstəqil subyekti kimi çıxış etdiyi beynəlxalq münasibətlərdə müstəqil edir. Dövlətin xarici siyasəti ictimai-siyasi sistemindən, iqtisadi inkişafından, ərazisi baxımından, əhalisinin sayından və digər şəraitdən asılı olmayaraq bütün dövlətlərin suveren bərabərliyinə əsaslanır. Dövlətlərin suveren bərabərliyinin bu prinsipi BMT Nizamnaməsində təsbit edilmişdir və müasir beynəlxalq hüququn hamı tərəfindən qəbul edilmiş prinsiplərindən biridir. “Suverenlik” anlayışı uzun müddətdir bilavasitə keçmişdə mütəfəkkirlərin dövləti müəyyən etmək üçün istifadə etdiyi “suveren hökmdar” anlayışı ilə bağlıdır. Müxtəlif sferalarda beynəlxalq mexanizmlərlə oynayan bir çox ölkələrin hakimiyyət orqanları daxili siyasətdə faktiki olaraq müstəqilliklərini itirmişlər ki, bu da dövlətlər tərəfindən suverenlik və konstitusiya, identiklik keyfiyyətlərinin itirilməsinə səbəb olmuşdur. Milli hakimiyyət orqanlarının bu yanaşması fövqəlmilli qurumların hədsiz fəaliyyətinin katalizatoruna çevrilib və bu da beynəlxalq yardımçı

strukturların milli dövlətçiliyə təzyiqinin artması ilə nəticələnib. Belə nəticəyə gəlmək olar ki, yalnız milli yurisdiksiyaların sərhədlərinin müəyyən edilməsində subsidiarlıq prinsipinə riayət etməklə onun bütün iştirakçılarının maraqlarına cavab verən tənzimləmə sistemi qurmaq olar.

Dövlətin ərazi bütövlüyü dövlətlərarası münasibətlərdə sabitliyin təmin edilməsinə yönəlmiş beynəlxalq hüququn fundamental prinsiplərindən biridir. 1945-ci ildə BMT Nizamnaməsinin qəbulu ilə əsası qoyulan bu prinsipin mahiyyəti dövlətin ərazisinin istənilən təcavüzdən, müdaxilələrdən qorunmasıdır. BMT Nizamnaməsi hər hansı bir dövlətin ərazi bütövlüyünə (toxunulmazlığına) və siyasi müstəqilliyinə qarşı güc tətbiq etmək hədəsini və ya güc tətbiqini qadağan edirdi. Dövlətin ərazi bütövlüyü onun sərhədlərinin toxunulmazlığı və ərazisinin toxunulmazlığı deməkdir. Azərbaycan Respublikasının Konstitusiyası birbaşa Azərbaycandan öz ərazisinin bütövlüyünü və toxunulmazlığını təmin etməyi tələb edir. 2024-cü il dekabrın 28-də Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı Sərəncamda göstərilir:

“Konstitusiyanın preambulasında Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması başlıca niyyətlərdən biri kimi bəyan edilmişdir. Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın müddətdə işğal altında qalması Azərbaycan Respublikasının suveren hüquqlarının həmin ərazilərdə tətbiqinə imkan verməmişdir. Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi Azərbaycan xalqının milli ideyasının əsas məqsədlərindən birinə çevrilmiş, cəmiyyətimizin bütün resursları bu taleyüklü vəzifənin həllinə yönəldilmişdir.

2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19–20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli 294 nömrəli Sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilmişdir.

Konstitusiyamızın bəyan etdiyi niyyətlərdən biri kimi ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğunu, 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

2025-ci il Azərbaycan Respublikasında “Konstitusiya və Suverenlik İli” elan edilsin” (1).

Azərbaycan Respublikasının dövlət bütövlüyü konstitusiya prinsipidir, yəni Azərbaycan Respublikası ayrı-ayrı tərkib hissələrinin cəmi deyil, vahid, bölünməz bir dövlətdir. Onun bütövlüyü hakimiyyət sisteminin birliyi, vahid iqtisadi məkan, ərazi üstünlüyü və qanunun aliliyi ilə təmin edilir. Azərbaycan Respublikasının dövlət bütövlüyü ərazi bütövlüyü və siyasi bütövlüyü və ya ölkənin siyasi (dövlət) birliyi ilə xarakterizə olunur. Azərbaycan Respublikası: Azərbaycan Respublikasının bərabər subyektləri olan ərazilərdən, respublika əhəmiyyətli şəhərlərdən, muxtar vilayətdən və rayonlardan ibarətdir. Azərbaycan Respublikasının quruluşu onun dövlət bütövlüyünə, dövlət hakimiyyəti sisteminin birliyinə, Azərbaycan Respublikasının dövlət orqanları ilə Azərbaycan Respublikasının təsis qurumlarının dövlət orqanları arasında yurisdiksiya sahələrinin və səlahiyyətlərinin delimitasiyasına, Azərbaycan Respublikasında xalqların bərabərliyinə əsaslanır.

“Dövlətin ərazi quruluşunun yaranmasının və inkişafının tarixi aspektlərinin öyrənilməsi müasir Azərbaycan Respublikası əhalisinin ölkə Konstitusiyasının 11-ci maddəsi ilə təsbit edilmiş ərazi üzərində suverenlik hüququnun əsaslandırılması üçün mühüm əhəmiyyət kəsb edir. Konstitusiyanın müqəddiməsində göstərilmişdir ki, Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq, məskunlaşdığı tarixi ərazidə dövlət qurmaq hüququndan istifadə edərək, Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq niyyətini bəyan edir. Azərbaycan Respublikasının dövlət suverenliyinin, ərazi bütövlüyünün və dövlət sərhədinin toxunulmazlığının təmin edilməsi sahəsində hüquqi, təşkilati və iqtisadi yönümlü tədbirlərin həyata keçirilməsinin əsas məqsədi dövlətin ərazi quruluşunun sabitliyinə nail olmaqdan ibarətdir” (2, s.3).

Xalqların və dövlətlərin mövcudluğu onların suverenliyi olmadan mümkünsüzdür. Bütün ölkələrin konstitusiyalarında təsbit olunub ki, suverenliyin mənbəyi xalq, onun suverenliyini həyata keçirən vasitə isə dövlətdir.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün mühüm təminatı dövlət sərhədinin, ərazisinin, sularının, hava məkanının və s. statusunun müəyyən edilməsi və mühafizəsi ilə bağlı bütün məsələlərin dövlət orqanlarının müstəsna yurisdiksiyası altında həlli yollarının cəmlənməsidir. Buraya müharibə və sülh, müdafiə və təhlükəsizlik məsələləri, silah, sursat, hərbi texnika və digər hərbi əmlakın alqı-satqısı və alınması qaydasının müəyyən edilməsi, habelə xarici siyasət və beynəlxalq münasibətlər, Azərbaycan Respublikasının beynəlxalq müqavilələri və xarici iqtisadi əlaqələri və s. məsələləri əlavə etmək lazımdır.

Dövlət hakimiyyəti xüsusi əlamətlərlə – suverenlik, alilik, müstəqillik, sər-bəstliklə xarakterizə olunur. Dövlət hakimiyyəti anlayışı ilə “dövlət suverenliyi” anlayışı six bağlıdır. Suverenlik – hakimiyyətin özu, yəni onun ali və müstəqil hüquqi hakimiyyət olmasını təmin edən bir əlamətdir.

Əsas dəyərləri ilə Konstitusiya bir tərəfdən beynəlxalq hüququn milli qanunlardan üstünlüyünü tanıyır, və bu, ilk növbədə, beynəlxalq hüququn hamı tərəfindən tanınmış prinsip və normalarına uyğun olaraq insan və vətəndaş hüquq və azadlıqlarının tanınması, riayət edilməsi və qorunmasıdır, digər tərəfdən, Konstitusiya Azərbaycan Respublikasının BMT çərçivəsində digər suveren və bərabərhüquqlu millətlərlə birləşmiş bir millət kimi dövlət suverenliyini təsbit edir. Konstitusiyanın aliliyi bütün Azərbaycan xalqının suverenliyinin ən yüksək ifadəsidir.

“XX əsrin ortalarınadak demnk olar ki, bütün dövrlərin dövlət xadimlən suverenliyi dövlətin hər hansı bir əlaməti kimi, yəni onun hakimiyyət səlahiyyətlərinin əsası kimi görmək istəyirdibr. Əslində isə dövlət hakimiyyəti yalnız xalqın suveren hüquqlarının nəticəsi olaraq xalq tərəfındən müəyyən olunınuş hədlərdə səlahiyyətlərə malikdir.Hakimiyyət və onu təmsil edən orqanlar suverenliyə malik deyillər. Çunki sonuncu dövlətin əlamətidir” (3, s.32).

Siyasi bütövlük dövlət hakimiyyətinin birliyi ilə xarakterizə olunur. Əgər onun bütün ərazisində siyasi bütövlüyü (dövlət birliyi) yoxdursa, dövlətin bütövlüyü mümkün deyildir. Siyasi bütövlük, öz növbəsində, bütün vətəndaşların qanun və məhkəmə qarşısında bərabərliyi ilə təmin edilir; onun əldə edilməsi üçün əsaslardan asılı olmayaraq, vahid və bərabərhüquqlu vətəndaşlığı təmin edilir; Azərbaycan dili Azərbaycan Respublikasının bütün ərazisində vahid dövlət dili kimi müəyyən edilir və s.

Beləliklə, müxtəlif təzahürlərdə suverenliyə tənzimləyici bazada kifayət qədər diqqət yetirilir, lakin hələ də əlavə qanunvericilik işini tələb edən sahələr var.

20-ci əsrin sonlarından başlayaraq suverenliyin kibertəhlükəsizliyin müxtəlif təzahürlərində təmin edilməsi məsələləri tədricən siyasi və hüquqi gündəmə daxil olmuşdur. Bu cür təzahürlərə informasiya - kommunikasiya texnologiyaları vasitəsilə dövlətin daxili işlərinə (məsələn, seçkilərə) müdaxilənin qarşısının alınması, vətəndaşların və təşkilatların məlumatlara “kənardan” icazəsiz girişdən qorunması, ayrı-ayrı dövlətlərdə daxili siyasi vəziyyətin sabitliyini pozmağa yönəlmiş informasiya təzyiqinə qarşı mübarizə daxil ola bilər.

Beynəlxalq birliyin, dövlətlərarası və millətlərarası münasibətlərin indiki inkişaf mərhələsində suverenlik və ərazi bütövlüyü problemi getdikcə aktuallaşır. Hazırda nəzərdən keçirilən milli vəzifələr arasında iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması, Azərbaycan Respublikasının investisiya cəlbediciliyinin artırılması, xarici bazarlarda ayrı-seçkiliyə qarşı mübarizə, ÜDM-in köklü artımı, Azərbaycan Respublikasının qlobal iqtisadi sistemə inteqrasiyası, elmi-texniki, təhsil, mədəniyyət və humanitar əlaqələr sahəsində əməkdaşlıq əsasında ölkənin modernləşdirilməsi məqsədilə xarici siyasət fəaliyyətinin inkişafı daxildir.

Azərbaycanın xarici siyasətinin ən yüksək prioriteti fərdin, cəmiyyətin və dövlətin maraqlarının qorunmasıdır. Bu proses çərçivəsində əsas səylər ölkənin etibarlı təhlükəsizliyini təmin etmək, onun suverenliyini və ərazi bütövlüyünü qorumaq və möhkəmləndirmək, dünya birliyində güclü və nüfuzlu mövqelərə və bu kimi əsas məqsədlərdən birinə nail olmağa yönəldilmişdir ki, bu da Azərbaycan Respublikasının müasir iqtisadi inkişafı üçün zəruri olan böyük dövlət kimi maraqlarına cavab verir.

Azərbaycanın suverenlik anlayışı müasir dünyada Azərbaycanın fiziki və psixoloji qorunmasının, milli dövlətçiliyin və etnik kimliyin, demokratiyanın qorunması və genişləndirilməsi yolu ilə suverenliyin əldə edilməsinin şərti kimi müəyyən edilə bilər.

Son onilliklərdə dünyada baş verən çoxsaylı dəyişikliklərə baxmayaraq, suverenlik əksər dövlətlərin konstitusiya sisteminin əsasını təşkil edir. Bu gün demokratik hüquqi dövlətlərin suverenlik dairəsi daxili və xarici amillərlə, habelə hüquqi normalarla əhəmiyyətli dərəcədə məhdudlaşır. Bununla belə, konstitusiyada təsbit edilmiş müddəalar, dövlətin ərazisində dövlət hakimiyyətinin aliliyi, müstəqilliyi və muxtariyyəti, beynəlxalq ünsiyyətdə müstəqillik, ərazinin bütövlüyü və toxunulmazlığının təmin edilməsidir.

Azərbaycan bərabərlik, qarşılıqlı hörmət və qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərinə əsaslanan sabit beynəlxalq münasibətlər sistemində maraqlıdır. Bu sistem dünya birliyinin hər bir üzvünün siyasi, hərbi, iqtisadi, humanitar və digər sahələrdə etibarlı təhlükəsizliyini təmin etmək üçün nəzərdə tutulub.

Hərbi qüvvə dövlətlər arasında münasibətlərdə öz əhəmiyyətini saxlasa da, iqtisadi, siyasi, elmi-texniki, ekoloji və informasiya amilləri getdikcə daha mühüm rol oynayır. Azərbaycan Respublikasının milli gücünün əsas komponentləri kimi intellektual, informasiya və kommunikasiya imkanları, əhalinin rifahı və təhsil səviyyəsi, elmi və istehsal resurslarının birləşmə dərəcəsi, maliyyə kapitalının konsentrasiyası və iqtisadi əlaqələrin şaxələndirilməsi ön plana çıxır. Bu da güclü dövlətin milli və iqtisadi təhlükəsizliyinin əsasını təşkil edən əsas amillərdən biridir.

Bəzi müəlliflərin iddia etdiyi kimi, bu gün Azərbaycan üçün artıq suverenliyin zəruriliyi müzakirə edilmir. Əsas məsələ suverenliyin necə qorunub saxlanması və demokratik təsisatların mövcudluğunun təmin edilməsidir. Ölkəni xarici təhlükələrdən qorumaq üçün standart dövlət hərbi maşınının əvvəllər istifadə olunan mexanizmləri eyni effekti vermir. Əksinə, effektiv vasitə güclü milli iqtisadiyyat, sənaye, vətəndaşların məşğulluğu, layiqli həyatı təmin edən ədalətli gəlirlər və bütün bunların nəticəsində ölkənin milli təhlükəsizliyidir.

Azərbaycan Respublikası qədim və zəngin tarixə malik suveren dövlət olub və olaraq qalır. Təbii ki, Azərbaycanın dövlət qurumları və əhalinin əksəriyyətinin – azərbaycanlıların və ölkəmizdə yaşayan digər xalqların mentaliteti də özünəməxsusdur. Azərbaycan Respublikası ənənələri, tarixi, dövlətin çoxmillətliliyini, öz coğrafi mövqeyini nəzərə alaraq özünəməxsus şəkildə demokratiya kimi ümumbəşəri dəyərlərə doğru irəliləyir. Azərbaycan tolerant və multikultural dövlətdir. Lakin o, bir çox başqa ölkələr kimi, əsassız və mücərrəd dəyərləri qəbul etmir.

“Azərbaycan Respubiikasının suveren dövlət kimi konstitusion - hüquqi statusu Azərbaycan Respublikası Konstitusiyası tərətlndən verilən hüquqı xarak-teristikadır. O, Azərbaycan Respublikasının suverenliyini onun butun ərazisiıdə təsdiq edir. Konstitusiyanın 11-ci maddəsinə əsasən, Azərbaycan Respublikası ərazisı vahiddir. toxunulmazdır və bölünməzdir. Azərbaycan Respublikasının daxili suları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi, Azərbaycan Respublikasının üzərindəki hava məkanı Azərbaycan Respublikası ərazisinin tərkib hissəsidir. Azərbaycan Respublikasının ərazisi özgəninkiləşdirilə bilməz. Azərbaycan Respublikası öz ərazisinin heç bir hissəsini

heç bir şəkildə kimsəyə vermir: yalnız Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Azərbaycanın bütün əhalisi arasında referendum kecirmək yolu ilə, Azərbaycan xalqının iradəsi əsasında dövlət sərhədləri dəyişdirilə bilər” (3,s.34).

O da zərurətdir ki, dövlət suverenliyi anlayışına uyğun gələn bütün bunlar həm ölkə daxilində, həm də xaricdə Azərbaycan Respublikasını baş verən obyektiv proseslərdən – qloballaşmadan, iqtisadi fəaliyyətin transmilliləşməsindən, müxtəlif sivilizasiyaların yaxınlaşmasından ayırmağa çalışanlar tərəfindən gərək sui-istifadə olunmasın. Azərbaycan Respublikasının bütün əhalisinin maraqlarını müdafiə etmək lazımdır.

Beləliklə, Ermənistanın hərbi təcavüzü nəticəsində otuz ildən artıq Azərbaycanın de-fakto suverenliyi ölkəmizin işğaldan azad edilməsi və ərazimizdə separatizmə son qoyulması nəticəsində de-yure təmin edilmişdir.

**İstifadə olunmuş ədəbiyyat**

1. Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı Sərəncam.// https://president.az/az/articles/view/67775 1/8 /28.12.2024/

2. Hüseynov S.Z. Azərbaycan Respublikasının dövlət və inzibati ərazi quruluşunun konstitusion əsasları. Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı-2016, 15 s.

3. Rzayeva P.A. Dövlətin suverenliyi onun konstitusion hüquqi statuslarından biri kimi. “Qanun”, 04 (258), 2016, s.31-34

4. Клишас А.А. Суверенитет и новые вызовы с точки зрения права |council.gov.ru/services/discussions/blogs/100773/24.01.2019/

5. Сууеринитет.//https://www.booksite.ru/fulltext/1/001/008/107/296.htm/09.03.2025/

**Rəyçi: f.e.d.. prof. Rəna Mirzəzadə**

## SİYASİ ELMLƏR: NƏZƏRİYYƏ VƏ REALLIQLAR

### AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQI - 120

**UOT 32**
**https://doi.org/10.30546/ifs.2025.1(44).92**

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ VƏ HƏMKARLAR İTTİFAQI

**Hüseyn Qaraşov**
sosiologiya elmləri doktoru, professor,
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, **Azərbaycan**
huseynqarashov@gmail.com
https://orcid.org 0000–0003–2509–1159

**Zeynəddin Şabanov**
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent,
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, **Azərbaycan**
zeynaddin.shabanov@ gmail.com
https://orcid.org 0000–0003–4102–6250

**Xülasə.** Məqalədə bildirilir ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə yeni yaranmış bütün dövlət strukturları kimi, güclü ictimai təşkilat olan Həmkarlar ittifaqları da demokratik əsaslara söykənməklə idarə olunurdu. Məqalədə M.Ə. Rəsulzadənin yaxın silahdaşı Cavad bəy Rza bəy oğlu Məlikyeqanovun Həmkarlar ittifaqlarına rəhbərliyi, onun işçilərin problemlərinə diqqətlə yanaşması, onların sosial rifah halının yaxşılaşması üçün parlament iclaslarında alovlu çıxışlar etməsi və müvafiq qanun və qərarların verilməsinə nail olması geniş şəkildə araşdırılmışdır. C.Məlikyeqanov neft sahibkarlarının, bank, zavod və fabrik nümayəndələrinin iştirakı ilə çağırılmış müşavirə və iclaslarda fəhlə və qulluqçuların əməkhaqlarının artırılması məsələsini diqqətə çatdırmış və təklifinin qəbul olunmasına nail olmuşdur.

**Açar sözlər:** müstəqillik, Həmkarlar İttifaqı, cəmiyyət, siyasət, demokratik idarəetmə, işçilər, islahatlar, iqtisadi vəziyyət

# AZERBAIJAN DEMOCRATIK REPUBLIC AND TRADE UNIONS

**Huseyn Qarashov**
**Zeynaddin Shabanov**

**Abstract.** The article states that during the period of the Azerbaijan Democratic Republic, like all newly formed state structures, the strong public organization of Trade Unions was also governed based on democratic principles. The article extensively analyzes the leadership of Cavad bey Rza bey oglu Melikyeqanov, a close associate of M.Ə. Rasulzadeh, in the trade unions, his attentive approach to workers' issues, his passionate speeches in parliamentary sessions for improving their social welfare, and his efforts to secure the adoption of relevant laws and decisions. C. Melikyeqanov raised the issue of increasing the wages of workers and employees at consultations and meetings with the participation of oil tycoons, as well as representatives from banks, factories, and plants, and succeeded in having his proposal accepted.

**Keywords:** independence, trade union, society, politics, democratic governance, workers, reforms, economic situation.

## АЗЕРБАЙДЖАНСКАЯ ДЕМОКРАТИЧЕСКАЯ РЕСПУБЛИКА И ПРОФСОЮЗЫ

**Гусейн Гарашов**
**Зейнаддин Шабанов**

**Резюме.** В статье отмечается, что в период существования Азербайджанской Демократической Республики, как и другие новые государственные структуры, профсоюзы — сильные общественные организации — также управлялись на основе демократических принципов. Подробно рассматривается деятельность Джават бека Рзабек оглы Мелик-Еганова, ближайшего соратника М.Э. Расулзаде. В профсоюзах он проявлял особое внимание к проблемам работников, активно выступал на парламентских сессиях, поднимая вопросы улучшения их социального положения, и прилагал усилия для принятия соответствующих законов и решений. Дж.Мелик-Еганов поднимал вопросы повышения заработой платы рабочих и служащих с участием нефтяных магнатов, а также представителей банков, заводов и фабрик, добиваясь одобрения своих предложений.

**Ключевые слова:** независимость, профсоюз, общество, политика, демократическое управление, рабочие, реформы, экономическая ситуация

### Giriş

Azərbaycan Cümhuriyyəti qurulduqdan sonra müstəqil dövlətdə zəruri islahatlar aparılmağa başlandı, yeni qanunlar qəbul edildi, daxili və xarici siyasətin həyata keçirilməsində müstəqillik elementlərinə üstünlük verildi, xalqın sərvətlərinin talan edilməsinin qarşısı alındı, üzvlük haqqında beynəlxalq təşkilatlara müraciətlər olundu. Bununla belə, bolşevik Rusiyası təzyiqlərini və təhdidlərini davam etdirir, ölkənin daxili işlərinə qarışır, onun müstəqilliyini tanımaq istəmirdi. Bolşeviklər pərakəndəlik yaradır, fəhlələr arasında müstəqil dövləti gözdən salmaq üçün çalışır, Həmkarlar ittifaqları təşkilatlarına güclü təsir edirdilər. Ümumilikdə isə Bakı fəhlələri içərisində qeyri-azərbaycanlılar fəallıq təşkil edirdilər. Onların da əksəriyyəti bolşeviklərin tərəfini saxlayırdılar.

### Mürəkkəb şəraitdə aparılan müstəqil siyasət

Gənc Azərbaycan hökuməti ölkədə sabitliyi qoruyub saxlamaq üçün bütün diplomatik imkanlarından çevikliklə istifadə edərək, ingilis komandanlığı ilə siyasi kompromisə getməyə məcbur olmuşdu. Bu dövrdə xırda burjua liderlərinin rəhbərlik etdiyi Bakı Fəhlə Konfransının (BFK) hökumətlə barışmaz müxalifətdə olması AXC-nin fəaliyyətinə çətinliklər yaradırdı. 1918-ci il dekabrın 24-də BFK məhbusların buraxılması, mətbuat azadlığı, Həmkarlar ittifaqının sərbəstliyi, “yığıncaq azadlığı” şüarları altında tətil keçirdi. Bu xəyanətkar tətildə menşevik Çurayev AXC hökumətinin guya Həmkarlar ittifaqlarının azadlığını pozduğu barədə riyakar bəyanat vermiş və qanuni Azərbaycan dövlətilə hesablaşmayaraq ingilis komandanlığından tələb etmişdi ki, neft sahibkarlarından və fəhlə konfransı nümayəndələrindən ibarət sazişçi komissiya yaradılsın və kollektiv müqavilə bərpa olunsun. BFK-nın iclasında iştirak edən M.Ə.Rəsulzadə konfrans liderlərinin separatçı mövqeyini qəti pisləmiş və xüsusilə vurğulamışdı ki, fəhlələrin iqtisadi maraqları ilə bağlı bu problemin həllində səlahiyyətli tərəf ingilis komandanlığı deyil, öz parlamentinə söykənən yeganə qanuni Azərbaycan hökumətidir (2, s.114).

Üçgünlük 1918-ci il dekabr tətili Bakı fəhlələrinin qələbəsi ilə başa çatdı. Tətilin «ibrət dərsləri» bu oldu ki, fəhlə kütlələri içərisində bolşeviklərin riyakar siması üzə çıxdı, ingilis komandanlığı isə Bakı proletariatının real gücünü hiss edərək, onun siyasi tələblərinə daha ehtiyatlı yanaşmağa başladı. Komandanlıq güzəştə gedərək məhbusları azad etməli oldu. Vəziyyətin mürəkkəb xarakterini real qiymətləndirən Parlament özünün 1918-ci il 25 dekabr tarixli iclasında siyasi məhbuslara amnistiya vermək məqsədilə A.Kardaşev, A.Əfəndiyev, A.Tağıyev, A.Səfikürdski, S.Ağamalıoğludan ibarət komissiya yaratmalı oldu. Fəhlə tətillərinin yaratdığı mürəkkəb sosial-siyasi şərait elə idi ki, həm

AXC hökumətinin, həm BFK-nın tədbirlərində fəhlələrin əmək hüquqları gündəlikdən düşmürdü. Dekabr tətilindən sonra mütəmadi keçirilən fəhlə konfranslarında siyasi xarakterli məsələlərin müzakirəsinə daha çox yer verilirdi.

Artıq 1919-cu ilin yanvarında etnik situasiya da mürəkkəbləşmişdi. Belə ki, rus fəhlələri açıq-aşkar kommunistlərə meyil göstərir, bolşeviklərin konfransında onlar daha çox çıxış edərək, fəhlələr arasında Müsavat hökumətinin sosial siyasətinə qarşı böhtançı bəyannamələr yayırdılar. Həmin ilin martından kommunistlər konfransın tədbirlərində çoxluq təşkil etməyə başlayır. Artıq konfransın rəyasət heyətində təmsil olunan 10 üzvdən 7-si kommunist idi (7, s.193). 1919-cu il yanvarın 8-də parlament iclasında müsavatçı A.K.Kazımzadənin müsavat fraksiyasının Əmək nazirinə ünvanladığı tələbdə fəhlələrin vəziyyətinin son dərəcə ağır olduğu göstərilir, kollektiv müqavilənin ləğv edilməsi, əməkhaqqının aşağı düşməsi xüsusi vurğulanırdı. Müsavat fraksiyasının bu haqlı iradına Əmək naziri A.Səfikürdski operativ reaksiya verərək, fəhlələrin vəziyyətini yaxşılaşdırmaq üçün hökumətin bütün səyləri göstərəcəyini bəyan etmişdi. O, müttəfiqlərin, komandanlığın, neft sahibkarlarının, bank və fabrik müfəttişliyi nümayəndələrinin iştirakı ilə çağırılmış müşavirədə 1919-cu il yanvarın 1-dən fəhlə və qulluqçuların maaşını artırmaq məqsədilə müəyyən vəsaitin ayrılacağını bəyan etmişdi (4, s.59). Əmək nazirliyi iqtisadiyyatı inkişaf etdirmək təşəbbüsünü bolşevik hay-küyçülərinin, eləcə də menşevik-daşnak millətçilərinin öhdəsinə buraxmamaq üçün M.Ə.Rəsulzadənin təklifi ilə fəhlə məsələsi üzrə xüsusi müşavirənin təşkilinə başlamışdı. Xüsusi müşavirə əməyin mühafizəsi və fəhlələrin məişət məsələləri ilə bağlı problemləri tez bir zamanda həll etməyi planlaşdırmışdı. Təəssüf ki, həm subyektiv, həm də obyektiv səbəblər, eləcə də bürokratik süründürməçilik üzündən parlament gənc respublikanın siyasi imici üçün müstəsna əhəmiyyət kəsb edən bu sənədi yalnız 1919-cu il martın 19-da təsdiq etdi. Belə ləngiməni M.Ə.Rəsulzadə kəskin tənqid etmişdi (2, s.7). Hökumət «fəhlələr məsələsi» ilə ciddi məşğul olsa da, əməkhaqqının artırılması məqsədilə mümkün daxili vəsait və imkanların axtarışlarında əlindən gələni etsə də, ölkənin iqtisadi vəziyyətində müsbət dəyişikliklərə nail ola bilməmişdi, əksinə, bolşeviklərin təxribatçı səyləri nəticəsində istehsalın tempi aşağı düşür, gündəlik tələbat məhsullarının qiyməti artırdı. Lakin artmaqda olan iqtisadi böhran hökuməti təxirəsalınmaz tədbirlər görməyə vadar etsə də, digər partiya və fraksiyaların parlamentin fəaliyyətini pozmağa yönəlmiş hərəkətləri ölkədə siyasi-iqtisadi böhranı daha da kəskinləşdirirdi. Məsələn, 1919-cu il fevralın 4-də Parlamentdə fəhlə komissiyasının əməkhaqqını artırmaq üzrə qanun layihəsi müzakirə edilərkən, sosialistlər bunun fəhlələrin maddi vəziyyətinin yaxşılaşdırılmasında heç bir faydası olmayacağını da israr etmişdilər. Bu məsələdə «İttihad» partiyası da sosialistləri dəstəkləmişdi. Layihəni yalnız «müsavat»çılar bəyənib müdafiə etmişdilər. İttihadçıların bu mövqeyi, əslində, hökumətə ilk etimadsızlığın təzahürü idi (1, s.30).

M.Ə.Rəsulzadə iqtisadi böhranın yumşaldılması üçün fəhlələrin əməkhaqqının artırılmasını təklif edirdi. Ayrı-ayrı yerlərdə əmək adamlarının geniş yığıncaqları keçirilir və parlamenti müdafiə edən qətnamələr qəbul olunurdu. 1919-cu il yanvarın 1-də Ramanada fəhlələrin 500 nəfərlik yığıncağı bu mövqeni belə ifadə edirdi: «Biz, Ramanada yaşayan fəhlə və kəndlilər, Azərbaycan Parlamentini təbrik edir və ona bütün qəlbimizlə etimad göstəririk. Biz «Znamya truda», «Naşe Vremya», «Vperyod» qəzetlərində millətimizə düşmənçilik münasibətləri əks etdirən məqalələrə etirazımızı bildiririk». Hümmətçi-menşeviklər də hökumətin iqtisadi siyasətini birmənalı şəkildə qeyri-qənaətbəxş sayır, üstəlik də israr edirdilər ki, mövcud parlament fəhlə və kəndlilərin mənafelərinin əsl müdafiəçisi deyildir. Buna görə də təsadüfi deyildir ki, ölkədə hökumət böhranı ilə müşayiət olunan ağır iqtisadi çətinliklərdən istifadə edən bolşeviklər Bakı fəhlələri və Zaqafqaziya və Şimali Qafqaz əhalisi ilə vahid cəbhə yaradıb, yerli «əksinqilabi» hökumətləri yıxıb Sovet Rusiyası ilə birləşmək taktikasını seçmişdilər. Bu taktikaya real qüvvə vermək məqsədilə Bakı bolşeviklərinin təşəbbüsü ilə Bakıda 1919-cu il aprelin 27-də Zaqafqaziya, Dağıstan və Zakaspi Həmkarlar ittifaqlarının qurultayını keçirmişdilər (4, s.76). Qurultay «proletar diktaturası yolu ilə sosializmə çatmaq» şüarı altında keçmişdi. M.Ə.Rəsulzadə isə öz çıxışlarında bunun yolverilməz olduğunu bildirirdi. Beləliklə, həmkarlar ittifaqları tamamilə bolşeviklərin siyasi mübarizə alətinə çevrilmiş oldu. Ona görə də bütün tətillər siyasi şüarlar altında keçirilirdi. Tətillər bütün hallarda ölkənin siyasi sabitliyinə ciddi təsir göstərir, kapital ilə əmək arasında konfliktləri daha da kəskinləşdirirdi. Rusiya ilə ticarət əlaqələrinin kəsilməsi isə Azərbaycanı həm iqtisadi, həm də siyasi cəhətdən gücdən salırdı.

Əhalinin yoxsulluğunu siyasi bazar obyektinə çevirən bolşeviklər müsavatçı həmkarlar ittifaqlarının sosial proqramını gözdən salmaq məqsədilə fəhlələri tez-tez təxribatçı tətillərə təhrik edirdilər.

M.Ə.Rəsulzadənin rəhbərliyi altında AXC-nin antiböhran proqramı hazırlanmışdı. AXC-nin antiböhran proqramının həyata keçirilməsinə hər vasitə ilə mane olan bolşeviklər bilərəkdən ümumi tətil elan etmiş, təkcə iqtisadi tələblər (kollektiv müqavilənin bərpası) deyil, həmkarlar ittifaqının funksiyalarına zidd siyasi tələblər (neft məhsullarını sovet Həştərxanına göndərmək) irəli sürmüşdülər. Bolşevik «liderləri» ümumi 1 May siyasi tətilini keçirməyə nail olsalar da, hökumətin iqtisadi siyasəti əleyhinə aksiya keçirmək niyyətlərini həyata keçirə bilməmişlər. Çox önəmlidir ki, müsavat hökumətinə sadiqliyini nümayiş etdirərək, azərbaycanlılar tətilin hökumət əleyhinə çevrilməsinə mane olmuşdular (5, s.109). Mühacirətdə olarkən həmin hadisələr haqqında M.Ə.Rəsulzadə yazırdı ki, bu bir daha azərbaycanlıların milli-siyasi şüurunun artmasından xəbər verirdi. Parlament də öz növbəsində siyasi tətillərə yol verməmək məqsədilə 1919-cu il mayın 5-də elan etmişdi ki, BFK-nın keçirdiyi tətil iqtisadi tələblərdən uzaq siyasi aksiyalar olub, milli dövlətçiliyə qarşı çevrilmiş tətillərdir. Bu tipli tətillərdə iştirak edənlər həbs ediləcək və ölkə hüdudlarından qovulmaqla cəzalandırılacaqlar (1, s.32). M.Ə.Rəsulzadə siyasi gərginliyi azaltmaq üçün Əmək nazirinə tapşırmışdı ki, sahibkarlarla fəhlələrin birgə görüşündə iqtisadi tələbləri müzakirə etsin. Hökumətin bu addımını sosial tərəfdaşlıq yolunda ilk mühüm addım kimi qiymətləndirmək olar.

Hökumətin qadağasına baxmayaraq, 1919-cu il mayın 6-da BFK yenidən tətil elan etdi. Azərbaycanlı fəhlələrin tətilin keçirilməsi əleyhinə qəti mübarizəsi hökumətin qətiyyəti sayəsində, eləcə də ölkədə sabitliyə maraq göstərən ingilis komandanlığı tərəfindən AXC-nin siyasətinin dəstəklənməsi dəmiryolçuların tətilini iflasa uğratdı. Hökumət mayın 9-da tətilçilərin 43 fəalını həbs etmişdi. Bunların arasında A.Mikoyan, A.Anaşkin, A.Çurayev və H.Qurbanov var idi. Dəmir yolu məsələsinə gəldikdə, daha çox strateji faktor Cənubi Qafqazda müttəfiq qoşunlarının baş komandanı, general Q.F.Millin əmrində göstərilirdi ki, dəmir yollarının, rabitə yollarının, körpülərin, hərbi sursat anbarlarının tələf edilməsində iştirak edən şəxslər hərbi tribunala veriləcək, ölüm cəzasına məhkum ediləcəklər (4, s.103).

Əmək naziri isə sahibkarlardan fəhlələrin tətil ərzində buraxılmış iş günlərini ödəməsini tələb etmişdi. 1919-cu il 13 may tətili tam məğlubiyyətə uğradı, baxmayaraq ki, həmin dövrdə bolşeviklərin rəhbərliyi onlara «rəğbət» bəsləyən Həmkarlar ittifaqlarını «Bakı şəhəri və onun rayonlarının neft və emal sənayesi və onlara köməkçi sahələrin işçilərinin Birləşmiş ittifaqı»nda birləşdirə bilmişdilər. Maraqlıdır ki, tətilçilər içərisində müsəlman bolşevikləri iştirak etməmişdilər. Tətilin uğursuzluğunda müttəfiq qoşunların baş komandanlığının dəstəyilə yanaşı, BFK-nın daxilində birliyin olmaması da neqativ rol oynamışdı. Üstəlik, tətil başlanmazdan əvvəl gözləmə mövqeyi tutan menşevik-eserlər sonralar ona mənfi münasibət bildirmişdilər. Bu siyasi aksiyada bolşeviklər məğlub olsalar da, onlar AXC-nin sabitlik proqramını pozmaq siyasətindən heç zaman əl çəkməmişlər. Belə ki, ilk pozucu təşkilati addım olaraq, onlar BFK-nın menşevik rəhbərliyini bolşevik liderləri ilə əvəz etməyə nail olmuşdular. Bu taktiki manevr bolşeviklərə Həmkarlar ittifaqlarını nəzarətə götürmək strategiyasını həyata keçirmək yolunda ciddi addım oldu. Etiraf edilməlidir ki, konkret şəraitdə siyasi-iqtisadi sabitsizlik obyektiv olaraq bolşeviklərin təxribatçı fəaliyyətinə işləyirdi. Cari iqtisadi problemlərin həll edilməməsi, sənaye işçiləri arasında narazılıq bolşeviklərə Həmkarlar ittifaqlarından fəhlələrə psixoloji təsir aləti kimi istifadə etməyə imkan yaratmışdı. Digər tərəfdən, hökumətin Həmkarlar ittifaqları ilə işləmək sahəsində çevik siyasətinin olmaması bolşeviklərin hökuməti devirməklə bağlı demoqoji təbliğatına psixoloji mühit yaratmışdı. AXC-nin sosial bazasının tükənməyə başladığı həmin dövrdə əvvəlcə çar Rusiyasını, sonralar isə öz qanuni milli dövlətlərini devirmək proqramını səylə həyata keçirməyə çalışan fəhlə komissiyalarının fəaliyyətində öz şüarları ilə Həmkarlar ittifaqlarını partiyanın möhkəm dayağına çevirmək siyasətlərini yeritmişlər. Bolşeviklərin bu taktikası bir daha sübut etmişdi ki, onlar Həmkarlar ittifaqlarının əsl sosial təyinatından yan keçərək, Azərbaycanın ictimai mühitilə heç bir əlaqəsi olmayan proletar inqilabı ideyalarını təbliğ etməyə, partiyanın hegemon qüvvə olması psixologiyasını kütlələrin beyninə yeritməyə üstünlük verirdilər. M.Ə.Rəsulzadənin dərin dövlətçilik siyasətinə baxmayaraq, ölkədə siyasi şüurun çox aşağı səviyyədə olması, BFK-da xırda burjua müxalifətinin zəifləməsi, bütövlükdə

iqtisadi vəziyyətdə pozitiv irəliləyişlərin olacağına inamsızlıq ona gətirib çıxardı ki, 1919-cu ilin yazında Həmkarlar ittifaqları üzərində tam nəzarət bolşeviklərin əlinə keçdi (4, s.84). Təsadüfi deyildir ki, 1919-cu ilin aprelində keçirilmiş Azərbaycan, Dağıstan, Zakaspi Həmkarlar İttifaqlarının qurultayı bolşeviklərin tam üstünlüyü ilə keçmiş, bununla da sosialistlərin son dayağı olan Bakı Həmkarlar İttifaqları Şurasında da bolşeviklər tam hakimiyyətə nail ola bilmişdilər (5, s.124).

Bu qurultayda Azərbaycan Həmkarlar ittifaqları tamamilə bolşeviklərin platformasına keçdilər. Bu dövrdən başlayaraq bolşeviklərin təsiri altında olan Azərbaycan Həmkarlar ittifaqları bolşeviklərin Rusiyaya qovuşmaq siyasətində alət rolunu oynamağa başladılar. Bolşeviklər Həmkarlar ittifaqlarından öz ideyalarını kütlələrin beyninə yeritmək üçün leqal kütləvi tribuna kimi istifadə edir, bu sosial qurumun əsl təyinatından uzaqlaşaraq, Kommunist partiyasının əlində alətə çevrilməsinə nail olmuşdular.

Bunun qarşısını almaq üçün hökumət bolşeviklərin tam təsiri altında olan Mərkəzi Fəhlə Klubunu bağlamaq üçün dəfələrlə cəhd göstərmişdi. İlk dəfə 1919-cu il dekabrın 9-da MFK-nın binası möhürlənmişdi. Buna cavab olaraq, Fəhlə Konfransının Rəyasət Heyəti etiraz tətilinə çağırışla çıxış etmiş və hökuməti Mərkəzi Fəhlə Klubu binasını açmağa məcbur etmişdi (6, s. 238).

Fəhlə sinfinin mənafeyini müdafiə etmək şüarı ilə kommunistlər milli hökumətə qarşı mübarizəni getdikcə gücləndirirdilər. Kommunist təbliğatçılar fəhlələrin öz hüquqları uğrunda mübarizəyə qarşı Daxili İşlər Nazirliyinin mane olması barədə fəhlələr içərisində kampaniya aparırdılar.

Bu vəziyyət parlamentin və hökumətin işinə çox ciddi mənfi təsir göstərirdi. M.Ə.Rəsulzadənin təklifi ilə 1919-cu il dekabrın 28-də Əmək və Əkinçilik Naziri Ə.Pepinov Həmkarlar İttifaqı təşkilatlarının iştirakı ilə fəhlə məsələsinə dair müşavirə keçirdi. Nazir Həmkarlar İttifaqının işlərinə nazirliyin qarışmayacağını bildirərək fəhlələri əmin etmişdi ki, fəhlə klubuna və fəhlə təşkilatlarına polis basqıları dayandırılacaq, yığıncaq azadlığı məhdudlaşdırılmayacaq və əməkhaqqı artırılacaqdır. Nazir fəhlələrdən ona kömək göstərmələrini xahiş etmişdi.

Respublikanın Daxili İşlər naziri M.Vəkilov da bəyanat verərək, nazirliyin fəhlələrin öz iqtisadi və hüquqi vəziyyətini yaxşılaşdırmaq uğrunda mübarizəsinə qarışmayacağını bildirmiş, eyni zamanda qeyd etmişdi ki, dövlətə qarşı yönələn bütün çıxışları yatırmaq üçün hər vasitədən istifadə ediləcəkdir.

Buna baxmayaraq kommunistlər inadkarlıqla mübarizəni davam etdirirdilər. Sovet Rusiyasının hərtərəfli müdaxiləsi isə vəziyyəti günbəgün gərginləşdirirdi.

Bununla belə, qeyd olunmalıdır ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Həmkarlar ittifaqları milli dirçəliş mühitində Avropa tipli sosial institut kimi mümkün olan fəaliyyətini həyata keçirmişdir.

**Cavad bəy Rza bəy oğlu Məlikyeqanovun Həmkarlar İttifaqında fəaliyyəti**

Azərbaycan Cümhuriyyətinin qurucularından olan Cavad bəy Rza bəy oğlu Məlikyeqanov 1878-ci ildə Şuşa qəzasının Tuğ kəndində anadan olmuşdur. İbtidai təhsilini məşhur maarifçi və tarixçi Mir Mehdi Xəzaninin ev məktəbində almış, sonra texniki məktəbi bitirmişdir. O, 1903-cü ildə, yəni 25 yaşında Bakıya gəlir və neft mədənlərində işləməyə başlayır, inqilabi hərəkatda iştirak edir, "Hümmət" təşkilatına üzv olur.

1909-cu ildə çar hakimiyyətinə qarşı mübarizə apardığına görə general-qubernator Martınovun əmri ilə birillik həbs olunaraq Bakıdan sürgün edilir. Cəzası bitəndən sonra C.Məlikyeqanov doğma kəndinə qayıdır. Burada öz təhsili ilə məşğul olur, Şuşanın, Karyaginin (Füzuli), Ağdamın, Gəncənin və başqa şəhərlərin maarifçiləri ilə tanış olur. Baxşəli bəy Məlik-Aslanovun qızı Rəna xanımla ailə qurur. Bu nikahdan oğlu Ənvər, qızı Tamara dünyaya gəlir. Lakin tale Cavad bəydən bir müddət "üzünü döndərir ": o, ikiyaşlı oğlu Ənvəri, sonra isə gənc həyat yoldaşı Rəna xanımı itirir (10, s.27). Bu ayrılığa dözə bilməyən Cavad bəy tək qalmış qızını anası Mina xanımın yanında qoyub, 1914-cü ildə yenidən Bakıya gəlir və burada milyonçu Şibayevin mədənlərində işləməyə başlayır. Burada siyasi fəaliyyətə başlayır və M.Ə.Rəsulzadə ilə tanış olur (8).

C.Məlikyeqanov 1917-ci ildə M.Ə.Rəsulzadənin tövsiyəsi ilə "Müsavat" partiyasına üzv olur və partiyanın birinci qurultayında fəal iştirak edir. Partiyada fəhlə münaqişələri üzrə iş aparır. Partiyanın idarəedici orqanlarında aktiv çalışan Məlikyeqanov yüksək natiqlik qabiliyyəti ilə tezliklə həm

M.Ə.Rəsulzadənin, həm də xalqın böyük rəğbətini qazanır. Bu dəfə o, təhsilini və işini yoluna qoya bilir, texniki ixtisas üzrə eyni vaxtda iki ali təhsil alır, rus, fars, alman, gürcü, erməni dillərini mənimsəyir (12).

Məlikyeqanov 1917-ci ilin oktyabrında "Müsavat" partiyasının Zaqafqaziya seyminin müsəlman fraksiyasının üzvü, növbəti il isə Azərbaycan Milli Şurasının üzvü olur. 1918-ci il mayın 28-də Həsən Ağayev, Fətəli xan Xoyski, Nəsib Yusifbəyli, Rəhim Vəkilov, Xəlil Xasməmmədov, Şəfi Rüstəmbəyov və Musa Rəfiyevlə birgə Cavad bəy Məlikyeqanov Azərbaycanın Müstəqilliyi haqqında İstiqlal Bəyannaməsinə imza atmış və Azərbaycan Cümhuriyyətinin banilərindən biri olmuşdur. Tezliklə o, Azərbaycanın Zaqafqaziya seyminin nümayəndəsi təyin olunur.

Məlikyeqanov Azərbaycan Parlamentinin üzvü kimi, münaqişəli, məsuliyyətli bölgələrə ezam edilirdi, qayıdanda isə fəhlə kütləsi qarşısında hesabat verirdi. M.Ə.Rəsulzadənin təklifi ilə o, 1919-cu il martın 10-da Parlament tərəfindən təsdiq edilən fəhlə məsələsi üzrə xüsusi müşavirənin tərkibinə daxil edilmişdi. O, fəhlə məsələsini bolşevik ideologiyasının inhisarına verənlərdən fərqli olaraq, Azərbaycan Cümhuriyyətinin müstəqilliyi naminə çalışan fəhlələrin təmsilçisi idi. Azərbaycanın müstəqilliyinin Avropa dövlətləri tərəfindən tanınması tədbirlərində çıxış edərək demişdi: “Elan olunmuş müstəqilliyi Avropa tanımasaydı belə, fəhlələr onun uğrunda öz həyatlarını qoymağa həmişə hazır olmuşlar” (8).

1919-cu ilin oktyabrında "Müsavat" partiyasının ikinci qurultayında mandat komissiyasının üzvü olmuş və M.Ə.Rəsulzadənin təklifi ilə elə həmin ay partiyanın Bakı komitəsinə seçilmişdir. Məlikyeqanov Türk Fəhlə Konfransının təşkilatçıla-rından biri olmuş, Mərkəzi Həmkarlar İttifaqına sədr seçilmişdi.

Cavad bəy Cümhuriyyətin ictimai-siyasi xadimləri arasında fəhlə sinfinə çox yaxın olması ilə fərqlənirdi. Cavad bəy həm də üzvü olduğu Müsavat Partiyasının sıralarında həmişə sadə zəhmətkeş xalqın həyat və güzəranı ilə bağlı kəskin çıxışların müəllifidir. Məsələn, 1919-cu il dekabr ayının 8-də başlanan Müsavatın dördüncü iclası tamamilə partiyanın aqrar siyasətinin müzakirəsinə həsr edilmişdi. Çıxış edənlər arasında Cəfər Cabbarlının, bir də Cavad bəy Məlikyeqanovun çıxışları daha çox diqqəti çəkmişdir. Geniş nitqlə çıxış eləyən Cavad bəy partiyanın zəhmətkeşlərin güzəranı ilə bağlı siyasətini sərt tənqid edir. Azərbaycan fəhlələrinin müstəqil Cümhuriyyətin qurulmasında və ərazi bütövlüyünün təmin olunmasında xidmətlərini xüsusi qeyd edən natiq bildirir ki, "göstərdikləri vətənpərvərliyə baxmayaraq, onlar heç də yaxşı vəziyyətdə yaşamırlar. Ancaq partiyanın arxasınca gedən, onun çağırışına hər zaman səs verən fəhlə sinfi iqtisadi durumlarının yaxşılaşacaqlarına ümid edirlər" (8).

Musavat partiyasından parlamentdə təmsil olunanların siyahısında Cavad bəy yeddinci şəxs olaraq göstərilir. Partiya işində iştirakı fəhlə konfransının fəaliyyəti ilə əlamətdardır. Musavat partiyasının II qurultayında mandat komissiyasının üç üzvündən biri seçilən C.Məlikyeqanov fəhlələrin rifahını təmin etməyə çağırmışdır. Fəhlələrin Azərbaycanın müstəqilliyi uğrunda mübarizədəki xidmətlərindən, mart döyüşlərində tələfatından, Denikin əleyhinə mövqelərindən bəhs edərək bunun müqabilində onların güzəranı ilə bağlı hökumət qarşısında kəskin tələblə çıxış edirdi: “Fəhlələr tərəfindən belə dövlət vətənpərvərliyindən sonra onların ən vacib tələbatları təmin olunubmu? Cəsarətlə demək olar ki, yox. Neftdən daha çox mənfəət götürən cənablar fəhlələrin əməyini daha da istismar edirlər. Biz bu qurultaydan fəhlə məsələsinin fəhlələr üçün sərfəli tərzdə həll edildiyini eşitmək istərdik. Fəhlələr 1200 rubl alırlar. Bu məbləğ çörəyə belə çatmır. Amma fəhlələr “Müsavat”ın ardınca gedirlər. Möhkəm inanırlar ki, “Müsavat” onların iqtisadi vəziyyətini yaxşılaşdıracaqdır. “Fəhlələr arasında müxtəlif xəstəliklərin tüğyan etməsindən, Nikolay dövrünün xəstəxanalarının belə onlar üçün bağlandığını, şüşəsiz pəncərələri olan kazarmalarda yaşayan fəhlələrin həyatının normallaşması nicatını neft sənayeçilərinin tədbir görməyəcəyi təqdirdə hökumətin üzərinə qoyurdu: “Hökumət özünün son sözünü deməli və bütün neft mədənlərini əlinə almalıdır” (12). Mədən rayonu fəhlələrinin təmsilçisi olan Cavad bəy qurultayda dəmiryol fəhlələrinin adından da ətraflı məruzə etmişdi. Bir müddət onlarla işlədiyindən (hələ yazda bu barədə parlamentə məktub göndərmişdi. 3 aprel 1919-cu il iclasında sədr Həsən bəy Ağayev bildirmişdir: “Parlament üzvü Cavad bəy Məlikyeqanovun bir məktubu varid olmuşdur. Məlikyeqanov dəmiryol qulluğunda olduğunu bildirir”) güzəranlarına yaxından bələd idi: “Dəmiryolçular çörəyin

girvəngəsini 5 rubla alırlar, amma bu çörəyə o qədər küləş və qum qatırlar ki, onu yemək belə mümkün olmur” (9).

Azərbaycan parlamentində fəhlə hüququnun mövcud siyasi-iqtisadi şərtlər daxilində ardıcıl müdafiəçisi Cavad bəy olmuşdur. Parlamentin fəaliyyətinin ilk günlərində, üçüncü iclasda hökumət qulluqçularının, parlament xadimlərinin məvacib smetası müzakirə edilərkən fəhlənin dolanışığını ilk dəfə yada salan o idi: “Burada, möhtərəm parlament əzası, hamı artıq vermənin tərəfdarıdır. Biz də bununla şərikik. Fəqət, bunu nəzəri-etibarə almalıyız ki, bütün fəhlələr əziyyət altında yaşayırlar. Biz hökumət qulluqçularına artıq verməklə iş artmaz. Bir fəhlə komisyonu təşkil edilməlidir ki, bunların hamısının dərdlərini nəzərə alsın”. Sol partiya təmsilçilərinin radikal çıxışlarına rəğmən parlamentin fəhlə komissiyasına seçkilərin nəticəsi belə olur: “Məlikyeqanov-36, Heybətqulu-32, Məmməd Əmin Rəsulzadə-30, Əliheydər Qarayev-27...” (9). Əmək nazirliyinin nəzdində yaradılan və haqqındakı qanun layihəsi 1919-cu il martın 10-da Parlament tərəfindən təsdiq edilən fəhlə məsələsi üzrə Xüsusi Müşavirənin tərkibinə C.Məlikyeqanov da daxil edilmişdi.

Lakin 1919-cu ilin yayında gənc demokratik respublikanın cənub regionunda gərgin vəziyyət yarandı. Denikin dəstələri polkovnik İlyaşevin rəhbərliyi ilə Lənkəranda hakimiyyəti ələ keçirdilər və onu Rusiyaya birləşdirmək istəyirdilər. Yerli əhali müxtəlif xarici qüvvələrin silahlı birliklərinin özbaşınalıqlarından əziyyət çəkirdi. İş artıq qanunsuz “respublikalar” yaratmağa qədər gedib çıxmışdı. M.Ə.Rəsulzadə yaxın cilahdaşı Cavad bəyi yanına çağıraraq yaranmış vəziyyəti ona başa saldı və Cavad bəy rahat, hər şeyi yerində olan bölgəyə yox, Cümhuriyyət rəhbərliyi tərəfindən Azərbaycanın müstəqilliyini istəməyən müxtəlif siyasi və hərbi qüvvələrin meydan suladıqları Vətən torpağının bir guşəsinə qayda-qanun yaratmağa göndərildi. O da əsl qurucu kimi, bu şərəfli işin öhdəsindən ləyaqətlə gəldi, Azərbaycanın cənub hissəsində rus-erməni və bolşevik dəstələrini darmadağın edib burada Cümhuriyyət qanunlarını və hakimiyyətini bərqərar elədi.

Gənc Azərbaycan Cümhuriyyəti bütün bölgələrdə nəzarəti bərpa edənə qədər həm Qarabağda, həm də Lənkəran qəzasında özbaşınalıqlar olmuşdu. Qarabağdakı məsələlərin kökü aydındır. Lənkəran qəzasında isə Kolçakın, Denikinin və bolşeviklərin hərbi qüvvələri buranı talan edib, insanlara zülm verirdilər. Azərbaycan Respublikası Hərbiyyə Nazirliyinin Baş Qərargahının operativ kəşfiyyat idarəsinin məlumatında yazılır: “Lənkəranda bolşeviklərin 1200-dən 1500-dək silahlı adamı var. Bunlar əsasən I Dünya müharibəsində iştirak eləmiş ruslar və ermənilərdir. İkinci qüvvə isə denikinçilərdir” (9).

Bu qüvvələr Azərbaycanın ayrılmaz parçası olan Lənkəran qəzasında meydan sulayırdılar və hərəsi də bir “respublika” yaratdığını elan etmişdilər. Bundan əziyyət çəkənlər isə təbii ki, yerli əhali idi. Cümhuriyyət ordusunun Lənkəran qəzasında qayda-qanun yaratmasına qədər bu bölgədə milli hökuməti tanımayan qüvvələr ağalıq edirdilər. Qanunsuz olaraq yaratdıqları Muğan Muxtar Respublikasına İllarion Talixadze, Timofey Ulyantsev, Nikolay Tutuşkin kimi denikinçilər, digər Talış Sovet Respublikasına isə bolşevik David Çirkin, Terentiy Suxorukin, Nikolay İlyaşeviç rəhbərlik edirdilər (12).

Gənc Azərbaycan Cümhuriyyəti, təbii ki, bu durumla barışa bilməzdi və təcili tədbirlər görülməliydi. Hərb naziri Səməd bəy Mehmandarovun Lənkəran uyezdinin əhalisinə ünvanlanmış çağırışından oxuyuruq: “Vətəndaşlar, Azərbaycan Respublikası Hökumətinin iradəsilə mən Lənkəran uyezdində vətəndaş müharibəsinin qarşısını almaq, orada qayda-qanun yaratmaq, sizləri qatillərdən xilas etmək üçün dəstə göndərirəm. Azərbaycan ordusu heç bir milli və dini ayrı-seçkiliyə yol vermədən Lənkəran uyezdinə qanunçuluq və ədalət gətirəcək, Silahlı qüvvələrin himayəsilə bölgədə tezliklə əmin-amanlıq bərpa olunacaq. Hər bir silahlı müqavimət ölüm hökmü ilə cəzalandırılacaq və orduya belə hallara qarşı amansız davranmaq əmri verilib. Öz növbəmdə həmçinin dəstənin rəisinə dinc əhaliyə qarşı heç bir zorakılığa yol verilməməsini tapşırmışam”. Artıq 1919-cu il avqust saylarında “Azərbaycan” qəzeti məlumat verirdi ki, Lənkəran və Muğan bölgəsi Azərbaycan ölkəsinə tam tabe etdirildi: “Lənkəran avantürası qansız, sülh yolu ilə ləğv edildi” (10, s.25).

Beləliklə, general Səlimovun komandiri olduğu nizamlı hərbi dəstə Lənkəran general-qubernatoru Cavad bəy Məlikyeqanovun rəhbərliyi ilə çoxdan bəri nizamsızlıqdan cana doymuş bölgəyə daxil olur və qısa müddətə həm bolşevikləri, həm də denikinçiləri buradan qovub çıxarır. 1918-20-ci illərdə Azərbaycan Milli Ordusunun görkəmli hərbçilərindən olan İsrafil bəy

İsrafilbəyovun xatirələrindən oxuyuruq: “General Səlimovun komandanlığı ilə Prişibdən Lənkərana qədər təntənəylə keçid eləyən Azərbaycan ordusu yerli əhali tərəfindən “Yaşasın!” sədaları ilə qarşılanırdı” (10).

C.Məlikyeqanovun yanında olmuş ingilis missiyasının vasitəçiliyi ilə 1919-cu il avqustun 15-də “Muğanın Azərbaycan hakimiyyətini tanıması haqqında barışıq şərtləri” imzalandı. Sənədi Müsavat hökumətinin təmsilçiləri simasında C.Məlikyeqanov və T.Məmmədov imzalamışlar. Lənkəran və Muğanın general-qubernatoru səlahiyyətilə Cavad bəy bütün diyarda hərbi vəziyyət elan etdi.

Beləliklə, Cavad bəyin general-qubernatorluğu ilə Azərbaycanın bu qədim yurd yerində də dinclik və əmin-amanlıq bərqərar olur. Həqiqətən, Məlikyeqanov heç bir siyasi məqsəd güdmədən, firqəçiliyə yol vermədən həmişə haqqın və ədalətin yanında olub. Onun Lənkərana general-qubernator təyin edilməsində xarakterinin məhz bu xüsusiyyətləri rol oynamışdır. Cümhuriyyət rəhbərliyi, o cümlədən M.Ə.Rəsulzadə yaxşı bilirdi ki, Cavad bəy heç vaxt haqqı nahaqqın ayağına verməz və Lənkəran quberniyasında asayişin təmin olunması üçün canını belə fəda edər.

Rusiya inqilabının üçüncü ildönümü münasibətilə Müsavat partiyasının təşkil etdiyi böyük mitinqdə Cavad bəyin çıxışının mövzusu da inqilabın ən müqəddəs şüarları olan xalqların azad təyini-müqəddəratı və müstəqil yaşamaq prinsipləri haqqında idi. Mitinqin keçirildiyi “Türk ocağı” binasında 1920-ci ilin aprelin 8-də Bakı Mədən rayonu müsəlman fəhlələrinin konfransı keçirildi. Hər 25 nəfərə bir mandat hesabı ilə bütün mədən rayonunun Həmkarlar ittifaqlarının 700-dək nümayəndəsi konfransda iştirak edirdi.

Konfrans Mərkəzi Həmkarlar İttifaqının sədri C.Məlikyeqanovun nitqi ilə açıldı. Cavad bəy müsəlman fəhlələrinin marağını qorumağı bacaran, xalqların öz müqəddəratını azad təyin etmə və Azərbaycan Respublikasının müstəqilliyi prinsiplərinə cavab verən ali fəhlə orqanını təşkil etməyin zəruriliyini izah edirdi. Konfransda təsis edilən Mərkəzi Həmkarlar İttifaqları Şurası Sovet Rusiyasına münasibətə dair qətnamə qəbul etmişdi: “Hər xalqın azadlığı ona əzizdir, o, uzunsürən və çətin mübarizədən sonra əldə edilərsə, xüsusən əzizdir...

Azərbaycan xalqına münasibətdə öz siyasətini müəyyənləşdirmək və müstəqilliyimizi tanımaq haqqında bizim sualımıza qəti cavab vermək xahişi ilə Rusiya proletariatına və Sovet hökumətinə müraciət edirik... Onların arasında qəsbkarlıq meyilləri qalib gələrsə və üzərinizə hərblə gəlmək qərarı alınarsa, biz öz növbəmizdə, ürək ağrısı ilə öz suveren hüquqlarımızın müdafiəsi üçün silaha sarılmağa məcbur olacağıq” (9, s.27).

Lakin 1920-ci il aprel çevrilişindən sonra C.Məlikyeqanov 1920-ci il mayın 11-də həbs edilmiş, ittiham aktı sübuta yetirilmədiyindən iyulun 19-da azad olunmuşdur. Növbəti dəfə Cavad bəy 19 sentyabr 1920-ci ildə komissar Nersesovun əmri ilə nəzarət altına alınır və bir neçə ay saxlandıqdan sonra 1921-ci ilin əvvəllərində həbsdən azad edilir. Cavad bəyin bu azadlığı da çox uzun sürməmişdir. O, 21 iyun 1923-cü il tarixdə 230 saylı orderlə növbəti dəfə həbs edilmiş və 40 gün sonra yenidən azad olunmuşdur (9, s.28).

Cavad bəy Rza bəy oğlu Məlikyeqanovun bu istintaq materiallarını nəzərdən keçirərkən məlum olur ki, o, Azərbaycan Fövqəladə Komissarlığı tərəfindən verilən orderə əsasən həbs edilib. Hələ növbəti həbsdən öncə bir çox şəxslər kimi Cavad bəy Məlikyeqanovun da adı xüsusi göstərişlə məhbuslar tərəfindən məcburi olaraq hallandırılır və əleyhinə sənədlər toplanırdı. Həmçinin agenturanın 09.06.1923-cü il tarixli məlumatına görə, bolşevik hökumətinin Cavad bəy Məlikyeqanovu günahlandırmaqda məqsədi onun keçmiş müsavatçı kimi 1919-cu ildə Lənkəranda general-qubernator olması idi (11).

Aprel işğalından sonra Cavad bəy, ümumiyyətlə, 6 dəfə həbs edilmişdir. Sovet hakimiyyəti illərində tikinti trestində, əmək birjasında çalışmışdır. Respublika Xalq Əmək komissarlığı qaçqınlar şöbəsinin rəisi, 1927-28-ci illərdə neft məhsulları satışı idarəsinin rəisi vəzifələrində işləmiş, N.Nərimanov adına Bakı Sənaye Texnikumunun təsərrüfat hissəsinə başçılıq etmişdir. M.C.Bağırov 1923-cü ildə Azərbaycan fövqəladə komissarı olanda hər dəfə Cavad bəy Məlikyeqanovu təqib etmiş və bu ailəni işgəncələrə məruz qoymuşdur. Bu azmış kimi, M.C.Bağırov respublikanın katibi təyin olunduqdan sonra da, 1937-ci ildə Cavad bəyin həyat yoldaşı Məryəm xanımı həbs etdirmiş, qardaşı Bəhram bəy isə onun "fəaliyyətinin" qurbanına çevrilmişdir.

Azərbaycan SSR Dövlət Siyasi İdarəsinin təhlükəsizlik üzrə əməkdaşı A.Quliyev tərəfindən təqdim olunan 10 iyun 1930-cu il tarixli qərarda bildirilir ki, “Cavad bəy Rza bəy oğlu Məlikyeqanov vaxtilə qeyri-leqal antisovet qrup ilə sıx əlaqə yaratmış, həmin təşkilatla birgə fəaliyyətdə olmuşdur. Ona görə də o, Azərbaycan SSR Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə təqsirli bilinir”.

Artıq 11 fevral 1930-cu ildə Azərbaycan SSR Dövlət Siyasi İdarəsi tərəfindən Cavad bəy Məlikyeqanovun evində axtarış aparılması və onun həbs edilməsi üçün 129 saylı order yazılır. Daha sonra 1930-cu ildə sonuncu dəfə həbs edilən Cavad bəy Məlikyeqanovun ittihamnaməsi tərtib edilir. Dövlət Siyasi İdarəsinin Şərq şöbəsinin səlahiyyətçisinin qənaətinə görə, C.Məlikyeqanov 10 iyul 1930-cu il tarixli istintaqında fikrini aşağıdakı şəkildə bildirməli olur: "Mən özümün siyasi görüşlərimdən sonra prinsip və baxışlarımı əminliklə aşağıdakı şəkildə bölüşürəm: 1. Azərbaycan idarələrində ÜİK(b) Partiyasının XII qurultayında həyata keçməyən milli məsələlərə dair türkçülük əsas yer tutur. 2. Kənd təsərrüfatında, kollektivləşmədə metod və sürətə qarşıyam. 3. Müəyyən müddətə qədər xırda mülkiyyətçiliyin saxlanılmasına tərəfdaram. 4. Azərbaycan türk millətlərinin köçürülməsi; məsələn, aztorpaqlı Qarabağ kəndlilərini Muğana köçürtmək olar. Lakin Azərbaycan türk kəndlilərinin RSFSR-in başqa vilayətlərinə köçürülməsinin əleyhinəyəm" (11).Uzun, cansıxıcı dindirilmələrdən, işgəncələrdən sonra C.Məlikyeqanovun işində cinayət tərkibinin kifayət qədər sübut olmadığı müəyyənləşmiş və onun 1002 saylı istintaq işinin dayandırılması Azərbaycan Dövlət Siyasi İdarəsinin əməkdaşlarının birgə iclasında qərara alınmışdır. C.Məlikyeqanov antisovet təbliğatına görə müqəssir bilinərək 10 il müddətinə Kareliya MSSR-ə sürgün edilmiş və bir neçə ildən sonra orada vəfat etmişdir.

**Nəticə**

Məmməd Əmin Rəsulzadənin həmfikir və silahdaşı Cavad bəy Məlikyeqanov həm general-qubernator, həm də həmkarlar təşkilatının sədri kimi yüksək səviyyəli fəaliyyəti ilə fərqlənmiş, əmək kollektivlərində alovlu çıxışlar etmiş, əmək adamlarının həyat şəraitinin yaxşılaşması üçün parlamentdə vacib təkliflər irəli sürmüş, müstəqil dövlətin zəruri islahatlarının keçirilməsinə öz töhfələrini vermiş, ona qarşı olan təzyiqlərə baxmayaraq, ədalətsizliklərə baş əyməmiş, azadlıq və müstəqillik fikirlərindən heç zaman əl çəkməmiş, əqidəsindən dönməmiş, öz düzgün və obyektiv fəaliyyətinə, müstəqli dövlətin qurucularına sadiqlik nümayiş etdirmişdir.

**İstifadə olunmuş ədəbiyyat**

1. Qaraşov H. Həmkarlar ittifaqı hərəkatının əsasları. Bakı, 2015
2. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. I c. B., 2004
3. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. II c. B., 2005
4. Həsənov V.S., Mehdiyev Ə.B. Azərbaycan həmkarlar ittifaqlarının tarixi. B., 2005
5. Гусейнов К.А.,Найдель А.Очерки истории профдвижения в Азербайджане.Баку, 1966
6. История профсоюзов СССР. ч.1., Москва, 1977
7. Байрамов К.М. Массовые рабочие организации Азербайджана в борьбе за победу советской власти. Баку, 1983
8. Babayev A. Lənkəran qəzasının general-qubernatoru. “Ülfət” qəzeti, 30 iyun 2017-ci il
9. Əhmədova F. Böyük terrorun qurbanı. “Ülfət” qəzeti, 25 may 2000-ci il
10. Aslan K. Müstəqilliyimizə imza atanın faciəsi. “Füyuzat” jurnalı, №3(77), 2014
11. İlham T. www.cümhuriyyətimiz.lent.az.
12. www.ahik.az
13. www.vikipedia.az

**Rəyçi: s.e.d., dos. Səadət Məmmədova**

**UDC 32**
**https://doi.org/10.30546/ifs.2025.1(44).101**

# AN EXAMINATION OF CONFLICTS ARISING FROM THE COEXISTENCE OF SOVEREIGNTY AND SELF-DETERMINATION

**Dr. Neil Watson**
**United Kingdom**

**Abstract**: This paper examines the inherent tensions between the principles of sovereignty and self-determination, exploring their historical and contemporary implications. It analyses the longstanding case of the Republic of Ireland and Northern Ireland as an example of how these concepts interact, leading to conflict and eventual resolution, after many decades. By evaluating historical context, legal frameworks, and the eventual Good Friday Agreement, this study provides insight into how these principles can be reconciled to prevent future conflicts. This research highlights the necessity of international diplomacy, historical awareness, and the necessary adaptability and pragmatism of political frameworks in addressing sovereignty-related disputes. Furthermore, it discusses how similar tensions are manifested in other geopolitical contexts, making this study relevant beyond the Irish example. By drawing comparisons with other self-determination movements worldwide, this paper aims to provide a broader understanding of the delicate balance required to maintain peace and stability within sovereign states. The examination of past and present political negotiations highlights that resolving conflicts related to sovereignty and self-determination requires compromise, understanding, grievance recognition, patience, and innovative policy solutions. Additionally, the role and motivation of external actors, including international organisations and foreign governments, in either exacerbating or mitigating tensions, is assessed to provide a more comprehensive view of global conflict resolution strategies.

**Keywords**: Sovereignty, self-determination, Northern Ireland, Ireland, Eire, conflict, Good Friday Agreement, national identity, reconciliation, conflict, peace.

## SUVERENLİK VƏ ÖZ MÜQƏDDƏRATINI TƏYİNETMƏNİN BİRGƏ MÖVCUDLUĞUNDAN YARANAN MÜNAQİŞƏLƏRİN TƏHLİLİ

**Neyl Vatson**

**Xülasə:** Bu məqalə suverenlik və öz müqəddəratını təyinetmə prinsipləri arasındakı daxili gərginlikləri araşdırır və onların tarixi və müasir nəticələrini tədqiq edir. İrlandiya Respublikası və Şimali İrlandiya arasındakı uzunmüddətli münaqişəyə əsaslanaraq, bu anlayışların necə qarşılıqlı əlaqədə olduğunu və on illərlə davam edən problemin sonra necə həll olunduğunu təhlil edir. Tarixi kontekst, hüquqi çərçivələr və nəhayət, Yaxşı Cümə Sazişini nəzərdən keçirməklə, bu tədqiqat gələcək münaqişələrin qarşısını almaq üçün bu prinsiplərin necə uzlaşdırıla biləcəyinə dair anlayış təqdim edir.

Bu araşdırma göstərir ki, beynəlxalq diplomatiya, tarixi məlumatlılıq və siyasi çərçivələrin lazımi uyğunlaşma və praqmatizmi suverenliklə bağlı mübahisələrin həllində əsas əhəmiyyət daşıyır. Bundan əlavə, oxşar gərginliklərin digər geosiyasi kontekstlərdə necə özünü göstərdiyini müzakirə edərək, bu tədqiqatın İrlandiya nümunəsindən kənarda da aktuallığını vurğulayır. Dünyadakı digər öz müqəddəratını təyinetmə hərəkatları ilə müqayisələr aparmaqla, bu məqalə suveren dövlətlər daxilində sülh və sabitliyi qorumaq üçün tələb olunan incə tarazlığı daha geniş şəkildə başa düşməyə kömək etməyi hədəfləyir.

Keçmiş və indiki siyasi danışıqların təhlili göstərir ki, suverenlik və öz müqəddəratını təyinetmə ilə bağlı münaqişələrin həlli kompromis, qarşılıqlı anlayış, şikayətlərin tanınması, səbir və innovativ siyasət həlləri tələb edir. Bundan əlavə, beynəlxalq təşkilatlar və xarici hökumətlər də daxil olmaqla,

xarici aktorların bu gərginlikləri ya gücləndirmək, ya da yumşaltmaq motivasiyası və rolu qiymətləndirilərək, qlobal münaqişələrin həlli strategiyalarına daha əhatəli baxış təqdim edilir.

**Açar sözlər:** Suverenlik, öz müqəddəratını təyinetmə, Şimali İrlandiya, İrlandiya, Eire, münaqişə, Yaxşı Cümə Sazişi, milli kimlik, barışıq, sülh.

## АНАЛИЗ КОНФЛИКТОВ, ВОЗНИКАЮЩИХ ИЗ-ЗА СОСУЩЕСТВОВАНИЯ СУВЕРЕНИТЕТА И САМООПРЕДЕЛЕНИЯ

**Нил Ватсон**

**Резюме.** В данной статье рассматриваются внутренние противоречия между принципами суверенитета и самоопределения, а также их исторические и современные последствия. Анализируется давний конфликт между Республикой Ирландия и Северной Ирландией, обусловленный затянувшимся противостоянием. Изучение исторического контекста, правовых рамок и Белфастского соглашения (Соглашение Страстной пятницы) может помочь в примирении различных принципов, связанных с урегулированием конфликта, а также для предотвращения будущих конфликтов. Исследование подчеркивает важность международной дипломатии, исторической осведомленности, а также гибкости и прагматизма политических механизмов при разрешении споров, связанных с суверенитетом. Кроме того, в статье рассматривается, как аналогичные противоречия проявляются в других геополитических контекстах, что делает исследование актуальным не только для ирландского вопроса. Путем сравнения с другими движениями за самоопределение в мире, автор стремится дать более широкое представление о тонком балансе, необходимом для поддержания мира и стабильности в суверенных государствах. Анализ прошлых и современных политических переговоров показывает, что разрешение конфликтов, связанных с суверенитетом и самоопределением, требует компромисса, взаимопонимания, признания претензий, терпения и инновационных политических решений. Дополнительно оценивается роль и мотивация внешних акторов, включая международные организации и иностранные правительства, которые могут либо усугублять, либо смягчать напряженность, предоставляя более комплексный взгляд на стратегии урегулирования мировых конфликтов.

**Ключевые слова:** суверенитет, самоопределение, Северная Ирландия, Ирландия, Эйре, конфликт, Соглашение Страстной пятницы, национальная идентичность, примирение, мир

**Discussion: Contemporary Implications and Future Perspectives.** The ongoing impact of Brexit on Northern Ireland presents a new set of challenges concerning the balance between sovereignty and self-determination. The United Kingdom’s withdrawal from the European Union has led to increased political tensions regarding border controls, economic stability, and national identity in Northern Ireland. The Northern Ireland Protocol, known as the ‘Irish Backstop’, designed to prevent a hard border between Northern Ireland and the Republic of Ireland (Eire), has been met with significant resistance from Unionist communities who view it as a threat to their ties with the UK. This demonstrates that, even after formal peace agreements, the issues of governance and self-determination continue to evolve, requiring constant political renegotiation and compromise.

Moreover, the case of Northern Ireland serves as a framework for understanding similar disputes across the world. Examples include the Catalonian independence movement in Spain, calls for Basque independence from Spain and France and Scottish demands for another independence referendum, which reflect similar conflicts between the principles of sovereignty and self-determination. These cases illustrate how historical grievances, economic considerations, and cultural identity shape modern self-determination struggles. The lessons learned from the Northern Ireland peace process, including an emphasis on power-sharing, international mediation, and gradual psychological reconciliation, provide valuable insights into managing such disputes in other regions.

**Introduction** The coexistence of sovereignty and self-determination has been a source of political tension and conflict throughout history. The right to self-determination is a fundamental principle enshrined in international law, enabling groups to define their own political status (United Nations Charter, 1945, Article 1, Paragraph 2). Conversely, sovereignty emphasises the inviolability

of existing state borders (Treaty of Westphalia, 1648). The friction between these two concepts has resulted in numerous conflicts, including the case of Northern Ireland, where cultural, religious, and political divisions led to prolonged violence [6, 2002, p. 78].

Theoretical Framework Sovereignty, as defined by the Treaty of Westphalia (1648), establishes the absolute authority of a state over its territory [5, p. 32]. On the other hand, self-determination is a principle stated in the United Nations Charter (Article 1, Paragraph 2) and reaffirmed by the International Covenant on Civil and Political Rights [6, p. 102]. The challenge arises when groups within a sovereign state demand self-determination, instability or conflict [4, p. 56].

**Historical Context: Ireland and Northern Ireland** The conflict in the island of Ireland dates back to the 17th century, when British and Scottish settlers were relocated to Northern Ireland by the British government, which ruled Ireland for centuries (The British Library, 2022, p. 12).

**Colonial Influence and Partition** British colonial policies significantly shaped the division of Ireland. The Government of Ireland Act 1920 formally separated Northern Ireland from the rest of the island, creating a self-governing entity within the UK. The Anglo-Irish Treaty (1921) led to the establishment of the Irish Free State a year later, whilst Northern Ireland opted to remain under British rule. These developments reinforced sectarian divisions and led to further political unrest [5, p. 67]. Tensions grew between the Catholic Irish nationalists, who sought the unification of Northern Ireland with the Republic of Ireland, and the Protestant Unionists, who favoured remaining part of the United Kingdom [7, p. 8].

**The Troubles (1969–98)** The late 20th century saw the escalation of hostilities, known as ‘The Troubles’. This was characterised by violent confrontations between the Irish Republican Army (IRA), the British Army, and Loyalist paramilitary groups. Over 3,500 people lost their lives due to bombings, assassinations, and civil unrest (O'Leary, 2019, p. 98). Key incidents included:

- The assassination of Lord Mountbatten (1979) [6, 2002, p. 156]. The Hyde Park and Regent's Park bombings (1982) (BBC History, 2020, p. 17). The Brighton Bomb – an attempt to assassinate the UK Government, including Prime Minister Margaret Thatcher (1984) (13,1993 p.567) The 1996 Manchester Bombing [4, p. 72].

**International Influence and Political Developments** The conflict extended beyond Ireland and the UK, with support for the Irish Republicans coming from various global actors, including the Irish diaspora in the United States, the Palestine Liberation Organisation and Libya under Muammar Gaddafi (McKittrick & McVea, 2002, p. 214). Meanwhile, the British government sought to maintain order through military deployment and political strategies [8, p. 112].

**The Good Friday Agreement (1998)** The Good Friday Agreement marked the end of The Troubles and established a framework for peace. Key provisions included:

- Power-sharing between Unionists and Nationalists [5, p. 140]. Disarmament of paramilitary groups (BBC History, 2020, p. 30). Cross-border cooperation between Northern Ireland and the Republic of Ireland [4, p. 88].
- A legal mechanism for the potential future unification of Ireland at an unspecified date [6, p. 198].

**Post-Agreement Developments** Despite the success of the Good Friday Agreement, political tensions remain. The devolution of power to the Northern Ireland Assembly has faced challenges, with periods of suspension due to political disagreements. The role of paramilitary organisations continues to be a point of concern [9, p. 43].

**Contemporary Status and Future Perspectives** Today, the status of Northern Ireland remains a contentious issue, particularly in light of Brexit and its implications for the Irish border. The 2016 Brexit referendum reignited debates about sovereignty and self-determination, as Northern Ireland voted to remain in the EU, whilst the UK as a whole voted to leave. Key challenges include:

- The implementation of the Northern Ireland Protocol and its impact on trade and political stability [10, p. 120].
- The possibility of a future referendum on Irish unification, as specified under the Good Friday Agreement [6, p. 230].

• The continued influence of nationalist and unionist political movements in shaping the future of the region [11, p. 75].

**Discussion: Sovereignty vs. Self-Determination in Ireland** The case of Northern Ireland illustrates the complexities of reconciling sovereignty with self-determination. Key questions remain:

• Should the Republic of Ireland’s larger population dictate Northern Ireland’s fate? [4, p. 110].

• Do Northern Irish Protestants have a right to their own distinct identity and governance? [5, p. 156].

**Conclusion** The case of Northern Ireland underscores the ongoing challenges of managing self-determination within sovereign states. The Good Friday Agreement serves as an example of how diplomacy and mutual recognition can mitigate longstanding conflict. However, the struggle for national identity and political autonomy remains relevant in many regions worldwide. The lessons drawn from the Irish conflict emphasise the importance of patient negotiation, external mediation, and the establishment of mutually-agreed institutions that promote reconciliation.

The contemporary political landscape, particularly with the challenges posed by Brexit, demonstrates that peace agreements require continuous adaptation to reflect evolving circumstances. Moving forward, it is essential for both local and international actors to remain committed towards preserving stability and dialogue in Northern Ireland, not seeking to capitalise on this for their own purposes. Future conflicts must seek to learn from such historical precedents to foster peaceful resolution, recognising that sovereignty and self-determination are not mutually exclusive, but rather interdependent concepts, requiring careful negotiation and compromise.

The balance between maintaining territorial integrity and acknowledging the right to self-determination remains a significant challenge for many nations. The Northern Ireland case illustrates how protracted conflict can give way to diplomatic solutions through sustained effort and goodwill. Moreover, the role of cultural identity in self-determination movements must not be underestimated, as historical grievances and national consciousness plays a crucial role in shaping political outcomes. Therefore, future peacebuilding efforts should prioritise inclusivity, power-sharing mechanisms, and international cooperation to ensure lasting stability in contested regions.

## References


1. United Nations Charter, Article 1, Paragraph 2 (1945).
2. Treaty of Westphalia (1648).
3. The Good Friday Agreement (1998).
4. Coakley, J. (2013). The Irish Conflict and Its Resolution: A Comparative Perspective. Oxford University Press.
5. O’Leary, B. (2019). A Treatise on Northern Ireland: Volume I: Colonialism and Containment. Oxford University Press.
6. McKittrick, D., & McVea, D. (2002). Making Sense of the Troubles: A History of the Northern Ireland Conflict. Penguin Books.
7. BBC History. (2020). The Troubles: Key Events and Figures. Retrieved from www.bbc.co.uk/history.
8. The British Library. (2022). The History of Irish Nationalism and Unionism. Retrieved from www.bl.uk/irish-history.
9. Hayward, K. (2021). The Irish Border: History, Politics, and Brexit. Oxford University Press.
10. Mansergh, M. (2019). The Legacy of Irish Partition. Cambridge University Press.
11. Tonge, J. (2022). Northern Ireland: Conflict and Change. Palgrave Macmillan.
12. Guelke, A. (2012). Politics in Deeply Divided Societies. Polity Press.
13. Bell, J. Bowyer (1993). The Irish Troubles: A Generation of Violence, 1967–1992. New York: St. Martin's Press


**Rəyçi: f.f.d.. dos. Zöhrə Əliyeva**

**UOT 32**
**https://doi.org/10.30546/ifs.2025.1(44).105**

# DÖRDÜNCÜ SƏNAYE İNQİLABINDA RƏQƏMSAL MALİYYƏ İMPERİALİZMİ

**Məhəmməd Cəbrayılov**
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, **Azərbaycan**
mehmetsoltanedu@gmail.com
https://orcid.org/0000-0002-5812-1900

**Xülasə.** Bu məqalədə Dördüncü Sənaye İnqilabının yaratdığı yeni texnoloji və iqtisadi reallıqlar fonunda rəqəmsal maliyyə imperializminin formalaşması və qlobal təsirləri təhlil edilir. Əsas müzakirə olunan məsələ rəqəmsal texnologiyaların – xüsusən blokçeyn, kriptovalyutalar və rəqəmsal ödəniş sistemlərinin – qlobal maliyyə nəzarətinin yeni formalarına çevrilməsi və bu mexanizmlərin inkişaf etməkdə olan ölkələrin iqtisadi suverenliyinə təsiridir. Məqalədə metodologiya olaraq fəlsəfi-siyasi analiz, müqayisəli tədqiqat yanaşması və elmi ədəbiyyatın sistemləşdirilmiş icmalı tətbiq olunmuşdur. Araşdırmanın yeniliyi ondan ibarətdir ki, rəqəmsal maliyyə imperializmi anlayışı Dördüncü Sənaye İnqilabının kontekstində təhlil edilmiş, rəqəmsal texnologiyaların maliyyə hakimiyyəti üçün necə yeni alətə çevrildiyi göstərilmişdir. Məqalənin nəticələri rəqəmsal iqtisadi asılılıqların artmasının milli dövlətlərin iqtisadi müstəqilliyinə və beynəlxalq münasibətlər sistemində güc balansına təsirini açıq şəkildə nümayiş etdirir.
**Açar sözlər:** rəqəmsal maliyyə, imperializm, sənaye inqilabı, kriptovalyuta, suverenlik

## DIGITAL FINANCIAL IMPERIALISM IN THE FOURTH INDUSTRIAL REVOLUTION

**Mahammad Jabrailov**
**Abstract.** This article analyzes the emergence of digital financial imperialism and its global impacts in the context of the new technological and economic realities created by the Fourth Industrial Revolution. The main focus of the discussion is on how digital technologies—especially blockchain, cryptocurrencies, and digital payment systems—are transforming into new forms of global financial control, and how these mechanisms affect the economic sovereignty of developing countries. The study employs philosophical-political analysis, comparative research methods, and a systematic review of the scientific literature. The novelty of the research lies in the analysis of the concept of digital financial imperialism within the framework of the Fourth Industrial Revolution, demonstrating how digital technologies have become new tools for financial domination. The results of the article clearly show that the growing digital economic dependencies threaten the economic independence of nation-states and impact the balance of power in the system of international relations.
**Keywords:** digital finance, imperialism, industrial revolution, cryptocurrency, sovereignty

## ЦИФРОВОЙ ФИНАНСОВЫЙ ИМПЕРИАЛИЗМ В УСЛОВИЯХ ЧЕТВЁРТОЙ ПРОМЫШЛЕННОЙ РЕВОЛЮЦИИ

**Магамед Джабраилов**

**Резюме.** В статье исследуется феномен цифрового финансового империализма как новая форма глобального экономического доминирования в условиях Четвёртой промышленной революции. Особое внимание уделяется роли цифровых технологий — блокчейна, криптовалют и международных платёжных систем — в трансформации традиционных механизмов финансового контроля. В качестве методологической основы применяются

философско-политический анализ, сравнительное исследование и систематический обзор научной литературы. Научная новизна заключается в рассмотрении цифрового финансового империализма сквозь призму технологических сдвигов Четвёртой промышленной революции, что позволяет выявить, каким образом цифровые платформы и финансовые экосистемы становятся инструментами подрыва экономического суверенитета развивающихся государств. Полученные результаты показывают, что углубление цифровой зависимости усиливает асимметрию в международных отношениях и формирует новые риски для устойчивого развития национальных экономик. Практическая значимость работы состоит в возможности использования её выводов при разработке стратегий цифрового регулирования и укрепления экономического суверенитета государств.

**Ключевые слова:** цифровые финансы, империализм, Четвёртая промышленная революция, криптовалюта, экономический суверенитет

**Giriş**

XXI əsr bəşəriyyət tarixində fundamental dəyişikliklərin intensivləşdiyi bir dövr kimi xarakterizə olunur. Bu dəyişikliklərin mərkəzində duran Dördüncü Sənaye İnqilabı yalnız istehsal münasibətlərini və texnologiyaları deyil, həm də qlobal maliyyə sistemlərini, dövlətlərin iqtisadi suverenliyini və beynəlxalq güc balansını köklü şəkildə transformasiya etməkdədir. Əvvəlki sənaye inqilablarında əsas vasitə fiziki istehsal gücü və texniki innovasiyalar idisə, Dördüncü Sənaye İnqilabının fərqləndirici xüsusiyyəti rəqəmsal texnologiyaların, süni intellektin, blokçeyn infrastrukturunun və rəqəmsal valyutaların qlobal miqyasda hökmranlığa doğru irəliləməsidir. Bu proses yeni növ maliyyə asılılıqları yaradır və klassik imperializm anlayışının rəqəmsal mərhələyə keçdiyini göstərir.

Rəqəmsal maliyyə imperializmi anlayışı təkcə texnoloji innovasiyaların iqtisadi alətə çevrilməsi ilə məhdudlaşmır, o, həm də qlobal güc mərkəzlərinin rəqəmsal valyutalar və kriptovalyutalar vasitəsilə maliyyə axınlarına nəzarətetmə mexanizmini təmsil edir. Bu vəziyyət maliyyə kapitalının ənənəvi sərhədləri aşaraq ölkələrin milli iqtisadi sistemlərinə dərin nüfuz etməsinə, inkişaf etməkdə olan dövlətlərin öz maliyyə qərarlarında müstəqillik imkanlarının məhdudlaşmasına səbəb olur. Beləliklə, rəqəmsal maliyyə imperializmi artıq klassik hərbi və siyasi hegemonluğun yerini alan, daha incə və görünməz, lakin bir o qədər də təsirli bir nəzarət forması kimi çıxış edir.

Dördüncü Sənaye İnqilabında bu proseslər qlobal kapitalın mərkəzləşməsi ilə paralel gedir və dünya maliyyə sistemində qeyri-bərabər inkişaf tendensiyalarını daha da dərinləşdirir. Rəqəmsal aktivlər və kriptovalyutalar üzərində nəzarəti əlində cəmləyən güc mərkəzləri yeni maliyyə asılılıqları yaradır, milli suverenlikləri zəiflədir və rəqəmsal məkan üzərində hökmranlığı genişləndirirlər. Bununla da rəqəmsal maliyyə imperializmi beynəlxalq münasibətlər sistemində yeni geosiyasi və geoiqtisadi risklər formalaşdırır. Məhz bu səbəbdən Dördüncü Sənaye İnqilabının reallıqları şəraitində rəqəmsal maliyyə imperializminin mahiyyətini, mexanizmlərini və nəticələrini dərindən təhlil etmək zərurəti yaranır.

Dördüncü Sənaye İnqilabının texnoloji risklərini nəzərə alan Prasad qeyd edir ki, “Rəqəmsal valyutaların və maliyyə texnologiyalarındakı innovasiyaların yüksəlişi maliyyə sisteminin əsaslarını yenidən formalaşdırır, ənənəvi banklar və mərkəzi banklar üçün çağırışlar yaradarkən istehlakçılar və investorlar üçün yeni imkanlar və risklər meydana gətirir” (8, s.7).

Prasada istinad etdiyimiz fikir Dördüncü Sənaye İnqilabında rəqəmsal maliyyə imperializminin inkişafı baxımından xüsusi əhəmiyyət daşıyır. Çünki rəqəmsal valyutaların ortaya çıxması yalnız texnoloji dəyişiklik deyil, eyni zamanda qlobal güc münasibətlərində köklü transformasiyanı ifadə edir: pulun rəqəmsallaşması milli dövlətlərin mərkəzi banklarının pul-kredit siyasəti üzərindəki nəzarət imkanlarını zəiflədir və qlobal texnoloji korporasiyalara və böyük maliyyə platformalarına strateji üstünlük verir.

Siyasi-fəlsəfi kontekstdən bu proses maliyyə sahəsində “hakimiyyətin mərkəzləşdirilməsi ilə yanaşı, məsuliyyətin yayılması” paradoksunu doğurur. Çünki rəqəmsal maliyyə sistemləri vasitəsilə

milyonlarla istifadəçi iqtisadi fəaliyyətə qoşulur, lakin bu fəaliyyətin qaydalarını texnoloji platformalar müəyyən edir. Bu isə demokratik nəzarət mexanizmlərini zəiflədir, fərdlərin və dövlətlərin iqtisadi subyekt kimi öz gələcəyini müəyyən etmək imkanlarını məhdudlaşdırır.

Bu baxımdan, rəqəmsal maliyyə texnologiyalarının yüksəlişi yalnız maliyyə xidmətlərinin əlçatanlığını artırmaqla məhdudlaşmır, həm də qlobal miqyasda rəqəmsal maliyyə imperializminin inkişafı üçün zəmin yaradır, inkişaf etməkdə olan ölkələrin iqtisadi suverenliyini risk altına qoyur və dünya iqtisadiyyatında qeyri-bərabər asılılıq münasibətlərini dərinləşdirir.

Zetçi və digər araşdırmaçıların yeni maliyyə alətlərinin qlobal manipulaysiya yaratdığını əsas gətirərək qeyd edirlər ki, “İlkin koin təklifləri (ICO-lar) maliyyə toplama üçün misilsiz imkanlar yaradır, lakin aydın tənzimləmə çərçivələrinin olmaması səbəbindən fırıldaqçılıq, bazar manipulyasiyası və investorların zərər çəkməsi kimi ciddi risklər də daşıyır. ICO-larda anonimlik, sərhədlərarası fəaliyyət və nəzarətin olmaması kimi unikal xüsusiyyətlərin birləşməsi spekulyativ balonların və maliyyə cinayətlərinin yaranması üçün münbit şərait yaradır”(13, s. 8).

Dördüncü Sənaye İnqilabı şəraitində ICO-lar texnologiyanın demokratikləşdirici potensialını əks etdirməklə yanaşı, eyni zamanda dövlətlərin və cəmiyyətlərin maliyyə təhlükəsizliyini təhdid edən yeni riskləri də ortaya çıxarır. Rəqəmsal aləmin sərhədsizliyi və ICO-ların anonimliyi qlobal güc mərkəzlərinin maliyyə bazarlarını tənzimləməmiş rejimlər üzərində təsirini asanlaşdırır, beləliklə, maliyyə alətləri, sadəcə, kapital toplama vasitəsi deyil, həm də iqtisadi müstəqilliyi zədələyən alətə çevrilir.

Siyasi-fəlsəfi baxımdan ICO-lar bəşəriyyətin texnoloji tərəqqisinin təmsilçisi kimi təqdim olunsa da, praktiki planda kapitalın qlobal miqyasda daha sürətli mərkəzləşməsinə, inkişaf etməkdə olan ölkələrin iqtisadi asılılığının dərinləşməsinə və milli maliyyə institutlarının nəzarət imkanlarının zəifləməsinə xidmət edə bilər. Bu şəraitdə dövlətlərin maliyyə suverenliyi, milli valyuta siyasətləri və iqtisadi təhlükəsizlik strategiyaları ICO-lar vasitəsilə qlobal spekulyativ kapitalın təsiri altına düşərək zəifləyir. Bu baxımdan, ICO-ların verdiyi sərbəstlik və texnoloji innovasiya potensialı ilə maliyyə imperializminin dərinləşməsi prosesi arasında ziddiyyət Dördüncü Sənaye İnqilabının iqtisadi-siyasi reallıqlarını anlamaq üçün mühüm açardır.

**“Müasir imperializm getdikcə daha çox birbaşa ərazi nəzarəti deyil, maliyyə mexanizmləri vasitəsilə fəaliyyət göstərir; zəif iqtisadiyyatlara iqtisadi intizam tətbiq etmək və onlardan dəyər çıxarmaq üçün borc, valyuta manipulyasiyası və spekulyativ kapital axınlarından istifadə edir”** *(5, s. 145).*

David Harveyin “müasir imperializmin birbaşa ərazi nəzarətindən çox maliyyə mexanizmlərinə əsaslandığı” qənaəti Dördüncü Sənaye İnqilabının reallıqlarında daha da aktuallaşır və yeni məzmun verir. Əgər XX əsrin sonlarına qədər maliyyə imperializmi əsasən kreditlər, valyuta manipulyasiyası və qlobal maliyyə təşkilatlarının (Beynəlxalq Valyuta Fondu, Dünya Bankı və s.) şərtləri ilə aparılırdısa, Dördüncü Sənaye İnqilabı dövründə rəqəmsal texnologiyalar bu mexanizmlərin təsir dairəsini eksponensial şəkildə genişləndirir.

**Harvey bir daha sübut etməyə çalışır ki, “müsadirə yolu ilə yığım müasir imperialist strategiyaların əsas xüsusiyyətinə çevrilir; burada maliyyə alətləri və özəlləşdirmə siyasətləri sərvətin yuxarıya doğru yenidən bölüşdürülməsinə və qlobal bərabərsizliyin möhkəmlənməsinə xidmət edir”** (5, s.160). Rəqəmsal maliyyə alətləri – xüsusən kriptovalyutalar, rəqəmsal ödəniş sistemləri və mərkəzləşdirilməmiş maliyyə platformaları (DeFi) – artıq, sadəcə, texnoloji yenilik deyil, eyni zamanda zəif iqtisadi struktura malik dövlətlər üçün yeni asılılıq mexanizmlərinə çevrilir. Bu asılılıq klassik kolonial metodlardan fərqli olaraq, görünməz və daha mürəkkəb formada baş verir; çünki dövlətlər rəqəmsal maliyyə infrastrukturuna daxil olduqca öz milli pul siyasətinə təsir imkanlarını itirir, pul dövriyyəsində baş verən dəyişikliklər isə qlobal güc mərkəzlərinin rəqəmsal platformalar üzərindən həyata keçirdiyi manipulyasiyalarla tənzimlənə bilir.

**Bu kontekstə Harveyin fikri araşdırdığımız mövzunun epistemoloji bazasını zənginləşdirir. Onun fikrinə görə, “yeni imperializm maliyyə bazarlarının dəyişkənliyindən bəhrələnir, iqtisadi və siyasi mənzərəni dominant güclərin xeyrinə yenidən formalaşdırmaq üçün böhranlardan və struktur uyğunlaşma tədbirlərindən alət kimi istifadə edir”** (5, s.173). Fəlsəfi baxımdan, Dördüncü Sənaye İnqilabında maliyyə imperializminin rəqəmsal transformasiyası

insanın və cəmiyyətlərin iqtisadi subyekt kimi öz müqəddəratını təyin etmək imkanlarını zəiflədir. Çünki informasiya texnologiyalarının yaratdığı asılılıq, sadəcə, maddi deyil, həm də şüur səviyyəsində təsir göstərir. Beləliklə, rəqəmsal maliyyə imperializmi yalnız sərvətlərin mərkəzləşdirilməsi deyil, eyni zamanda informasiya və alqoritmlər vasitəsilə davranışların, bazar gözləntilərinin və hətta siyasi qərarların yönləndirilməsinin yeni formasıdır. Bu isə klassik imperializmdən daha dərin və təhlükəli mexanizm kimi çıxış edir, çünki şəffaflığı azaltmaqla yanaşı, maliyyə sistemindəki spekulyasiya və manipulyasiya əməliyyatlarını sürətləndirir, iqtisadi suverenliyi və milli təhlükəsizliyi zədələyir.

Dördüncü Sənaye İnqilabının araşdırmaçısı olan Klaus Şvab rəqəmsal kriptovalyutaları “hazırda reallaşan dəyişiklik” adlandıraraq qeyd edir ki, “2015-ci ildə “blikçeyn” – vətəndaşların şəxsiyyət vəsiqələri üçün şəxsiyyətin dəyişdirilməsi texnologiyasının təməli kimi, blokçeyndən istifadə edən ilk virtual millət – “BitNation” yaradıldı. Eyni zamanda Estoniya blokçeyn texnologiyasından istifadə etməyə başlayan ilk real dövlət oldu” (11, s.176).

Rəqəmsal şəxsiyyət, rəqəmsal sərhədlər və rəqəmsal vətəndaşlıq kimi anlayışların inkişafı dövlətlərin öz vətəndaşları üzərindəki ənənəvi səlahiyyətlərini texnoloji platformalarla bölüşməsi zərurətini doğurur ki, bu da rəqəmsal maliyyə imperializminin əsas mexanizmlərindən birinə çevrilir. Çünki kimlik, hüquq və maliyyə axınlarının rəqəmsallaşması dövlətləri qlobal texnoloji standartlara uyğunlaşmağa vadar edir, bu isə güc mərkəzlərinin yeni növ nəzarət mexanizmlərinin tətbiqini asanlaşdırır.

Hərçənd kompüter aparat və proqram təminatının, habelə qlobal şəbəkələrin sintezi nəticəsində meydana gələn texnoloji sistemlər yeni dövrün innovativ məhsulları hesab edilir, Üçüncü Sənaye İnqilabını ardınca gələn mərhələdə bu texnologiyalar daha mürəkkəb və sistemli məzmun qazanaraq, yalnız iqtisadi münasibətləri deyil, bütövlükdə cəmiyyətin sosial və mədəni quruluşunu da transformasiyaya uğratmağa başlamışdır. Bu kontekstdə Massaçusets Texnologiya İnstitutunun professorları Erik Brinyolfsson və Endryu Makafi vurğulayırlar ki, bəşəriyyət artıq “İkinci maşın dövrünə” qədəm qoymuşdur; burada rəqəmsal texnologiyalar avtomatlaşmanın “bütün gücü” ilə öz təsirini göstərir və bu proses “görünməmiş hadisələrin” meydana çıxmasına zəmin yaradır (1, s.7). Onların tədqiqatı texnoloji tərəqqinin eksponent xarakter daşıdığını və cəmiyyətlər üçün həm yeni imkanlar, həm də misilsiz çağırışlar formalaşdırdığını xüsusi olaraq vurğulayır.

Dördüncü Sənaye İnqilabının iqtisadi və sosial təsirləri ilə bağlı son tədqiqatlar göstərir ki, rəqəmsal texnologiyaların sürətli inkişafı yalnız əmək bazarını və istehsal strukturunu deyil, həm də maliyyə sisteminin dayanıqlılığını və sosial bərabərliyi ciddi şəkildə sınağa çəkir. Belə ki, müəlliflər Daniel Susskind və Riçard Susskind vurğulayırlar ki, “rəqəmsal texnologiyalar və süni intellekt təkcə mövcud iş yerlərinin transformasiyasına səbəb olmur, eyni zamanda bir çox peşələrin gələcəkdə mövcudluğunu da sual altına qoyur” (10, s.10). Bu yanaşma rəqəmsal maliyyə imperializmi kontekstində texnoloji asılılığın sosial-iqtisadi bərabərsizlikləri dərinləşdirmək potensialını göstərir.

Maliyyə texnologiyalarının transformasiyası ilə müşayiət olunan Dördüncü Sənaye İnqilabı yalnız iqtisadi münasibətləri deyil, eyni zamanda siyasi güc balansını da yenidən dizayn etmək potensialına malikdir. Kriptovalyutalar və mərkəzləşdirilməmiş maliyyə texnologiyaları ilkin mərhələdə “azadlıq və mərkəzsizləşmə” vədləri ilə təqdim olunsa da, onların arxasında dayanan texnoloji infrastruktur və bazar dinamizmi qlobal güclərə həm maliyyə axınlarına, həm də fərdlərin iqtisadi fəaliyyətlərinə nəzarət üçün misilsiz imkanlar açır.

Bu baxımdan Bret Skot qeyd edir ki, “kriptovalyutaların mərkəzsizləşmiş təbiəti onları yalnız dövlət nəzarətindən deyil, həm də siyasi güc mərkəzlərinin yeni formada təsir alətinə çevirir; belə ki, rəqəmsal aktivlərin istifadəsi ilə kapital axınlarının istiqamətini və tempini manipulyasiya etmək mümkün olur” (9, s.187). Onun fikrincə, rəqəmsal maliyyə sistemləri vasitəsilə yaranan asılılıq yeni növ “rəqəmsal feodalizmin” formalaşmasına zəmin yaradır, burada böyük texnoloji və maliyyə oyunçuları öz istifadəçiləri üzərində əvvəllər görünməmiş gücə malik olurlar.

Dördüncü Sənaye İnqilabı kontekstində rəqəmsal maliyyə alətlərinin qlobal güclər üçün strateji vasitəyə çevrilməsi tarixi presedentlərlə də uzlaşır. Nial Ferqyuson qeyd edir ki, “kriptovalyutalar və rəqəmsal ödəniş sistemləri yalnız texnoloji yenilik deyil, həm də dövlətlərin və korporasiyaların öz təsir dairələrini genişləndirmək üçün rəqabət apardıqları yeni maliyyə döyüş meydanıdır” (2, s.152).

Bu baxımdan pulun rəqəmsallaşması beynəlxalq münasibətlərdə hakimiyyət balansını dəyişdirərək informasiya və kapital axınları üzərində nəzarəti gücləndirmək üçün imkanlar yaradır.

Kriptovalyutaların və rəqəmsal ödəniş infrastrukturunun inkişafı təkcə qlobal güc balansını dəyişmir, həm də fərdlərin şəxsi iqtisadiyyatlarına müdaxilə imkanlarını genişləndirir. Şoşana Zubof öz tədqiqatında vurğulayır ki, “rəqəmsal texnologiyaların iqtisadi sistemlərə inteqrasiyası, istifadəçilərin davranış məlumatlarının toplanması və analizini maliyyə modellərinə daxil etməklə, insan həyatını iqtisadi ekosistemin ayrılmaz hissəsinə çevirir” (12, s. 94). Onun fikrincə, bu vəziyyət fərdlərin yalnız istehlakçı deyil, eyni zamanda davranış məlumatlarının məhsulu kimi də istismar olunmasına yol açır ki, bu da rəqəmsal maliyyə imperializminin yeni, daha gizli və təsirli mərhələsidir.

Rəqəmsal ödəniş sistemlərinin və kriptovalyutaların geniş yayılması yalnız texnologiya və maliyyə sferalarında deyil, həm də demokratik institutların möhkəmliyi və sosial sabitlik üçün ciddi çağırışlar yaradır. Yuval Noah Harari öz tədqiqatında qeyd edir ki, “rəqəmsal texnologiyalar və süni intellekt iqtisadi gücləri azsaylı qlobal elitaların əlində cəmləşdirməklə, sosial təbəqələşməni kəskinləşdirə və yeni növ “rəqəmsal diktatura” üçün zəmin yarada bilər” (4, s. 83). Onun fikrincə, rəqəmsal maliyyə vasitələrinin inkişafı təkcə iqtisadi asılılıq deyil, həm də fərdlərin azad seçim hüququna təhdid yaradan siyasi-iqtisadi strukturların möhkəmlənməsinə səbəb ola bilər.

Daim inkişaf edən rəqəmsal texnologiyalar dünyada qlobal geosiyasi proseslərə birbaşa və ya dolyısı ilə təsir edir, həm də imperializmin, yəni kapitalın ixracının maliyyə kapitalı ilə əlaqəsində yüz illərlə davam edən ənənəyə sarsıdıcı zərbə vurur. Məsələn, Dördüncü Sənaye İnqilabını xarakterizə edən “alətlərdən” biri olan kriptovalyutaların dövriyyəyə buraxılması ənənəvi maliyyə imperializminə təsir etməklə yanaşı, yeni oyunçuların bazara daxil olmasını şərtləndirir.

“İnternetdə ticarət demək olar ki, tamamilə elektron ödənişləri emal etmək üçün etibarlı üçüncü tərəf kimi çıxış edən maliyyə institutlarına əsaslanır. Sistem əksər əməliyyatlar üçün kifayət qədər yaxşı işləsə də, yenə də etimada əsaslanan modelin daxili zəifliklərindən əziyyət çəkir. Tamamilə geridönməz əməliyyatlar, maliyyə institutları mübahisələri həll etmədən yan keçə bilmədiyi üçün, əslində, mümkün deyil” (7).

Geosiyasi baxımdan isə rəqəmsal şəxsiyyət və blokçeyn əsaslı idarəetmə mexanizmləri ilə təmin olunmuş dövlətlər qlobal rəqabətdə texnoloji üstünlük əldə edir, bu texnologiyalara çıxışdan məhrum olan dövlətlər isə rəqəmsal asılılıq vəziyyətinə düşərək öz maliyyə və siyasi qərarvermə imkanlarını itirirlər. Beləliklə, Dördüncü Sənaye İnqilabında rəqəmsal maliyyə imperializmi yalnız maliyyə alətləri ilə deyil, eyni zamanda dövlətlərin hüquqi və idarəetmə suverenliyini texnologiya vasitəsilə formalaşdırmaq və yönləndirmək potensialına malikdir.

Dördüncü Sənaye İnqilabı kontekstində süni intellekt və daha çox ağıllı texnologiyaların qlobal iqtisadiyyatda yaratdığı yeni trendlər klassik maliyyə institutlarına birbaşa təsir edir. Məhz bu baxımdan qlobal güclərin klassik maliyyə imperializmindən yeni maliyyə imperializminə transformasiyasını təşviq edən modelə keçməsi, əslində, Dördüncü Sənaye İnqilabının yaratdığı imkan və təsirlər kimi qiymətləndirilməlidir. Yuxarıda Dördüncü Sənaye İnqilabı ilə bağlı ayrı-ayrı müəlliflərin fikirlərindən qeyd edilən faktları ümumiləşdirsək, yeni şərtlərin dünyanın qlobal maliyyə sisteminə təsir edəcəyi ilə bağlı imperativ nəticəyə varmaq mümkündür. Digər tərəfdən texnologiya və rəqəmsallaşmanın hər tərəfdə inqilab yaratması dünya iqtisadiyyatında və maliyyə sistemində böyük faydalar gətirməsi ilə yanaşı, müxtəlif istiqamətlərdə mənfi təsir göstərəcəyini də ehtimal etmək mümükündür. Bütün bu qeyd olunanlar onu göstərir ki, ilk növbədə yeni maliyyə imperiyasını yaradan qloblal güclərin digər dövlətlər üzərində yeni təzyiq vasitələrinə sahib olması məqsədilə dövriyyəyə buraxdıqları rəqəmsal kriptovalyutalar gələcəkdə milli valyutalar üzərində spekulyasiya imkanlarını artırır.

**Nəticə**

Dördüncü Sənaye İnqilabı şəraitində “günün qaydası” yeni vəziyyətə uyğunlaşmaqdan keçir. Lakin burada heç də qlobal güclərin yaratdığı yeni maliyyə imperiyasının diktə etdiyi vəziyyətə uyğunlaşmaqdan söhbət getmir. Yeni vəziyyətə uyğunlaşmaq dedikdə, Dördüncü Sənaye İnqilabının yaratdığı imkanlara, yeni innovasiyalara, texnoloji təcrübəyə, rəqəmsal iqtisadiyyatda maliyyənin

yaradılması və onun təhlükəsiz idarə olunması bacarıqlarına sahib olunması nəzərdə tutulur. Digər tərəfdən qlobal güclər və onların geosiyasi maraqlarını həyata keçirən klassik maliyyə imperiyasına sahib olan transmilli şirkətlərin və beyin mərkəzlərinin Dördüncü Sənaye İnqilabının yaratdığı imkanları fürsət bilməklə, yeni vəziyyətə uyğunlaşma siyasəti həyata keçirəcəkləri ilə bağlı təşəbbüsləri diqqətdə saxlamaq və bu təsirləri minimuma endirən layihələr üzərində düşünməyə ehtiyac yaranır.

Bütün bu araşdırmanın yekun təhlili göstərir ki, Azərbaycan özünün rəqəmsal maliyyə təhlükəsziliyini təmin etmək üçün dövrün tələblərini nəzərə alan strategiyaya malik olmalıdır.

**İstifadə olunmuş ədəbiyyat**


1. Brynjolfsson E., McAfee A. The Second Machine Age: Work, Progress, and Prosperity in a Time of Brilliant Technologies. — New York: W.W. Norton & Company, 2014. — 306 p. URL: https://edisciplinas.usp.br/pluginfile.php/622156/mod_resource/content/1/Erik-Brynjolfsson-Andrew-McAfee-Jeff-Cummings-The-Second-Machine-Age.pdf (дата обращения: 06.07.2025).
2. Ferguson N. Doom: The Politics of Catastrophe. — New York: Penguin Press, 2021. — 496 p.
3. Germany. Working draft (WD) Proposal for ISO. — URL: https://www.acatech.de/wp-content/uploads/2016/11/acatech_eng_STUDIE_Industrie40_global_Web.pdf (дата обращения: 06.07.2025).
4. Harari Y.N. 21 Lessons for the 21st Century. — London: Jonathan Cape, 2018. — 368 p.
5. Harvey D. Неолиберальное состояние: управление народами и территориями в интересах капитала. — М.: Ультра.Культура, 2006. — 288 с.
6. Kesayak B. Otomasyona Yenik Düşecek 10 Meslek. — 2017. — URL: http://www.endustri40.com/otomasyona-yenik-dusecek-10-meslek/13 (дата обращения: 06.07.2025).
7. Nakamoto S. Bitcoin: A Peer-to-Peer Electronic Cash System. — URL: https://bitcoin.org/bitcoin.pdf (дата обращения: 06.07.2025)
8. Prasad E.S. The Future of Money: How the Digital Revolution is Transforming Currencies and Finance. — Cambridge, MA: Harvard University Press, 2021. — 496 p.
9. Scott B. Cloudmoney: Cash, Cards, Crypto and the War for Our Wallets. — London: Penguin Books, 2022. — 384 p.
10. Susskind R., Susskind D. The Future of the Professions: How Technology Will Transform the Work of Human Experts. — Oxford: Oxford University Press, 2015. — 368 p.
11. Şvab K. Dördüncü Sənaye İnqilabı / Tərc. E. Bağırov, T. Əlizadə. — Bakı: İqtisad Universiteti Nəşriyyatı, 2020. — 200 s.
12. Zuboff S. The Age of Surveillance Capitalism: The Fight for a Human Future at the New Frontier of Power. — New York: PublicAffairs, 2019. — 704 p.
13. Zetzsche D.A., Buckley R.P., Arner D.W., Barberis J.N. The ICO Gold Rush: It’s a Scam, It’s a Bubble, It’s a Super Challenge for Regulators. — University of Luxembourg Law Working Paper No. 11/2017. — 2017. — 56 p. URL: https://papers.ssrn.com/sol3/papers.cfm?abstract_id=3072298 (müraciət tarixi: 06.07.2025).


**Rəyçi: f.e.d.. prof. İlham Məmmədzadə**

**UOT 32**
**https://doi.org/10.30546/ifs.2025.1(44).111**

# HEYDƏR ƏLİYEVİN KONSTİTUSİYA MODELİ

**Günel Məlikli**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, **Azərbaycan**
siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
gunelmaliki@rambler.ru
https://orcid.org/0009-0000-6154-0009

**Xülasə:** Suverenlik doktrinası konstitusiya modelində mühüm rol oynayır, hakimiyyətin təşkili prinsiplərini və vətəndaşların hüquq və azadlıqlarının müdafiəsini müəyyən edir. Suverenlik abstrakt bir anlayış deyil – bu, milli ruhun özünü reallaşdırması, müstəqil yolunu dirçəltmək və davam etdirmək imkanıdır.

**Məqsəd:** Konstitusiyanın yaradılması və təkmilləşdirilməsi yollarını təhlil etmək.

**Metodologiya:** Müqayisəli təhlil və sintez üsulu.

**Elmi yenilik:** Azərbaycan siyasi elmi üçün aktual olan məsələlər – konstitusiyanın yaradılması və rolu, Azərbaycanın milli inkişaf sistemində demokratiyanın inkişafı – təhlil olunmuşdur.

**Açar sözlər:** milli inkişaf, konstitusiya, demokratik dövlət, insan hüquqları

## КОНСТИТУЦИОННАЯ МОДЕЛЬ ГЕЙДАРА АЛИЕВА

**Гюнель Меликли**

**Резюме**. Доктрина суверенитета играет важную роль в конституционной модели, определяя принципы организации власти и защиту прав, и свобод граждан. Суверенитет – это не абстрактное понятие, это возможность для самореализации национального духа, возможность возродить и продолжить свой независимый путь.

**Цель:** анализ путей создания и усовершенствования конституции

**Методология:** компаративный анализ и синтез.

**Научная новизна:** проанализированы актуальные для политической науки. Азербайджана создание и роль конституции, развитие демократии в системе национального развития Азербайджана.

**Ключевые слова:** национальное развитие, конституция, демократическое государство, права человека

## CONSTITUTIONAL MODEL OF HEYDAR ALIYEV

**Gunel Malikli**

**Abstract:** The doctrine of sovereignty plays an important role in the constitutional model, defining the principles of the organization of power and the protection of citizens' rights and freedoms. Sovereignty is not an abstract concept—it is the means for the self-realization of the national spirit and the opportunity to revive and continue an independent path.

**Objective:** To analyze the ways of creating and improving the constitution.

**Methodology:** Comparative analysis and synthesis.

**Scientific novelty:** The article analyzes issues relevant to political science in Azerbaijan—particularly the creation and role of the constitution and the development of democracy in the context of the national development of Azerbaijan.

**Keywords:** national development, constitution, democratic state, human rights

Ümummilli lider Heydər Əliyevin hüquqi, dünyəvi, demokratik dövlət quruculuğu problemini qəti şəkildə qarşıya qoyması və bu həyati vacib məsələnin həlli yolunda lazımi addımların atılması müstəqil ölkənin konstitusiyasının hazırlamasını və qəbul edilməsini təxirəsalınmaz vəzifələrdən biri kimi zəruri edirdi. Belə vəzifənin qarşıya qoyulması, əslində, Azərbaycan cəmiyyətinin real tələbatı ilə şərtlənirdi. Çünki ölkənin ictimai-siyasi, sosial, iqtisadi, mədəni həyatında, beynəlxalq əlaqə və münasibətlərində nəzərəçarpacaq dönüş yaranmış, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlanmış, vətəndaşların və dövlətin qarşılıqlı məsuliyyətinə əsaslanan dövlətçiliyin və sosial sabitliyin təməli qoyulmuşdu. Əslində, dövlət cəmiyyətin bütövlüyünün, inkişafının etibarlı təminatçısına çevrilmişdi. Deməli, əldə olunmuş nailiyyətlərin siyasi-hüquqi baxımdan təsbit olunmasına və ölkənin real tərəqqisi perspektivlərinə yol açan başlıca istiqamətlərin müəyyənləşdirilməsinə ehtiyac yaranmışdı. Bu imkanların həyata keçirilməsində mövcud reallıqları nəzərə alan və ciddi elmi, siyasi, hüquqi əsaslara istinad edən ölkə Konstitusiyasının hazırlanması dövrün obyektiv tələbatına çevrilmişdi. “Konstitusiya” latınca *constitutio*‖ sözündən olub, “qurulma” mənasını verir. Konstitusiya dövlətin ali hüquqi qüvvəyə malik olan, mərkəzi və yerli hakimiyyət orqanlarının təşkilinin əsaslarını, onların səlahiyyətlərini və qarşılıqlı münasibətlərini, dövlətlə vətəndaş arasında münasibətlərin əsaslarını müəyyənləşdirən əsas qanundur (4.s,169). Konstitusiya demokratiyanın mühüm təsisatlarından biri olub, cəmiyyətin inkişafında, təkmilləşməsində özünəməxsus rol oynayır. Bu rol ümumilikdə vətəndaşlar tərəfindən, milli və beynəlxalq qurumlar, strukturlar tərəfindən etiraf olunur. İlk konstitusiyanın meydana çıxması (ABŞ, Fransa) XVIII əsrin sonlarına təsadüf edir və mütləq monarxiyanın ləğvi ilə bilavasitə əlaqədardır. Sonralar bu mühüm təsisatın başlıca rolu ardıcıl surətdə demokratik dövlət quruluşunun qərarlaşmasını təmin etməkdən ibarət olmuşdur. Konstitusion quruluş müəyyən tarixi proseslərin təkamülünün nəticəsi olaraq təşəkkül tapmış və tədricən təkmilləşmişdir. Belə quruluş müəyyən dövlətin konstitusiyası və digər hüquqi normativ aktları ilə təsis edilən və qorunan siyasi-hüquqi, iqtisadi, sosial-mədəni münasibətlər sistemidir. Konstitusion quruluşun mühüm əlamətləri sırasında ilk növbədə, xalqın suverenliyi, hakimiyyət bölgüsü, hər kəs tərəfindən qəbul edilən insan hüquq və azadlıqları ilə vəzifələrin sıx vəhdəti qeyd edilməlidir. Demokratiyanın inkişafı, genişlənməsi və dərinləşməsi konstitusion quruluşun təkmilləşməsi üçün yeni imkanlar açır. Bu imkanların reallaşdırılması isə cəmiyyət həyatının müxtəlif sahələrində demokratik prinsiplərin qərarlaşması və möhkəmlənməsi üçün daha əlverişli, münbit zəmin yaradır. Qeyd edilən qarşılıqlı əlaqə və təsirin dərinləşməsi ictimai münasibətlərdə humanist dəyərlərin daha da güclənməsinə kömək edir. Maraqlı bir məqama diqqət yetirilməsi vacibdir: ümummilli liderimiz Azərbaycanın müstəqilliyini qorumaq, inkişaf etdirmək, möhkəmləndirmək və əbədi etmək üçün hər gün işləməyi zəruri hesab edirdi. Hansı istiqamətlərdə və necə işləmək üçün isə Azərbaycanın Konstitusiyası - Əsas Qanunu əsas götürülməlidir. Heydər Əliyev deyirdi: “Hamımız üçün bir məqsəd var, müstəqil Azərbaycan Respublikası və onun Əsas Qanunu - Konstitusiyası var. Hesab edirəm ki, bizim ən böyük nailiyyətimiz müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasını qəbul etmək oldu... Hesab edirəm ki, bu, uzunömürlü Konstitusiya olacaqdır və o, Azərbaycanın dövlət müstəqilliyini təmin etmək üçün, Azərbaycan xalqının gələcək rifahını təmin etmək üçün çox gözəl yollar açır və açacaqdır” (4, s. 316). Heydər Əliyev müstəqil Azərbaycanın ilk Konstitusiyasına münasibətdə hansı məsələlərə vətəndaşların, xüsusən gənclərin ciddi diqqət yetirməsini vacib sayırdı: •Konstitusiyada hər bir vətəndaşın hüquqları, azadlıqları, eyni zamanda vəzifələri öz əksini tapmışdır. Konstitusiya maddələrinin üçdə bir hissəsi respublika vətəndaşlarının, o cümlədən gənclərin hüquq və azadlıqlarına həsr olunmuşdur. Biz çalışmalıyıq ki, vətəndaşların Konstitusiyadan irəli gələn hüquq və azadlıqları daim təmin olunsun və qorunsun. Vəzifələr isə hər bir gəncin üzərinə düşən borcu, məsuliyyəti əks etdirir. Vətəndaşlar bu vəzifələrin həyata keçirilməsini özləri üçün həyat məqsədi kimi qəbul edib, onları həyata keçirməyə çalışmalıdırlar. •Konstitusiyanın bütün maddələri ardıcıl surətdə həyata keçirilməlidir. Bu o deməkdir ki, məlum Konstitusiyanın hər bir vətəndaşın, o cümlədən hər gəncin üzərinə qoyduğu vəzifələr aydın dərk olunmalıdır. Belə dərk olunma dövlət-cəmiyyət-vətəndaş münasibətlərinin daha yaxşı qurulmasına, təkmilləşməsinə imkan yaradır. •Cəmiyyətdə yetərli səviyyədə qanunçuluq, konstitusiyalılıq ənənəsinin yaradılması çox vacibdir.

Heydər Əliyev qeyd edirdi ki, indiyə qədər Azərbaycanda hüquqi dövlətin olmaması, qanunların işlənib-işlənilməməsinin vətəndaşlar tərəfindən o qədər də əhəmiyyətli sayılmaması, əslində, Kommunist partiyasının ideologiyasının, ideoloji prinsiplərinin qarşıya qoyduğu vəzifələrin Əsas Qanun rolunda çıxış etməsi ona gətirib çıxarmışdır ki, Əsas Qanun adını daşıyan sənəd Əsas Qanun olmamışdır. Təsadüfü deyildir ki, məlum şəraitdə Konstitusiya yeganə bir Əsas Qanun kimi dərk olunmayıb, vətəndaşların ondan uğurla istifadə etmək, öz hüquqlarını dərk etmək, həmişə hüquqlarının qorunmasını gözləmək istiqamətində çalışmaq hissiyyatı yetərincə yaranmayıbdır. Ona görə də vəziyyət köklü surətdə dəyişməli, müstəqil Azərbaycanın Konstitusiyası diqqətlə öyrənilməli və təbliğ olunmalıdır. Deməli, müstəqilliyimizi təmin etmək üçün... Azərbaycanda qanunların aliliyini təmin etmək lazımdır, insanların hüquqlarını, azadlıqlarını qorumaq lazımdır, hər bir vətəndaşa sərbəstlik vermək lazımdır. Biz bunu təmin etmişik və edəcəyik (4, s.318). Əsas Qanunumuz zəminində cinayətkarlığa, ümumiyyətlə, bütün mənfi hallara qarşı mübarizə gücləndirilməlidir, Konstitusiyadan irəli gələn vəzifələr yerinə yetirilməlidir. Konstitusiyanı öyrənmək, mənimsəmək kifayət deyildir, onun tələblərinə uyğun yaşamaq, fəaliyyət göstərmək lazımdır. Hər bir vətəndaşın həyat fəaliyyəti müstəqil Azərbaycanın qorunub saxlanılmasına və daha da möhkəmləndirilməsinə istiqamətlənməlidir. Son dərəcə mürəkkəb bir şəraitdə Azərbaycan Respublikasının Konstitusiyasını hazırlamaq və referendum yolu ilə qəbul etmək olduqca çətin məsələ idi. “Alman filosofu Artur Şopenhauer insanın dahiliyini onun dərketmə imkanlarının lazım olduğundan bir neçə dəfə artıq inkişaf etməsində görürdü. Beləliklə, dahilik intellektin fövqəladə böyüklüyüdür və böyük intellekt özünün tətbiqini, həqiqətin dərk olunan ümumi qanunlarına xidmət etməkdə görür, bununla da o özünü bütün bəşəriyyətə xidmətə həsr edir. Bəli, Heydər Əliyevin qeyri-adi intellekti bütün xalqa xidmət edirdi (1, s.469). Müstəqil Azərbaycan Konstitusiyasının hazırlanmasında və qəbulunda Heydər Əliyevin şəxsi keyfiyyətləri çox aydın şəkildə təzahür etmişdir. Əslində, bu keyfiyyətlər onun müxtəlif vəzifələr tutaraq irəliləməsində müstəsna rol oynamışdır: “Onun qətiyyəti, prinsipiallığı, dəmir iradəsi, fenomenal yaddaşı, mübarizliyi, uzaqgörənliyi, müdrikliyi, məqsədyönlülüyü, idarəçilik qabiliyyəti, geniş dünyagörüşü, təşəbbüskarlığı, qayğıkeşliyi, dinləmək mədəniyyəti və sairə kimi mənəvi-əxlaqi, intellektual, emosional və iradi xüsusiyyətləri” (5, s.429). Heydər Əliyevin prinsipiallığı və qətiyyəti sayəsində, onun aktiv fəaliyyəti nəticəsində Azərbaycan Respublikasının 1978-ci ildə qəbul edilmiş Konstitusiyasına Azərbaycan dilinin Azərbaycan Respublikasının dövlət dili olması haqda məşhur 73-cü maddə daxil edildi. O dövrdə milli dilə Konstitusiya səviyyəsində dövlət dili statusu vermiş üç keçmiş sovet respublikasından biri və yeganə müsəlman respublikası Azərbaycan idi. Şübhəsiz, bu uzaqgörən tarixi addım Heydər Əliyevin ana dilinə dövlətçilik münasibətinin və siyasi qətiyyətinin parlaq ifadəsi idi. Heydər Əliyev o dövrü belə xatırlayırdı: “Bu maddə Moskvada çox böyük etiraza səbəb oldu. Belə izah edirdilər ki, başqa respublikalarda bu yoxdur, buna ehtiyac yoxdur... Ancaq o vaxt mən Sovetlər İttifaqının rəhbərliyi, Kommunist Partiyasının rəhbərliyi ilə çox gərgin danışıqlar aparırdım. Sübut etməyə çalışdım ki, biz dövlət dilinin Azərbaycan dili olduğunu da öz konstitusiyamıza yazmalıyıq və yazacağıq” (3, s.14). Xüsusilə XX əsrdə keçdiyimiz tarixi yol Konstitusiya təcrübəsi baxımından diqqəti cəlb edir. Bu əsrdə dörd Konstitusiya qəbul olunmuşdur. Birinci Konstitusiya 1921-ci ildə, ikincisi 1937-ci ildə, üçüncüsü 1978-ci ildə, nəhayət, dördüncü Konstitusiya 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi - referendum nəticəsində qəbul edilmişdir. Bu, keçmiş konstitusiyalardan tamamilə fərqli olan yeni Konstitusiyadır - müstəqil Azərbaycan Respublikasının, Azərbaycanın hər bir vətəndaşının doğma Konstitusiyasıdır. Həmin Konstitusiyanın qəbulundan bir az sonra 24 noyabr 1995-ci ildə Heydər Əliyev Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında tam əminliklə vurğulayırdı ki, “Bu Konstitusiya Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsi, insanların, vətəndaşların hüquq və azadlıqlarının qorunması, Azərbaycanda demokratik-hüquqi dövlətin qurulması və inkişaf etməsi üçün öz xidmətlərini göstərəcəkdir” (2, s.6). Yeni qəbul olunmuş Konstitusiya Azərbaycanda dövlət hakimiyyətinin təşkil olunmasını tam demokratik prinsiplər əsasında təsdiq etmişdir. Bu təşkil olunma hakimiyyətin səlahiyyət bölgüləri əsasında (qanunvericilik, icra və məhkəmə hakimiyyəti) nəzərdə tutulmuşdur, yəni elə prinsip əsaslanmışdır ki, o, əsrlərin sınağından keçib, öz həyatiliyini sübut etmiş, zəngin imkanlarını nümayiş etdirə bilmişdir. Çox diqqətəlayiq haldır ki, Konstitusiya

hazırlanarkən onun müddəaları haqqında, onun nə qədər dəyərli, əsaslı olması haqqında geniş məlumatlar verilmiş, əsaslı müzakirələr aparılmışdır. Lakin Konstitusiya qəbul olunandan sonra vəziyyət xeyli dərəcədə dəyişilir, yəni bu sənədin hər bir vətəndaş üçün yeganə meyar, yeganə qanun olması üçün onun izahına, şərhinə ciddi ehtiyac yaranır. Bu ehtiyac, tələbat müvafiq qurumlar tərəfindən diqqətlə, peşəkarlıqla yerinə yetirilməlidir.

Konstitusiyanın hazırlanması və qəbul olunması ciddi səylərlə, gərgin fəaliyyətlə bağlı olmuşdur. 1995-ci ilin iyun ayından noyabrın 12-nə qədərki Konstitusiya Komissiyası və onun yaratdığı işçi qrup çox məhsuldar, səmərəli işləyərək, ictimaiyyətə, xalqa layiqli Konstitusiya layihəsi təqdim edə bilmişdir. Diqqəti cəlb edən mühüm məqamlardan biri ondan ibarətdir ki, Konstitusiya Layihəsi dərc olunandan sonra ümumxalq müzakirəsi keçirilmişdir. Müzakirələr, həqiqətən, çox əhatəli, geniş, səmərəli, ətraflı olub, işgüzar xarakter daşımışdır. Müvafiq orqanlar, təşkilatlar tərəfindən keçirilən müzakirələrdə vətəndaşlarımızın böyük əksəriyyəti iştirak etmiş, ən müxtəlif fikirlər söylənilmişdir. Bir faktı xatırlatmaq yerinə düşər: Konstitusiya komissiyasına Konstitusiyanın maddələrinə aid 3 mindən artıq təklif, düzəliş göndərilmişdir. Bu, vətəndaşların Konstitusiyanın hazırlanmasına olan ciddi marağını, münasibətini ifadə edən mühüm göstəricidir. Referendum komissiyası səlahiyyətlərini həyata keçirən Mərkəzi Seçki Komissiyasının məlumatından aydın olur ki, referendumda - ümumxalq səsvermәsində seçicilərin 86 faizi iştirak etmişdir. Referendumda iştirak edən seçicilərin 91,9 faizi Konstitusiyanın layihəsini bəyənmişdir. Deməli, seçicilərin, vətəndaşlarımızın mütləq əksəriyyəti tərəfindən Konstitusiya qəbul edilmiş və ümumxalq Konstitusiyası olmuşdur (2, s.8). Konstitusiyanın qəbul olunması qarşıda duran vəzifələrin daha mütəşəkkil, daha əsaslı reallaşdırılması üçün yeni imkanlar yaradır. Ən başlıcası odur ki, yeni qəbul olunmuş Konstitusiya ölkəmizdə çox ehtiyac olan daxili ictimai-siyasi sabitliyin təminatıdır. Belə ki, Əsas Qanunumuz artıq Azərbaycanda son illərdə mövcud olan hərc-mərcliyə, ayrı-ayrı şəxslərin və qrupların hakimiyyət iddiasına, sabitliyi pozmaq istəyən qüvvələrin əməllərinə son qoymaq, insanların əmin-amanlıq, ictimai-siyasi şəraitdə yaşamasını təmin etmək baxımından ciddi siyasi-hüquqi təməl yaradır. İndiki şəraitdə Yeni Konstitusiyanın respublikamızda demokratik prinsiplərin tətbiqi, daha möhkəm qərarlaşması, insanların həmin prinsiplərə yetərincə yiyələnməsi üçün açdığı imkanlardan maksimum yaralanmaq, səmərəli istifadə etmək çox vacibdir. Azərbaycan Respublikasının Konstitusiyasının qəbul olunması hakimiyyətin bütün qollarının birlikdə ahəngdar fəaliyyət göstərməsini zəruri edir, onlar arasında daha işgüzar münasibətlərin qərarlaşmasına zəmin yaradır. Qanunvericilik, icra və məhkəmə hakimiyyəti Konstitusiyanın bütün müddəalarına riayət etmək istiqamətində səylərini artırmalıdırlar. Parlamentdə deputatlar fikir müxtəlifliyi şəraitində məsələlərin müzakirəsində fəallığı, peşəkarlığı yüksəltməli, respublikamızda insanların həyat fəaliyyətinin bütün sahələrində səmərəliliyi təmin edən qanunlar hazırlamalı və qəbul etməlidirlər. Konstitusiyanın normal fəaliyyəti demokratiyanın inkişafını, təkmilləşdirilməsini nəzərdə tutur. Çünki məhz demokratiya şəraitində, demokratik əsasların genişləndirilməsi və gücləndirilməsi şəraitində vətəndaşların hüquq və azadlıqları etibarlı şəkildə qoruna bilər, onların öz vəzifələrini yerinə yetirmələri üçün münbit zəmin qərarlaşa bilər. Diqqət yetirsək, aydın görmək olar ki, yeni Konstitusiya cəmiyyət həyatının təşkilində, idarəetmə formasının təkmilləşdirilməsində demokratiyanın inkişafı üçün fəal stimul yaradır. Çünki demokratiya hər bir ictimai təşkilatın quruluşunun əsas formalarından biri olub, öz üzvlərinin onun idarə olunmasında və səs çoxluğu ilə qərarlar qəbul edilməsində bərabərhüquqlu iştirakına əsaslanır... Demokratik rejim insanın siyasi azadlığının yüksək dərəcəsi, onun dövlət idarəçiliyinə təsir göstərməyə imkan verən hüquqlarının real surətdə həyata keçirilməsi ilə səciyyələnir. İctimai-siyasi fikir tarixində demokratiya məsələsinə münasibət birmənalı olmamışdır. Lakin əksər mütəfəkkirlər onu yüksək qiymətləndirmiş, onun yaratdığı imkanlardan yetərincə bəhrələnməyi vacib saymışlar. Məsələn, Aristotel əsərlərində insanın fəallığını mühüm xüsusiyyət kimi dəyərləndirirdi. O, belə hesab edirdi ki, azad insan üçün praktik, yəni siyasi fəaliyyətlə dolğunlaşdırılmış həyatı və ya nəzəri daha layiqlidir. Aristotel “Siyasət” əsərində qeyd edirdi: “Demokratiyalar daha böyük təhlükəsizliyə malikdir və onların mövcudluğu daha uzunmüddətlidir. Demokratiya haqqında müxtəlif mövqelərin araşdırılması belə bir qənaət üçün əsas verir ki, demokratiya müasir dövləti idarəetmə formasıdır. O, güclü dövlətçiliyin olmasını, aktiv fəaliyyəti nəzərdə tutur, qanunçuluğun təkmilləşdirilməsini tələb edir. Demokratiya və

demokratikləşmə prosesi ən müxtəlif amillərin təsirinə məruz qalır. Çox vacibdir ki, həmin amillər sırasında ölkənin Konstitusiyası – Əsas Qanunu ön sırada dayansın, öz tənzimləyici, istiqamətləndirici rolunu layiqincə yerinə yetirsin. Heydər Əliyev qəbul olunmuş yeni Konstitusiyanı nəzərdə tutaraq qeyd edirdi ki, ―biz yeni bir mərhələdəyik və bundan sonra çox ciddi, cəsarətli addımlar atmağa imkanımız var. Çünki bunun üçün qanuni əsaslar yaranıbdır. Yeni qəbul olunmuş Konstitusiya Azərbaycanın müstəqilliyinin, ərazi bütövlüyünün daimiliyini təsbit edən mötəbər sənəddir”.

**Nəticə**

Xalqımız bu Konstitusiyanın müddəalarından daim istifadə edərək Azərbaycanın dövlət müstəqilliyini əbədi edəcəkdir. Yeni Konstitusiya Azərbaycanda demokratik hüquqi dövlətin qurulması, demokratik vətəndaş cəmiyyətinin yaranması üçün bütün əsasları yaradıbdır, bütün təminatları veribdir. Bizim borcumuz bu təminatlardan, Konstitusiyanın bizə verdiyi qanuni əsaslardan istifadə etmək və ölkəmizdə hüquqi, demokratik dövlət yaratmaq, vətəndaşların, insanların hüquqlarının qorunmasını təmin etməkdən ibarətdir (2,s.6). Azərbaycan Prezidenti İlham Əliyevin fəaliyyəti dövründə qazandığı böyük uğurlara qısaca ekskurs edərkən seçicilərin 76,84 faizinin səsini qazandığı 15 oktyabr 2003-cü il seçkisindən sonra dediyi sözlər yada düşür: «Mən hər bir azərbaycanlının prezidenti olacağam». Ötən bu illər ərzində İlham Əliyev, həqiqətən, hər bir Azərbaycan vətəndaşının prezidenti olduğunu əməli işləri ilə sübut etdi. Müharibə şəraitində yaşayan bir ölkənin qısa müddət ərzində belə sürətlə, sıçrayışla inkişaf, tərəqqi etməsi düşmənlərimizi belə, Azərbaycan həqiqətlərinə inanmağa məcbur etdi. Ölkədə sabitliyi, dinamik inkişafı təmin etmək üçün ilk növbədə vətəndaş həmrəyliyi, qarşılıqlı münasibətləri normallaşdıran, cəmiyyətdə sağlam iqlim yaradan ölkə Prezidenti insanlar arasında dövlətə, dövlətçiliyə inam, etibar hissini yaratdı. İnsanlarda öz ölkəsini sevmək, onun uğrunda döyüşmək, onunla qürur duymaq, Vətənin sərhədlərini göz bəbəyi kimi qorumaq hissi, duyğusu yaratdı. Bu, möhtərəm Prezidentimiz İlham Əliyevin ən parlaq qələbəsidir. Çünki qazanılan bütün qələbələrin başında sabaha, gələcəyə inam hissi dayanır. Azərbaycan Respublikasının Prezidentinin “Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi haqqında” 28 dekabr 2024-cü il tarixli Sərəncamı Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında suverenliyimizin tam bərpa edildiyi tarixi şəraitdə dövlət müstəqilliyimizin daha da möhkəmləndirilməsində və yeni nəsillərin dövlətçilik ruhu əsasında tərbiyəsində mühüm rol oynayacaq (5).

**İstifadə olunmuş ədəbiyyat**

1. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Bakı:Azərnəşr, 1998.
2. Heydər Əliyev mənim həyatımda. I cild. Bakı, 2013.
3. Heydər Əliyev və müstəqil Azərbaycan gəncliyi. Bakı:Qapp-poliqraf Korporasiyası, 2003.
4. Qasımov C., Bağırov X. Azərbaycanın Təhlükəsizlik Orqanlarının qısa tarixi. Bakı. MTN-in nəşriyyatı, -2008.
5. https://science.gov.az/az/news/open/31556

**Rəyçi: f.e.d., prof. İlham Məmmədzadə**

**UDC:101.1:316**
**https://doi.org/10.30546/ifs.2025.1(44).116**

## THE CLIMATE CHANGE IMPACT ON NATURAL MONUMENTS OF AZERBAIJAN AND GOVERNMENT'S ROLE IN THE DEVELOPMENT OF TOURISM PERSPECTIVE

**Hafiza Imanova**
Research-fellow, Institute of Philosophy and Sociology ANAS, **Azerbaijan**
email: hafizaimanova@yahoo.com
https://orcid.org/0009-0007-3058-2063

**Abstract.** Climate change represents a significant threat to protected areas globally, impacting the ecosystem of those areas in diverse ways as well. This article delves into the complex effects of climate change on structures and perspectives of eco-tourism in Azerbaijan. Additionally, we can change adverse effects of climate change into new development strategies. In the article we have discussed new potential of tourism spheres and management in Azerbaijan. The author also concludes that by identifying the essence philosophy of human-nature relationship we can solve climate-induced negative impacts and attain sustainability in both economic and social spheres.

**Keywords:** climate change, nature reserves, national parks, impacts, sustainable development, eco-tourism.

## AZƏRBAYCANIN TƏBİİ ABİDƏLƏRİNƏ İQLİM DƏYİŞİKLİYİNİN TƏSİRİ VƏ HÖKUMƏTİN TURİZM PERSPEKTİVLƏRİNİN İNKİŞAFINDA ROLU

**Hafizə İmanova**

**Xülasə.** İqlim dəyişikliyi qlobal səviyyədə qorunan ərazilər üçün ciddi təhlükə təşkil edir və həmin ərazilərin ekosistemlərinə müxtəlif yollarla təsir edir. Bu məqalə Azərbaycan ətrafında iqlim dəyişikliyinin strukturlarına və ekoturizm perspektivlərinə olan mürəkkəb təsirləri araşdırır. Bundan əlavə, iqlim dəyişikliyinin mənfi təsirlərini yeni inkişaf strategiyalarına çevirmək mümkündür. Məqalədə turizm sahələri və idarəetmə üçün Azərbaycanın yeni potensialı müzakirə edilib. Müəllif həmçinin insan-təbiət münasibətlərinin mahiyyət fəlsəfəsini müəyyən etməklə, iqlim təsirli neqativ halları həll etməyin və həm iqtisadi, həm də sosial sahələrdə dayanıqlığa nail olmanın mümkün olduğunu qeyd edir.

**Açar sözlər:** iqlim dəyişikliyi, təbiət qoruqları, milli parklar, təsirlər, dayanıqlı inkişaf, ekoturizm.

## ВЛИЯНИЕ ИЗМЕНЕНИЯ КЛИМАТА НА ПРИРОДНЫЕ ПАМЯТНИКИ АЗЕРБАЙДЖАНА И РОЛЬ ГОСУДАРСТВА В РАЗВИТИИ ТУРИСТИЧЕСКОЙ ПЕРСПЕКТИВЫ

**Хафиза Иманова**

**Резюме.** Изменение климата представляет собой серьезную угрозу для охраняемых территорий по всему миру, оказывая влияние на их экосистемы различными способами. В данной статье рассматриваются комплексные эффекты климатических изменений на структуры и перспективы экотуризма в Азербайджане. Кроме того, показано, каким образом неблагоприятные последствия изменения климата могут трансформироваться в новые стратегии развития. В работе также обсуждается потенциал туристической сферы и управления в Азербайджане. Автор приходит к выводу, что, определив суть философии взаимоотношений человека и природы, возможно смягчить негативные последствия,

вызванные изменением климата, и достичь устойчивости как в экономической, так и в социальной сферах.

**Ключевые слова:** изменение климата, природные заповедники, национальные парки, воздействия, устойчивое развитие, экотуризм.

## Introduction

Nature reserves, established across the globe over the course of the last century, are the product of a considerable investment by governments, public agencies, and charitable bodies. Establishment of protected areas is one of the most important activities in the conservation of natural resources, biodiversity, including promoting ecotourism and sustainability in the country. The concept of preserving landscape-ecological diversity and sustainable development promotes the improvement of socio-economic indicators and at the same time ensuring the protection of the environment and ecosystems. The aim of the paper is to examine the relationship between landscape-ecological diversity in protected areas in Azerbaijan and the factors that contribute to this relationship with sustainable development. The article identifies landscape-ecological differences, including the principles and development of protected areas such as National Parks, Nature Reserves in Azerbaijan.

**The nature reserves in Azerbaijan.** Azerbaijan is fortunate to have rich natural heritage and biodiversity. Thanks to unique geography, the country is home to an abundance of flora and fauna. Dry landscapes (semi-dessert, piedmont, and mountainous) cover more than half of Azerbaijan's territory. Azerbaijan boasts nine of the world's climate zones, which shape the biodiversity of species and ecosystems. Specially protected nature areas play a great role in maintaining and safeguarding biodiversity, ensuring conservation of rare flora and fauna species and achieving integrated nature conservation (1).

Azerbaijan can be divided into the following five broad ecosystem complexes, all of which contribute to the high levels of biodiversity represented in the country:

- Forest ecosystems;
- Freshwater,
-wetland and swamp ecosystems;
- Grassland and semi-desert ecosystems;
- High mountain ecosystems; and
- Marine and coastal ecosystems.

There are many natural parks for conservation of nature and development of tourism. One of them is Aghgol (White lake) park, an important wetland area for migrating birds species and it was included in the list of Ramsar Convention "On Wetlands of International Importance". This lake is being attracted by tourists for being second large salty lake and encompasses not only wetlands but also adjacent typical steppe and semi-desert landscapes.

Aghgol is located at the administrative territory of Agjabadi and Beylegan regions. The first attempt to protect the lake was made in 1964. On march 02,1978 the water body of the lake was given a status of a strictly protected reserve. Since 2003 Aghgol State Nature Reserve has become a national park. The main reason for protecting the lake system is its international significance as a refuge for endangered bird species included in the IUCN "Red List" and Red Book of Azerbaijan. The objective in establishing National Park was to ensure the conservation of landscapes, ecosystems and endangered species, as well as to carry out environmental monitoring, education of population and development of ecotourism.

The another natural monument of Azerbaijan is the sacred mountain Beshbarmag (Five fingers). Its giant stone fingers protecting from the hilltop have always attracted the travelers. It is likely that you will meet priest and pilgrims if you climb the steps up to its highest finger. In addition to its benign spirits, the summit will reward visitors with fantastic panoramic view of Caspian Sea and the mountain ranges of the Caucasus. Altiaghaj (6 trees) National Park was created in the administrative areas of Khizi and Siyazan regions. Atachay and its several branches flow through the area. And its water is used for irrigation purposes. The main purpose in the creation of the National Park was to ensure the conservation of basic components of the natural landscape of the southeastern slopes of

the Greater Caucasus, the preservation and rehabilitation of flora and fauna species, the conducting of environmental education among the population, and the creation of favorable conditions for scientific research, tourism and recreation.

One of the main cultural monuments of Azerbaijan is Goygol (Blue lake). More than 30 registered monuments can be found in the villages around the Park, including Bronze Age graves and mediaeval arched stone bridges. Goygol city has a "German street" with a "Lutheran" church and houses all of which were built in the 19th century by German settlers from Swabia who specialized in wine growing. The idea of creating a reserve in the area dates to the early XX century. Given inspiration by the public it was re-established under Order N475 signed into law by Soviet Ministers of Azerbaijan SSR in 1965. Goygol National Park was designated on April 1, 2008 by the Order of the President of Azerbaijan Republic on the base of Goygol State Nature Reserve in Khanlar, Dashkasan and Goranboy districts' administrative territories.

Shahdag National Park is a unique place to see wild nature of the Greater Caucasus -its flora and fauna, mountain landscape, untouched Alpine meadows, fresh air and snow-capped peaks. This area is ideal for hiking, mountaineering and horse trekking. The route from Khinalig to Laza is known as one of the highlights of Azerbaijan's nature experience. The area includes springs (Isa bulagi, Istisu bulagi), waterfalls (Gurdah, Pillakali), mountain peaks, rivers, "Bugurt" castle, "Omar Sultan" sacred place, "Ahmad Revan' holy place, Javanshir castle, ancient Avakhil mosque, etc. Objectives for Shahdag National Park were to rehabilitate, preserve and manage mountainous forests and pasture ecosystems of global significance located in high mountain areas including various endemic and endangered species and transboundary migratory animals, to conserve fertile soil layers, to regulate the stability of natural systems, to create all favorable conditions for implementation of scientific research works, as well as awareness and promote ecotourism in the territory, which has great potential for tourism.

Azerbaijan has been well-known globally as a unique and classic development area of mud volcanoes of the Earth (5). Most of the mud volcanoes have been expanded in Baku and Absheron Peninsula and some of them are protected as natural monuments. Mud volcanoes serve as exploitation wells with no costs for determining oil and gas fields. It is also used for treatment of several diseases. Additionally, volcanoes bear great importance for projecting and estimating earthquake occurrence and similar circumstances, as they are related to seismic incidents. In order to eliminate anthropogenic impacts on mud volcanoes located in Baku and Absheron Peninsula, as well as to arrange for their protection, considering great scientific and practical importance of studying their activities, and with a purpose to preserve those values and sustain them for future generations, furthermore to promote the natural heritage of our country in a wide range, the "State Nature Reserve of Baku and Absheron Peninsula mud volcanoes group" was established under Order 2315, dated August 15, 2007, signed by Azerbaijan's President Ilham Aliyev, and 43 mud volcanoes were given State Nature Reserve status. Today a number of tourists visit mud volcanoes. It is among of top list of visitors' sightseeing. Tourism and travel-related services are among countries’ main parts of the service sector. By creating the flow of tourists, tourism services can lead to capital transfer, job creation, cultural exchange (globalization), and increasing welfare in the country hosting the tours (7). The ecotourism and global climate change problem are related problems and the latter one can increase the need of focusing on ecotourism perspectives (6).

Azerbaijan is always taking important steps to protect world historical and cultural monuments, and the government’s contribution to the protection of world cultural heritage is indisputable. The government accepted legislation for protecting its historical and cultural monuments. According to Article 77 of the Constitution of the Republic of Azerbaijan, "every citizen shall be responsible for protection of historical and cultural monuments. Historical and cultural monuments shall be the national wealth of the people. The State shall guarantee the protection of historical and cultural monuments, create conditions for establishment, operation and development of institutions necessary for scientific research and promotion as well as rational use of monuments" (4). In the local and regional context, Azerbaijan’s ecological problems are mainly related to oil extraction carried out for decades with imperfect methods in the Absheron Peninsula and Caspian Sea without taking into

account the ecological consequences. No secret, the biggest percentage of harmful emissions into the atmosphere falls on the industrial sector. In some countries it is coal mines. For Azerbaijan, the oil and gas sector requires serious attention in terms of environmental regulation. Azerbaijan’s state oil company SOCAR has been implementing projects for recovering oil-contaminated lands in Absheron Peninsula for several years. For instance, the best result of this activity was the improvement of the once critically contaminated area around Boyukshor Lake.

The Azerbaijani president issued an order on the management and use of Boyukshor Lake, that portrayed a source of environmental problems for many years. Scaly work has been done, including removal of millions of cubic meters of soil contaminated with oil, and change of the routes of the oil pipelines passing here. After recovering the lake, improvement work was carried out around it, a new boulevard was laid and many green spaces were planted. Today, Boyukshor is an excellent example of successful attempt to improve the environmental situation in Azerbaijan, and through it, in the region (3).

**Conclusion.**

Objectivity, fairness, an open mind — by whatever name you call it, this is the first necessity of philosophy. It is known that philosophy takes both the close view and the long view. We have to accept that our partial liberation from the struggle is all too easily confused with absolute victory and the unconditional surrender of nature to us. Our historical struggle with nature is not one that we can actually win, for if we were to defeat nature itself, it means we would defeat the very source of our own existence and place to live in. In our search for wisdom about nature we must be guided by a sense of eternal love and respect, commitment towards nature. We should think about that human beings must radically reconceive their relationship with nature if they are ever to make that relationship truly healthy and beneficial for all mankind. Only after achieving harmony with nature, we can save our Planet and protect the monuments and architectural buildings that represent our history and evolution of progress through centuries.

## References


1. https://en.wikipedia.org/wiki/Azerbaijan
2. https://www.cbd.int/doc/world/az/az-nr-05-en.pdf
3. https://en.wikipedia.org/wiki/Lake_Boyukshor
4. https://icherisheher.gov.az/en/12-legislation/
5. S Schmidt. Potential analysis for further nature conservation in Azerbaijan: a spatial and political investment strategy. 2009
6. Stefan Gössling, Ecotourism and global environmental change//Routledge, 2007, pp. 15
7. Yunfeng Shang, Chunyu Bi, Xinyu Wei, Dayang Jiang, Farhad Taghizadeh-Hesary & Ehsan Rasoulinezhad// Eco-tourism, climate change, and environmental policies: empirical evidence from developing economies


**Rəyçi: f.e.d.. prof. Sakit Hüseynov**

**UOT 32**
**https://doi.org/10.30546/ifs.2025.1(44).120**

# GÜRCÜSTANDA ERMƏNİLƏRİN DİL VƏ TƏHSİL MƏSƏLƏLƏRİNƏ ERMƏNİ DAİRƏLƏRİNİN VƏ ERMƏNİSTANIN MÜDAXİLƏSİ

**Aisel Zeynalova**
baş mütəxəssis, AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, **Azərbaycan**
Alis100a@gmail.com
https://orcid.org/0009-0009-0492-3666

**Xülasə.** Bu məqalədə Gürcüstanda ermənilərin dil və təhsil məsələlərinə erməni dairələrinin və Ermənistanın müdaxiləsi məsələsi araşdırılır. Gürcüstan hökuməti təhsil proqramlarının yaradılmasında öz suverenliyini qoruyaraq, bütün etnik icmaların hüquqlarını nəzərə almağa çalışır. Buna görə də Gürcüstanda təhsil siyasətinə kənar müdaxilələr xoş qarşılanmır və ölkə öz təhsil sistemini müstəqil müəyyən etmək hüququnu özündə saxlayır. Gürcüstanda yaşayan etnik azlıqlar içində ermənilər sayca ikinci yerdədirlər, əsasən Samtsxe-Cavaxetidə məskunlaşmışlar. Ermənilərin ana dilində təhsil üçün məktəbləri, mədəniyyət mərkəzləri, ictimai təşkilatları, kilsələri, habelə TV kanalı mövcuddur. Buna baxmayaraq Samtsxe-Cavaxetidə yaşayan ermənilər hüquqlarının pozulduğunu iddia edirlər. Həmçinin məktəblərdə tədrisin erməni dilində keyfiyyətsiz və yetərsiz aparıldığını qeyd edirlər. Gürcüstan dövləti hər bir vətəndaşın ana dilində təhsil almaq hüququnu tanısa da, Gürcüstanda yaşayan ermənilər bununla kifayətlənmirlər. Gürcü dilinin vahidliyini qorumaq və eyni zamanda etnik azlıqlara öz dillərində təhsil almaq imkanı vermək, hökumətin həll etməli olduğu həssas məsələdir. Bu məsələnin həm təhsil siyasətində, həm də ümumi sosial inteqrasiya prosesində diqqətlə həll olunması Gürcüstanın dövlətçilik maraqlarına uyğundur.

**Məqsəd:** Gürcüstanda ermənilərin dil və təhsil məsələlərinə erməni dairələrinin və Ermənistanın müdaxiləsini araşdırmaq.

**Metodologiya:** Tədqiqat aparılarkən tarixi, müqayisəli təhlil, sənədlərin analizi metodlarından istifadə olunaraq Gürcüstanda yaşayan ermənilərin dil, təhsil məsələlərinə, erməni dairələrinin və Ermənistanın müdaxiləsi problemləri öyrənilmişdir.

**Elmi yenilik:** İlk dəfə gürcüdilli mənbələr istifadə edilməklə, ermənilərin və ermənidilli dairələrin Gürcüstanda yaşayan ermənilərin dil və təhsil məsələlərinə yanaşması və müdaxiləsinin tədqiqatı aparılmışdır.

**Açar sözlər:** Gürcüstan, Gürcüstanda ermənilər, Ermənistan, dil, təhsil.

## ВМЕШАТЕЛЬСТВО АРМЯНСКИХ КРУГОВ И АРМЕНИИ В ВОПРОСЫ ЯЗЫКА И ОБРАЗОВАНИЯ АРМЯН В ГРУЗИИ

**Аисель Зейналова**

**Резюме.** В статье рассматривается вмешательство армянских кругов и Армении в вопросы языка и образования армян в Грузии. В Грузии армяне являются второй по численности этнической группой, проживающих в Самцхе-Джавахети, где есть школы, культурные центры, общественные организации, церкви и даже телеканал для обучения на родном языке. Несмотря на это они утверждают, что их права нарушаются, что преподавание в школах на армянском языке ведется на низком уровне. Правительство Грузии, сохраняя свой суверенитет в создании образовательных программ, не приветствует вмешательство извне в образовательную политику, и страна, оставляя за собой право самостоятельно определять собственную систему образования стремится учитывать права всех этнических общин. Сохранение единства грузинского языка и одновременное предоставление этническим меньшинствам возможность получать образование на родном языке является деликатным

вопросом, который рассматривается как в образовательной политике, так и в общем процессе социальной интеграции Грузии.

**Цель:** иследовать вмешательство армянских кругов и Армении в вопросы языка и образования армян в Грузии.

**Методология:** в ходе исследования были использованы методы исторического, сравнительного анализа и анализа документов для изучения проблем языка и образования армян, проживающих в Грузии, а также взаимосвязанность армянских кругов и Армении.

**Научная новизна:** впервые было проведено исследование с использованием грузиноязычных источников с целью изучения подхода и вмешательства армян и армяноязычных кругов в языковые и образовательные проблемы армян, проживающих в Грузии.

**Ключевые слова:** Грузия, армяне в Грузии, Армения, язык, образование

## THE INTERVENTION OF ARMENIA AND ITS CIRCLES TO THE LANGUAGE AND EDUCATION ISSUES OF ARMENIANS IN GEORGIA.

**Aisel Zeynalova**

**Abstract:** Short content. The article discusses the interference of Armenian circles and Armenia in the issues of the language and education of Armenians in Georgia. The Government of Georgia, preserving its sovereignty in the creation of educational programs, strives to take into account the rights of all ethnic communities. Therefore, outside interference in educational policy is not welcomed in Georgia, and the country reserves the right to independently determine its own education system. Armenians were the second largest ethnic minority in Georgia, mainly living in Samtskhe-Javakheti. Armenians have schools, cultural centers, public organizations, churches and even a TV channel for learning in their native language. Despite this, Armenians living in Samtskhe-Javakheti claim that their rights have been violated. They also note that teaching in schools is conducted at a low level and at an insufficient level in the Armenian language. Although the Georgian state recognizes the right of every citizen to receive education in their native language, Armenians living in Georgia are not satisfied with this. Preserving the unity of the Georgian language and simultaneously providing ethnic minorities with the opportunity to receive education in their native language is a delicate issue that the government must resolve. It is in the state interest of Georgia to carefully consider this issue both in educational policy and in the general process of social integration.

**Objective:** To investigate the intervention of Armenian circles and Armenia in the language and education issues of Armenians in Georgia.

**Methodology**:During the research, historical, comparative analysis, and document analysis methods were used to study the problems of language and education issues of Armenians living in Georgia, as well as the interference of Armenian circles and Armenia.

**Scientific novelty**: For the first time, a study was conducted using Georgian language sources to examine the approach and intervention of Armenians and Armenian-speaking circles in the language and education issues of Armenians living in Georgia.

**Keywords:**Georgia, Armenians in Georgia, Armenia, language, education.

### Giriş

Qara dəniz sahilində yerləşən Gürcüstan Cənubi Qafqazın geostrateji əhəmiyyətli ölkəsidir. Məlum olduğu kimi, şimaldan cənuba, şərqdən qərbə uzanan mühüm ticarət və kommunikasiya yolları üzərində yerləşən Gürcüstan tarixin müxtəlif dövrlərində xarici güclərin maraq nöqtəsi olmuş və zaman-zaman işğala məruz qalmışdır (1, s. 7-8). Bundan əlavə, müasir Gürcüstan ərazisi qədim zamanlardan intensiv miqrasiya bölgəsi olmuşdur. Qonşu bölgələrdən Gürcüstana xüsusilə intensiv miqrasiya prosesi gedir. Ölkədə Qafqaz xalqlarının nümayəndələri ilə yanaşı, Yaxın Şərqdən olan ayrı-ayrı qruplar da məskunlaşmışlar. Zaman keçdikcə bəzi mühacir qrupları yerli əhali və ya digər

etnik qruplarla birləşmiş, digərləri isə sona qədər öz milli xüsusiyyətlərini qorumuşlar. Bir çox mənbələrdə ərəblərin, səlcuqların, monqolların, rusların, ermənilərin, qazaxların müxtəlif dövrlərdə buraya köç etdiyinə dair məlumatlara rast gəlmək mümkündür. Qeyd etmək lazımdır ki, bu proses davamlıdır və tədricən həyata keçirilir (1, s. 8).

Gürcüstanda gürcülərlə yanaşı, azərbaycanlılar (Borçalı türkləri), ermənilər, abxazlar, osetinlər, kürdlər, ruslar, yunanlar, yəhudilər, ərəblər, qaraçılar və başqa xalqların nümayəndələri də yaşayırlar. 2014-cü ilin siyahıyaalmasının nəticələrinə görə, ölkə əhalisinin təxminən 87 faizini etnik gürcülər, 13 faizini isə müxtəlif etnik qrupların nümayəndələri təşkil etmişdir. Azərbaycanlılardan sonra ən çox saya malik etnik qrup ermənilərdir ki, onlar ölkə əhalisinin təxminən 4,5 faizini təşkil edir (10).

Ermənilər müasir Gürcüstanın paytaxtı Tbilisi və Samtsxe-Cavaxeti, Kvemo Kartli, Acarada və Abxaziyada yaşayırlar. Onların məskünlaşması müxtəlif tarixi dövrlərlə bağlıdır (1, s. 24).

Ermənilərin Gürcüstan torpaqlarında kütləvi şəkildə məskunlaşması Rusiyanın Cənubi Qafqazda hökmranlığından sonra yeni köçlər sayəsində mümkün olmuşdur. Çar Rusiyası Qara dəniz hövzəsində üstünlük əldə etməyi və isti dənizlərə çıxış əldə etməyi qarşısına məqsəd qoyduğundan indiki Gürcüstan ərazisi XVII-XVIII əsrlərdə Osmanlı və Rusiya dövlətləri arasında döyüş meydanına çevrilmiş, 1768-1774-cü illər Rus-Osmanlı müharibəsi zamanı gürcü kralı II Ərəkli (İrakli) Rusiyanı fəal şəkildə dəstəkləyirdi (9). 1783-cü ildə Georgiyevski sülh müqaviləsinin bağlanması ilə Kartli Kaxetiya çarlığı Rusiyanın himayəsinə keçdi. Çar Rusiyası 1801-ci ildə Gürcüstanın ilhaqını başa çatdırdı. Bununla da ermənilərin Gürcüstan ərazisinə kütləvi köçürülməsi prosesi başladı (15).

Gürcüstanda ermənilərin kütləvi məskunlaşması 20-ci əsrdə də davam etmişdir. 1899-cu ildə çar administrasiyasının əmri ilə Samtsxe-Cavaxeti kilsələrində gürcü dili qadağan edildi, mərasimlər erməni və rus dillərində keçirildi. Bu ayrı-seçkilik siyasəti yerli əhalinin istismarı üçün münbit zəmin yaratdı. Bavra, Varevan, Alastan, Ojmana, Turtsxe, Tora, Kartikami, Eştia, Xulqumo, Hur, Kulikam, Kordzuli kəndlərində yaşayan gürcülər tamamilə erməniləşdirildi. Anti-gürcü siyasətinin ən bariz nümunələrindən biri də Vəli kəndində katolik gürcülərin erməniləşdirilməsi oldu (9).

1926-cı ildə Samtsxe-Cavaxetiya əhalisinin 41,8 faizini ermənilər təşkil etdiyi halda, 1956-cı ildə bu göstərici 64,5 faizə çatmışdı. Xüsusilə Samtsxedə 1926-cı ildə ermənilər əhalinin 15,1 faizini təşkil etdiyi halda, 1959-cu ildə bu göstərici 36,2 faizə yüksəlmişdi. Həmin illərdə Cavaxetiyada bu göstərici 79,72 faizdən 88,7 faizə yüksəlmişdi. 1959-cu ildə Gürcüstanda 442,9 min erməni yaşayırdı ki, bu da ümumi əhalinin 10,95 faizini təşkil edirdi. 1970-ci ildə ermənilərin sayı 452 min 309 nəfər idi. 1979-cu ildə onların sayı 448 min nəfər idi ki, bu da Gürcüstanın ümumi əhalisinin 9 faizini təşkil edirdi. 1989-cu ildə Gürcüstanda 437 min 200 erməni əsilli vətəndaş yaşayırdı ki, bu da ölkə əhalisinin 8,1 faizini təşkil edirdi. 1989-cu il siyahıyaalınmasına əsasən, Abxaziyanın Qaqra şəhərində və Cavaxetiya, Ahalkələk və Ninotsminda bölgələrində ermənilər çoxluq təşkil edirdi. Ermənilər Ahalkələkdə ümumi əhalinin 91,3 faizini, Ninotsminda bölgəsində isə 89,6 faizini təşkil edirdi (10).

2021-ci ilin məlumatına əsasən, Gürcüstanda 116 Azərbaycandilli, 118-i ermənidilli və 11 rusdilli ictimai məktəb fəaliyyət göstərməkdədir (4).

**Gürcüstan və Ermənistan arasındakı təhsil əlaqələri**

İki ölkə arasında diplomatik əlaqələr 17 iyul 1992-ci ildə qurulmuşdur. Gürcüstan Ermənistan üçün şimal tranzit nəqliyyat dəhlizi olması baxımından əhəmiyyətlidir. Gürcüstan və Ermənistan arasında 80-dən çox anlaşma imzalanmasına baxmayaraq, ikitərəfli münasibətlər birmənalı deyil. Bütün istiqamətlər üzrə inkişaf nəzərə çarpır. Müstəqilliyin bərpasından sonra ilk dövlətin müvafiq qurumları arasında qarşılıqlı görüşlərin keçirildiyi izlənilir. Xüsusilə də son illərdə bu baxımdan intensivlik müşahidə edilir.

Misal üçün, 2023-cü ildə Gürcüstanın təhsil və elm naziri Mixeil Çxenkeli və Ermənistan Respublikasının təhsil, elm, mədəniyyət və idman naziri Jana Andreasyan arasında keçirilmiş görüş zamanı bütövlükdə Gürcüstan və Ermənistan arasında sıx tərəfdaşlığı, həmçinin peşə və ali təhsil istiqamətində də əməkdaşlıq nəzərdə tutan memorandum imzalanmışdır. Sənəd xüsusilə iki ölkənin ali təhsil, elm və elmi-tədqiqat müəssisələri arasında əlaqələrin gücləndirilməsinə, o cümlədən tələbələrin ali təhsil müəssisələrinin magistraturalarında təhsillərini davam etdirmələri üçün mübadilə

proqramlarının təklif edilməsinə və onlara təqaüdlərin ayrılmasına dəstək verməyi nəzərdə tutur. Memorandum çərçivəsində tərəflər gürcü və ermənişünaslıq mərkəzlərinin yaradılması məqsədilə Gürcüstan və Ermənistan universitetlərində birgə proqramlar həyata keçirməyə hazır olduqlarını bildirmişlər (11).

Mixail Çxenkeli erməni həmkarı ilə ali təhsil və elm istiqamətində əməkdaşlığın dərinləşdirilməsi məsələlərini müzakirə etmişdir ki, bu da müvafiq ali təhsil müəssisələrində gürcü və erməni dili və ədəbiyyatının tədrisinin gücləndirilməsi, terminlər baxımından birgə elmi layihələrin həyata keçirilməsinə yardım etmək kimi qiymətləndirilə bilər. Nazir həmçinin Yevgeni Xaradze adına Abastumni Astrofizika Rəsədxanası ilə Ermənistanın Byurakan Astrofizika Rəsədxanası arasında mövcud ənənəvi elmi əlaqələrin daha da dərinləşməsinin məqsədəuyğun olduğunu ifadə etmişdir (11).

Ermənistanın təhsil və elm naziri Arayk Arutunyan Gürcüstanın birinci kanalına verdiyi reportajda bildirmişdir ki, gürcü həmkarı ilə görüşdə Gürcüstanda fəaliyyət göstərən erməni məktəblərində erməni dili və tarixinin tədrisi müzakirə olunacaq (13).

2024-cü il 28 mart tarixində Ermənistan və Gürcüstan parlamentlərinin elm və təhsil komitələri birgə bəyannamə imzalamışlar. İclasda təhsil islahatları sahəsində qabaqcıl təcrübə mübadiləsi, deputatlar arasında təmaslar, birgə tədbirlərin və proqramların həyata keçirilməsi qeyd edilib.

İki ölkə arasında ümumi təhsil, ali və peşə təhsili və elm, gənclər və məktəb tikintisi sahələrində həyata keçirilən islahatlar barədə fikir mübadiləsi aparılmışdır. “Akademik şəhər” layihəsinin konsepsiyası gürcü tərəfdaşlara təqdim olunmuşdur. Söhbət zamanı hər iki ölkədə müəllimlərin peşə hazırlığı və sertifikatlaşdırılması çərçivəsində atılan addımlara da toxunulmuşdur (16).

2024-cü il 23 sentyabr tarixində Gürcüstanın təhsil, elm və gənclər nazirinin müavini Nodar Papukaşvili Ermənistan nümayəndə heyətini qəbul etmişdir. Görüş çərçivəsində tərəflər təhsil, elm və gənclər sahələrində əməkdaşlığın gücləndirilməsi ölkələr arasında əməkdaşlığın dərinləşdirilməsinin gələcək perspektivləri müzakirə etmişlər. İclasda müzakirələr zamanı Gürcüstan və Ermənistanda ali təhsil səviyyəsində aparılan islahatlar və birgə layihələrin həyata keçirilməsi imkanlarına toxunulmuşdur (17).

Tərəflər Gürcüstanda etnik azlıqların cəmiyyətə inteqrasiyasının dəstəklənməsi baxımından atılacaq addımları müzakirə etmişlər. Onların arasında gürcü dili üzrə təhsil proqramının hazırlanmasının (1+4) təfərrüatları müzakirə olunmuşdur. Bildirilmişdir ki, proqram etnik azlıqların təhsilə çıxış imkanlarının artırılmasına mühüm töhfə verəcəkdir (17).

Görüşün sonunda tərəflər gənclər siyasətinin inkişafı sahəsində ölkələr arasında tərəfdaşlığın dərinləşdirilməsindən danışmış və birgə layihələr həyata keçirməyə hazır olduqlarını bildirmişlər (17).

**Gürcüstanın etnik gruplara dair dil və təhsil siyasəti**

Gürcüstan hökuməti təhsil proqramlarının yaradılmasında öz suverenliyini qoruyaraq, bütün etnik icmaların hüquqlarını nəzərə almağa çalışır. Buna görə də Gürcüstanda təhsil siyasətinə kənar müdaxilələr xoş qarşılanmır və ölkə öz təhsil sistemini müstəqil müəyyən etmək hüququnu özündə saxlayır (23).

Gürcüstanın bütün məktəblərində gürcü dili tədris olunur, lakin etnik azlıqların məktəblərində gürcü dilini bilmə səviyyəsi ümumiyyətlə aşağıdır. Bu vəziyyəti yaxşılaşdırmaq üçün Gürcüstan hökuməti etnik azlıqların məktəblərində gürcü dilinin tədrisini artırmaq üçün xüsusi proqramlar həyata keçirir. Gürcü dili kursları, yay düşərgələri və əlavə maddi dəstək bu səylər sırasındadır (24).

Etnik azlıqların nümayəndələri arasında gürcü dilinin populyarlaşdırılması son illərdə Gürcüstan hökuməti üçün ən vacib məsələlərdən biri olub və azlıqlara münasibətdə mövcud siyasətin prioritetlərindən biridir. Dövlət dilini bilməmək Gürcüstanda milli azlıqların inteqrasiyasına əsas maneə hesab olunur. Vəziyyəti yaxşılaşdırmaq üçün etnik azlıqların sıx məskunlaşdığı bölgələrdə dil baryerinin aradan qaldırılması üçün müxtəlif səviyyələrdə müxtəlif proqramlar həyata keçirilmiş, bu proses davam etməkdədir (15).

Gürcüstan hökumətinin 2010-cu ildən üzərində işlədiyi 1+4 proqramı çərçivəsində bir il gürcü dilini, sonra isə istədikləri dörd illik bakalavr proqramlarını oxuyan qeyri-gürcü dilli tələbələr üçün imtahansız kvota ayrılır.

Effektiv inteqrasiya üçün dil siyasəti çox vacibdir. Gürcüstanın azlıq icmalarının üzvləri çox vaxt gürcü dilində zəif danışırlar və onların öz dilləri ictimai vətəndaş mühitində yalnız qismən tanınır. Buna baxmayaraq Gürcüstanda yaşayan ermənilər dövlət qurumlarının verdiyi qərarlara qarşı etiraz edirlər.

2024-2025-ci tədris ilindən gürcü dili hazırlığı (1+4) təhsil proqramına daxil olan ermənidilli tələbələrin maliyyələşdirilməsi iki dəfə artırılıb, buna görə də hər il 100 ermənidilli tələbə əvəzinə 200 tələbə maliyyələşdiriləcək (2).

Gürcü dilinin daha yaxşı öyrədilməsi üçün bir neçə istiqamətdə hökumətin aktiv fəaliyyəti vardır:

- “Gürcü Dili üçün Proqramlar" (State Language Program): Bu proqram etnik azlıqların gürcü dilini öyrənməsi məqsədini güdür. Məqsəd, bu icmalara gürcü dilində təhsil alma imkanı vermək və onların gündəlik həyatda daha yaxşı inteqrasiya olmasına kömək etməkdir.

- Məktəb proqramları: Təhsil Nazirliyi, erməni və azərbaycanlı icmalarının yaşadığı bölgələrdə məktəblərdə gürcü dilinin tədrisini gücləndirmək üçün xüsusi kurslar təşkil edir. Bu kurslar həmçinin mühazirələr və təlimlər vasitəsilə gürcü dilinin praktik tətbiqini öyrənməyə yönəlir.

- Xüsusi dil kursları: Etnik azlıqlar üçün xüsusi dil kursları təşkil edilir. Bu kurslar müxtəlif yaş qruplarına və təhsil səviyyələrinə uyğunlaşdırılır və məhz gürcü dilinin öyrədilməsinə yönəlir.

- Beynəlxalq təşkilatlarla əməkdaşlıq. Gürcüstan hökuməti, beynəlxalq təşkilatlarla, o cümlədən BMT və Avropa Şurası ilə əməkdaşlıq edərək, etnik azlıqlara gürcü dilini öyrətmək üçün maliyyə və texniki dəstək alır. Bu təşkilatlar, xüsusilə kiçik icmaların dil öyrənmə prosesini dəstəkləmək üçün proqramlar həyata keçirir. Gürcüstan hökuməti keyfiyyətli təhsilin əlçatanlığının təmin edilməsi və dövlət dili üzrə biliklərin yaxşılaşdırılmasını vətəndaş inteqrasiyası prosesinin iki əhəmiyyətli aləti hesab edir. Ölkə qanunvericiliyinə əsasən, təhsilin bütün pillələri etnik azlıq nümayəndələri üçün əlçatandır və azlıqlar öz ana dillərində - Azərbaycan, erməni və rus dillərində təhsil almaq imkanları ilə təmin olmuşlar (4).

Qanunvericilik və informasiya sahəsində tənzimlənmələr həyata keçirilmişdir. Təhsil proqramlarının, o cümlədən “Gələcək uğur üçün gürcü dili”, “Gürcü dili ikinci dil kimi” və “1+4” dil tədrisi proqramlarının yaradılması, bu proqramlar azlıqlara öz ana dilində ali məktəblərə qəbul imtahanı verməyə imkan vermişdir. Bundan əlavə, təhsilin standartlaşdırılması üçün dərsliklər erməni dilinə tərcümə edilmişdir. Bu islahatlar Gürcüstanda yaşayanlar üçün imkan pəncərəsi açdı, gənclərdə təhsillərini Tbilisidə davam etdirmək həvəsinə səbəb oldu. Mühüm nailiyyətlərdən biri də yeni tarix dərsliyinin yaradılması oldu (22).

Bu faydalı dəyişikliklərə baxmayaraq, islahatlar prosesində boşluqlar var. Gürcü dilinin tədrisi yerli kadrlarla lazımı hazırlıq görülmədən başlandı. Müəllimlərin fənn ixtisasları dil tədrisi standartına cavab verəcək səviyyədə deyildi. Bundan başqa, məktəb dərslikləri müxtəlif səviyyəli şagirdlər üçün səmərəsiz idi. Məsələn, material yuxarı kurs tələbələrinin faktiki bilikləri üçün nəzərdə tutulmuşdu, bu proqram düzgün yerinə yetirilə bilmədi (21).

**Gürcüstandakı ermənilərin dil və təhsil problemləri**

Gürcüstanda yaşayan erməni icması ölkənin ən böyük etnik azlıqlarından biridir. Onların əksəriyyəti kənd təsərrüfatı, ticarət və xidmət sahələrində işləyirlər. Ermənilərin dil və təhsil məsələləri ilə bağlı müəyyən problemləri yox deyil.

1993-cü ildə qəbul edilmiş Vətəndaşlıq Qanunu vətəndaşlıq statusu almaq üçün dövlət dilini və ya tarixi bilmək tələbini qarşıya qoymurdu. Təhsil Qanunu azlıqlara öz ana dillərində təhsil almaq imkanı verirdi. Gürcü olmayanlar məhkəmə iclaslarında tərcüməçidən istifadə edə bilirdilər, dil tədris proqramları yaradılırdı. Gürcü dilinin inzibati fəaliyyət dili elan edilməsi və şərtlərin çətinləşdirilməsi uzun müddət əhali üçün anlaşılmaz qaldı, çünki əvvəlki illərdə regionda gürcü dilindən istifadə etməyə o qədər də ehtiyac yox idi. Əhalinin etirazını nəzərə alan hakimiyyət bu məsələdə güzəştə getdi və inzibati icraat dili kimi erməni dilinin istifadəsinə göz yumdu (21).

Sonraki illərdə yenidən gündəmə gələn dil islahatları ermənilər tərəfindən birmənalı qarşılanmadı. Yerli əhali Gürcüstanın milli layihəsi ilə qarşılıqlı əlaqəni assimilyasiya, özünü isə hökumət siyasətinin qurbanı kimi qəbul edirdi (21).

Məlum olduğu kimi, ermənilər Gürcüstanda yaşamaqlarına baxmayaraq, əsasən erməni dilində danışırlar. Bu dil Gürcüstanın rəsmi dili olan gürcü dilindən tamamilə fərqlidir, rəsmi dil biliklərinin olmaması onların gündəlik həyatlarını çətinləşdirirdi. Gürcüstanın çoxsaylı rəsmi sənədləri, qanunları, məktəb proqramları və digər dövlət xidmətləri yalnız gürcü dilində təqdim edilir.

Erməni icmasının ən böyük dil problemi məktəblərdə tədris dili ilə bağlıdır. Cavaxetiya bölgəsindəki erməni məktəblərində dərslər əsasən erməni dilində keçirilir. Bu məktəblərdə gürcü dilinin tədrisi yetərli səviyyədə deyil və bu, erməni icmasının gürcü dilində yüksək səviyyədə kommunikasiyada çətinliklər yaşamasına səbəb olur. Gürcü dilini bilməyən ermənilər dövlət orqanlarında, iş yerlərində və cəmiyyətin digər sahələrində təmsil olunmaqda çətinlik çəkirlər.

Gürcü dilini zəif bilənlər, dövlət xidmətlərindən, hüquqi yardım və digər sosial xidmətlərdən yararlanmaqda çətinliklər yaşayırlar.

Dil problemi ermənilərin gürcü cəmiyyətinə inteqrasiyasını çətinləşdirir. Gürcü dilini bilən ermənilər ilə bilməyənlər arasında müəyyən sosial təbəqələşmə mövcuddur. Eyni zamanda bu, mədəniyyətlərarası əlaqələrin inkişafını da məhdudlaşdırır, çünki gürcü icması ilə erməni icması arasında dil baryeri mövcuddur. Əksər ermənilər iş axtarışında və ya biznes qurmağı planlaşdıran zaman gürcü dilini öyrənməkdə çətinliklərlə üzləşirlər. Bu, onların iqtisadi imkanlarını məhdudlaşdırır və daha çox yerli erməni cəmiyyətinə xidmət edən sektorlarda işləməyə məcbur edir.

Ermənilər sürətli inteqrasiya tələbini öz etnik kimliklərini və dillərini itirmək təhlükəsi kimi qəbul edirlər ki, buna misal kimi məktəblərdə Gürcüstan tarixinin tədrisinə etirazları göstərmək olar. Yerli əhali tələb edir ki, Ermənistan tarixi erməni məktəblərində fakultativ fənn olaraq qalsın.

Samtsxe-Cavaxetidə yaşayan ermənilər məktəblərdə tədris dilini erməni dilində keyfiyyətsiz və yetərsiz aparıldığnı iddia edirlər. Gürcüstan dövləti hər bir vətəndaşa təhsil sahəsində öz haqlarını qoruyub saxlamasında güzəştlər edir, buna baxmayaraq Gürcüstanda yaşayan ermənilər bu məsələni problem olaraq qabardırlar.

Gürcüstanda yaşayan ermənilərin qeydlərinə görə, rayonda erməni dili və ədəbiyyatı müəllimlərinin sayı kifayət qədər deyil, onlar dil və ədəbiyyat dərslərinin çox vaxt tamamilə fərqli fənlərin müəllimləri tərəfindən keçirildiyni bildirirlər.

Müəllimlər kitabların keyfiyyətindən şikayətlənirlər. Onların fikrincə, dərsliklərdə təkcə mexaniki yox, faktiki səhvlər də çoxdur. Yerli müəllimlər Təhsil Nazirliyindən tələb edirlər ki, kitabların keyfiyyətinə nəzarət etsin və mövcud səhvlər düzəldilsin (18).

Gürcüstanın əsas KİV-ləri və xəbər mənbələri əsasən gürcü dilindədir. Bu da erməni icmasının xəbərlərdən və cəmiyyətin əsas müzakirə mövzularından kənarda qalmasına səbəb ola bilər. Bəzi erməni dilində fəaliyyət göstərən radio və qəzetlər mövcud olsa da, bu media vasitələri ümumi cəmiyyətin nəbzini tutmaqda məhdudiyyətlər yaşayır.

Hökumət tərəfindən gürcü dilinin daha yaxşı öyrədilməsi istiqamətində bir sıra təşəbbüslər olsa da, erməni icmasında bu məsələnin prioritet olaraq görülməməsi bəzi çətinliklər yaradır. Gürcü dilini öyrənmək üçün müvafiq kurslar və tədris proqramlarının məhdud olması da bu problemi daha da dərinləşdirir.

Gürcüstanda dərsliklər yazmaq mümkün olmasa da, Ermənistan tarixinin öyrənilməsi fənn olaraq qalmışdı. Buna görə də Ermənistan Respubıikasından göndərilən kitablar bir neçə il məktəblərdə istifadə olundu. 2007-ci ilə qədər azlıqların dillərində dərsliklər Ermənistan tərəfindən ermənidilli məktəblərə verilirdi. Lakin bu, Gürcüstan hökumətini qane etmirdi, çünki kitablarda Gürcüstanın tarixi yer almamışdı və onlar Gürcüstanın kurrikulumuna uyğunlaşdırılmamışdı. Buna görə də Təhsil və Elm Nazirliyi tərəfindən azlıqların cəmiyyətdə iştirakını artırmaq üçün gürcü dərsliklərinin azlıqların dillərinə tərcümə edilməsi barədə qərar qəbul edildi (14).

**Erməni dairələrinin və Ermənistanın Gürcüstandakı ermənilərin dil və təhsil məsələsinə müdaxiləsi**

Gürcüstanda yaşayan ermənilərin burada 70-ə yaxın ictimai təşkilatı fəaliyyət göstərir. Onların hamısı "Gürcüstan ermənilərinin icması" adlı qeyri-rəsmi birlik adı altında birləşmişdir. Mədəniyyət, gənclər, qadın hüquqları, sosial-iqtisadi məsələlər adı altında fəaliyyət göstərən bu təşkilatlar Tbilisi və Samtsxe-Cavaxeti bölgəsində yerləşir. Gürcüstanda yaşayan bütün milli azlıqların təmsil olunduğu "Çoxmillətli Gürcüstan" təşkilatının sədri də yerli erməni əsilli vətəndaş Arnold Stepanyandır (3).

Erməni QHT-ləri Ermənistan dövlətinin maraqlarına cavab verən fəaliyyətə də mütəmadi cəlb olunurlar. Hər il qondarma “erməni soyqırımı”nın ildönümü ilə bağlı erməni icmasının təşkilatçılığı ilə Türkiyənin Gürcüstandakı səfirliyi qarşısında etiraz aksiyası, Tbilisi və Samtsxe-Cavaxeti bölgəsində yürüşlər keçirilir. QHT-lərin adından qondarma soyqırımın tanınması tələbi ilə Gürcüstan parlamentinə dəfələrlə müraciət olunmuşdur (3). Bununla yanaşı, QHT-lər və ümumilikdə erməni icması dil strategiyası ilə bağlı çıxışlar edirlər.

Cavaxetiyada erməni dilinin statusu məsələsi 1999-cu ildə qaldırılmışdı. O vaxtdan bəri icma belə bir qərarın verilməsində israrla fəallıq nümayiş etdirirdi.

Ermənilərin arqumentlərini diqqətlə nəzərdən keçirdikdə bunun Gürcüstanın daxili işlərinə dillə bağlı müdaxilə cəhdləri kimi başa düşmək olar. Tərəfdarların arqumentlərinə görə, erməni dili yeganə dildir ki, ermənilərin yığcam halda yaşadıqları ərazilərdə bütün ictimaiyyət bilir və bu səbəb erməni dilinə milli status verilməsini zəruri edir (9).

Cavaxetiyadakı etnik ermənilərlə bağlı məsələdə də tərəflərin fikri fərqlidir. Ermənistan nöqteyi-nəzərindən əsas problem odur ki, guya yerli etnik ermənilərin öz ana dilində keyfiyyətli təhsil almaqda çətinlik çəkmələri iqtisadi və siyasi sahədə özlərini reallaşdırmaq baxımından ayrı-seçkiliyə məruz qalmalarına gətirib çıxarır.

Bundan əlavə, dövlət dilinin tətbiqinə qarşı çıxanlar da var. Sovet İttifaqında və 1990-cı illərdə orta və ali təhsil almalı olan əhalinin bir hissəsi üçün erməni və ya rus dili gündəlik ünsiyyət dili olaraq qaldığından gürcü dili məcbüriyyəti ilə barışmaq istəmirlər.

Onlar dil öyrənilməsini problemli məsələ kimi qəbul edirlər, gürcü dilində xidmət göstərilməsi üçün meyar kimi istifadə edilməsinə qarşı çıxır və dövlətə iki həll yolu təklif edirlər: Cavaxetiyada erməni dilini inzibati istehsal dili elan etmək və ya 15-20 il müddətində əvvəl keçid dövrü tətbiq etmək. Onların qiymətləndirməsinə görə, ikinci təşəbbüsü dəstəkləsələr, göstərilən vaxtda dili bilməmək problemini aradan qaldıra bilərlər.

Erməni dilindən bölgənin rəsmi dili kimi istifadə edilməsi tələbi ilə bağlı son açıq təzahür 2016-cı ilin noyabrında Sakrebulo (yerli administrasiya) tərəfindən Axalkalaki rayonunda yeni yol nişanlarının hazırlanması və quraşdırılması ilə bağlı qəbul edilmiş qərar oldu. Ənənəvi olaraq, Gürcüstanda yol nişanlarında coğrafi adlar gürcü və ingilis dillərində göstərilir. Axalkalaki rəhbərliyi isə buraya erməni yazılarını da əlavə etmək qərarına gəlmişdi (9).

Təklif ictimaiyyət tərəfindən coşqu ilə qarşılandı, lakin bölgədən kənarda mənfi reaksiyalar olduğu üçün təklif olaraq qaldı. Müxtəlif KİV-lərdə Cavaxetiyada gedən bu prosesler separatizmin yeni dalğası kimi qiymətləndirildi.

Deputatların özlərinin də qeyri-rəsmi söhbətlərində dediyi kimi, Tbilisinin müxtəlif rəsmi qurum və idarələri tərəfindən etiraz edildikdən sonra şəhər şurası bu məsələni təxirə salmağa üstünlük verdi (9).

Gürcüstan Erməni Yeparxiyasının Gənclərlə İş Departamentinin təşəbbüsü (direktor: Valeri Badaliani) və Yeparxiyanın dəstəyi ilə 12 noyabr 2016-cı il tarixində Tbilisinin Hayartun Mərkəzinin Qalust Gülbenkyan adına zalında müxtəlif ali təhsil müəssisələrində təhsil alan erməni gənclərlə görüş keçirilmişdir. Mərkəzin direktoru gəncləri cəmiyyətin həyatında iştirak etməyə çağırıb, həmçinin onları milli birlik ideyasını rəhbər tutmağa və Gürcüstanın erməni icmasının tərəqqisinin iştirakçısı olmağa səsləmişdir.

18 aprel 2018-ci il tarixdə Gürcüstan Erməni Yeparxiyasının Hayartun Mərkəzi Qalust Gülbenkyan adına zalda yeparxiyanın tabeliyində fəaliyyət göstərən “Surb Movses Xorenatsi” uşaq bağçasının uşaqlarının valideynləri və Gürcüstan Erməni Yeparxiyasının kollektivi ilə görüş keçirilmişdir. Görüşdə Gürcüstanda fəaliyyət göstərən ermənidilli məktəblərin şagird sayının azalması məsələsi müzakirə edilmiş, bu məktəblərin təbliğatı aparılmışdır.

Erməni millətçilərinin Gürcüstana qarşı “dil tələbləri” hətta BMT-nin əsas beynəlxalq platformasında da ultimatum kimi səsləndirilmişdir. Cavaxetiyada erməni məktəbləri və uşaq bağçaları fəaliyyət göstərib və indi də fəaliyyət göstərir, erməni mədəniyyətinin inkişafı da onların büdcəsindən dotasiya olunur. Erməni dilinin “statusu” olmasa da, əvvəl erməncə ümumiyyətlə danışılmayan Axalkalakidə bu gün hamı daha çox erməni dilində danışır. Məsələn, Axalkalaki bələdiyyəsinin erməni dilində yaradılmış dövlət saytı da var.

Gördüyümüz kimi, erməni millətçilərinə və Ermənistan hökumətinin müdaxiləsi ilə Gürcüstanı daha da parçalamaq üçün, separatizmi qızışdırmaq üçün, sadəcə, “status” məsələsi lazımdır. Əslində, Gürcüstanda digər milli azlıqların dilləri kimi erməni dili də təhlükə altında deyil (10).

Ermənistan Gürcüstanda yaşayan ermənilərin erməni dili və mədəniyyətinin orada kök salması üçün Gürcüstandakı erməni tələbələri öz universitetlərinə qəbul edir və təqaüd imkanları təklif edir. Gürcüstandakı erməni gənclər, xüsusən də erməni kimliyini və mədəniyyətini qorumaq istəyənlər Ermənistanda universitet təhsilini seçirlər. Bu təqaüd proqramları tələbələrə Ermənistanda təhsil imkanlarından yararlanmağa imkan verir və beləliklə, ermənilər təhsil aldıqdan sonra Gürcüstana qayıtmaqla erməni ideologiyasını yaymağa çalışırlar (24).

Ermənistan Gürcüstanda erməni gəncləri üçün ana dilini möhkəmləndirmək və mədəni əlaqələri qorumaq üçün yay düşərgələri və dil kursları təşkil edir. Gürcüstandakı erməni mədəni birlikləri və kilsələri vasitəsilə təşkil olunan bu cür tədbirlər erməni təbliğat maşını kimi istifadə edilir.

Ermənistan hökuməti təhsil sistemində Gürcüstanla birgə proqramlarda iştirak etməklə, orada yaşayan erməni tələbələrin təhsilinə müdaxilə etməkdədir. Gürcüstan Texniki Universitetində “Erasmus+” layihəsinin - “Gürcüstan və Ermənistanın ali təhsil sistemlərində mikrosertifikatlaşdırmanın tətbiqi: Cənubi Qafqaz mayakı” (Micro-GEAR) adlı layihənin açılış mərasimi keçirilib. Bu layihə ikiqat diqqət mərkəzindədir. Bu, bir tərəfdən, Gürcüstan və Ermənistan ali təhsil sistemlərini modernləşdirəcəksə də, digər tərəfdən yerli təhsil sistemlərinə müdaxiləyə şərait yaradacaq (25).

**Nəticə**

Ermənilər Gürcüstanın müxtəlif bölgələrində, xüsusən paytaxt Tbilisi, Samtsxe-Cavaxeti, Kvemo Kartli, Acara və Abxaziyada məskunlaşmışlar. Ermənilərin ən sıx yaşadığı bölgə Samtsxe-Cavaxetidir. Xüsusən, Cavaxetidə erməni əhalisinin sayı çox yüksəkdir.

Ermənilərin təhsili Gürcüstanda bir neçə səviyyədə təşkil olunur. Onlar ümumilikdə Gürcüstanın dövlət məktəblərində təhsil alırlar, həmçinin erməni dili və mədəniyyətini öyrədən məktəblər də mövcuddur.

Gürcüstanın bəzi məktəblərində xüsusilə erməni icmasının sıx olduğu ərazilərdə erməni dilində tədris aparılır. Bu məktəblər, həmçinin erməni dilini və ədəbiyyatını öyrətmək üçün xüsusi kurslar təşkil edirlər.

Gürcüstanda yaşayan ermənilər, yalnız öz dillərində təhsil almaqla kifayətlənməyib, həmçinin erməni ədəbiyyatının, tarixinin və digər mədəniyyət sahələrinin geniş şəkildə tədris olunmasını istəyirlər. Bu, onların tək kimliklərini qorumaq deyil, eyni zamanda siyasi təxribat kampaniyaları aparmaları üçün vəsilə hesab oluna bilər.

Samtsxe-Cavaxetidə yaşayan ermənilər məktəblərdə tədris dilini erməni dilində keyfiyyətsiz və yetərsiz aparıldığını qeyd edirlər. Gürcüstan dövləti hər bir vətəndaşın təhsil sahəsində öz haqlarını qoruyub saxlamasında güzəştlər edir, buna baxmayaraq Gürcüstanda yaşayan ermənilər bu məsələni qabardırlar.

Ermənistan Gürcüstanda ermənilərin erməni dilində təhsilalma hüquqlarının təmin olunması üçün müxtəlif təzyiqlər və diplomatik təşəbbüslər həyata keçirir.

Ermənistan bu məsələdə beynəlxalq təşkilatlar çərçivəsində də fəaliyyət göstərir. Məsələn, Ermənistan UNESCO və digər beynəlxalq təşkilatlar vasitəsilə erməni dilinin qorunması və təhsilin erməni dilində daha geniş şəkildə təmin edilməsi məqsədini güdür. Gürcüstan hökumətinə yerli erməni icmalarının təhsil və mədəniyyət sahəsindəki hüquqlarının qorunmasına dair çağırışlar edilir.

Erməni kilsəsinin təhsil sahəsindəki müdaxiləsi, xüsusən ermənidilli məktəblərin dəstəklənməsi və erməni dilində dərslərin verilməsi məsələlərində daha çox hiss olunur. Kilsə həmçinin erməni tarixi və mədəniyyətinin təbliğ edilməsi sahəsində fəaliyyət göstərir.

Gürcüstan hökuməti bu məsələyə həssas yanaşır və erməni icmasının bu bölgəni tamamilə "mənimsəməsi" məsələsinə qarşı ehtiyatlıdır. Belə bir hərəkət Gürcüstanın ərazi bütövlüyü və suverenliyinə qarşı təhdid kimi qəbul oluna bilər.

Gürcü dilinin vahidliyini qorumaq və eyni zamanda etnik azlıqlara öz dillərində təhsil almaq imkanı vermək, hökumət üçün mürəkkəb bir məsələdir. Bu məsələnin həm təhsil siyasətində, həm də

ümumi sosial inteqrasiya prosesində diqqətlə həll olunması Gürcüstanın dövlətçilik maraqlarına uyğundur..

### İstifadə olunmuş ədəbiyyat

1. Etnosebi Sakartveloshi, Ed. Merab Basilaia, Tiflis 2008, s. 7-8. [ეთნოსები საქართველოში, რედაქტორი მერაბ ბასილაია, თბილისი 2008, გ. 7-8].
2. Etnosebi Sakartveloshi, s. 8
3. Etnosebi Sakartveloshi, s. 24.
4. Giorgi Amilaxvar Ermənistanın təhsil, elm, mədəniyyət və idman naziri ilə işgüzar görüş keçirib. https://mes.gov.ge/content.php?id=13727&lang=geo
5. ქართული ენის სწავლება. https://grass.org.ge/wp-content/uploads/2016/11/somekhi-umtsiresoba-samtskhe-javakhethis-regionshi.pdf
6. QHT sektoru, https://report.az/analitika/gurcustanin-ermeni-sevgisi-azerbaycanlilarin-uzlesdiyi-ayriseckilik/
7. მიხეილ ჩხენკელმა სომხეთის რესპუბლიკის განათლების, მეცნიერების, კულტურისა და სპორტის მინისტრს უმასპინძლა და თანამშრომლობის გაღრმავების საკითხები განიხილა. https://mes.gov.ge/content.php?id=13350&lang=geo
8. Orta və ali təhsil. https://report.az/analitika/gurcustanin-ermeni-sevgisi-azerbaycanlilarin-uzlesdiyi-ayriseckilik/
9. Rusudan Amirejibi and Kakha Gabunia, Georgia’s Minorities: Breaking Down Barriers to Integration, 2021, s.6.
10. Statistikis Erovnuli Samsakhuri (sakstati), https://migration.commission.ge/files/census-releasegeo_2016.pdf.
11. სომხური ენა საქართველოში: სახელმწოფო ენის სტატუსის მომხრეები და მოწინააღმდეგეები. https://jam-news.net/ge/somkhuri-ena-saqartveloshi/
12. ენის სტატუსის საკითხი - გამოხმაურება ინტერნეტ-მედიაში. https://sknews.ge/ka/old/1253
13. სომხეთის განათლების მინისტრი ქართველ კოლეგასთან სომხური სკოლების თემის განხილვას გეგმავს. https://1tv.ge/news/somkhetis-ganatlebis-ministri-qartvel-kolegastan-somkhuri-skolebis-gankhilvas-gegmavs/
14. „სომხური ენის ოფიციალური სტატუსის“ მოთხოვნა საქართველოში. ჯავახკის სეპარატისტები ენის საკითხით იწყებენ და „მიაცუმით“ დაამთავრებენ. https://ge.kavkazplus.com/news.php?id=41679
15. Valerian Macharadze, “Georgievskis traktati”, http://www.sinergia.ge/samisaunje-/Pdf_1(7)/valerian%20macharadze.pdf, [ვალერიან მაჭარაძე, “გეორგიევსკის ტრაქტატი”, http://www.sinergia.ge/samisaunje/Pdf_1(7)/valerian%20macharadze.pdf]
16. Valeri Modebadze, Meskhuri problemis analizi, Tiflis 2010, s. 55. [ვალერი მოდებაძე, მესხური პრობლემის ანალიზი, თბილისი 2010, გ. 55].
17. ზოგადი განათლება. https://grass.org.ge/wp-content/uploads/2016/11/somekhi-umtsiresoba-samtskhe-javakhethis-regionshi.pdf

**Rəyçi: s.e.f.d. Samirə Həbibbəyli**

**UOT 316**
**https://doi.org/10.30546/ifs.2025.1(44).129**

# AVROPA İTTİFAQINDA İNTEQRASİYA PROSESLƏRİNƏ DAİR SİYASİ NƏZƏRİYYƏLƏR

**Şəbnəm Zeynalova**
Siyasi elmlər üzrə fəlsəfə doktoru
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, **Azərbaycan**
shabnamzeynalova@yahoo.com
https://orcid.org/0000-0002-2665-4753

**Xülasə.** Bu məqalə Avropada inteqrasiyanın və Avropa İttifaqının cari siyasətinin öyrənilməsi üçün ən əhəmiyyətli nəzəri yanaşmaların sistematik icmalıdır. Burada müəllif tərəfindən siyasi inteqrasiya fenomeninin tədqiqinə dair müxtəlif konsepsiyalar və nəzəri yanaşmalar vasitəsilə inteqrasiyanın tədqiqi və bu fenomenin inkişaf perspektivləri barəsində fikirlərin formalaşması kimi mühüm vəzifələr yerinə yetirilir. Müəllif belə bir nəticəyə gəlir ki, mürəkkəb inteqrasiya fenomenini tam şəkildə izah etməyə qadir olan Avropa inteqrasiyasının ümumi nəzəriyyəsi hələ də yoxdur. Bununla belə, onu tədqiq etmək üçün federalizm, funksionalizm və neofunksionalizm kimi mövcud olan siyasi nəzəriyyələr mühüm vəzifəni yerinə yetirir, inteqrasiya anlayışı və bu fenomenin inkişaf perspektivləri müəyyənləşdirilir.

**Məqsəd:** Avropada inteqrasiya ilə bağlı müxtəlif siyasi nəzəriyyələrin, o cümlədən federalizm, funksionalizm və onun əsasında yaranan neofunksionalizm nəzəriyyələrinin və onların Avropa inteqrasiya proseslərinə təsiri məsələlərinin tədqiqi

**Metodologiya:** müqayisəli təhlil, formal məntiqi və sistemli yanaşma

**Elmi yenilik:** Məqalədə avrointeqrasiyaya dair siyasi nəzəriyyələr vasitəsilə Avropa dövlətlərinin birləşməsi üçün nəzəri əsaslandırmalar təhlil olunur.

**Açar sözlər:** Avropa İttifaqı, inteqrasiya, federalizm, funksionalizm, neofunksionalizm, inteqrasiya nəzəriyyələri

## ПОЛИТИЧЕСКИЕ ТЕОРИИ ИНТЕГРАЦИОННЫХ ПРОЦЕССОВ В ЕВРОПЕЙСКОМ СОЮЗЕ

**Шебнем Зейналова**

**Резюме**. Данная статья представляет собой систематизированный обзор наиболее значимых теоретических подходов к изучению европейской интеграции и современной политики Европейского союза. При этом автор выполняет важные задачи по формированию представлений о перспективах развития феномена интеграции посредством различных концепций и теоретических подходов к исследованию политической интеграции, приходя к выводу, что всеобъемлющей теории европейской интеграции, способной полностью объяснить сложный феномен интеграции, до сих пор не существует. Тем не менее, такие существующие политические теории, как федерализм, функционализм и неофункционализм, играют важную роль в его изучении, определяя понятие интеграции и перспективы развития этого феномена.

**Цель:** изучение различных политических теорий, связанных с европейской интеграцией, включая федерализм, функционализм и производную от него теорию неофункционализма, и их влияние на процессы европейской интеграции.

**Методология:** сравнительный анализ, формально-логический и систематический подход.

**Научная новизна:** в статье анализируются теоретические основы объединения европейских государств через политические теории европейской интеграции.

**Ключевые слова:** Европейский союз, интеграция, федерализм, функционализм, неофункционализм, интеграционные теории

## POLITICAL THEORIES ON INTEGRATION PROCESSES IN THE EUROPEAN UNION

**Shabnam Zeynalova**

**Summary**. This article is a systematic review of the most significant theoretical approaches to the study of European integration and the current policies of the European Union. Here, the author undertakes important tasks in forming ideas about the development prospects of the integration phenomenon through various concepts and theoretical approaches to the study of political integration. The author concludes that there is still no comprehensive theory of European integration capable of fully explaining the complex phenomenon of integration. However, existing political theories such as federalism, functionalism, and neo-functionalism play an important role in studying it, defining the concept of integration and the development prospects of this phenomenon.

**Purpose:** The study of various political theories related to European integration, including federalism, functionalism, and the neo-functionalism theory derived from it, and their impact on the processes of European integration.

**Methodology:** Comparative analysis, formal logical and systematic approach.

**Scientific novelty:** The article analyzes the theoretical foundations for the unification of European states through political theories of European integration.

**Keywords:** The European Union, integration, federalism, functionalism, neo-functionalism, integration theories.

### Giriş

Müasir dövrdə geniş istifadə edilən inteqrasiya termini latın mənşəli *“integratio”* sözünə əsaslanır və “bərpa olunma”, “doldurulma” deməkdir və “bütövləşmə” mənasını daşıyan*“integer” sözündən əmələ gəlmişdir.* Bu termin dəqiq və təbiət elmlərindən götürülərək ictimai münasibətlərin tədqiq edilməsində, sosial və siyasi elmlərdə II Dünya müharibəsindən sonra beynəlxalq iqtisadi əməkdaşlıq və beynəlxalq əməkdaşlığın digər formalarına (siyasi, mədəni, elmi və s.) dair istifadə edilməyə başlandı. “İnteqrasiya” termini ilk dəfə rəsmi olaraq 31 oktyabr 1949-cu ildə Avropa İqtisadi Əməkdaşlıq Təşkilatı Şurasının iclasında bu qurumun inzibatçısı P.Hoffman tərəfindən işlədilmişdir (1, 262).

İnteqrasiya anlayışının tədqiq edilməsi xüsusi maraq kəsb edir. Qeyd etmək lazımdır ki, inteqrasiya prosesləri bütövlükdə II Dünya müharibəsindən sonra daha intensiv inkişaf etməyə başlamışdır. Tədricən inteqrasiya prosesləri genişlənməyə və müxtəlif sahələri əhatə etməyə başladı. Bununla bərabər, ümumi qəbul edilmiş “inteqrasiya” anlayışı yoxdur. Elmi ədəbiyyatda bu anlayışın müxtəlif müəlliflər tərəfindən irəli sürülmüş təriflərinə rast gəlmək olar. N.E.Ovçarenkonun fikrincə, bunu, birincisi, məqsədlərinə və funksiyalarına görə fərqlənən çoxsaylı inteqrasiya prosesləri modellərinin, tiplərinin olması ilə və ikincisi, ayrı-ayrı dövlətlər və ya bir qrup dövlətlər tərəfindən güdülən müxtəlif milli maraqlar arasında fərqlərin olması ilə izah etmək olar (6, 109). D.V.Treninə görə isə inteqrasiya anlayışı altında oxşar vahidlərin bir-birinə yaxınlaşması və daxil olması, bu əsasda ümumi iqtisadi, siyasi, ictimai dəyərlər məkanının formalaşması başa düşülür (7, 28).

Bununla bərabər, dövlətlərarası münasibətlərin tədqiq edilməsi belə bir nəticəyə gəlməyə əsas verir ki, ümumi sülhün və təhlükəsizliyin qorunması, dövlətlər arasında iqtisadi əməkdaşlığın inkişafı

və həmçinin terrorizm, ekstremizm, separatçılıq kimi çağırışlarla mübarizə, ekoloji, sosial, iqtisadi məsələlərin tənzimlənməsi zərurəti və s. problemlərin həlli müxtəlif inteqrasiya modellərində ümumi xarakter daşıyır (4).

Bundan əlavə, inteqrasiya prosesləri bütövlükdə dünya inkişafının və xüsusən də dünya siyasətinin əhəmiyyətli amilləri kimi daimi inkişaf vəziyyətindədirlər. Onlar həm beynəlxalq münasibətlərin məzmununa, həm də onların həyata keçirilməsi formalarına yeni ünsürlər daxil edirlər. Qeyd edildiyi kimi, elmi ədəbiyyatda inteqrasiya anlayışlarının müxtəlif təriflərinə rast gəlmək olar (4). Bir çox hallarda inteqrasiya tərkib hissələrdən bütövlüyün (sistemin) yaranması kimi sosial bir proses olaraq səciyyələndirilir (5, 24-25). Digər hallarda inteqrasiyanın mümkünlüyü yeni iştirakçılara loyal münasibət, hökmranlığın və hakimiyyətin zəruri hüdudları məsələsi ilə bağlanır (2, 110-111).

Bu və ya digər fərqlərlə inteqrasiya anlayışı altında eyni və ya oxşar vahidlərin bir-birinə qarşılıqlı yaxınlaşmaları, daxil olmaları və bunun əsasında ümumi iqtisadi, siyasi, ictimai, mənəvi, sosial dəyərlər məkanının formalaşması başa düşülür. İnteqrasiyanın əsas məqsədi həm regional, həmçinin universal miqyasda səmərəli fəaliyyətin təmin edilməsinin əsası və nəticəsində dövlətlərin əməkdaşlığının müxtəlif forma və metodlarının intensivləşdirilməsindən ibarətdir.

İnteqrasiya subyektlərin problemlərini keyfiyyətcə həll etmək qabiliyyətini qaldırır və bununla bərabər daxili sabitliyi təmin edir. Müxtəlif dövlətlərin müxtəlif sahələrdə qarşılıqlı razılaşdırılmış fəaliyyəti onların bütün beynəlxalq münasibətlər sisteminə daha güclü təsir etməsini göstərir.

Bununla yanaşı, həm də qeyd etmək lazımdır ki, müasir şəraitdə inteqrasiya proseslərinin əsas hissəsini onun iqtisadi aspekti təşkil edir. Dünyada daha çox iqtisadi inteqrasiya inkişaf edir. İqtisadi inteqrasiya yüksək dərəcədə olduqda, o, hətta siyasi sahədə də inteqrasiyanın inkişafını mümkün edir. Buna misal kimi, Aİ çərçivəsində inteqrasiya proseslərini göstərmək olar. Bu qurumda ilk olaraq iqtisadi inteqrasiyanın müxtəlif mərhələləri inkişaf etdi. Daha sonra isə belə inteqrasiyanın digər sahələrdə də ünsürləri, o cümlədən siyasi ünsürləri əmələ gəldi. Hal-hazırda isə hətta bu qurumun hərbi sahədə də inteqrasiyasının lehinə səslər eşidilməyə başlayır.

Tarixdə dövlətlərin birləşmək cəhdləri çox olub. Regional inteqrasiya beynəlxalq münasibətlərdə ciddi və əhəmiyyətli bir fenomen kimi İkinci Dünya Müharibəsindən sonra meydana çıxdı. 1949-cu ildə SSRİ-nin himayəsi ilə Şərqi Avropa ölkələrinin də daxil olduğu Qarşılıqlı İqtisadi Yardım Şurası (QYİŞ) yaradıldı. Bir müddət sonra, 1957-ci ildə Qərbi Avropada Avropa Kömür və Polad Birliyi (ECSC), 1959-cu ildə isə Avrasiya Azad Ticarət Assosiasiyası (EFTA) yaradılmışdır. Sonra inteqrasiya qrupları (ilk növbədə regional və iqtisadi) dünyanın digər yerlərində - Asiya, Afrika və Latın Amerikasında meydana çıxmağa başladı: məsələn, Şimali Amerika Azad Ticarət Assosiasiyası (NAFTA), BRİKS, MDB, ŞƏT, ASEAN, Mercosur, ECOWAS, And icması, Avrasiya inteqrasiya icması və s.

Müxtəlif meyarlara görə bölünən inteqrasiya tədqiqatlarının müxtəlif nəzəri məktəbləri, konsepsiyaları mövcuddur. II Dünya müharibəsindən sonra Qərbi Avropanın bir çox ölkələrində dağıdılmış iqtisadiyyatın yenidən qurulması və bununla bərabər möhkəm sülhün yaradılması zərurəti bir sıra siyasi, iqtisadi və hüquqi xarakterli köklü tədbirlərin görülməsini və bu məqsədlə Avropa ölkələrinin birgə səylər göstərilməsini tələb edirdi. Bu halda birgə edilən səylər daha səmərəli nəticə və daha optimal yolun seçilməsi imkanını verə bilərdi. Bu səbəbdən avrointeqrasiya Avropa ölkələri arasında inteqrasiya proseslərinin yaranması, formalaşması və inkişafına dair federalizm, funksionalizm və daha sonra neofunksionalizm kimi siyasi nəzəriyyələr tərtib edilərək irəli sürülməyə başladı.

İlk növbədə qeyd etmək lazımdır ki, I və II Dünya müharibələri arasındakı dövrdə Avropanın gələcəyi ilə bağlı fikirlər intensiv xarakter almağa və Avropanın birləşməsi problemləri ilə məşğul olan elmi məktəblər formalaşmağa başlamışdır. Onlar "*milli dövlətlərin məhvini və yeni Avropa və dünya nizamının zəruriliyini məntiqlə sübut etməyə çalışırdılar*" (7, 319). Həmin dövrdə Avropada inteqrasiya prosesinin nəzəri əsası iki yanaşmaya: federalizm və funksionalizmə əsaslanırdı.

Öz yaranmasına görə federalizm nəzəriyyəsi Avropa inteqrasiyasına dair ilk nəzəriyyələrdən biridir. II Dünya müharibəsindən sonra Avropa federalizmi ideyası vahid Avropa xəyallarından ilhamlanaraq Avropa inteqrasiyanın ən geniş yayılmış siyasi nəzəriyyəsinə çevrilmişdir. Avropada federalizm ideyası Kantın “əbədi sülh” nəzəriyyəsinə əsaslanırdı. Onun ideyası Amerika modelindən, müasir cəmiyyət və demokratiya paradiqmasından təsirlənərək Avropa federalistləri üçün nümunə oldu. Avropa quruculuğu prosesində federalist ideyaların əsas dəstəkçisi 1907-1986-cı illərdə karyerasının ilk dövründə kommunist olan və Mussolini dövründə həbsdə olan italyan siyasətçisi Altiero Spinelli olmuşdur. O, 1943-cü ildə həbsdən azad olduqdan sonra Milanda Avropa Federalist Hərəkatının əsasını qoydu. Avropa Komissiyasının üzvü və Avropa Parlamentinin əsas liderlərindən biri olan Spinellinin Avropa İttifaqının formalaşmasında təsiri o qədər əhəmiyyətli idi ki, o, Avropanın atalarından biri hesab olunurdu.

Bu sahədə ən mühüm elmi əsərlərdən biri R. Kudenhov-Kalerqinin hələ 1923-cü ildə nəşr etdiyi “Ümumavropa” əsəri olmuşdur. Bu əsərdə o, Avropanın vahid konstitusiya əsasında birləşməsi ideyasını irəli sürmüşdür. Bu konsepsiyanın motivasiyası iki amilə əsaslanırdı. Bir tərəfdən, “*Hiss olunurdu ki, “Avropa” bir çox cəhətdən əhəmiyyətli qlobal gücə çevrilə biləcək təbii təşkilatdır*” (11, 21). Bu amil birləşmənin əsas səbəbi kimi çıxış edirdi. Eyni zamanda, tam vahid unitar dövlətin formalaşması ilə bağlı mənfi cəhət bu halda “*...siyasi sahədə mümkün təşkilati dəyişikliklərə baxmayaraq, qitənin bir sıra qanlı etnik münaqişələrə qərq olacağı*” iddiası idi (11, 21). Avropa federalizmi ideyası yayılmağa başlamış və hətta onun əsasında Fransa xarici işlər naziri A.Brian 1930-cu ildə “Avropa Federal Dövlətinin Rejim Təşkilat Memorandumu” adlı sənədi imzalamışdır.

II Dünya müharibəsindən sonra federalistlər milli dövlətləri müharibələrdə əsas günahkar hesab edərək siyasi hakimiyyəti onlardan alıb vətəndaşlara, Avropa xalqlarına verməyə çalışırdılar. Əslində, bu fikirlərə Fransa inqilabı dövründə Robespyer və yakobinlərin ideyalarında da rast gəlmək olardı. Federasitlərə görə, bütün vətəndaşlar, cəmiyyətin bütün üzvləri eyni hüquqlara və eyni vəzifələrə malik olmalıdırlar, çünki onlar mütəşəkkil cəmiyyətin mərkəzidirlər.

Federal hökumət müdafiə siyasəti, iqtisadi siyasət və xarici əlaqələr kimi dövlətin əsas siyasətlərinə cavabdeh olmalıdır. Müdafiə siyasəti ümumi ordu yaradılmasını nəzərdə tuturdu ki, bu da federasiya üzvləri arasında müharibə ehtimalının qarşısını ala və Avropanın dünya arenasında təsirini artırmaq üçün bir vasitə kimi istifadə edilə bilərdi. İqtisadi siyasət isə eyni qaydalara və azadlıqlara malik ümumi iqtisadi sahələrin yaradılması ilə üzv dövlətlər arasında iqtisadi qarşıdurmaların qarşısını almaq və ümumi bazar yaratmağa əsaslanırdı. Xarici əlaqələr zamanı isə vahid blok kimi çıxış etmək federasiyanın bütün üzvləri üçün əlverişli idi, belə ki, bir üzvə qarşı hər hansı təhlükə bütün federasiya üçün təhlükəyə çevriləcək və üzv dövlətlərin maraqları güclü federasiya tərəfindən daha səmərəli şəkildə qoruna biləcəkdi. Burada əsas məqam federasiya üzvlərinin xüsusi maraqları deyil, ümumi maraqlarıdır. Federalistlərə görə, federal hökumətin fəaliyyətinin daha təsirli olduğu sahələr güclü federal hökumətin səlahiyyətində olmalıdır. Lakin milli hökumətlər, regional institutlar və ya yerli idarələr də qərarların qəbulunun digər səviyyələrində daha effektiv ola bilər və buna görə də onların nəzarət etdiyi sahələr fərqlidir.

A.Şpinelli, E.Vistriç, Makkay, M.Albertini siyasi inteqrasiya nəzəriyyəçiləri kimi çıxış edərək demokratik federalizm ideyalarına əsaslanırdılar və onlar federalizm nəzəriyyəsinin sonrakı nümayəndələrinə aid edilirlər. Onların müəllimləri isə Fransa burjua inqilabı və Amerika federalistlərinin (A. Hamilton, C. Medison, C. Vaşinqton və s.) və hər şeydən əvvəl filosofların - A. de Tokvilin və b. ideyalarına əsaslanan ABŞ Konstitusiyası idi. Avropa federasiyasının yaradılması Qərbi Avropa dövlətlərinin birləşməsi üçün ən bariz variant idi. Avropa federalizm siyasi nəzəriyyəsi qurucularından biri olan Altiero Spinelli iddia edirdi: “Milli dövlətlər öz vətəndaşlarının siyasi və iqtisadi təhlükəsizliyinə zəmanət verməyi dayandırdıqdan sonra mövcud olmaq hüquqlarını itirdilər” (14, 68).

M.Albertiniyə görə, milli dövlət öz vətəndaşlarının həyatını məhv edir, iqtisadi istehsalı dayandırır və müharibə üçün ilkin şərtlər yaradır. O, hesab edirdi ki, dövlət daxili siyasi arenada

demokratiya prinsiplərini müdafiə edərək, beynəlxalq siyasətdə isə onun dəyərlərini inkar edərək, öz-özü ilə ziddiyyətə girir. Ona görə də millət-dövlət “*çoxmillətli federativ dövlətlə əvəz edilməli, Avropa federasiyası isə müxtəlif millətlərin insanları, federal insanların birliyinə çevrilməlidir*” [19, 58]. E.Vistriçin fikrincə, “federalizmin mahiyyəti lazım olan yerdə hakimiyyətin qeyri-mərkəzləş-dirilməsindədir...” (20, 2)

Bununla belə, aydındır ki, hətta XX əsrin 40-50-ci illər üçün, federalizm konsepsiyası artıq dərəcədə idealist, utopiyaya yaxın kimi görünürdü. J.Balbitə görə: “*Federalizm çox əlverişli, getdikcə populyarlaşan, həmişə şübhə doğuran və bəzən təhlükəli bir anlayış kimi təsvir edilirdi*” [168, 179]. Əksər müəlliflər federalizmi hakimiyyətin bir neçə idarəetmə səviyyəsi arasında bölündüyü dövlət quruluşu kimi başa düşürlər (21, 211). Xüsusilə, federalizm mərkəzi və regional hakimiyyət orqanları arasında hakimiyyət bölgüsü olan siyasi sistemlərin mövcudluğu kimi müəyyən edilir.

Klassik federalizm dövlət hakimiyyətinin iki əsas səviyyədə həyata keçirilməsini nəzərdə tutur: federal mərkəz və ona tabe olan subyektlər. P.Taylor qeyd edir ki: “*Federalist inteqrasiya ikisəviyyəli hökumətin - bir-birindən fərqli, lakin əlaqələndirməyə qadir olan federal səviyyəli hökumət və yerli səviyyəli hökumət təşkilini tələb edir*” (17, 90). Ərazi vahidləri öz bütövlüyünü və müəyyən muxtariyyətini qorumaqla, səlahiyyətlərinin bir hissəsini mütləq mərkəzi hökumətə verməlidir: “*Federasiya sistemləri üçün "sehrli düstur" birləşmə və müxtəlifliyin optimal nisbətidir*” (11, 24). M.Burqes qeyd edir ki, federasiya: “*Mərkəzi hökumət tərəfindən siyasi qərarların qəbulu prosesində birliyi təşkil edən qurumları konstitusiya normalarına uyğunlaşdırmaq üçün mövcud olan xüsusi təşkilati formadır”* (18, 19).

Bütövlükdə götürdükdə, federalizm siyasi nəzəriyyəsi inteqrasiya üçün yekunda aydın strateji məqsəd müəyyən edir və fövqəldövlətin formalaşdırılması yolu ilə Avropanın vahid bir qurumda birləşməsini nəzərdə tutur. Üzv-dövlətlər öz suverenliklərinin bir hissəsini yaradılan dövlətüstü institutlara verməlidirlər. İnteqrasiyanın məcburi əlaməti kimi mərkəzləşdirilmiş idarəetmə çıxış etməlidir. Avropa İttifaqı çərçivəsində gedən proseslər göstərdi ki, üzv dövlətlər heç də öz suverenliklərinin böyük bir hissəsini yaradılmış dövlətüstü institutlara vermək fikrində deyillər və inteqrasiyaya yalnız üzv-dövlətlərin müəyyən üstünlüklər əldə edilməsi nöqteyi-nəzərindən yanaşırlar.

Federalizm siyasi nəzəriyyəsi ilə yanaşı, Avropada inteqrasiya proseslərinə dair digər bir siyasi nəzəriyyə - funksionalizm nəzəriyyəsi də irəli sürülmüşdür. Bu nəzəriyyənin banisi “Qüvvədə olan sülh sistemi: Beynəlxalq Təşkilatın Funksional İnkişafı üçün Arqument” kitabının müəllifi D. Mitrani hesab olunur (22). Onun fikrinə görə, dövlətlər arasında daimi sülh yaratmaq üçün ideal beynəlxalq hökumətin formalarını axtarmaq lazım deyil, bu hökumətin malik olacağı funksiyalar haqqında düşünmək lazımdır. Yəni, həm dünya siyasətinə, həm də Avropaya inteqrasiya siyasətinə funksional yanaşma insan ehtiyacları və ümumi rifah üzərində cəmlənməlidir və bu yolda milli dövlət statusundan və istənilən başqa ideologiyadan imtina etmək olar. Başqa sözlə, funksionalizm tərəfdarları şübhə edirdilər ki, milli dövlət hətta fərdin rifahını təmin edə bilər, çünki bir çox ehtiyacların ödənilməsi transsərhəd xarakteri daşıyır. D.Mitrani hesab edirdi ki: “*Başlanğıc nöqtə beynəlxalq birliyin quruluşunun “ideal” forması haqqında məsələ yox, bu cəmiyyətin əsas funksiyaları haqqında məsələ olmalıdır*” (10, 33). Ona görə də federalizm tərəfdarlarından fərqli olaraq, funksionalizm tərəfdarları daha praqmatik idilər və hesab edirdilər ki, “əvvəlcə iqtisadiyyat, sonra isə siyasət”, yəni inteqrasiya iqtisadi sahədən başlamalı və yalnız bundan sonra siyasət sahəsinə keçməlidir.

Avropaya inteqrasiyaya funksional yanaşmanın mərkəzində milli dövlətin toxunulmazlığı və ya müəyyən ideologiyanın hökmranlığı ideyasından fərqli olaraq, insan ehtiyaclarının və ictimai rifahın prioritetliyi dayanır. Bu isə funksional yanaşma tərəfdarlarının milli dövlətlərin insanların ehtiyaclarını ödəmək qabiliyyətinə dair şübhələrini artırır, çünki bu ehtiyaclar ayrı-ayrı dövlətlərin hüdudlarından kənara çıxa bilər. Funksionalizm çərçivəsində iki əsas element formalaşmışdır: texnokratik, dövlət idarəetmə funksiyalarının daha səmərəli icrası və ictimai ehtiyacların daha tam

ödənilməsi ilə əlaqəli və rasional, beynəlxalq idarəetmə təşkilatlarının fəaliyyətinin müsbət beynəlxalq təsiri ilə əlaqəli. Funksionalizmin əsas tezisinə əsasən forma funksiyanın ardınca gəlir (5, 13). İnsanın tələbatları zaman keçdikcə dəyişir və ərazi, iqlim və digər xüsusiyyətlərə görə fərqli olur. Buna görə də cəmiyyəti idarə edən təşkilatların institusional ifadəsi dəyişikliklərə hazır olmalıdır. Bu, funksionalizmin üstünlüklərindən biridir, çünki idarəetmə institutu bir dövlət və ya müəyyən bir beynəlxalq təşkilat növü ilə məhdudlaşmır. Ön planda ictimai faydalı funksiyaların səmərəli icrası durur, funksiyalar dəyişdikdə heç bir milli dövlətə bağlı olmayan idarəetmə institutunun təşkilati forması da dəyişir. P.Teylor funksionalizm nəzəriyyəsini dəyərləndirərək, onu təkcə neofunksionalist inteqrasiya nəzəriyyəsinin deyil, həm də suverenlik nəzəriyyəsi, dünya birliyi nəzəriyyəsi, konvergensiya nəzəriyyəsi və rejim nəzəriyyəsi kimi beynəlxalq nizamın öyrənilməsinə dair müxtəlif müasir yanaşmaların “intellektual prototipi” kimi müəyyən edir (17, 125).

İnteqrasiya prosesinin funksional yanaşma əsasında həyata keçirilməsi bir sıra problemlər yaradır. Belə ki, bir siyasi nəzəriyyə kimi funksionalizmin tənqidi ilk növbədə inteqrasiya proseslərinin həddən artıq qeyri-müəyyənliyi və onların əsasən xarici ifadəsi, bu yanaşmanın müəyyən sadəlövhlüyü, eləcə də praktikada təsdiqinin tapmaması ilə bağlıdır. Həmçinin, onların statusu Aİ-yə üzv dövlətlərin milli konstitusiya qanunvericiliyinə zidd ola bilməz. Başqa sözlə desək, funksionalistlər suverenliyin məhdudlaşdırılması problemi ilə üz-üzə qalırlar, halbuki onlar bundan qaçmağa çalışırdılar (23, 44).

Avropada davam edən inteqrasiyanı izah etməyə çalışan əsas nəzəriyyələrdən biri də neofunksionalizm konsepsiyasıdır. Bu nəzəriyyənin banisi amerikalı politoloq Ernst Haas sayılır. 1958-ci ildə E. Haas "Avropanın Birləşməsi: Siyasi, İqtisadi və Sosial Qüvvələr 1950-1957" kitabını nəşr etdi və bu əsərdə Qərbi Avropanın 6 dövləti dövlətlərüstü əməkdaşlığın yeni formasını necə yaratdılar sualına cavab verməyə çalışdı (9). Bu nəzəriyyənin digər məşhur simalarına *L.Lindberg, A.Niemann, F.Schmitter, L.Scheineman* və s. (24, 45-66) aiddir. Neo-funksionalistlərin əsas ideyası ondan ibarətdir ki, inteqrasiya sahələrinin genişlənməsi siyasətçilərin iradəsindən asılı olmayaraq baş verən bir prosesdir. Həyatın özü və obyektiv şərait onları inteqrasiya yolunu seçməyə məcbur edir. Xüsusilə, onlar hesab edirdilər ki, siyasi inteqrasiya o zaman mümkündür ki, siyasi inteqrasiya iqtisadi inteqrasiyadan ayrılsın.

1960-cı illərdə neofunksionalizm Avropa inteqrasiyasının aparıcı nəzəriyyəsinə çevrildi. Neofunksionalizmin gücü regional səviyyədə idarə olunan inteqrasiya istəyi idi. Klassik funksionalizmdən ən əhəmiyyətli fərqi isə siyasətin ön plana çıxması siyasi əməkdaşlıq istəyinin iqtisadi əməkdaşlıq yolu ilə olması idi. Beləliklə, funksionalistlərin bir sıra çatışmazlıqlarından qurtularaq, yenilənmiş nəzəriyyə inteqrasiya prosesinin başa düşülməsinə aydınlıq gətirdi. Neofunksionalizmin yaranması Avropa iqtisadi birliklərinin inkişafının ilkin, çox uğurlu dövrü ilə bağlı idi ki, bu da bu nəzəriyyədə öz inandırıcı izahını tapdı. İnteqrasiya milli siyasi həyatın iştirakçılarının öz inamını, maraqlarını və davranışlarını artıq müəyyən yurisdiksiyaya malik olan və ya onu almaq iddiasında olan yeni güc mərkəzinin institutlarına yönləndirməyə meyilli olduğu proses kimi təqdim edilirdi. Bununla belə, neofunksionalizm ideyalarının müəyyən dərəcədə Avropa inteqrasiyasında öz əksini tapmasına baxmayaraq, inteqrasiyaya dair digər siyasi nəzəriyyələri ciddi təhlil etmədən neofunksionalizm nəzəriyyəsini siyasi inteqrasiyanın mübahisəsiz nəzəriyyəsi kimi adlandırmaq düzgün olmaz.

Bütövlükdə götürəndə, bu avrointeqrasiyaya dair siyasi nəzəriyyələrin əhəmiyyəti məhz Avropa dövlətlərinin birləşməsi üçün nəzəri əsaslandırmanın formalaşdırılması cəhdində ifadə olunur və bu siyasi nəzəriyyələrin ideyaları, bu və ya digər dərəcədə, həm Avropa Birliklərinin, həm də daha sonra Aİ-nin yaranma prosesində öz praktiki reallığını tapmışdır.

**İstifadə olunmuş ədəbiyyat**

1. Abbasova, Ü. Avropa İttifaqının enerji təhlükəsizliyi: reallıqlar və perspektivlər // - Bakı: AMEA-nın Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, -2011. № 1. - s. 295 – 304.

2. Bayramov, Ə.İ. Regional iqtisadi inteqrasiya: nəzəriyyə və praktika / Ə.İ. Bayramov. – Bakı: Azərnəşr, - 1997. - 208 s.

3. Ефанова, Е.А. Экономическая сущность интеграции. Предпосылки и виды интеграции // - Орел: Вестник ОрелГИЭТ, 2008. № 4 (6). - с. 23-27.

4. Zeynalova, Ş.İ. Beynəlxalq münasibətlərdə inteqrasiya anlayışı // - “Azərbaycanda multikulturalizm və mədəni müxtəlifliyin turizmin inkişafına təsiri” mövzusunda elmi konfransın materialları. Bakı: 26 may 2017. – s. 82-85.

5. Дульский И.В. Федерализм и функционализм в теории европейской интеграции // - Челябинск: Вестник Южно-Уральского Государственного Университета. Серия «Право», вып. 22, 2010. № 18, - с. 10-14.

6. Овчаренко, Н.Е. Модели современных интеграционных процессов: Материалы к курсу лекций // - М.: Проблемы глобальных интеграционных процессов, 1996. - с. 109-117.

7. Шемятенков, В.Г. Европейская интеграция / В.Г. Шемятенков. - М.: Международные отношения, 2003. - 398 с.

8. Тренин, Д.В. Интеграция и идентичность: Россия как «новый Запад» / Д.В. Тренин. - М.: Издательство «Европа», 2006. - 404 с.

9. Haas, E.D. The Uniting of Europe: Political, Social, and Economic Forces 1950-1957 / E.D. Haas. - Indiana: Notre Dame Press, 1958. – 640 p.

10. Rosamond, B. Theories of European Integration. New York: Palgrave, 2000.

11. Rosamond, B. Theories of European Integration. New York: Palgrave, 2008.

12. Sapir, A. Economic papers. Regional Integration in Europe, N. 94, 1992. - 26p.

13. Sapir, A. Economic papers. Regional Integration in Europe, N. 94, 1992. - 26p.

14. Spinelli, A. The growth of the European movement since the Second World War. London, 1972.

15. Single European Act // OJ, L. 169 of 29.6.1987, p. 1-29.

16. Somers, E. Belgium-Luxembourg Economic Union (BLEU) // The Max Planck Encyclopedia of public international law. Index and tables, edited under the direction of R. Wolfrum. – Oxford: Oxford University press, 2013, vol. I. - pp. 869 – 874.

17. Taylor, P. Functionalism: the approach of David Mitrany. London: 1994

18. Taylor, P. International Organization in the Modern World: The Regional and the Global Process. London: Pinter, 1993.

19. Finder, J. Mario Albertini in the history of Federalist thought // The Federalist. 2002, № 3. – pp. 157-170.

20. Wistrich, E. The United States of Europe. / E.Wistrich. London: Routledge, 1994.

21. Побединский, И.М. Роль федерализма в теории европейской интеграции // Известия РПГУ им. А.И. Герцена, 2008, № 67

22. Mitrany, D.A. Working Peace System: An Argument for the Functional Development of International Organization. London, 1943. – 69 p.

23. Шаповалов, Н.И. Теоретические подходы к исследованию интеграционных процессов в Европе // Вестник МГОУ. 2015, № 4, с. 43-48

24. Niemann, A., Schmitter, P.C. Neofunctionalism // European Integration Theory. Edit. Wiener, A., & Diez, T. Oxford: Oxford University Press, 2004, - P. 45-66

**Rəyçi: f.f.d., dos. Zeynəddin Şabanov**

**UOT 327**
**https://doi.org/10.30546/ifs.2025.1(44).136**

# ERMƏNİSTANDA AZƏRBAYCAN VƏ TÜRKİYƏ ƏLEYHİNƏ TƏBLİĞAT

**Nigar Mustafayeva**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, **Azərbaycan**
email:nyrmustafayeva@gmail.com
Orcıd: 0000-0001-6114-193X

**Xülasə.** Tədqiqat işində Ermənistanın anti-Azərbaycan və anti-Türkiyə təbliğatı araşdırılmışdır. Həmçinin təbliğat formaları və metodları təhlil edilmişdir. Tədqiqat işində kontent-analiz (rəsmi bəyanatlar, media və sosial şəbəkələrdə yerləşdirilmiş məlumatların təhlili) və müqayisəli təhlil metodlarından istifadə edilmişdir. Araşdırma zamanı Ermənistanda Azərbaycan və Türkiyəyə qarşı təbliğatın əsas məqsədləri, istafadə etdiyi forma və metodlar erməni təbliğatının dövlətlərarası münasibətlərə təsiri müəyyən edilmişdir. Belə nəticəyə gəlinmişdir ki, Ermənistan Respublikasının daxili və xarici siyasətinin bütün sahələrində anti-türk təbliğatı başlıca yer tutmuşdur. Bu təbliğat Azərbaycana və Türkiyəyə qarşı kin və nifrət hissinin göstəricisidir.

**Məqsəd:** Ermənistanda Türkiyə və Azərbaycan əleyhinə aparılan təbliğatı araşdırmaq.

**Metodologiya:** Məqalə elmi metod, müqayisəli təhlil, tarixi-siyasi analiz metodları əsasında tədqiq olunub.

**Elmi yenilik:** Ermənistan tərəfindən Azərbaycana və Türkiyəyə qarşı yürüdülən siyasət İkinci Qarabağ müharibəsindən sonra başlanmış sülh prosesinə mənfi təsir göstərir.

**Açar sözlər:** Türkiyə, Azərbaycan, Ermənistan, təbliğat, müharibə, ermənilər

# ПРОПАГАНДА ПРОТИВ АЗЕРБАЙДЖАНА И ТУРЦИИ В АРМЕНИИ

**Нигяр Мустафаева**

**Резюме.** В исследовании рассматривается антиазербайджанская и антитурецкая пропаганда Армении с применением методов контент-анализа (анализ официальных заявлений, информации, размещенной в СМИ и социальных сетях) и сравнительного анализа. В ходе работы были выявлены основные цели этой пропаганды, формы и методы её реализации, а также её влияние на межгосударственные отношения между Азербайджаном и Турцией в Армении. Сделан вывод, что антитурецкая пропаганда заняла значительное место во внутренней и внешней политике Республики Армения, будучи основана на идеологии ненависти к Азербайджану и Турции.

**Цель:**расследовать пропаганду, проводимую в Армении против Турции и Азербайджана.

**Методология:** статья исследована с использованием методов научного, сравнительного и историко-политического анализа.

**Научная новизна:** политика, проводимая Арменией в отношении Азербайджана и Турции, негативно влияет на мирный процесс, начавшийся после Второй Карабахской войны.

**Ключевые слова:** Турция, Азербайджан, Армения, пропаганда, война, армяне

# PROPAGANDA AGAINST AZERBAIJAN AND TÜRKİYE IN ARMENIA

**Nigar Mustafayeva**

**Abstract.** In the research study Armenia's anti-Azerbaijani and anti-Türkiye propaganda have been studied. The forms and methods of propaganda have been also analyzed. In the research content analysis (analysis of official statements, information posted on the media and social networks) and comparative analysis methods were used. During the research, the main goals of propaganda against Azerbaijan and Türkiye in Armenia, the forms and methods have been used, and the impact of

propaganda on interstate relations between these countries have been determined. It was concluded that anti-Turkish propaganda played a major role in all areas of the domestic and foreign policy of the Republic of Armenia. This propaganda consisted of a feeling of hatred and resentment towards Azerbaijan and Türkiye.

**Purpose:** To investigate the propaganda carried out in Armenia against Turkiye and Azerbaijan.

**Methodology:** The article has been studied using the scientific method, comparative analysis, and historical-political analysis methods.

**Scientificnovelty: :** The policy pursued by Armenia against Azerbaijan and Turkiye has a negative impact on the peace process that began after the Second Karabakh War.

**Key words:** Türkiye, Azerbaijan, Armenia, propaganda, war, armenians

## Giriş

Əsrlər boyu ictimai fikrə təsir göstərmək üçün müxtəlif vasitələrdən istifadə edilmişdir. Lakin buna baxmayaraq “təbliğat” anlayışı yalnız XVII əsrdə yaranmışdır.“Təbliğat” sözü, digər formada isə “propaqanda” latın dilində “*Congregatio de Propaganda Fide”* katolik kilsəsinin qurumunun adından və fəaliyyətindən qaynaqlanmışdır. 1622-ci ildə missionerlik fəaliyyətini aparmaq üçün qurulan Roma katolik kardinalları təşkilatı tərəfindən dinin yayılması mənasını kəsb etmişdir. Sonralar baş vermiş münaqişələr və müharibələr zamanı, xüsusən də İkinci Dünya müharibəsi zamanı faşist-nasist Almaniyasında və Sovet İttifaqında ideologiyaların və siyasi rejimlərin dəstəklənməsində təbliğat vasitəsi kimi geniş vüsat almış və yayılmasında əsas rol oynamışdır (7).

Təbliğat anlayışını müəyyənləşdirmək üçün beynəlxalq lüğətlərdə verilmiş izahlara nəzər salsaq görərik ki:

1) Oksford lügətində *“təbliğat (propaganda*) - *məlumatın sistemli, xüsusən də qərəzli və ya yanıltıcı bir şəkildə yayılması, müəyyən bir fikir və ideologiyanı təşviq etmək məqsədilə siyasəti dəstəkləmək üçün istifadə olunur. Müəyyən bir doktrina, fikir və s. yayılması məqsədilə təşkil olunan sistem, plan və ya fəaliyyət”* kimi təsnif olunmuşdur (8).

2) Kembric lügətində isə *“təbliğat - insanların fikirlərinə təsir etmək niyyəti ilə yayımlanan, nəşr olunan və ya başqa bir şəkildə yayılan mülahizələr, məlumatlar, fikirlər, faktlar və ya şəkillərin təhrif olunmuş şəkildə təqdim olunması deməkdir”* (9).

Ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, *təbliğat* – cəmiyyətdə ictimai fikrə təsir etmək məqsədilə məlumatların, faktların, şayiə və ya yalanların təhrif olunmuş şəkildə yayılması deməkdir. Təbliğat bir çox müxtəlif sahələrdə (kommersiya reklamı, ictimaiyyətlə əlaqələr, siyasi kampaniyalar, diplomatik danışıqlar, münaqişələr və mübahisələr zamanı) istifadə edilə bilər. Təbliğatın aşağıdakı növləri mövcuddur: siyasi, iqtisadi, mədəni və hərbi təbliğat.

Türk tədqiqatçıları doğruluq baxımından təbliğatı üç kateqoriyaya bölürlər*: “ağ, qara və boz təbliğat. Ağ təbliğat mənbənin rəsmi, etibarlı və asanlıqla əldə edilə biləcəyi bir təbliğat növüdür. Ağ təbliğatın nümunələri Xarici İşlər Nazirliyinin açıqlamaları və internetdəki ünvandır. Qara təbliğat isə əsassız təbliğatın aparıldığı, yalanın uydurulduğu və mənbələrin mənşəyi bilinməyən bir təbliğat növüdür. Xüsusilə müharibə zamanı psixoloji təzyiq vasitəsi kimi istifadə olunur. Boz təbliğat: ağ və qara təbliğatların bəzi xüsusiyyətlərinin qarışığı olan bir təbliğat üsuludur. Bu tip təbliğatda xəbər və ya mesajın mənbəyi bəzən açıq şəkildə ortaya çıxır və bəzən isə gizlənir. Bu səbəbdən xəbərlərin və ya ötürülən mesajın etibarlılığı şübhə altına alına bilər. Bu cür təbliğatda yalan və həqiqət bir-birinə qarışır. Bu təbliğat metodu ilə ötürülən mesajlar şişirdilir”* (11).

1918-ci ildə Qərbi Azərbaycanın tarixi torpaqlarında süni şəkildə yaradılmış Ararat (Daşnak) Ermənistanı, 1920-ci ildə - sovet Ermənistanı, 1991-ci ildən sonra isə Ermənistan Respublikası adlandırılan dövlətin daxili və xarici siyasətinin bütün sahələrində anti-türk təbliğatı başlıca yer tutur. Bu təbliğat Azərbaycana və Türkiyəyə qarşı kin və nifrət hissindən ibarətdir. Ermənistanın həm Azərbaycana, həm Türkiyəyə qarşı ayrı-ayrılıqda apardığı təbliğatın məqsədləri, forma və metodları araşdırılmışdır. Beləliklə, yuxarıda qeyd olunanları nəzərə alaraq deyə bilərik ki, təbliğat əsasən və ən çox da siyasətdə istifadə olunur. Dövlətlər ictimai şüura və beynəlxalq aləmə təsir etmək üçün təbliğatdan istifadə edirlər. Müsair dövrdə demək olar ki, hər ölkə müəyyən qədər təbliğatdan istifadə edir. Ölkələrarası münasibətlərdə də bunu görə bilərik. Məsələn, Azərbaycan və Türkiyə dövlətləri Ermənistan tərəfindən yuxarıda qeyd etdiyimiz qara təbliğata məruz qalırlar.

### Ermənistanın Türkiyə Respublikasına qarşı yönəlmiş təbliğatı

Bu gün həm Türkiyə, həm də Azərbaycan apardıqları uğurlu xarici siyasət nəticəsində Ermənistan üzərində diplomatik, iqtisadi və hərbi gücə sahibdilər. Ermənistan dövlət olaraq bu göstəricilərə görə onlardan zəif olduğundan yalnız təbliğat apararaq mübarizə edə bilir. Anti-türk təbliğatı Ermənistanın rəsmi siyasətinin ideoloji əsasını təşkil edir. Bu təbliğat əsassız iddialar üzərində inşa edilir. Uzun illərdir, Ermənistan Türkiyəyə qarşı “4T - Terör, Tanınma, Tazminat, Toprak” kimi bilinən təbliğat fəaliyyətini reallaşdırmağa çalışır. Ümumiyyətlə, ermənilər öz fəaliyyətlərinin əsasını “türklərə qarşı düşmənçilik” üzərində qurmuşlar. Ermənilərin və Ermənistanın Türkiyəyə qarşı apardığı təbliğatın iki əsas ana xətti var: birincisi, “sözdə soyqırım”, 1915-ci il hadisələrini ermənilərin “soyqırımı” kimi tanıtmaq. İkincisi, Türkiyəyə qarşı əsassız torpaq iddiaları irəli sürmək.

Tarixdən məlumdur ki, Osmanlı imperiyasında uzun illər rifah içində yaşayan ermənilər Birinci Dünya müharibəsinin başlaması ilə və türk ordusunun müharibədə iştirak etməsindən istifadə edərək, “Böyük Ermənistan” xülyası ilə ruslar, fransızlar və ingilislərin köməyi ilə Anadoluda üsyana başlamış, müsəlman kəndlərini yerlə-yeksan etmiş, bölgə əhalisinə basqın edərək qətlə yetirmişlər. Osmanlı imperiyası əvvəlcə erməni patriarxının üzvlərinə və onların rəhbərlərinə xəbərdarlıq etmiş, lakin bu tədbir nəticəsiz qalmışdı. Üsyanlar və qırğınlar davam etdikcə 1915-ci il aprelin 24-də erməniləri silahlandıran, üsyana həvəsləndirən komitələrin bağlanması və onların rəhbərlərinin həbs edilməsi haqqında qərar qəbul edilmişdi. Bu tarix ermənilər tərəfindən təhrif edilərək “soyqırım günü” elan edilmişdi (12).

Nasistlər tərəfindən yəhudilərə qarşı soyqırım törətdikləri dünya tərəfindən qəbul edildikdən sonra, bundan ilhamlanan radikal ermənilər Osmanlı dövləti dövründə özlərinin xəyanəti nəticəsində 1915-ci ildən sonra baş verən hadisələri “soyqırım” kimi irəli sürmüşlər.

Lakin erməni məsələsi ilə yəhudilərin soyqırımı arasındakı fərq ondan ibarətdir ki, Holokost (yəhudilərin soyqırımı) bütün dünyanın gözü qarşısında baş vermiş bir qırğındır, ermənilərin isə sübutu olmayan iddiaları dövlətin strateji məqsədlərinə uyğun aparılan təbliğatdır.

Təbliğatda “uğur” qazanmaq üçün ilk olaraq öz xalqını inandırmaq lazım idi. Bu mövzunu erməni xalqı arasında populyarlaşdırmaq istəyirdilər. Ermənilər 1915-1965-ci illər ərzində cəmiyyəti “soyqırım”a məruz qaldıqlarına inandırmaq üçün 50 illik təbliğat dövrünü keçdilər. 1965-ci ildən başlayaraq ermənilər 24 apreli “ermənilərin soyqırımı günü” kimi qeyd etməyə başlamışlar və bir çox ölkələrdən bu “soyqırımi” qəbul etmələrini tələb etmişlər. Bunun üçün həm Ermənistanda, həm də dünyanın fərqli ölkələrində, əsasən də ABŞ və Fransada yaşayan ermənilər təbliğat aparırdılar” (13).

2004-cü ildə o zaman Türkiyə baş naziri olan R.T. Ərdoğan Ermənistana türk, erməni və xarici tarixçilərdən ibarət birgə komissiya yaratmağı və soyqırım ittihamları ilə bağlı mənbələrə əsaslanaraq araşdırma aparmağı təklif etmişdi. Təklifin mahiyyəti ondan ibarət idi ki, Türkiyə tərəfdən sülhü doğru qərar kimi qiymətləndirmək olardı. Çünki 1915-ci ildə erməni dövləti yox idi və Osmanlı dövləti mövcud olmayan Ermənistanla müharibə vəziyyətində deyildi. Erməni əhalisi də Osmanlı imperiyasının təbəəsi idi. Lakin Ermənistan rəhbəri R.Köçəryan bu təklifi qəbul etməyərək bəyan etmişdi ki, “soyqırım” barədə müzakirə aparmaq əxlaqsızlıqdır. Çünki o zaman Köçəryan erməni diasporunun dəstəyi ilə ABŞ-də və Avropa Birliyində bu məsələni dünyanın diqqətinə çatdırmağa müvəffəq olmuşdu. Eyni zamanda erməni lobbi və diasporası vasitəsilə yalanlarını, ittihamları dünyaya yaymaq idi. *“Erməni lobbisi və diasporası dünyanın müxtəlif yerlərində uydurma soyqırım abidələri ucaltmışlar. Bunlardan 3-ü ABŞ-da, 3-ü Beyrutda, 4-ü Ermənistanda və qalanları Suriya, Fransa, İtaliya və İskəndəriyyədə olmaqla, 16 ədəd “soyqırım” abidəsi vardır”* (11,s.299).

Ermənistanın dövlət rəsmiləri tərəfindən Türkiyəyə qarşı daima ittihamlar irəli sürülməkdədir. Məsələn, Ermənistanın keçmiş prezidenti Serj Sarkisyan öz hakimiyyəti dövründə hər fürsətdə *Türkiyənin “soyqırım” ittihamlarını tanımasının Ermənistanın xarici siyasət gündəliyinin ən vacib məqamı olduğunu vurğulamışdır. Sarkisyan iddia edirdi ki, “soyqırım”ın tanınması Türkiyənin əsas vəzifələrindən biridir*”. Həmçinin o, *“erməni soyqırımının” Qərb ölkələri üçün də vacib olduğunu qeyd edərək Türkiyənin “soyqırım”ı tanımadığı təqdirdə Avropa Birliyinə daxil olmasının həyata keçirilə bilməyəcəyini bildirmişdir”* (10, s.202).

Sarkisyan bu cür fikirləri hər yerdə və hər zaman ifadə edirdi. Məsələn, 5 iyul 2013-cü ildə İrəvanda keçirilən “Hüquqşünasların İkinci ümumerməni forumu”nda bildirilmişdir ki, qondarma

*"erməni soyqırımı qurbanları"nın varislərinə kompensasiya ödənilməli, kilsələr və torpaqlar erməni kilsəsinə qaytarılmalı, itirilmiş torpaqlar isə Ermənistan Respublikasına qaytarılmalıdır"* (10, s.202).

Professor Musa Qasımlı hesab edir ki, *ermənilər "erməni soyqırımı" fikrini irəli sürərək əsassız iddialarını ört-basdır etmək üçün bir vasitə kimi istifadə edirlər*" (5,s.625).

Ermənistan mediası Türkiyədə yaşayan ermənilərin guya üzləşdikləri ayrı-seçkilikdən mütəmadi olaraq yazır. Türkiyədən Ermənistana köçmüş bir erməninin müsahibəsində "Ermənilər nəyi unutmamalıdır?" sualına belə cavab gəlir: *"İnanın ki, Türkiyə haqqında bildikləriniz aysberqin bir üzüdür. İlk növbədə, hamımız yadda saxlamalıyıq ki, zəmanə heç vaxt dəyişmir və buna görə də türklər də dəyişmir. Ermənilər 100 il əvvəl baş vermiş hadisələri unutmamalıdırlar. Biz soyqırım, qırğınlar və əcdadlarımızın deportasiyası ilə üzləşdik. Unutmamalıyıq ki, pantürkizm və panturançılıq hələ də türk şüurundan çıxmayıb"* (16). Lakin Türkiyədə yaşayan ermənilərin özləri bunların doğru olmadığını dəfələrlə qeyd etmişlər.

"Erməni soyqırımı"na həsr olunmuş kitablarda və filmlərdə torpaq iddiaları səslənir. Son illərdə 1915-ci il hadisələri haqqında filmlər, proqramlar, tamaşalar və kitablar hazırlanmışdır. Bununla ermənilər 1915-ci il hadisələrinin təbliğini müxtəlif üsullarla, o cümlədən çəkilmiş filmlərə və tamaşalara baxmağa, yazılmış kitabları oxumağa yönəltməklə, getdikcə daha çox genişləndirirlər. Erməni təbliğatının bir növü də kino sahəsidir. *Atom Eqoyanın 2001-ci ildə erməni təbliğatının məhsulu kimi çəkdiyi "Ararat" filmi Ermənistanın təbliğatını gücləndirmək və dünyaya daha geniş şəkildə yaymaq üçün çəkilmişdir. Film, digər erməni təbliğat işləri kimi, Türkiyəni tənqid edən bir üslubda çəkilmişdir. Erməni təbliğatına xidmət edən tipik bir film olmaqla yanaşı, filmdə irqçi ifadələrdən də istifadə edilmişdir. "Ararat" filmi əlli milyon dollarlıq bir büdcə ilə çəkilmişdir*" (10,s.202).

Bunlarla yanaşı, ermənilər Türkiyə tarixində iz qoymuş şəxsiyyətləri də erməniləşdirmək cəhdləri edirlər. Məsələn, erməni icmasının nəşriyyatı olan Aqosda 6 fevral 2004-cü ildə Atatürkün övladlığa götürdüyü qızını və ilk qadın pilot Sabiha Gökçenin erməni olduğu bildirilirdi (11,s.299). Həmçinin Türkiyənin məşhur və dahi memarı Sinanın da erməni əsilli olduğunu iddia etməkdədirlər.

Beləliklə, araşdırmaların təhlili göstərir ki, keçmişdə ermənilərdən Osmanlı imperiyasını dağıtmaq üçün istifadə olunurdu. Bu gün isə ermənilərin özü Türkiyənin beynəlxalq aləmdə nüfuzuna xələl gətirmək və güzəştlər əldə etmək üçün təbliğat aparırlar. Hər fürsətdə Türkiyədən torpaq və təzminat tələb edən Ermənistanın Türkiyə ilə Ermənistan arasındakı siyasi münasibətləri normallaşdırmağa çalışdığını düşünmək mümkün deyil.

**Ermənistanın Azərbaycan Respublikasına qarşı dezinformasiya siyasəti**

Təbliğat müxtəlif vasitələrlə yayıla bilər. Amma müasir dövrdə ən geniş istifadə olunan vasitələrdən biri mediadır. Burada televiziya və radio proqramları, jurnal, qəzet, internet, sosial şəbəkələri qeyd etmək olar. Əlavə etmək lazımdır ki, müasir dövrdə informasiya mühitində təbliğatın təsirindən qaçmaq olduqca çətindir.

SSRİ-nin süqutu ərəfəsində mərkəzdəki havadarlarının köməyi ilə Azərbaycana qarşı əsassız ərazi iddialarını həyata keçirən və Azərbaycan Respublikasına qarşı hərbi təcavüz edən qonşu Ermənistan ilkin olaraq anti-Azərbaycan təbliğatına başlamışdı. *"Planlı şəkildə təşkil olunmuş nümayişlər azərbaycanlı əhalinin sıxışdırılaraq ölkədən qovulmasına gətirib çıxardı. 1988-1989-cu illər ərzində Ermənistan SSR-dən 250 min azərbaycanlı qovulmuşdu"* (2). Ermənistan-Azərbaycan münaqişəsi XX əsrin tarixinə ən faciəli münaqişələrdən biri kimi daxil olmuş və onun nəticəsində milyonlarla azərbaycanlının taleyinə ciddi şəkildə təsir göstərmişdir. 1980-ci illərin sonlarında Ermənistanın Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları etməsi və etnik zəmində təxribatlar, terror əməlləri ilə başlamış bu münaqişə Azərbaycana qarşı hərbi təcavüzlə nəticələnib.

Müharibə dövründə Ermənistan silahlı qüvvələri hərbi və mülki şəxslər arasında heç bir fərq qoymadan işğal etdikləri rayon və şəhərlərdə dinc azərbaycanlı əhalini amansızlıqla qətlə yetirmiş, azərbaycanlılar etnik təmizlənməyə və soyqırıma məruz qalmışlar. Ermənistanın hərbi-siyasi rəhbərliyi Əsgəranın Meşəli kəndində, Şuşanın Malıbəyli və Quşçular kəndlərində, Xocavəndin Qaradağlı kəndində, Xocalı şəhərində, Kəlbəcərin Ağdaban kəndində və digər yerlərdə dinc əhalinin amansız şəkildə sistematik və kütləvi qırğınını, soyqırımını törətməklə, Qarabağda yaşayan azərbaycanlıları regiondan təmizləmək məqsədi güdmüşdür.

1988-1993-cü illərdə Qarabağda ümumilikdə 900 yaşayış məntəqəsi, 693 məktəb, 44 məbəd, 9 məscid, 473 tarixi abidə və muzeylər, 40 min muzey eksponatı, və digər infrastruktur obyektləri dağıdılmışdır (1).

İşğal dövründə Ermənistan Azərbaycan torpaqlarında milli-mədəni irsi talamış və məhv etmiş (culturcide), şəhərləri (urbicide) və digər yaşayış məntəqələrini dağıtmış və bölgəyə ağır ekoloji ziyan (ecocide) vurmuşdur (1).

Beləliklə, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində Ermənistanın sosial-iqtisadi şəraiti kəskin şəkildə pisləşərək və dərinləşərək böhran vəziyyətinə düşmüşdü. Ermənistan-Türkiyə sərhədinin bağlanması da ölkənin iqtisadi və nəqliyyat əlaqələrinə təsir göstərmişdi. Ermənistan regionda həyata keçirilən bütün beynəlxalq layihələrdən məhrum qalmışdı.

Tədqiqatçılar hesab edir ki, Ermənistanda *“hakimiyyətlər ölkə daxilində yaranmış ağır şəraitdən əhalinin diqqətini yayındırmaq üçün Azərbaycan və Türkiyə timsalında “düşmən obrazı” yaratmaq siyasəti yürüdür. Ermənistanda Türkiyə və Azərbaycan əleyhinə qatı millətçi təbliğat adi həyat tərzinə çevrilmişdir”* (2).

Ermənistan televiziyalarında və KİV-lərində anti-Azərbaycan təbliğatına tez-tez rast gəlmək olar. *“2009-cu ildən etibarən isə anti-Azərbaycan və anti-türk təbliğatında iki kanal daha çox fərqlənmişdir: Ermənistanın İkinci Kanalı və Şant TV”* (2).

*“Azq” (“Millət”) qəzeti 1991-ci ildə İrəvanda yaradılmışdır. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsi və uydurma “erməni soyqırımı” ilə bağlı təbliğat xarakterli məlumatlar dərc olunurdu”* (2).

Müasir dövrdə təbliğatla yanaşı, “informasiya müharibəsi” və “informasiya qarşıdurması” anlayışları da istifadə edilərək, həm müharibə dövründə, həm də sülh dövründə davamlı və fəal şəkildə işlədilir.

2020-ci ilin iyul ayında Ermənistan Azərbaycanla dövlət sərhədinin Tovuz istiqamətində növbəti hərbi təxribat törətmişdi. Təxribatın məqsədi regionda yeni gərginlik mənbəyi yaratmaq, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı məsələsini ikinci plana keçirmək, üçüncü dövlətləri münaqişəyə cəlb etmək və Azərbaycanın strateji infrastrukturuna zərər vurmaqdan ibarət idi. Bu təxribat nəticəsində generallar Polad Həşimov və İlqar Mirzəyev və zabitlər olmaqla, bir qrup Azərbaycan hərbiçisi şəhid oldu. Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbə endirərək ona layiqli cavab verdi.

Ermənistanın təcavüzkar və hücum xarakterli hərbi doktrina və milli təhlükəsizlik strategiya qəbul etməsi, Ermənistanda Azərbaycana qarşı hərbi əməliyyatlarda iştirak edəcək mülki vətəndaşlardan ibarət silahlandırılmış mülki könüllülər dəstələrinin yaradılması, Ermənistanın müdafiə nazirinin “yeni ərazilər uğrunda yeni müharibəyə” çağırışı, bu ölkənin rəsmi şəxslərinin Azərbaycanın böyük şəhərlərinə və mühüm mülki infrastrukturuna zərbə endirmək hədələri, Ermənistanın müxtəlif ölkələrdən muzdlular və terrorçular cəlb etməsi, külli miqdarda silahlar tədarük etməsi və s. Ermənistanın Azərbaycana qarşı yeni müharibəyə hazırlaşdığını açıq şəkildə nümayiş etdirirdi. Bunun nəticəsi olaraq Ermənistan 2020-ci il sentyabrın 27-də bir neçə istiqamətdən Azərbaycan Ordusunun mövqelərinə doğru hücuma keçmiş, ağır artilleriyadan istifadə edərək yaşayış məntəqələrinə şiddətli atəş zərbələri endirmişdi. Beləliklə, İkinci Qarabağ - Vətən müharibəsi başlamışdı.

Ermənistanın növbəti hərbi təcavüz cəhdinə cavab olaraq Azərbaycan Ordusu əks-həmlə əməliyyatına başladı və 44 gün davam edən Vətən müharibəsi nəticəsində Ermənistan ordusunu məhv etməyə, onu diz çökdürməyə, işğal altında olan əraziləri azad etməyə nail oldu. Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusu tərəfindən icra edilmiş “Dəmir Yumruq” əməliyyatı Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazıldı, işğalçılığı, nasizmin şöhrətləndirilməsini dövlət siyasətinə çevirən Ermənistanın təslim olması ilə nəticələndi (1).

İkinci Qarabağ müharibəsi zamanı Ermənistan mediası və rəsmiləri sürəkli halda dezinformasiyaya əl atırdılar. “Vzglyad.az” xəbər saytında Ermənistanın dünya ictimaiyyətini aldatmaq üçün mediada, eləcə də sosial şəbəkələrdə təbliğatdan istifadə etdiyi qeyd olunmuşdur. Beləliklə, ermənilərin yaydığı yalanlar aşağıdakı kimi qeyd edilmişdir:

*1. “Türkiyə, Pakistan və Suriyadan olan muzdlular Azərbaycanın tərəfində vuruşurlar.”*

*2. “Azərbaycan “blitskriq”inin (Blitzkrieg) cəhdi uğursuz oldu”.* Halbuki müharibənin ilk günündən Azərbaycan bəyan etmişdi ki, “blitzkrieg” onun planlarına daxil deyil. Dövlətimizin məqsədi torpaqlarımızı minimal itkilərlə azad etməklə, əsgərlərin və bütövlükdə ölkə vətəndaşlarının həyatının qorunmasını təmin etmək idi. Bəli, Azərbaycan Ordusu qısa müddətdə ərazinin böyük hissəsini azad edə bildi.

*3. “Ərdoğan Qarabağda Rusiya ilə proksi-müharibə aparır”.* Erməni təbliğatı bütün dünyada elə təəssürat yaratmağa çalışırdı ki, guya regionda baş verənlər Türkiyənin Rusiyanın maraq dairəsinə müdaxilə etmək cəhdidir. Burada məqsəd Azərbaycan-Ermənistan münaqişəsinin mahiyyətini dəyişdirmək, onu Rusiya-Türkiyə qarşıdurmasına çevirmək idi. Əslində isə Azərbaycan beynəlxalq ictimaiyyət tərəfindən tanınan öz qanuni sərhədləri çərçivəsində fəaliyyət göstərirdi. Qardaş Türkiyəyə gəldikdə isə o, Azərbaycana yalnız siyasi və mənəvi dəstək verirdi.

4. *“Azərbaycan ermənilərin kütləvi qırğınını həyata keçirmək və bununla da etnik təmizləmə siyasəti yürütmək niyyətindədir”.*

Əslində isə məqsəd Ermənistanı Azərbaycanın ərazi bütövlüyünü tanımağa və danışıqlar masasına oturmağa məcbur etmək idi. Ermənistan buna razılıq verən kimi hərbi əməliyyatlar dayandırıla bilərdi. Azərbaycan rəsmiləri dəfələrlə bildirmişdilər ki, erməni xalqı ilə deyil, öz ərazisində qanunsuz erməni qoşunları ilə döyüşür.

*5. “Qarabağ ermənilərini xilas etmək üçün dünya onların “müstəqilliyini” tanımalıdır”.*

Əslində isə Qarabağın dinc əhalisini heç nə təhdid etmirdi. Ermənistan Azərbaycanın ərazi bütövlüyünün tanınması müharibənin dayandırılması demək olardı. Azərbaycan yalnız erməni terrorçularını neytrallaşdırırdı və daima onun öz vətəndaşı hesab etdiyi dinc erməni əhalinin hüquqlarının təmin ediləcəyini bildirirdi (15).

Ermənistan tərəfindən Azərbaycan Respublikasının Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərində təbii sərvətlərimizin qanunsuz istismarına etiraz əlaməti olaraq 2022-ci il dekabrın 12-dən etibarən qeyri-hökumət təşkilatları nümayəndələrinin, ekofəalların Laçın-Xankəndi yolunun Şuşa ərazisindən keçən hissəsində dinc etiraz aksiyası başlamış və 138 gün davam etmişdir. 2023-cü il aprelin 23-də Laçın rayonunda, Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsi quruldu. Bununla da Azərbaycanın ərazi bütövlüyünün tam bərpası prosesi başa çatdı. Ermənistanın Laçın yolundan sui-istifadəsinə, silah və sursatların daşınmasına və digər qanunsuz əməllərinə son qoyuldu (1).

Lakin Ermənistanın və qondarma rejimin qalıqlarının təxribatları səngimədi. Ermənistanın Baş naziri Nikol Paşinyan 2023-cü il sentyabrın 2-də qondarma “Dağlıq Qarabağın müstəqillik bəyannaməsi”nin ildönümü ilə əlaqədar təbrik müraciəti ünvanladı. Sentyabrın 9-da Azərbaycanın Qarabağ bölgəsində qondarma “prezident seçkiləri” keçirildi. 2023-cü il sentyabrın 19-da Azərbaycan üçtərəfli bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərksilah edilərək ərazilərimizdən çıxarılması məqsədilə bölgədə antiterror əməliyyatına başladı.

Beləliklə, antiterror əməliyyatı nəticəsində bölgədə qalan Ermənistan silahlı qüvvələri tam tərksilah edilərək Azərbaycan ərazisindən çıxarıldı, qondarma rejimin qalıqları isə onun ləğv olunduğunu elan etmiş oldu. Azərbaycan öz ərazisində separatçılığa son qoydu. Bununla da Azərbaycan Respublikasının dövlət suverenliyi tam bərpa edilmiş oldu.

Bu zaman da erməni mətbuatında hadisələr əsassız iddialarla işıqlandırıldı. Azərbaycanın guya “atəşkəsi pozması” ilə bağlı tez-tez bölgə üçün “Ermənistanın suveren ərazisi” ifadələri işlədilirdi. Azərbaycanın kəndləri, şəhərləri, uşaqları hədəf alması ilə bağlı iddialar səsləndirilirdi. Onlar “cinayət törədən, günahsız insanları öldürən” ölkə obrazı yaratmaq istəyirdilər.

Erməni təbliğatının son nümunəsi isə Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası haqqında 19 aprel 2024-cü il tarixli Saziş əsasında ölkəmizə qaytarılmış Qazax rayonunun Qızılhacılı kəndində Ermənistan tərəfinin quraşdırdığı minaların partlamasından sonra baş vermişdir. Azərbaycanın Baş Prokurorluğunun, Dövlət Sərhəd Xidmətinin və Azərbaycan ərazilərinin Minalardan Təmizlənməsi Agentliyinin (ANAMA) birgə bəyanatında deyilirdi ki, “Xidməti vəzifələrini yerinə yetirərkən piyada əleyhinə minanın partlaması nəticəsində DSX-nin hərbi qulluqçusu gizir Xəyal Əhədli və ANAMA-nın əməkdaşı Afiq Mehdizadə ayaq nahiyəsindən xəsarət almış, agentliyin əməkdaşları Elçin Ələkbərov və Yavər Mirzəyev qəlpə yarası almışlar. Faciə minalardan təmizləmə zamanı baş vermişdir”.

2024-cü ilin iyul ayında 50-yə yaxın ölkədən 150-dən çox xarici qonağın, o cümlədən 30-a yaxın ölkənin informasiya agentliyi, 3 beynəlxalq təşkilat və 82 media qurumunun nümayəndələrinin qatıldığı “Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə” mövzusunda təşkil olunan 2-ci Şuşa Qlobal Media Forumu keçirildi. AzərTac həmin forum çərçivəsində “Dezinformasiyaya qarşı daha davamlı cəmiyyət qurmaq üçün siyasət və təşəbbüslər” adlı panel sessiya belə xəbər verirdi ki, “Sessiyada dezinformasiyaya qarşı davamlı cəmiyyətin formalaşdırılması istiqamətində strategiya və təşəbbüslər, dezinformasiya təhdidinin aradan qaldırılması məqsədilə qlobal miqyasda daha davamlı onlayn media ekosisteminin qurulması, dezinformasiyanın yayılmasının müxtəlif media platformaları və növlərindən asılılığı, medianın dezinformasiyanın qarşısının alınmasında necə daha fəal rol oynaya biləcəyi ilə bağlı fikir mübadiləsi aparılmışdır” (6).

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Forumda çıxış edərkən qeyd etmişdir ki:

*“Təəssüflər olsun ki, Azərbaycan haqqında beynəlxalq mediada yayılan məlumatlar həqiqətə uyğun olmur - yəni, faktların manipulyasiyası, yanlış narrativlər. Biz uzun illər ərzində bunun qurbanı olmuşuq, əlbəttə ki, onlardan biri Ermənistan və Azərbaycan arasındakı münaqişə idi və bütün erməni diasporunun səfərbər olması idi. Ermənipərəst siyasətçilər, media nümayəndələri Azərbaycana qarşı hücum edirdilər, Azərbaycan haqqında yanlış narrativlər yayırdılar və Azərbaycanı reallıqdan çox uzaq olan bir şəkildə təqdim edirdilər. Mən xatırlayıram ki, müxtəlif xarici qonaqlarla görüşlərimdə, səmimi söhbətlərdə mütləq hallarda mənə ötürülən mesaj olur ki, biz Azərbaycanın bu dərəcədə inkişaf etmiş ölkə olduğunu gözləmirdik və ona görə də bu narrativlər çox zərərvericidir. Bu, təkcə ölkənin nüfuzunu ləkələmir. Bu, ölkənin biznes potensialını, sərmayə imkanlarını azaldır. Bu, beynəlxalq ictimaiyyətin əsas məsələlərdən diqqətini yayındırır və tamamilə qeyri-realist ssenarilər üzərinə yönəldir”* (4).

O, əlavə etmişdir ki, *“Biz etnik təmizləmənin qurbanı olmuşuq, işğalın qurbanı olmuşuq. Bu hal 30 il davam edib. Ancaq bizi dünyada təcavüzkar kimi təqdim edirdilər və medianın bu məsələni işıqlandırması, siyasi motivlərə söykənən mesajlar və qərarlar nəticəsində biz beynəlxalq sanksiyalara məruz qaldıq. ABŞ 1992-ci ildə Azərbaycana qarşı sanksiyalar tətbiq edibdir. Biz işğalın və təcavüzün qurbanı olmuşuq və o zaman konqresin ermənipərəst nümayəndələrinin səyləri nəticəsində bizə qarşı sanksiyalar tətbiq edildi. Yəni, bu, absurd bir vəziyyətdir ki, humanitar böhrana məruz qalan, bir milyon qaçqını olan, işğal edilmiş əraziləri tamamilə dağıdılan bir ölkə sanksiyalara məruz qalmışdır. O zaman bizim beynəlxalq media şəbəkələrinə o qədər də çıxış imkanımız yox idi. Biz müstəqilliyini yeni bərpa etmiş ölkə idik və biz ciddi səylər göstərməli idik. Bizə elə gəlirdi ki, mesajımızı çatdıra bilmirik. Biz özümüzü günahlandırırdıq, resurslarımızı səfərbər edirdik, beynəlxalq ictimaiyyəti maarifləndirirdik. Daha sonra biz dərk etdik ki, bir çox insanlar, müxtəlif fərdlər bizim mesajları eşitmək istəmir, onlar vəziyyəti tamamilə fərqli şəkildə təqdim etmək istəyir. Ona görə də bu məsələyə yanaşmanın ən yaxşı yolu budur: 30 il müstəqil olan ölkə nə edə bilər? Sizin kimi şəxsləri Bakıya və bölgələrimizə dəvət etmək və bizim nə işlər gördüyümüzü, planlarımızı təqdim etmək, gözləntilərimizi sizə çatdırmaqdır ki, biz dövlət quruculuğunda nələrə nail olmuşuq. Məhz bu, ən səmərəli üsuldur”* (4).

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev II Şuşa Qlobal Media Forumunda çıxışı zamanı bəyan etmişdir ki, *“Dezinformasiya yeni fenomen deyil. İnformasiya çox güclü vasitədir. Lakin onun necə istifadə edildiyi böyük sual altındadır. Ən təhlükəlisi isə odur ki, dezinformasiya manipulyasiyaya və Azərbaycan xalqına qarşı psixoloji müharibəyə çevrilib. Bəzi xarici media orqanları bildirirdi ki, guya biz Ermənistana qarşı cinayət törətmişik, işğala məruz qalan onlardır. Lakin biz ciddi-cəhdlə təkzib vasitələrini işə salmışdıq. Rəsmi bəyanatlar və mətbuat konfransları vasitəsilə düzgün məlumatı və həqiqəti dünyaya çatdırırdıq. Bizim media bu işdə çox böyük rol oynayıb”* (3).

Bu təbliğatın nəticəsi olaraq, Ermənistan cəmiyyətində Azərbaycan ilə bağlı mənfi təsəvvürlər və düşmənçilik hissləri güclənir. Bu isə regionda sülh və sabitliyin təmin olunmasına mane olur. Tədqiqatın nəticələri göstərir ki, bu təbliğatın qarşısının alınması və regionda sülhün bərqərar olması üçün Ermənistan rəhbərlərinin Azərbaycana qarşı siyasətinin dəyişməsi vacibdir.

**Nəticə**

Tədqiqat zamanı aşağıdakı nəticələr əldə edilmişdir:

a) Ermənistanda Azərbaycan və Türkiyə əleyhinə təbliğat müxtəlif vasitələrlə həyata keçirilir;

b) KİV vasitəsilə yayılan xəbərlər və məqalələrdə Azərbaycan və Türkiyə əleyhinə mənfi təsvirlər və ittihamlar geniş yer alır;

c) Akademik əsərlərdə, məktəblərdə tədris olunan dərsliklərdə Azərbaycan və Türkiyə ilə bağlı mənfi düşmən obrazı və tarixi hadisələrin təhrif olunmuş təsvirləri təqdim edilir;

d) Ermənistanın siyasi rəhbərlərinin çıxışlarında və bəyanatlarında Azərbaycan və Türkiyə əleyhinə nifrət nitqindən istifadə olunur ki, bu da ictimai rəyin formalaşmasına təsir edir;

e) Ermənistan tərəfindən Azərbaycana və Türkiyəyə qarşı yürüdülən siyasət İkinci Qarabağ müharibəsindən sonra başlanmış sülh prosesinə mənfi təsir göstərir.

**İstifadə olunmuş ədəbiyyat**

1. Ermənistan-Azərbaycan münaqişəsi https://president.az/az/pages/view/azerbaijan/karabakh

2. Hacıyev Q., Kəlbizadə E., Eyvazov A., İsmayılova T., Əzimzadə A., İmaməli Ş. Ermənistan: daxili sosial-iqtisadi və siyasi şərait. MTM Innovation MMC. 2019.

3. Hikmət Hacıyev: Dezinformasiya Azərbaycan xalqına qarşı psixoloji müharibəyə çevrilib https://azertag.az/xeber/hikmet_haciyev_dezinformasiya_azerbaycan_xalqina_qarsi_psixoloji_muharibeye_chevrilib_video-3106502

4. İlham Əliyev 2-ci Şuşa Qlobal Media Forumunda çıxış edib. 20 iyul 2024 https://president.az/az/articles/view/66533

5. Qasımlı M. Azerbaycan, Ermenistan ve Türkiye: Gerçek tarih arayışı (1920-1994) / Musa Qasımlı; çev.: Ali Asker, Nurlana Qasımlı-Mustafayeva. Ankara: AKDTYK Atatürk Araştırma Merkezi, 2019. S.625.

6. Şuşa Forumunda dezinformasiyaya qarşı daha davamlı cəmiyyət qurmağın yolları müzakirə edilib https://azertag.az/xeber/susa_forumunda_dezinformasiyaya_qarsi_daha_davamli_cemiyyet_qurmagin_yollari_muzakire_edilib-3106662

7. Propaganda. Britannica.- https://www.britannica.com/topic/propaganda#ref23822

8. Propaganda. Oxford English Dictionary - https://www.oed.com/dictionary/propaganda_n?tl=true

9. Propaganda. Cambridge English Dictionary - https://dictionary.cambridge.org/propaganda

10. Çağan, Hazel. “Ermeni kültürü ve ermeni propagandası”. Ermeni Araştırmaları, sy. 46 (Aralık 2013): s.202.

11. Erkış, İ. U., & Summak, M. E. (2014). PROPAGANDA VE DIŞ POLİTİKA. Selçuk Üniversitesi Sosyal Bilimler Meslek Yüksekokulu Dergisi, 14(1-2), s. 299.

12. Zeynep Tekinalp, Yavuz Cankara. “Ermeni Kamu Diplomasisinde Türk Karşıtlığı”, Uluslararası Siyaset Dergisi 2, sayı 1 (2024): s.17-46.

13. Очередная ложь средств массовой информации Армении 23.09.2004 https://azertag.az/ru/xeber/ocherednaya_lozh_sredstv_massovoi_informacii_armenii-634692

14. Минный террор и армянская пропаганда https://caliber.az/post/258228/

15. Пять основных тезисов армянской пропаганды и их разоблачение - https://vzglyad.az/news/179113/news.html

16. Тюрколог о жизни армян в Турции: дома "майрик" на улице "Анэ" https://am.sputniknews.ru/20160421/3081116.html

**Rəyçi: ps.f.d.. dos. Südabə Hüseynova**

**YUBİLEYLƏR**

**UOT 316**
**https://doi.org/10.30546/ifs.2025.1(44).144**

## ZİYƏDDİN GÖYÜŞÖV – 105

## GÖRKƏMLİ FİLOSOF ZİYƏDDİN GÖYÜŞOV HAQQINDA DÜŞÜNCƏLƏRİM...

Mən 1979-cü ildən 2016-cı ilədək AMEA-nın Bəhmənyar adına Fəlsəfə və Hüquq (indiki Fəlsəfə və Sosiologiya) İnstitutunda çalışmışam. 2025-ci ilin fevralından yenidən doğma institutumuza qayıtmışam. Sovetlər dövründə Elmlər Akademiyasında işə başlayarkən Azərbaycan Elmlər Akademiyasının prezidenti Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü, akademik, SSRİ Elmlər Akademiyasının müxbir üzvü Həsən Abdullayev idi. Çox yaxşı kollektivi olan Fəlsəfə və Hüquq İnstitutunun direktoru isə akademik Firudin Köçərli idi. O vaxtlar Elmlər Akademiyasına işə qəbulda ciddi məhdüdiyyətlər olduğundan Firudin müəllim məni əvvəlcə SSRİ Fəlsəfə Cəmiyyətinin Azərbaycan bölməsinin elmi katibi vəzifəsinə qəbul etdi, sonralar isə institutun Tarixi materializm və elmi kommunizm şöbəsinə keçirdi. Rəhmətlik Ziyəddin Göyüşov əvvəlcə Fəlsəfə tarixi şöbəsinin, 1980-ci ildən isə yeni yaradılan Etika şöbəsinin müdiri oldu. Şöbədə istedadlı alimlərdən - hörmətli professor İlham Məmmədzadə (o, 1980-ci ildə 26 yaşında fəlsəfə elmləri namizədi elmi dərəcəsi almış ən gənc filosoflardan biri idi), Nizami Nəcəfov (o, mənim müdafiəmdə rəsmi opponentim oldu), Rəfiqə xanım Əzimova, Nazim Səfərov çalışırdılar. Sonralar Dilarə xanım Muslümzadə, elmi katibimiz Sevinc xanım Həsənova, Mehriban xanım Səfərova, Xatirə xanım Quliyeva, Şəhla xanım Musayeva, Fəxriyyə xanım Məmmədzadə və başqaları çalışırdılar.

Mən 1981-1985-ci illərdə istehsalatdan ayrılmamaqla, 09.00.05. – Marksist-leninçi etika ixtisası üzrə Fəlsəfə və Hüquq İnstitutunun aspiranturasına daxil oldum.

Fəlsəfə elmləri doktoru, professor, Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü Ziyəddin müəllim Göyüşov mənə elmi rəhbər təyin edildi. Dissertasiya mövzumda dəyişiklik edildi. Əvvəlcə mövzumun adı “Markist-leninçi etikada əxlaqi hisslərin strukturu” idi. Məsləhətləşmələrdən sonra mənə başqa mövzu verildi. Onun adı belə oldu: “Əxlaqi ideal və onun Azərbaycan şifahi xalq yaradıcılığında təcəssümü”. Bu mövzu Ziyəddin müəllimə çox yaxşı və doğma mövzu idi. Belə ki, o 1968-ci ildə nəşr olunan rus dilində yazdığı 564 səhifəlik “Azərbaycanda etik fikir” adlı fundamental əsərində Azərbaycan folklorunda mənəvi etik ideyaları Azərbaycanda etik fikrin inkişafını təşəkkülünün mənbələrindən biri kimi araşdırmışdır. Z.Göyüşov digər kitablarında da yeri gəldikcə Azərbaycan folkloru nümünələrindən geniş istifadə edirdi. Sonralar namizədlik minimun imtahanı verərkən rəhmətlik Əmrəli İsmayılov mənim mövzumun marksizm fəlsəfəsinə aiddiyyatı olmadığını bildirdi. Mənə: *“Bu mövzu ilə sən marksist filosof ola bilməzsən!”* – dedi. Mən ona dedim: *“Müəllim, mən marksist filosof olmağı heç qarşıma məqsəd qoymamışam”*. Bu sözlər Əmrəli müəllimi bərk qəzəbləndirdi. Sonra o, mənə bir sual da verdi: *“Yaxşı, de görüm, “Kapital”ı oxuyubsanmı?”* Mən onsuz da kəsiləcəyimi bildiyimdən ona belə bir cavab verdim: *“Müəllim, “Kapital”ı oxumaq yox, yığmaq lazımdır”*. Əmrəli müəllim mənə qeyri-kafi yazdı və: *“Kapitalı yığandan sonra gələrsən”* – dedi. Mən bütün bunlar haqqında ictimai-fəlsəfi qəzet olan “İdrak” qəzetinin 1993-cü il tarixli 3-cü sayında “İstər inanın, istərsə də inanmayın!” rubrikasında imzasız yazmışam.

Z.Göyüşov konfranslarda aspirantların bütün çıxışlarını diqqətlə izləyirdi. O, konfranslarda fəlsəfə tarixi və etika bölmələrinə sədrlik edir, çıxışlara öz münasibətini bildirir, yaxşı cəhətləri təqdir, çatışmazlıqları tənqid edir, olduqca xeyirxah, əhəmiyyətli tövsiyələr verirdi. Onun aspirantlarından biri ADU-nun (indiki BDU-nun) Şərqşünaslıq fakültəsini ərəb dili ixtisası üzrə bitirmişdi. Konfransların birində həmin aspirant öz mövzusu ilə bağlı çıxışı zamanı danışarkən sanki ərəb mətnini ərəb tələffüzü ilə təqdim etdi. Ziyəddin müəllim hirslə onun çıxışını kəsib: “Hoqqabazlıq eləmə! Adam balası kimi danış!” - dedi.

Z.Göyüşov elmdə mücərrədçilikdən uzaq olan alim idi. O, bizdən öz aspirantlarından da elmi cəhətdən dərin, ancaq hamının başa düşdüyü sadə dildə yazmağı tələb edirdi. Məhz bu səbəbdən də onun etikaya, fəlsəfəyə, fəlsəfə tarixinə aid yazdığı kitablar bütün Azərbaycan xalqının sevə-sevə və maraqla oxuduğu stolüstü kitablardan idi.

Z.Göyüşov şöbədə tezislərdən tutulmuş elmi-tədqiqat işlərini, məqalələri, kitabları müzakirədən keçirməmiş çapına icazə vermirdi. Mən başqa şöbədə işləsəm də aspirant kimi etika şöbəsində keçirilən elmi müzakirələrdə müşahidəci kimi yaxından iştirak edirdim.

Ziyəddin müəllim sadə, təvazökar, alicənab, mehriban, zarafatcıl, gülərüz insan idi. O, necə deyərlər, böyüklə böyük, kiçiklə kiçik kimi davranırdı. Görkəmli alimin “Əxlaqi sərvətlər” kitabında tədqiq etdiyi ümumbəşəri dəyərlərin çox hissəsi sanki özünün daxili mədəniyyətinin göstəricisi idi. O, həyatda və bütün işlərində ədalətli idi. Hər hansı məsələni düzgün, ədalətli həll etməyə çalışırdı.

Ziyəddin Göyüşov həyatda mülayim, mehriban olsa da, elmi müzakirələrdə ciddi, obyektiv, tələbkar və prinsipial idi. Prinsipiallıq onun bir şəxsiyyət kimi əsas mənəvi keyfiyyətlərindən biri idi. Onun prinsipiallığı, özü demiş, “əxlaqi borcla, ədalətlə, vicdanla, təraf və ləyaqətlə üzvi sürətdə bağlı” idi. Z.Göyüşov “Əxlaqi sərvətlər” kitabının 212-ci səhifəsində göstərirdi ki, *“prinsipiallıq tolerantlıqla yanaşı, sadə əxlaq norması olmaqla bərabər, həm də heç şübhəsiz, mühüm əxlaqi sərvətdir”.*[1]

Yadımdadır, şöbədə müzakirə olunan elmi-tədqiqat işlərindən biri ciddi tənqid olundu. Ziyəddin müəllim göstərilən qeydlərə özünün də tövsiyələrini əlavə edərək onun yenidən işlənməsini bildirdi. Həmin şəxs az qaldı ki, ağlasın. Ancaq Ziyəddin müəllim dediyindən dönmədi.

Ziyəddin Göyüşov sovet dövrünün ən görkəmli filosoflarından idi. Düzdur, o, zahirən sovet elminin sinfi-ideoloji tələblərindən kənara çıxmırdı: əsərlərində marksizm-leninizm banilərinin fikirlərinə istinad edir, feodalizm, kapitalizm, burjua cəmiyyətlərini və əxlaqını tənqid edir, sosializmi, kommunist əxlaqını təriflәyirdi. 1961-ci ildə onun “Burjua əxlaqının böhranı” adlı kitabı çapdan çıxmışdır. Lakin o, sovet alimindən daha çox, milli Azərbaycan filosofu idi. Çünki o, XI-XVIII əsrlərin Azərbaycan mütəfəkkirlərinin, eləcə də XIX-XX əsrlərin filosoflarından Mirzə Şəfi Vazeh, A.Bakıxanov, Mirzə Kazımbəy, M.F.Axundzadə, H.B.Zərdabi, S.Ə.Şirvani, Sidqinin, Şimali və Cənubi Azərbaycan maarifçilərinin etik görüşlərini araşdırmışdır. Z.Göyüşovun “Əxlaqi sərvətlər”, “Həzz və iztirab”, “Daxilə pəncərə (özünütərbiyə), “Fəzilət və qəbahət” əsərləri hamımızın sevə-sevə oxuduğumuz, bəhrələndiyimiz kitablardan idi. Görkəmli alimin 1979-cu ildə rus dilində çap etdirdiyi kitablardan biri də “Sovet Azərbaycanında fəlsəfi fikir. Qısa oçerk” kitabı idi. Kitabda XX əsrin əvvəllərindən 70-ci illərin sonlarınadək Azərbaycan filosoflarının tarixi materializmə dair əsərlərindən, Azərbaycanda fəlsəfi müəssisələrin və fəlsəfi kadrların yaradılması və inkişaf etdirilməsindən, Heydər Hüseynovun, Əhməd Zəkuyevin, Mehbalı Qasımovun, Aleksandr Makovelskinin, Vahid Kərimovun, Həsən Şirəliyevin, Adil Həsənovun, Firudin Köçərlinin, Fuad Qasımzadənin, Zümrüd Quluzadənin, Adil Həsənovun, Əddin Şakirzadənin, Əmin Əhmədovun, Vəli Nəsirovun, Əfrand Daşdəmirovun, Həmid İmanovun, Əmrəli İsmayılovun, Tofiq Rəsulovun və başqalarının əsərlərindən, fəlsəfə tarixinə, estetika və etikaya elmi ateizmə aid məsələlərin araşdırılmasından bəhs edilir.

Z.Göyüşovun ən fundamental əsərlərindən biri də rus dilində 1963-cü ildə çap olunan “Həsən bəy Zərdabinin dünyagörüşü” əsəri idi. Bu əsər və ümumiyyətlə, maarifçilik fəlsəfəsi haqqında hörmətli professorumuz İlham Məmmədzadənin Zemfira xanım Göyüşova ilə birlikdə rus dilində 2014-cü ildə çap olunmuş “Modern, Həsən bəy Zərdabinin maarifçilik ideyaları və maarifçilik fəlsəfəsi” adlı möhtəşəm əsərdə geniş, hərtərəfli bəhs edilmişdir. Mən isə bir faktı nəzərinizə çatdırmaq istəyirəm. Məlum olduğu kimi, Həsən bəy Zərdabinin oğlu Səfvət bəy Məlik-Zərdabi AXC quruculuğunda iştirak etmişdir. Onun bacısı Pəri xanım Ə.Topçubaşovun həyat yoldaşı olub. O, İstanbulda konsulluqda çalışmış, Avropada memarlıq fakültəsində təhsil almış, mühacir tədqiqatçılarından olmuşdur. O, 1927-ci ildən Türkiyədə yaşamışdır.

1960-cı illərdə SSRİ və Türkiyə arasında münasibətlər yaxşılaşdığından görkəmli və vətənpərvər ədəbiyyatşünas alimlərdən biri olan Abbas Zamanov Səfvət bəyi tapıb, hətta onu vətənə

[1] Göyüşov Z. Əxlaqi sərvətlər. (Populyar oçerk). Bakı: Azərnəşr, 1966, s.212.

dəvət etmişdir. Səfvət bəy Məlik-Zərdabi Türkiyənin məşhur memarlarından biri kimi tanınmışdır. Görkəmli filosofumuz Ziyəddin Göyüşov 1970-ci ildə Türkiyəyə səfəri zamanı Səfvət bəylə görüşmüşdür. Atasının tədqiqatçısı, professor Z.Göyüşova dərin hörmət və ehtiram bəsləyən Səfvət bəy vətən həsrəti çəkirdi.

Mən Ziyəddin müəllimi son dəfə Azərbaycan SSR Səhiyyə Nazirliyinin Dordüncü Baş İdarəsinin 1 saylı xəstəxanasında (indiki Mərkəzi Klinik xəstəxanasında) xəstə yatarkən ziyarət etdim. O, mənimlə söhbətində “Dünyanın ən böyük sərvəti can sağlığıdır” – dedi. Mən ona: “Ziyəddin müəllim, Allah qoysa, sağalıb yenə institutumuza qayıdar, bizə böyüklük, ağsaqqallıq, rəhbərlik etməyi davam etdirərsiniz!” – dedim. Təəssüf ki, vaxtsız, amansız ölüm böyük və dəyərli şəxsiyyət, görkəmli alim Ziyəddin Göyüşovun mənalı həyatına son qoydu. Onun ölümü Azərbaycanın elmi ictimaiyyəti və xalqımız üçün ağır itki oldu. Allah ona rəhmət eləsin, məkanı cənnət olsun!

Biz əminik ki, Ziyəddin müəllimin ruhu şaddır. Çünki Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərlik etdiyi qəhrəman Ordumuz onun anadan olduğu, boya-başa çatdığı torpaq da daxil olmaqla, bütün ərazilərimizi erməni işğalından azad etmiş, suverenliyimiz bərpa olunmuşdur.

Bir də təklifim budur ki, Ziyəddin Göyüşovun 105 illiyinə həsr olunmuş çıxışlar bir toplu və ya xüsusi buraxılış şəklində çap olunsun, gələcək nəsillərə çatdırılsın.

**Vahid Ömərov**
**AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun Enerji təhlükəsizliyi siyasəti və gürcüstanşünaslıq şöbəsinin aparıcı elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent**

**Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlər qarşısında məqalələrin qəbulu ilə bağlı qoyduğu tələblər**

Məqalələr Azərbaycan, rus,türk və ingilis dillərində çap olunmuş şəkildə və elektron variantda təqdim olunmalıdır. Məqalənin yazıldığı dildən əlavə digər 2 dildə xülasəsi verilməlidir. Məqalələrin həcminin 10-12 səhifə, xülasələrin 15-18 sətir olması tövsiyə olunur.

Məqalələrin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni və məqalənin məzmununa uyğun olmalıdır. Xülasələr elmi və qrammatik baxımdan ciddi redaktə olunur.

Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı ya əlifba ardıcıllığı ilə yaxud istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməli və məsələn, (1) və ya (1, s.119) kimi işarə olunmalıdır. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

Məqalələrin mətnləri Azərbaycan dilində latın əlifbası, rus dilində kiril əlifbası və ingilis dilində ingilis (ABŞ) əlifbası ilə Times New Roman – 12 şrift ilə 1intervalla yığılmalıdır.

Məqalələr antiplagiat proqramı ilə yoxlanıldıqdan, rəyçilərin gizli rəyindən sonra sahə redaktoru və ya redaksiya heyətinin mütəxəssis üzvlərindən biri tərəfindən çapa təqdim olunur.

Hər bir məqalədə UOT indekslər və ya PACS tipli kodlar və açar sözlər göstərilməlidir. Açar sözlər üç dildə verilməlidir.

Məqalələrdə müəllif(lər)in adı və soyadı, işlədiyi müəssisə və onun ünvanı, elmi dərəcəsi və elmi adı (əgər varsa), müəllifin elektron poçt ünvanı göstərilməlidir.

Məqalələrin sonundakı ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalar və s. istinadlara üstünlük verilməlidir.

Jurnalda müvafiq elm sahəsində qabaqcıl olan dünya ölkələrindən daxil olan məqalələrin çapına da yer verilir.

Jurnal yalnız öz profilinə uyğun məqalələri dərc edir.

---

Yuxarıda göstərilən şərtlərə uyğun olmayan məqalələr redaksiya heyəti tərəfindən qəbul edilmir.

## Требования Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики к научным изданиям при приеме статей, отражающих основное содержание диссертации

Статьи должны быть представлены на азербайджанском, русском, английском языках в напечатанном виде и электронном варианте. К статье, написанной на одном языке, должны быть даны резюме на трех языках. Рекомендуется представлять статьи объемом 10-12 страниц, а резюме 15-18 строчек.

Резюме к статьям на различных языках должны быть идентичные и соответствовать содержанию статьи. Статьи должны быть тщательно отредактированы с научной и грамматической точки зрения.

Должны быть ссылки на научные источники, связанные с темой. Список литературы, приведенный в конце статьи, должен быть дан в алфавитном порядке или пронумерован в порядке встречающейся в тексте ссылки на литературу, как, например, (1) или (1, с.119). Если в статье встречаются повторные ссылки на одну и ту же литературу, тогда эта литература должна быть дана под предыдущим номером.

Статья должна быть обсуждена на кафедре или в отделе, где работает автор, а выписка из протокола собрания должна быть представлена редакции.

Текст статей на азербайджанском языке должен быть дан латинским алфавитом, на русском языке – кириллицей, на английском языке – английским алфавитом (США), Times New Roman – 12 шрифтом, 1интервала.

Статьи могут быть представлены к печати после получения тайного отзыва со стороны отраслевого редактора или специалиста из членов Редакционного совета.

В конце статьи автор должен сказать о цели, методологии, научной новизне работы, ее прикладном значении и экономической пользе, соответствующей характеру статьи.

В каждой статье должны быть даны индексы типа УДК и PACS, а также ключевые слова на трех языках.

В статье должны быть указаны имя и фамилия автора, его место работы, адрес и электронная почта.

В списке литературы предпочтение должно быть дано ссылкам из статей, монографий и т.д., написанных за последние 5-10 лет.

В журнале помещаются статьи, поступающие из разных стран мира с развитой наукой.

Журнал печатает статьи, соответствующие его профилю.

---

Статьи, не отвечающие вышеизложенным требованиям, не принимаются редакционным советом.

**Requirements of the Supreme Attestation Commission under the Azerbaijan Republic President to be fulfilled at acceptance of the articles comprising the basic conclusions of the theses by the scientific editions recommended for publication**

Articles should be submitted in Azerbaijani, Russian, English languages in printed form and electronic version. In addition to the article written in one language, three summaries of it in other languages are to be presented. It is recommended to present 10–12-page articles and summary in 15-18 lines.

Summaries to articles in different languages should be identical and in conformity with the contents of the article. The articles should be carefully edited from the scientific and grammar point of view.

There should be references to the scientific sources connected to the theme. Literature list cited at the end of the article is to be given either alphabetically or numbered in order of reference to literature met in the text, as for instance (1) or (1, p.119). If in the article there are met the repeated references to one and the same literature, this literature should be given under the previous number.

Article is to be discussed in a chair or department where the author works, an extract from the minutes is to be submitted to the editorial board.

Text of the articles in Azerbaijani should be typed by Latin alphabet, in Russian – by Cyrillic alphabet, in English – by English alphabet (USA), Times New Roman – 12 font, 1 line spaced.

Articles may be submitted to the press after receiving the secret reference on the side of the branch editor or an expert from the members of the editorial staff.

In conclusion of the article the scientific innovation of the work, importance of applying, economic advantage corresponding to the scientific field and character of the work should be clearly indicated.

In every article the indices of UDC and PACS type, as well the keywords in three languages should be indicated.

In article an author's name, surname, his work and home addresses and e-mail are to be indicated.

In Literature List the preference should be given to references from the articles, monographs and oth. written for last 5-10 years.

In the journal there is a room for the articles coming in from the different countries of the world with advanced science.

The journal publishes only those articles which are in conformity with its profile.

---

Articles not meeting the above mentioned requirements are not accepted by the editorial board.

**ELMİ ƏSƏRLƏR**
**Beynəlxalq elmi-nəzəri jurnal**
**№ 1 (44) 2025**

**Redaktorlar:**
Rahilə Həsənova
Elnarə Əliyeva
Hafizə İmanova

**Kompüter tərtibatı və dizayn:**
Səbinə Mustafazadə

**Texniki redaktor:**
Adil Həşimov

**SCIENTIFIC WORKS**
**The international scientific and theoretical journal**
**№ 1 (44) 2025**

**Editors:**
Rahila Hasanova
Elnara Aliyeva
Hafiza İmanova

**Printing and design:**
Sabina Mustafazade

**Technical editor:**
Adil Hashimov

Yığılmağa verilmişdir: 06.06. 2025
Çapa imzalanmışdır: 25.06.2025
Kağız formatı: 60x84 16/1.
Çap vərəqi: 10,9. Tirajı 200.
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun Redaksiya-Nəşriyyat şöbəsində nəşr olunmuşdur. Şöbə müdiri: fəlsəfə doktoru Adil Həşimov
Tel:(050)337-74-33.Ünvan: H.Cavid pr-ti 117.
Tel.: (99412) 539-28-74
E-mail: elmieserler@gmail.com

Submitted to collection: 06.06.2025
Sent to the press: 25.06.2025
Paper format: 60x84 16/1
Print sheet: 10,9. Copies: 200
Published in the Editorial-Publishing department of IPS of ANAS, department chief: doctor of philosophy Adil Hashimov
Phone: (050) 337-74-33. Address: H.Javid ave.117.
Phone: (99412) 539-28-74
E-mail: elmieserler@gmail.com